İLHAM
ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

## DÖRDÜNCÜ KİTAB

## APREL 2004 - İYUN 2004

AZƏRNƏŞR
BAKI - 2009

# İLHAM
# ƏLİYEV

**ÇIXIŞLAR * NİTQLƏR**

**BƏYANATLAR * MÜSAHİBƏLƏR**

**MƏKTUBLAR * MƏRUZƏLƏR**

**MÜRACİƏTLƏR * FƏRMANLAR**

AZƏRNƏŞR
BAKI - 2009

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2009, 400 səh.

Azərbaycan Respublikasının prezidenti İlham Heydər oğlu Əliyevin oxuculara təqdim olunan çoxcildliyinin bu cildində Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni həyatının bir çox sahələrinə, eyni zamanda regionların sosial-iqtisadi inkişafı və tərəqqisi naminə dövlət proqramının yerinə yetirilməsinə həsr olunmuş çıxışları və digər materiallar toplanmışdır.

Kitabda İlham Əliyevin Polşaya, Belçika Krallığına rəsmi səfərləri zamanı tanınmış dövlət xadimləri ilə keçirdiyi görüşləri, çıxışları, Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasındakı nitqi, Azərbaycanın milli mənafeini əks etdirən danışıqları, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri, bəyanatları öz əksini tapmışdır.

Bu cilddə, həmçinin Azərbaycan ilə Ukrayna və Azərbaycan ilə Gürcüstan arasında bütün sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında imzalanmış sənədlər, dünyanın görkəmli dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatlara, məşhur şəxsiyyətlərə məktubları da dərc olunmuşdur.

**İSBN 978-9952-8100-7-3**

$Ə\frac{0801000000}{M-651(07)-2009}$ **BBK-32**

© Azərnəşr, 2009

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN**
**BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN**
**ALİ MÜKAFATINA LAYİQ GÖRÜLMƏSİ**

*19 aprel 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Prezident sarayında Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Vitali Smirnovu və Rusiya Olimpiya Komitəsinin baş katibi Leonid Miroşniçenkonu qəbul etmişdir.*

*Ölkəmizə yenidən, 40-cı dəfə səfər etməsindən məmnunluğunu bildirən Vitali Smirnov prezident İlham Əliyevi dövlət başçısı seçilməsi və Beynəlxalq Olimpiya Komitəsinin ali mükafatı – «Olimpiya ordeni» ilə təltif olunması münasibətilə təbrik etdi.*

**V i t a l i S m i r n o v:** Mən bu ordenlə təltif olunmağınızla bağlı iclasda iştirak etmişəm. Bu iclasda Beynəlxalq Olimpiya Komitəsinin prezidenti və dörd vitse-prezidenti iştirak edirdi. Onlar bu qərarı yekdilliklə qəbul edərək Sizin ölkənizdə idmanın inkişafı və yüksəlişinə verdiyiniz şəxsi töhfələri xüsusi qeyd etdilər. Böyük məmnunluqla vurğulandı ki, Siz ölkə prezidenti olduqdan sonra da Olimpiya Komitəsinin prezidenti vəzifəsində də qalmısınız. Bu, dövlətin başçısı kimi Sizin bədən tərbiyəsi, idman və olimpiya hərəkatının inkişafına, sağlam və möhkəm gənclərin tərbiyəsinə necə böyük bir diqqət yetirdiyinizi bir daha göstərir. Mən Beynəlxalq Olimpiya Komitəsinin bu qərarı ilə və onu yerinə yetirməyimlə fəxr edirəm. Biz, habelə Sizinlə dostluğumuz və ölkənizin idman təşkilatları ilə əlaqələrimizlə də fəxr edirik.

«Olimpiya hərəkatı çox incə bir hərəkatdır və Sizin kimi təcrübəli rəhbərlərin onu dəstəkləməsinin böyük əhəmiyyəti var».

**İ l h a m Ə l i y e v:** Yüksək mükafata görə Beynəlxalq Olimpiya Komitəsinin rəhbərliyinə təşəkkürümü bildirirəm. Olimpiya hərəkatındakı fəaliyyətim həyatımı ən əziz bir hissəsi olmuşdur.

Mən prezident seçildikdən sonra Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsində qaldım və bu vəzifəni gələcəkdə də saxlayacağam. Siz idmanın hər bir ölkənin həyatında mühüm rolunu qeyd etdiniz. Mən bununla razıyam. Bir daha mənim fəaliyyətimə verilmiş bu yüksək qiymətə görə təşəkkürümü bildirirəm.

## BAKIDA «ABU ARENA» İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*19 aprel 2004-cü il*

Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti hörmətli cənab Vitali Smirnov!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Bu gün mənə Beynəlxalq Olimpiya Komitəsinin ən yüksək ordeni təqdim edilibdir. Buna görə, mən istəyirəm ki, ilk növbədə, Beynəlxalq Olimpiya Komitəsinə, onun rəhbərliyinə – Beynəlxalq Olimpiya Komitəsinin prezidenti cənab Jak Roqqa, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti cənab Vitali Smirnova öz dərin minnətdarlığımı və təşəkkürümü bildirim.

Eyni zamanda bu gün Azərbaycanın idman həyatında çox mühüm, çox önəmli bir gündür. Bu gün Azərbaycanda yeni idman qurğusu, müasir idman kompleksi açılır və istismara verilir. Bu da məni çox sevindirir. Mən belə kompleksləri görəndə çox sevinirəm. Çox şadam ki, Azərbaycanda son illər ərzində idmanın inkişafı istiqamətində böyük işlər görülübdür. Bakıda və Azərbaycanın digər bölgələrində, müasir, gözəl, bütün dünya standartlarına cavab verən idman kompleksləri açılıbdır.

Çox şadam ki, artıq federasiyalar da komplekslərin yaradılması ilə məşğul olurlar və belə komplekslər açılır, istifadəyə verilir. Deyə bilərəm ki, bu göstəriciyə görə Azərbaycan, bəlkə də dünyada ön sıralardadır. Son dörd il ərzində Azərbaycanda 10-dan artıq idman kompleksi açılıbdır. Bu gün də həndbol üçün nəzərdə tutulmuş kompleks öz qapılarını açır.

Azərbaycanda idman çox yüksək səviyyədədir, çox yüksək sürətlə inkişaf edir. İdmançılarımız müxtəlif yarışlarda – dünya və Avropa çempionatlarında, olimpiya oyunlarında yüksək nəticə göstərərək vətənimizi ləyaqətlə təmsil edirlər. Eyni zamanda Azərbaycanda da beynəlxalq yarışların keçirilməsi artıq ənənəyə çevrilibdir. Son illər ərzində Azərbaycanda dünya, Avropa çempionatları, dünya kubokları yarışları keçirilibdir. Bundan əlavə, Azərbaycanda olimpiya lisenziya turnirlərinin keçirilməsi nəzərdə tutulmuşdu. Artıq onlardan ikisi keçirilmiş, biri isə, boks üzrə turnir bu yaxınlarda keçiriləcəkdir. Bu, bir daha göstərir ki, beynəlxalq idman ictimaiyyətinin Azərbaycana münasibəti çox müsbətdir, çox yüksək səviyyədədir. Desəm ki, biz bu münasibəti qazanmışıq, səhv etmərəm. Ardıcıl, məqsədyönlü, fədakar işimizlə, idmançılarımızın qazandıqları uğurlarla Azərbaycan, demək olar ki, idman ölkəsinə çevrilibdir.

Amma, eyni zamanda, Azərbaycan Olimpiya Komitəsinin prezidenti kimi məni sevindirən bir məqam da var. Bu da idmanın kütləviliyidir. Bu, Azərbaycanda artıq çox geniş vüsət alıbdır. İdmanla məşğul olmaq istəyən uşaqlarımızın, yeniyetmələrimizin sayı günü-gündən artır. Bu o deməkdir ki, Azərbaycanda gözəl, fiziki cəhətdən sağlam yeni nəsil yetişir. İdmanla məşğul olan uşaqlar artıq xoşagəlməz hallara yol verməzlər. Onlar idman bölmələrində tərbiyə olunurlar. Fiziki cəhətdən də, mənəvi cəhətdən də güclənirlər. Bu, bizə, ölkəmizə imkan verəcək ki, Azərbaycanın gələcək nəsli də mənəvi və fiziki cəhətdən sağlam olsun.

Azərbaycan olimpiya oyunlarına hazırlaşır. Bir neçə aydan sonra Afinada olimpiya oyunları keçiriləcəkdir. Deyə bilərəm ki, hazırlıq işləri uğurla davam edir. Hər şey plan üzrə gedir. Əgər yadınızdadırsa, Sidney olimpiya oyunlarından sonra Azərbaycan Milli Olimpiya Komitəsinin ilk iclasında mən dedim ki, Afinaya cəmi 4 il qalır. Bu 4 il, görün, necə tez keçdi. Artıq olimpiya oyunlarına üç ay vaxt qalır. Mən əminəm ki, Sidneydə qazandığımız uğurlar Afinada da təkrarlanacaqdır. Azərbaycan idmançıları doğma vətənimizi ləyaqətlə təmsil edəcəklər və vətənə qələbə ilə qayıdacaqlar.

Hörmətli Vitali Georgiyeviç, eşidirəm ki, bizim nazir sizə tərcümə edir. İstərdim, siz ilk mənbədən də eşidəsiniz. Ölkəmizə gəldiyinizə və bu gün bizimlə birlikdə olduğunuza, bu ordeni mənə təqdim etdiyinizə görə, habelə Azərbaycan Həndbol Federasiyasının təşəbbüsü ilə tikilmiş bu gözəl idman kompleksinin açılışında iştirakınıza görə sizə çox təşəkkür edirəm. Siz Azərbaycanın – Azərbaycan idmanının və ümumən, Azərbaycanın böyük dostusunuz. Siz ölkəmizdə dəfələrlə olmusunuz və hər gəlişiniz bizi – dostlarınızı sevindirir, hamı Sizi sevir.

Mən Rusiya Federasiyasının Olimpiya Komitəsinə başçılıq etdiyiniz vaxtları xatırlayıram. Biz çox fəal əməkdaşlıq edirdik. İndi Siz Beynəlxalq Olimpiya Komitəsinin əsas rəhbərlərindən birisiniz. Azərbaycanda idmanın, olimpizmin inkişafı işinə çox böyük töhfə verirsiniz. Biz sizin fəaliyyətinizi yüksək qiymətləndiririk.

Mənim üçün ikiqat xoşdur ki, Beynəlxalq Olimpiya Komitəsinin bu yüksək mükafatını mənə məhz Siz təqdim etdiniz. Bu gün bu salonda olan bütün dostlarınız adından Sizə fəaliyyətinizdə uğurlar arzulamaq, Azərbaycana səmimi münasibətə görə təşəkkürümü bildirmək istəyirəm. Ümidvaram ki, Bakıda da, başqa yerlərdə də görüşlərimiz davam edəcəkdir.

Əziz dostlar!

Mən bu gözəl idman kompleksinin açılışı münasibətilə bir daha sizin hamınızı ürəkdən təbrik edirəm, hamınıza cansağlığı və səadət arzulayıram. Sağ olun.

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MOŞE KATSAVA**

Hörmətli cənab Prezident!

İsrail dövlətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə İsrail dövləti arasındakı münasibətlərin inkişafı daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsrail xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 aprel 2004-cü il*

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ**

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında münasibətlərin genişlənməsi üçün qarşılıqlı səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Cənubi Afrika Respublikasının dost xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 aprel 2004-cü il*

**NİDERLANDIN KRALİÇASI**
**ÜLYAHƏZRƏT BEATRİKSƏ**

Ülyahəzrət!

Niderland Krallığının milli bayramı – təvəllüd gününüz münasibətilə sizi və sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Niderland arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Niderland xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 aprel 2004-cü il*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün Polşa xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Polşa münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli genişlənməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *23 aprel 2004-cü il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Slovakiya münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Slovakiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 aprel 2004-cü il*

**AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HAYNTS FİŞERƏ**

Hörmətli cənab Prezident!

Avstriya Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Avstriya arasında əlaqələrin hərtərəfli genişlənməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, ikitərəfli münasibətlərimiz xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Avstriya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 aprel 2004-cü il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VARŞAVAYA SƏFƏRİ

*27 aprel 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Avropa iqtisadi sammitində iştirak etmək üçün Polşa Respublikasının paytaxtı Varşavaya gəlmişdi.*

*Azərbaycanın və Polşanın dövlət bayraqları ilə bəzədilmiş «Okeciye» hava limanında respublikamızın rəhbərinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Polşa hökumətinin yüksək vəzifəli rəsmi şəxsləri səmimiyyətlə qarşıladılar.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha – «Şeraton» mehmanxanasına gəlmişdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİ İLƏ GÖRÜŞÜ

*27 aprel 2004-cü il*

*Polşa dövləti başçısının sarayında Azərbaycan prezidenti İlham Əliyev ilə Polşa prezidenti Aleksandr Kvasnevski arasında görüş oldu.*

*Prezident İlham Əliyevlə görüşdən məmnun qaldığını söyləyən cənab Aleksandr Kvasnevski aprelin 28-də işə başlayacaq Avropa iqtisadi sammitində respublikamızın rəhbərinin iştirakını Azərbaycanın Avropa Birliyinə inteqrasiyası baxımından mühüm hadisə kimi qiymətləndirdi. Polşa rəhbəri ölkəsinin bu quruma üzvlük məsələsinin gələn ilin mayında müzakirə olunacağını bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda gedən demokratikləşmə prosesindən, ölkəmizin Avropa strukturlarına inteqrasiyasından, respublikamızda həyata keçirilən və təkcə region üçün deyil, həm də ümumən Avropadan ötrü böyük əhəmiyyəti olan irimiqyaslı layihələrdən ətraflı söhbət açdı. Dövlətimizin başçısı vurğuladı ki, bu layihələr başa çatdırıldıqdan sonra Azərbaycandan neftin və təbii qazın Avropa ölkələrinə çatdırılması üçün geniş imkanlar yaranacaqdır.*

*Söhbət zamanı Azərbaycan–Polşa iqtisadi əməkdaşlığının perspektivləri, genişlənən Avropada hər iki ölkənin yeri və bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.*

## AVROPA İQTİSADİ SAMMİTİNDƏ* NİTQ

*Varşava,*
*«Sofitel Viktoria» mehmanxanası*

*28 aprel 2004-cü il*

Əziz xanımlar və cənablar!

Hər şeydən əvvəl, dəvətə görə təşkilatçılara minnətdarlığımı bildirmək istəyirəm ki, mənə bu forumda iştirak etmək imkanı veriblər. Azərbaycanın region üçün əhəmiyyət kəsb edən və dünya üçün də əhəmiyyətli hesab olunan irimiqyaslı layihələri həyata keçirmək sahəsində təcrübəsi, özü də müsbət təcrübəsi vardır. Baxmayaraq ki, Azərbaycan müstəqil dövlət kimi gəncdir, müstəqilliyini yalnız 1991-ci ildə, Sovet İttifaqının dağılmasından sonra əldə edib və bu müddət ərzində çoxsaylı problemlərlə üzləşibdir. Bu problemdən ən əsası Azərbaycan ərazilərinin 20 faizinin Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunması və bu işğalın hələ də davam etməsi, bunun nəticəsi kimi ölkəmizdə 1 milyon qaçqının olmasıdır.

Buna baxmayaraq, Azərbaycan xarici sərmayəçiləri ölkəyə də cəlb edə bildi. Bu da xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması nəticəsində mümkün olmuşdur. Ölkəmizdə sərmayə mühiti çox əlverişlidir. Xarici sərmayələr yaxşı qorunur və bu da bugünkü gündə dünyada ən iri enerji layihəsinin Azərbaycanda həyata keçirilməsinə imkan vermişdir. Neft və qaz kəmərlərinin inşası, Xəzərin neft və qaz ehtiyatlarının, dənizin Azərbaycan sektorundakı ehtiyatların işlənilməsi bu gün dünyada həyata keçirilən ən böyük enerji layihələridir.

Bu layihələr çox uğurla həyata keçirilir. Bunun bir neçə səbəbi var. Birincisi, qeyd etdiyim kimi, yaxşı sərmayə mühitidir, sərmayəçilərin arxayınlığıdır. Sonra yerli və xarici işçi heyətinin peşəkarlığıdır. Xarici sərmayəçilərlə yerli rəsmilər arasındakı işgüzar əməkdaşlığın yaranmasıdır. Layihələrin həyata keçirilməsinin əsas elementi olan şəffaflıqdır. Azərbaycanın neft və qaz sahələrindəki bütün fəaliyyəti olduqca açıq və şəffaf tərzdə həyata keçirilir. Biz hasilat sənayelərində şəffaflıq təşəbbüsünün fəal iştirakçısıyıq. Azərbaycanda neft sənayesindən alınan bütün gəlirlərin Neft Fonduna yığılması bu şəffaflığın göstəricisidir. Nəhayət, ölkədəki ictimai-siyasi sabitlikdir. Çünki sərmayəçilər şəraitin sabitliyinə əmin olmadan, iqtisadiyyatın artımını görmədən, ölkənin demokratik istiqamətdə hərəkətini hiss etmədən milyardlarla dollarını heç zaman risk altına qoymazlar.

Dediyim kimi, olduqca çətin vaxtlarımız olubdur. Qeyri-sabitlik dövrü var idi. Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü isə bütün region üçün təhlükədir. Gələn il yaxın keçmişimizin ən böyük layihəsini başa çatdıracağıq. Bakı–Tbilisi–Ceyhan kəməri işə düşəcəkdir. Bu layihə nəinki Azərbaycan və qonşu ölkələr üçün xeyirlidir, onların iqtisadiyyatını şaxələndirməyə kömək edəcək, həm də regional təhlükəsizlik baxımından böyük əhəmiyyət kəsb edir, region Avropa üçün böyük əhəmiyyətə malikdir, dünya üçün əhəmiyyətlidir. Ona görə də regionun təhlükəsizliyi dünya bazarlarına gələcəkdə etibarlı neft nəqlinin əsasını təşkil edəcəkdir.

Qarşımızda duran məsələlər çoxdur. İqtisadiyyatı şaxələndirmək lazımdır, yeni iş yerləri açmalıyıq, sosial problemləri həll etməliyik. Ona görə də təbii sərvətlər bizim üçün yalnız məqsədə çatmaq vasitəsidir. Neft hasil edən bəzi digər ölkələrin uğursuz təcrübəsi bizə məlumdur. Təəssüf ki, onların nəhəng neft ehtiyatları insanların rifahının yüksəlməsinə xidmət etməyibdir. Bu təcrübə bizə məlumdur. Biz əlimizdən gələni edəcəyik ki, həyata keçirdiyimiz layihələrdən Azərbaycanın hər bir vətəndaşı bəhrələnsin. Mən əminəm ki, beynəlxalq maliyyə qurumlarının davamlı yardımı, onların maddi dəstəyi ilə – çünki maddi dəstək həlledicidir – dünyada sözükeçən ölkələrin dəstəyi sayəsində Azərbaycandakı layihələr uğurla həyata keçiriləcək və ölkə iqtisadi-sosial, siyasi inkişaf yolunu davam etdirəcəkdir.

Bir daha çox sağ olun və müzakirələrdə böyük məmnuniyyətlə iştirak edəcəyəm.

---

* Dünya (Davos) iqtisadi forumunun təşkil etdiyi «Avropa: genişlənmə və gələcək perspektivlər» adı altında keçirilən sammitdə dünyanın 45 ölkəsindən 700-dək nümayəndə, o cümlədən 31 ölkənin prezidentləri, baş nazirləri və xarici işlər nazirləri, görkəmli siyasətçilər, ictimai xadimlər, biznes təmsilçiləri iştirak etmişlər.

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN**
**ERMƏNİSTAN PREZİDENTİ**
**ROBERT KÖÇƏRYAN İLƏ**
**TƏKBƏTƏK GÖRÜŞÜ**

*28 aprel 2004-cü il*

*Varşavada, «Parkova» dövlət iqamətgahında Azərbaycan prezidenti İlham Əliyev ilə Ermənistan prezidenti Robert Köçəryan arasında təkbətək görüş keçirilmişdir.*

*Görüşün əvvəlində ATƏT-in Minsk qrupunun ABŞ, Fransa və Rusiyadan olan həmsədrləri də iştirak edirdilər. Sonra isə dövlət başçıları danışıqları təklikdə apardılar.*

*İki saat davam edən görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsi müzakirə olundu.*

*Görüş başa çatdıqdan sonra prezidentlər mətbuat nümayəndələri qarşısında bəyanatla çıxış etdilər.*

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Görüş konstruktiv şəraitdə keçdi. Biz ötən dəfə dekabrda görüşmüşdük. Ondan bəri müəyyən vaxt keçmişdir, həmsədrlərin səfərləri, onlarla görüşlər olmuşdur, bu yaxınlarda xarici işlər nazirləri görüşmüşlər və bugünkü görüş danışıqlar prosesinin davamıdır. Danışıqlar prosesi davam edir, danışıqları bundan sonra konstruktiv məcrada aparmaq üçün qarşılıqlı istək var. Məsələlər müzakirə olundu. Ümidvarıq ki, gələcəkdə danışıqlar prosesi də konstruktiv şəraitdə davam edəcəkdir.

Azərbaycan tərəfinin bu məsələni həll etmək arzusu var, Ermənistan tərəfində də belə arzu olduğu hiss edilir. Odur ki, bu məsələnin həlli yolunu tapmaq üçün qarşılıqlı istək olarsa, biz irəliləyə bilərik.

**Ermənistan prezidenti Robert Köçəryanın bəyanatı**

Azərbaycan prezidentinin ifadə etdiyi fikirlə razıyam. Biz razılığa gəldik ki, nazirlərin görüşləri davam etdiriləcəkdir. Yaxın görüş may ayında olacaqdır. Ola bilsin, biz onları daha fəal əlaqələrə, daha fəal danışıqlar prosesinə istiqamətləndirməyə çalışacağıq.

Əlbəttə, biz əlaqələr üçün, danışıqlar prosesinin davam etdirilməsi üçün çoxtərəfli görüşlərin bütün imkanlarından istifadə edəcəyik. Biz nəticə ilə öyünə bilmərik, lakin zənnimcə, danışıqların xarakteri və ab-havası əlverişli olmuşdur.

## CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİ PREZİDENTLƏRİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ İŞGÜZAR NAHARDA* NİTQ

*28 aprel 2004-cü il*

Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Əvvəlcə, istərdim ki, bu mühüm tədbirin təşkilatçılarına öz minnətdarlığımı bildirim. Sammitin yaxşı təşkilinə görə sağ olun!

Həm də polyak həmkarlarımıza minnətdarlığımı bildirirəm ki, bütün iştirakçılara belə qonaqpərvər münasibət bəsləyirlər.

Azərbaycanda son illər ərzində həyata keçirilən iqtisadi islahatlar mühüm uğurlarla nəticələnmişdir. Ölkə iqtisadi cəhətdən inkişaf edir, dinamik inkişafdadır və bu inkişaf, əlbəttə ki, dünya iqtisadiyyatında gedən proseslərlə həmahəngdir. Azərbaycanda keçirilən irimiqyaslı özəlləşdirmə proqramı özəl sektorun inkişafı üçün yaxşı şərait yaratmışdır. Ticarətin sərbəstləşdirilməsinə nail olmuşuq. İqtisadiyyatımız bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Son 7 il müddətində Azərbaycanda ümumi daxili məhsul 90 faiz artmışdır. Ümumi daxili məhsulda özəl sektorun payı 75 faiz təşkil edir. Adambaşına düşən birbaşa xarici sərmayə baxımından Azərbaycan keçmiş SSRİ, Mərkəzi və Şərqi Avropa ölkələri arasında liderlik mövqeyindədir. Azərbaycan iqtisadiyyatına qoyulan ümumi sərmayənin həcmi 17 milyard dollara çatmışdır. Bunun 12 milyard dolları birbaşa xarici sərmayədir.

Azərbaycandakı bu sərmayə qoyuluşu fəallığının səbəbləri nədir? Birincisi, yaxşı sərmayə mühitinin yaranmasıdır. Azərbaycanda xarici şirkətlər tərəfindən həyata keçirilən bütün mühüm layihələr parlament tərəfindən ratifikasiya olunub qanun şəklində qüvvəyə minmişdir. Ona görə də sərmAyəçidə əminlik var ki, onun qoyduğu sərmayə qorunacaqdır.

Səbəblərdən biri də şəffaflıqdır. Azərbaycan Britaniya Baş nazirinin hasilat sənayelərində şəffaflıq təşəbbüsünə qoşulubdur. Biz Neft Fondu yaratmışıq və onun strukturu tamamilə şəffafdır. Neft və qaz sahəsindən alınan bütün gəlirlər həmin fondda şəffaf şəkildə yığılır. Fondun işinə xarici auditorlar nəzarət edir.

Azərbaycanda bu gün dünyanın ən iri enerji layihəsi həyata keçirilir. Həyata keçirilən 4 neft və qaz layihələri – Azəri-Çıraq-Günəşli neft yataqlarının işlənilməsi, «Şahdəniz» qaz yatağının işlənilməsi, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilişi üzrə hər gün 10 milyon dollar sərmayə yatırılır. Növbəti 3 il müddətində daha 9 milyard dollar sərmayə qoyulacaqdır.

Bütün bunlar göstərir ki, ölkədə çox müsbət sərmayə mühiti yaradılıbdır, ictimai-siyasi sabitlik mövcuddur, sərmayəçilər inanırlar ki, ölkə uğurlu yolunu davam etdirəcək, iqtisadiyyatını, siyasi sistemini inkişaf etdirəcəkdir. Ölkədə müasir, demokratik cəmiyyət quruluşu davam etdiriləcəkdir.

Bizə o da məlumdur ki, neft hasil edən bir sıra ölkələr nəhəng neft ehtiyatlarına baxmayaraq, uğur əldə edə bilməyiblər. Biz mənfi təcrübəni də diqqətlə öyrənmişik ki, başqalarının buraxdığı səhvlərə yol verməyək. Ümumiyyətlə, 5 il, 10 il sonraya nəzər salsaq, Azərbaycan iqtisadi-sosial inkişafını bu sürətlə davam etdirərsə, regionda ən firavan ölkələrdən olacaqdır.

Ölkə vacib yolların kəsişdiyi məkanda yerləşir. Bizim coğrafi-siyasi mövqeyimiz elədir ki, ölkə Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin qovuşuğunda yerləşir. Regionda istər enerji layihələri, istər digər sahələrə aid layihələr Azərbaycanın birbaşa fəal iştirakı ilə həyata keçirilir. Bir daha vurğulamaq istərdim ki, ölkəmiz Avropa strukturlarına inteqrasiya yoluna sadiqdir, dünya iqtisadiyyatına inteqrasiya əzmindədir və biz Ümumavropa dəyərlərini yüksək qiymətləndiririk. Mən qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirir və sammitin işinə uğur arzu edirəm.

Çox sağ olun!

---

* Nahar mərasimində Ermənistan prezidenti Robert Köçəryan və Gürcüstan prezidenti Mixail Saakaşvili də nitq söylədilər.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STRASBURQDA

*28 aprel 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında iştirak etmək üçün Varşavadan Strasburqa gəlmişdir.*

*Dövlətimizin başçısını «Entveyn» hava limanında Avropa Şurası protokolunun rəisi Müəmmər Topaloğlu, Strasburq şəhərinin prefekti Peno, Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi səfir Aqşin Mehdiyev, Milli Məclisin Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və deputatlarımız, Strasburqda yaşayan soydaşlarımız səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha – «Sofitel» mehmanxanasına gəldi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AŞ PA-nın SƏDRİ PİTER ŞİDER İLƏ GÖRÜŞÜ

*29 aprel 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyevi Avropa Şurasının iqamətgahı – Avropa sarayı qarşısında Avropa Şurasının Baş katibi Valter Şvimmer, Avropa Şurası Parlament Assambleyasının sədri Piter Şider, AŞPA-nın Baş katibi Bruno Haller və digər yüksək vəzifəli şəxslər səmimiyyətlə, mehribanlıqla qarşıladılar.*

*Cənab Piter Şider prezident İlham Əliyevi Avropa Şurasında bir daha salamlamaqdan qürur duyduğunu, dəvəti qəbul edib Avropa Şurasına gəldiyinə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi. O dedi ki, biz ən fəal deputat və nümayəndə heyətinin rəhbəri, habelə AŞPA-nın ən fəal rəhbərlərindən biri, nəhayət, ən fəal dövlət başçısı kimi qiymətləndirdiyimiz Azərbaycan prezidenti İlham Əliyevi yenidən öz yanımızda görməkdən fərəh hissi keçiririk. Sizin Avropa dəyərlərinə, Avropa Şurasına xüsusi diqqətiniz hamımızda minnətdarlıq hissi doğurmuşdur. Piter Şider dövlətimizin başçısının Azərbaycanda demokratiyanın inkişafı, insan hüquqlarının qorunması və vətəndaş cəmiyyətinin qurulması sahəsində fəaliyyətini yüksək dəyərləndirdi. O, indiyədək yalnız iki ölkənin – Finlandiyanın və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətləri rəhbərlərinin sonradan dövlət başçısı seçildiyini xatırlatdı və bundan şərəf duyduğunu söylədi.*

*Avropa Şurasına növbəti dəfə gəlməsindən məmnunluğunu vurğulayan prezident İlham Əliyev AŞPA-dakı fəaliyyətini həyatının ən gözəl illəri kimi qiymətləndirdi. Avropa Şurasının rəhbərliyinə təşəkkürünü bildirən dövlətimizin başçısı dedi ki, bu qurumun üzvü olduğu müddətdə Azərbaycan demokratiiyanın inkişafı, insan hüquqlarının qorunması, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, vətəndaş cəmiyyəti qurulması istiqamətində böyük yol keçmişdir. Ötən müddətdə Azərbaycanın Avropa ailəsinə daha sıx inteqrasiyası üçün əlindən gələni əsirgəmədiyini bildirən İlham Əliyev dedi ki, dövlət başçısı vəzifəsində də bu xətti ardıcıl surətdə davam etdirəcək, ölkəmiz Avropanın demokratik dəyərlərinə daim sadiq olacaqdır.*

### Avropa Şurasının fəxri qonaqları kitabına yazdığı ürək sözləri:

*«Üç ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür. Bu illər ərzində ölkəmiz Avropaya inteqrasiya yolunda böyük uğurlar əldə etmişdir.*

*Çox məmnunam ki, 2001-2003-cü illərdə Avropa Şurasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etmişəm. Bu illər həyatımda çox önəmli rol oynamışdır. Əminəm ki, Avropa Şurası ilə Azərbaycan arasında aparılan əməkdaşlıq uğurla davam etdiriləcəkdir.*

*Avropa Şurasındakı dostlarımıza cansağlığı və uğurlar arzulayıram.*

*Böyük hörmətlə,*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti»***

*29 aprel 2004-cü il.*

**P i t e r  Ş i d e r:** Cənab prezident, indi çox xoş və Assambleyanın tarixində nadir hallarda baş verən məqam yetişmişdir.

Bizim 1988-ci ildən mövcud olan qaydalarımıza əsasən, Assambleyanın işində xüsusi fəallığı ilə seçilən şəxsiyyətlər xüsusi medalla təltif olunurlar. Bu vaxta qədər yalnız bir ölkənin – Finlandiyanın prezidenti xanım Halonen bu fəxri ada layiq görülmüşdür. İndi isə mən bu medalı Sizə təqdim etmək istəyirəm. Bu medal o deməkdir ki, Assambleyada, bu binada, iclas salonunda Sizin müstəsna hüquqlarınız vardır. Bu, Sizə ömürlük verilən hüquqlardır. Prezident kimi Siz buraya həmişə gələ bilərsiniz, Sizi burada həmişə məmnuniyyətlə görmək istəyirik. Amma bundan əlavə, gizli gəlmək istəsəniz, sadəcə, bu medalı taxmaq kifayət edər. Xüsusi vurğulayıram ki, mükafat Sizə üzv ölkənin prezidenti olduğunuza görə deyil, Avropa Şurası ailəsində xüsusi fəallıqla seçilməyinizə görə verilir.

*AŞPA-nın sədri Piter Şider Azərbaycan prezidenti İlham Əliyevə Avropa Şurası Parlament Assambleyasının fəxri üzvü diplomunu və medalını təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Mənə göstərilən səmimi münasibətə və yüksək etimada görə Sizə təşəkkür edirəm. Ölkəmizin Avropa Şurası ilə əlaqələrinin daim diqqət mərkəzində olacağını bildirirəm.

**AVROPA ŞURASININ BAŞ KATİBİ**
**VALTER ŞVİMMER İLƏ**
**GÖRÜŞ**

*29 aprel 2004-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasının iqamətgahında bu təşkilatın Baş katibi Valter Şvimmer ilə görüşmüşdür.*

*Dövlətimizin başçısını Avropa Şurasında salamlamaqdan məmnunluğunu bildirən cənab Valter Şvimmer bu yaxınlarda Azərbaycana səfərini və prezident İlham Əliyev ilə görüşünü, müxtəlif məsələlər ətrafında faydalı fikir mübadiləsi apardığını razılıqla xatırladı. O, İlham Əliyevin Azərbaycan prezidenti kimi Avropa Şurasına ilk gəlişinin əhəmiyyətini vurğuladı, Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyəsindən məmnunluğunu ifadə etdi.*

*Prezident İlham Əliyev Avropa Şurasında fəaliyyətini həyatının ən yaxşı illəri kimi qiymətləndirdi, bu təşkilatla ölkəmiz arasında keçmişdə və indi mövcud olan sıx əməkdaşlıqdan məmnun olduğunu söylədi. Azərbaycan ilə Avropa Şurası arasında heç bir problem olmadığını, bu təşkilata üzvlüyün üç ili ərzində ölkəmizdə demokratiyanın inkişafı, insan hüquqları və azadlıqlarının qorunması sahəsində böyük işlər görüldüyünü bildirərək dedi ki, bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.*

## AŞPA-nın YAZ SESSİYASININ İCLASINDA NİTQ

*29 aprel 2004-cü il*

**P i t e r  Ş i d e r**: Mən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevi böyük məmnuniyyətlə Assambleyamızda salamlayıram. Onunla birgə xarici işlər nazirini, prezidenti müşayiət edən rəsmiləri salamlayırıq. Biz şadıq ki, burada, bizim Assambleyada iştirak edirsiniz. Xüsusi alqışlar Azərbaycan Respublikasının prezidentinə, Assambleyanın sabiq üzvünə, sabiq sədr müavininə ünvanlanmışdır. Amma cənab prezident, sadəcə olaraq, sabiq deyil, o, bizim bir sıra tədbirlərin və müzakirələrin fəal iştirakçısıdır. Cənab prezident, burada olmağınızdan məmnunuq. Buraya gəldiyinizə görə Assambleya adından Sizə minnətdarlığımı bildirirəm. Deputatlara bildirim ki, çıxışdan sonra cənab prezident sualları cavablandırmağa da razılıq vermişdir.

Cənab Əliyev, cənab prezident, yüksək kürsü Sizindir.

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab sədr!

Xanımlar və cənablar, əziz qonaqlar!

Buraya dəvət olunmaq və Avropa Şurasında çıxış etmək mənim üçün böyük şərəfdir. Bu, həm də şəxsən mənim üçün çox xoş hadisədir. Cənab sədrin qeyd etdiyi kimi, mən üç il müddətində Avropa Şurası Parlament Assambleyasının üzvü olmuşam. Həyatımın bu dövrü mənim üçün, bəlkə də, ən maraqlı, mühüm zaman kəsiyidir və bu dövr gələcək fəaliyyətimdə, əlbəttə ki, bugünkü vəzifəmdə də vacib rol oynadı.

Azərbaycan yalnız üç il bundan əvvəl Avropa Şurasının üzvü oldu. Ondan əvvəl isə ölkə bir çox problemlərlə üzləşirdi. 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycanda vəziyyət çox çətin idi. Bu, həm iqtisadi, həm siyasi, həm də hərbi baxımdan tam xaos dövrü idi. İqtisadiyyat sürətlə tənəzzül edirdi. Faktiki olaraq, ölkə dağılmaq ərəfəsində idi: vətəndaş müharibəsi, bir neçə hərbi çevriliş cəhdləri və əlbəttə ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü. Bu amillər ölkəyə normal, azad, iqtisadi tərzdə inkişaf etmək imkanı verə bilməzdi.

Yalnız keçmişin çətin irsini adladıqdan, ictimai-siyasi sabitlik təmin edildikdən sonra və Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi əldə olunandan sonra ölkə müxtəlif sahələrdə inkişaf etmək imkanı qazana bildi. İqtisadiyyatımızda artım başladı. Bu gün iqtisadi inkişaf baxımından Azərbaycan sürətlə inkişaf edən ölkədir. Son yeddi ildə ümumi daxili məhsulun artımı 90 faiz təşkil etmişdir, son 7 ildə inflyasiya 2-3 faizi aşmamışdır. Adambaşına düşən birbaşa xarici sərmayə baxımından Azərbaycan həm keçmiş SSRİ, həm də Mərkəzi Avropa ölkələri arasında aparıcı mövqedədir.

Bütün bu amillər, üstəgəl, irimiqyaslı iqtisadi islahatlar, torpaq islahatı, torpağın özəlləşdirilməsi və ümumiyyətlə, müəssisələrin özəlləşdirilməsi ölkəyə iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurmağa imkan verdi. İndi ümumi daxili məhsulda özəl sektorun payı 75 faizə bərabərdir. Xüsusilə nəzərə alsaq ki, neft sektoru hələ də dövlətin inhisarındadır, onda bu, böyük rəqəmdir. Ümumi daxili məhsulda 75 faiz o deməkdir ki, praktiki olaraq, bütün ticarət, bütün sənaye növləri özəlləşdirilibdir.

Biz bunun yaxşı nəticələrini görürük. Ölkənin necə inkişaf etdiyini, iqtisadiyyatın artdığını görürük və bu, bizə nəhəng beynəlxalq layihələri həyata keçirmək imkanı verir. Bugünkü gündə dünyanın ən iri enerji layihəsi Azərbaycanda həyata keçirilir. Artıq 10 ildir ki, Azərbaycan karbohidrogen ehtiyatlarından dünyanın aparıcı şirkətləri ilə birlikdə istifadə edir.

Bu, çox uğurlu təcrübədir. Özü də bu uğurun bir neçə əsas elementi var. Birincisi, çox gözəl sərmayə mühitinin olmasıdır. Bizim sərmayəçilər özlərini və sərmayələrini təhlükəsiz hiss edir və əmindirlər ki, qoyduqları vəsait lazımınca qorunur. Azərbaycandakı bütün əsas sərmayə layihələri parlamentimiz tərəfindən ratifikasiyadan keçib qanun statusu almışdır. Onları heç kim dəyişə bilməz. Digər səbəb şəffaflıqdır. Şəffaflıq da neft-qaz sektorunda və ümumiyyətlə, bütün istehsal sahələrində uğurun əsasını təşkil edən elementlərdəndir. Azərbaycan bu mənada nəzərəçarpacaq nailiyyət qazanmışdır. Biz hasilat sənayelərində şəffaflıq təşəbbüsünə lap əvvəldən qoşulmuşuq və regionda bu prosesdə liderliyimizi davam etdirmək əzmindəyik.

Beynəlxalq maliyyə təsisatları ilə çox sıx əlaqələrimiz və əməkdaşlığımız var. Xüsusilə də, Beynəlxalq Valyuta Fondu ilə. Bu təşkilatla biz əsas iqtisadi xəttimizi razılaşdırırıq. Bütün bu amillər ölkəyə milyardlarla dollar vəsait cəlb etməyə imkan verdi.

Son illər ərzində Azərbaycana qoyulmuş sərmayələrin miqdarı 17 milyard dollara bərabərdir. Bunun da 12 milyard dolları birbaşa xarici sərmayədir. Sərmayəçilər Azərbaycandakı ictimai-siyasi sabitliyə əmin olmasaydılar, hadisələrin gedişini əvvəlcədən proqnozlaşdıra bilməsəydilər, əlbəttə ki, onlar risk edib öz vəsaitlərini qoymazdılar. Biz bu siyasətimizi davam etdirməkdə tam qərarlıyıq. Növbəti üç il ər zində Azərbaycanın təkcə neft və qaz sənayesinə, təxminən, daha 10 milyard dollar sərmayə qoyulacaqdır.

Bu gün reallaşdırılan iri boru kəmərləri layihələri təkcə bizim ölkə, ərazilərindən kəmərlərin keçəcəyi digər ölkələr üçün yox, həm də bütün region üçün vacibdir. Bu layihələr regional təhlükəsizlik və sabitlik üçündür, regional əməkdaşlıq üçündür. Azərbaycan regional əməkdaşlıq sahəsində çox fəal ölkədir və bugünkü gündə bu əməkdaşlıq qənaətbəxşdir. Biz gələcəkdə də bu yöndə fəal rol oynamağa hazırıq.

Azərbaycanın Xəzər dənizindəki neft və qaz ehtiyatları ölkəmizə imkan verəcək ki, bunlardan düzgün istifadə edərək iqtisadiyyatını hərtərəfli inkişaf etdirsin. Neft və qazın hasilatı və nəqli qarşımızdakı son məqsəd deyildir. Bu, yalnız iqtisadiyyatımızı hərtərəfli inkişaf etdirmək, müasir, sivilizasiyalı, iqtisadi cəhətdən güclü cəmiyyət qurmaq, siyasi islahatları gələcəkdə də həyata keçirmək və cəmiyyətin demokratikləşməsi yolunu davam etdirmək vasitəsidir. Əldə etdiyimiz nailiyyətlər və yaxın gələcəkdə həyata keçiriləcək layihələr, əlbəttə ki, ölkəmizin iqtisadiyyatını gücləndirməyə imkan verəcəkdir.

Azərbaycan lap yaxın gələcəkdə iqtisadi baxımdan çox güclü ölkə olacaqdır. 2005-2006-cı illərdə artıq əsas neft və qaz kəmərləri işlək vəziyyətdə olacaq və layihədə iştirak edən bütün ölkələrə öz əhalisinin həyat səviyyəsini yaxşılaşdırmağa imkan verəcəkdir.

Amma əlbəttə ki, bütün bunlar ölkəmizin bugünkü həyatının yalnız bir hissəsidir. Ölkə inkişafdadır, həm iqtisadi, həm də sosial baxımdan inkişaf edir. Çoxsaylı sosial proqramlar həyata keçiririk. Bizim iqtisadi siyasətimiz bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Amma büdcəmizin strukturuna nəzər salsanız, görərsiniz ki, büdcənin çox böyük hissəsi sosial məsələlərə yönəldilmişdir. Məncə, bazar iqtisadiyyatı ilə sosial müdafiənin bu cür kombinasiyası da uğurun əsaslarını təşkil edən amillərdəndir.

Ölkəmiz siyasi islahatlar sahəsində də mühüm nailiyyətlər əldə etmişdir. Avropa Şurasının üzvü olduğumuz üç il müddət Azərbaycanın demokratiya yolu ilə irəliləməsində həlledici rol oynamışdır. Avropa Şurasının tövsiyələri ilə yeni-yeni qanunlar qəbul edilmişdir. Təşkilata üzv qəbul olunarkən ölkənin üzərinə götürdüyü öhdəliklər və onların yerinə yetirilməsi də bu sahədə yardımçı olmuşdur. Ona görə də mən istərdim ki, Avropa Şurasındakı bütün həmkarlara öz səmimi minnətdarlığımı bildirim. Konstruktiv əməkdaşlıq, məsləhətlər, tövsiyələr, bölüşdüyünüz təcrübə – bunların hamısı Azərbaycan cəmiyyətinin gələcək demokratikləşməsinə, Azərbaycanın Avropa ailəsinə tam üzv olmasına xidmət etmişdir.

Yerinə yetiriləcək vəzifələr çoxdur. Həyatımızın bir çox sahələri beynəlxalq standartlara cavab vermir. Bunun obyektiv və bəzi hallarda subyektiv səbəbləri var. Müharibədən, işğaldan əziyyət çəkmiş, vətəndaş müharibəsi və digər faciəvi hallarla üzləşmiş ölkə birdən-birə tam demokratik və tam azad ola bilməz. Amma bu yol bizim seçimimizdir, strateji seçimimizdir. Prezident seçkilərindən sonra gedən proseslər, hökumətimizin qəbul etdiyi qərarlar bizim yüksək qiymətləndirdiyimiz dəyərlərə sadiq olduğumuzu göstərir. Bizim azad, demokratik, plüralist cəmiyyət qurmaq əzmimizi göstərir.

İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan haqları qorunmursa, uğur qazana bilməzsən. Biz neft hasil edən bəzi ölkələrin təcrübəsini öyrənmişik və təəssüflə şahidi olmuşuq ki, onların heç də hamısında neft amili uğurla nəticələnmir. Bəzən neft amili firavanlıq gətirmək əvəzinə, mənfi hallarla müşayiət olunur. Ona görə də bütün bu mənfi təcrübəni görərkən biz qərarlıyıq ki, səhvə yol verməyək.

Eyni zamanda, ölkəmizin problemləri də çoxdur. Bizdə yoxsulluq var. Yoxsulluğa qarşı mübarizə aparırıq. Hazırda yoxsulluğun azaldılmasına dair Dünya Bankı ilə birlikdə proqram həyata keçiririk. Bizdə işsizlik var və iqtisadi və sosial-iqtisadi inkişaf proqramının əsas elementlərindən biri yüz minlərlə yeni iş yerləri açmaqdan ibarətdir və mən bunu rəsmi bəyan etmişəm.

Regionlara xüsusi diqqət yetiririk ki, yalnız paytaxt yox, əsas şəhərlər yox, bütün ölkə, Azərbaycanın bütün bölgələri hərtərəfli, dinamik inkişaf etsin. Ən ucqar kəndlər də iqtisadi inkişafı öz həyat tərzlərində hiss etməlidir. Yalnız bütün əhalimiz özünün daha yaxşı yaşadığını hiss etdiyi bir vaxtda, hökumətimiz vəzifəsini yerinə yetirmiş hesab edə bilər. Budur, bizim məqsədimiz – vətəndaşlara eyni şərait yaratmaq. Qoy iqtisadi artımdan, neft sənayesinin inkişafından hamı bəhrələnsin. Hər bir Azərbaycan vətəndaşı eyni hüquqlardan istifadə etsin. Bu yöndə bizim çox gözəl nailiyyətlərimiz var. Ölkəmizin ən böyük nailiyyətlərindən biri də etnik və dini dözümlülükdür. Yalnız müstəqillik dövründə deyil, Sovet İttifaqı dönəmində də tolerantlıq Azərbaycana xas idi və bu siyasət indi də davam etdirilir. Azərbaycan çoxmillətli ölkədir. Bütün millətlər və bütün dinlərin nümayəndələri Azərbaycanı öz evi hesab edirlər.

Uzun müddət ölkəmizin üzləşdiyi əsas problem Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal olunmasıdır. Bu işğal Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar separatçı irtica ilə başlamışdır. Bu siyasət Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və onun inzibati sərhədlərindən kənarda yerləşən daha 7 rayonumuzun işğalı ilə nəticələndi. Azərbaycanın bu 7 rayonunda heç zaman ermənilər yaşamamışdır. Onlar tamamilə azərbaycanlılar məskunlaşan ərazilərdir. Ermənistanın bu işğalı yüz minlərlə adamın qaçqın və köçkün vəziyyətinə düşməsi ilə nəticələndi. Bu faktlar Assambleyaya yaxşı məlumdur. Nümayəndə heyətimizin üzvləri bu haqda dəfələrlə çıxışlar ediblər və bu faktlar Avropa Şurası Parlament Assambleyasının sənədlərində də öz əksini tapmışdır. Bugünkü Ermənistanın ərazisindən 250 min azərbaycanlı qaçqın düşmüşdür.

Azərbaycan ərazisində işğal olunmuş 7 rayonun 700 min sakini məcburi köçkün oldu. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan 50 min azərbaycanlı da məcburi köçkündür. Üstəlik, digər münaqişə zonalarından, başqa ölkə ərazilərindən də qaçqınlar Azərbaycanda sığınacaq tapmışlar. Azərbaycanın 8 milyonluq əhalisinin 1 milyonu qaçqın-köçkündür. Bu, dünyada əhalinin sayına nisbətdə qaçqın-köçkünlərin ən yüksək faizidir.

Bu vəziyyət 10 ildən artıqdır ki, davam edir. Bu ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəsin onuncu ili olacaqdır və 10 ilə qədərdir ki, aparılan danışıqlar nəticə vermir. Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara-köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin – Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin – Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik.

Beynəlxalq ictimaiyyət bu vəziyyətlə razılaşmamalıdır. Əlbəttə, biz ümid edirik ki, beynəlxalq birliyin birgə səyi imkan verəcək ki, bu problem həll olunsun. Biz Avropa Şurasına minnətdarıq ki, bu mövzu ətrafında fikir mübadilələri başlayıbdır. Bildiyiniz kimi, hazırda Siyasi məsələlər komitəsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məruzə üzərində işləyir. Ümid edirik ki, məruzə vəziyyəti olduğu kimi əks etdirəcək və ən vacibi isə, məsələyə siyasi qiymət verəcəkdir.

Ermənilərin münaqişə ilə bağlı öz iddiaları var. Sadəcə, onlara şərh verim ki, sizdə tam təsəvvür yaransın, yalnız bir tərəfin dediklərini eşitməyəsiniz. Onların iddiası belədir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyin etmək hüquqları var. Öz müqəddəratını təyin etmək insanlara verilmiş çox mühüm hüquqdur. Biz hamımız buna hörmətlə yanaşırıq. Amma sizin diqqətinizi bir mühüm məsələyə yönəldim. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər, onların Ermənistan dövləti var. Bu o deməkdir ki, bir millət kimi ermənilər artıq bu hüquqdan istifadə etmişlər. Təsəvvür edin ki, onların yaşadığı hər bir yerdə öz müqəddəratını həll edəcəyi halda nə baş verər?! Bu nə deməkdir? Bu o deməkdirmi ki, milli azlıqların yaşadığı hər bir yerdə separatizm olmalıdır? Məgər bu o deməkdir ki, milli azlıq yaşadığı hər bir ərazidə öz müstəqil dövlətini qura bilər? Əlbəttə ki, yox!

Avropa ölkələri də daxil olmaqla, bir çox ölkələrdə milli azlıqlar yaşayırlar. Azərbaycanlılar da yaşadıqları bir sıra ölkələrdə milli azlıqdır. Gürcüstanda təxminən yarım milyon azərbaycanlı yaşayır. Rusiyada da, digər ölkələrdə də yaşayan çoxsaylı azərbaycanlılar var. Ermənilər də həmçinin. Gürcüstanda 200 min erməni yaşayır – Dağlıq Qarabağda yaşayan ermənilərin sayından 4 dəfə artıq. Bu o deməkdir ki, onlar hər yerdə öz müqəddəratını təyin etməlidirlər? Bu konkret halda öz müqəddəratını təyin etmək prinsipi işləmir. Ona görə də bu halda ərazi bütövlüyü ilə öz müqəddəratını təyin etmək prinsipləri arasında əkslik yoxdur. Başqa sözlə, biz gözləyirik ki, beynəlxalq ictimaiyyət bu münaqişənin həll olunmasında çox fəal rol oynayacaq, bu həll beynəlxalq hüquq normalarına əsaslanacaqdır.

Hörmətli xanımlar və cənablar!

Qeyd etdiyim kimi, burada olmaq mənim üçün həm xoşdur, həm də şərəfdir. Məmnuniyyətlə çıxış edirəm. Dediyim kimi, Azərbaycan müstəqilliyini qazandıqdan sonra böyük nailiyyətlər əldə edibdir. Bu gün bizim strateji seçimimiz Avropaya, Avropa ailəsinə, strukturlarına inteqrasiyadır. Bu yolun davamı var. Biz bu siyasətimizə möhkəm sadiqik. Əlimizdən gələni edəcəyik ki, Azərbaycan Avropaya xas olan bütün standartlara, bütün ölçülərə cavab versin. Bütün Avropa strukturlarına xas olan standartlara uyğun gəlsin. Budur bizim siyasətimiz və uzun müddətdir onu həyata keçiririk. Bu gün Azərbaycanda baş verənlər bu siyasətin davamının nəticəsidir. Biz Avropa Şurasındakı fəal üzvlüyümüzü davam etdiririk.

Biz Avropa dəyərlərinə tam sadiqik, bu dəyərləri bölüşürük. Bizim nümayəndə heyəti Avropa Şurasında həmişə fəal olmuşdur. Bizim problemləri başa düşdüklərinə görə mən Avropa Şurası Parlament Assambleyasının üzvlərinə minnətdaram. Biz burada çoxlu dostlar qazanmışıq, şəxsən mən özüm bir çoxları ilə dost olmuşam. Mən onların hamısını salamlayıram. Avropa demokratik qrupunda işlədiyimiz həmkarları salamlayıram və Assambleyanın bütün üzvlərinə minnətdarlığımı bildirirəm. Sizə deyim ki, mən həqiqətən, Avropa Şurası Parlament Assambleyasının üzvü olduğum, sizinlə birgə işlədiyim vaxtlar üçün darıxıram. Bu gün mən başqa vəzifədəyəm, başqa öhdəliklərim var. Amma sizi əmin edirəm ki, son illər Azərbaycanda aparılan siyasət davam etdirilir və bu, ölkəmizə, regionumuza sülh və firavanlıq gətirəcəkdir. Diqqətinizə görə çox sağ olun.

* * *

**P i t e r Ş i d e r:** Cənab Prezident, olduqca gözəl çıxışınıza görə çox sağ olun. Assambleyaya və Avropa Şurasına ünvanladığınız nəzakətli sözlərinizə görə sağ olun. Dediyimiz kimi, bundan sonra suallar veriləcəkdir. Assambleyanın üzvləri Sizə sualla müraciət etmək istəyirlər və onlara xatırladıram ki, verilən suallar 30 saniyə çərçivəsini aşmamalıdır. Həmkarlardan xahiş edirəm ki, sual versinlər, sualları çıxışa çevirməsinlər. Əlavə suallar isə yalnız sonda və yalnız vaxtın imkan verəcəyi halda mümkündür. Buyurun.

**S u a l (*İtaliya*): Əvvəlcə, Azərbaycan prezidentinə minnətdarlığımı bildirir və ölkədə əldə olunan nailiyyətlərə görə təbrik edirəm. Sualım ölkənin iqtisadiyyatına, həqiqi mənada başgicəlləndirici nailiyyətlər əldə olunan sahəyə aiddir. Cənab prezident, Avropa Birliyinin ölkənizdə neft sənayesinin inkişafında və xarici ticarət əlaqələrində payı nə qədərdir?**

**C a v a b:** Avropa Birliyi ilə ticarət əlaqələri, iqtisadi əlaqələr hər il artır. 2003-cü ilin göstəriciləri ilə 2002-ci ilin göstəricilərini müqayisə etsək, görərik ki, əlaqələrin həcmi 40 faiz artmışdır. Bu göstərir ki, Avropa bazarının Azərbaycan üçün əhəmiyyəti böyükdür. Yeri gəlmişkən, deyim ki, bizim ən böyük ticarət tərəfdaşımız İtaliyadır. Bunun özü də bizim Avropaya doğru götürdüyümüz istiqamətin göstəricisidir. Bilirsinizmi, ölkəmizdəki infrastrukturun böyük bir hissəsi Azərbaycan SSRİ-nin tərkibində olarkən yaradılmışdır. Ona görə də istehsal olunmuş məhsullar üçün satış bazarı da qonşu ölkələrdir. Yeni istehsal qurğuları, yeni istehsal məhsulları beynəlxalq standartlara cavab verir. Amma belə məhsulların sayı çox deyil, istehsal olunan məhsulların çoxu keçmişdən qalma texnologiyalarla buraxılır. Ona görə də məhsullarımızın əsas istehlakçıları da keçmiş SSRİ respublikalarıdır. Amma indi başlanmış meyl müsbətdir və biz Avropa bazarına daxil olmağa səy göstəririk. Əminəm ki, ticarətin həcmi bu il də artacaqdır.

**S u a l (*Fransa)*: Cənab Prezident! Sizin çıxışınızdan həzz aldıq və Sizi görmək böyük şərəfdir. Siz ölkənizi demokratiya yolu ilə aparmaq əzmində olduğunuzu dediniz. Sualım belədir: Ötən prezident seçkilərində bəzi pozuntu halları qeydə alınmışdır. Bununla bağlı tədbir görmək fikriniz varmı? İyun ayında Azərbaycanın üzərinə götürdüyü öhdəliklərlə bağlı dinləmələr olacaqdır. Öhdəlikləri necə yerinə yetirirsiniz?**

**C a v a b:** Prezident seçkilərindən sonrakı hadisələr cəmiyyətdə hələ də qarşıdurmanın baş verə biləcəyini göstərdi. Biz – hökumət və hakimiyyətdə olan partiya həmişə siyasi dialoq tərəfdarı, cəmiyyətdəki bütün siyasi qüvvələr arasında normal siyasi dialoq tərəfdarı olmuşuq. Biz problemlərimizin masa ətrafında həll edilməsinin tərəfdarıyıq. Təəssüf ki, müxalifətin bəzi üzvləri hələ seçkilərin rəsmi nəticələri elan olunmamışdan əvvəl, öz baxışlarını daş-kəsək və kəsici metal parçaları ilə ifadə etməyə üstünlük verdilər. Onlar polisə amansız hücüm etdilər. Bu hadisə televiziya vasitəsilə yayımlanıb, bütün televiziya kanalları göstərdi. Bir epizod xüsusilə ürəkağrıdandır: böyük yük maşını nümayişçilər tərəfindən polisin üstünə sürüldü. Əlbəttə ki, bütün digər ölkələrdəki kimi, Azərbaycan dövlətinin də özünü müdafiə etmək hüququ var və polisə qarşı belə rəhmsiz hücum heç bir ölkədə hörmətlə qarşılanmır. Ona görə də mən düşünürəm ki, Azərbaycandakı bütün siyasi qüvvələr qanun çərçivəsində hərəkət etməlidirlər. Demokratiya və qanun birlikdə olmalıdır. Mən bir çox hallarda – həm seçkidən əvvəl, həm də seçkidən sonra rəsmi çıxışlarımda Azərbaycandakı siyasi qüvvələri konstruktiv dialoqa çağırmışam. Təəssüf ki, hələ də cavab almamışam. Bununla belə, çalışacağıq Azərbaycanda elə şərait yaradaq ki, bütün siyasi mübahisələr masa ətrafında həll olunsun.

**S u a l (*Rusiya*): Cənab Prezident, biz yoxsulluqla mübarizə proqramı barədə çox eşitmişik. Sizin seçkiqabağı proqramınızda da, çıxışınızda da bu barədə danışılmışdır. Mən bilən, bu proqramın gerçəkləşdirilməsi Azərbaycanda humanitar vəziyyətin yaxşılaşması ilə sıx bağlıdır. Hamıya məlumdur ki, Dağlıq Qarabağ üstündə münaqişə nəticəsində bir milyonadək adam qaçqın və məcburi köçkün olmuşdur. Mümkünsə, bu proqramın yaxın vaxtlarda həyata keçirilməsi barədə bir neçə kəlmə deyəsiniz.**

**C a v a b:** Azərbaycanda yoxsulluqla mübarizə çox uğurla aparılır. Biz bu proqramın həyata keçirilməsində Dünya Bankı ilə fəal işləyirik. Ümidvarıq ki, proqram qarşıya qoyulmuş məqsədə, yəni yoxsulluq anlayışını tamamilə aradan qaldırmaq məqsədinə çatmağa imkan verəcəkdir. Zənnimcə, bunun üçün çox yaxşı perspektivlər var.

Siz cəmiyyətimizin ən yaralı yerinə – qaçqın-köçkünlər mövzusuna toxundunuz. Əlbəttə, onlara qayğı bizim üçün öncül əhəmiyyətli məsələdir. Hökumətimizin maliyyə ehtiyatları məhdud olsa da, o, qaçqın-köçkünlərin vaxtilə işğaldan azad edilmiş ərazilərdə yerləşdirilməsi proqramını həyata keçirir. Onlar üçün yeni, müasir evlər, xəstəxanalar, məktəblər tikilmiş, bütöv şəhərciklər salınmışdır. Mənim Sərəncamıma əsasən, hazırda ikinci proqram gerçəkləşdirilir. O, birinci mərhələdə təxminən 30 min adamı əhatə edəcəkdir. Onlar üçün də bütün lazımi şərait, infrastruktur yaradılacaqdır. Beləliklə, hökumətimiz Ermənistanın işğalı nəticəsində öz torpaqlarını, öz evlərini itirmiş adamların həyatını yüngülləşdirəcəkdir.

Əlbəttə, bu, məsələnin qəti həlli deyildir. Onun qəti həlli Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisindən tamamilə çıxarılması və bu humanitar fəlakətə son qoyulması olacaqdır. Təsəvvür edin, bu insanların çoxu çadır düşərgələrində yaşayır, orada uşaqlar doğulur, onlar çadırlarda məktəblərə gedirlər, insanlar orada ailə qurur, dünyasını dəyişirlər. Bu, əsl humanitar fəlakətdir və artıq 10 ildən çoxdur davam edir. Bütün bunlar ancaq ona görə davam edir ki, Ermənistanın işğalçı qoşunları onlara məxsus olmAyan ərazilərdə qalmaqdadır.

Mən bu suala bir qədər ətraflı cavab verəcəyəm. Ermənistanda artıq bunu anlamağa başladıqlarını müsbət fakt hesab edirəm. Bu yaxınlarda Bratislavada Ermənistanın Xarici İşlər naziri öz bəyanatında dedi ki, – bu, sonra Azərbaycan televiziyası ilə bir neçə dəfə səsləndirildi, - Ermənistanın ona məxsus olmayan əraziləri işğal

etməsi faktı onun təcavüzkar olduğuna sübut deyildir. Zənnimcə, bu, mühüm etirafdır. Lakin, prinsipcə, normal cəmiyyətdə belədir ki, sənə məxsus olmayanı qaytarmalısan. Bu, nə qədər tez olsa, bir o qədər yaxşıdır.

**S u a l (*İsveçrə*): Cənab prezident! Dəfələrlə çıxışınızda demisiniz ki, problemləri danışıqlar masası ətrafında həll etməyin tərəfdarısınız. Sizcə, ölkənizlə Ermənistan arasında sülh planı işləyib hazırlamaq mümkün olacaqmı? Bu razılıq nə zaman əldə edilə bilər və onun istiqamətləri necə olacaq?**

**C a v a b:** Biz məsələni sülh yolu ilə həll etmək əzmindəyik. Azərbaycan bunu bir neçə dəfə bəyan edib, amma belə məsələdə hər şey bir tərəfdən asılı olmur. Hər iki tərəf razılığa gəlməlidir. Hesab edirik ki, məsələni həll etmək üçün yaradılmış qurum, – bu, ATƏT-in Minsk qrupudur, onun da həmsədrləri ABŞ, Fransa və Rusiyadır, – münaqişənin aradan qaldırılmasında daha fəal rol oynayacaqdır. İki tərəf razılığa gələ bilməyəndə, vasitəçi təyin olunmuş üçüncü tərəf öz sözünü deməlidir. Bu da danışıqlarda vasitəçilik mandatı olan Minsk qrupudur. Təəssüf ki, bəzi hallarda olduğu kimi, müşahidəçilik yox, vasitəçilik etməlidir. Biz danışıqlar prosesinin davam etdirilməsinə sadiqik. Amma danışıqlar yalnız razılaşdırılmış mövzu ətrafında aparıla bilər. Danışıqların mövzusu yoxdursa, biz danışıqlar aparmaq görüntüsü yaratmaq fikrində deyilik. Azərbaycan görsə ki, danışıqlar prosesi lazımsızdır, onda yəqin ki, bu siyasətimizə yenidən baxmalı olacağıq.

**S u a l (*İsveçrə*): Cənab Prezident! Buradakı açıq və cəsarətli çıxışınız münasibətilə Sizi təbrik edirəm. Konkret mövzular barədə danışdığınıza görə Sizə açıq sual verəcəyəm. İqtisadi artım, demokratik inkişaf və sosial ədalət arasında prioritet seçməyin vaxtı gələndə nə edəcəksiniz? Bu üç məqamı necə birləşdirəcəksiniz?**

**C a v a b:** Çox sağ olun. Mən elə bilirəm ki, adını çəkdiyiniz üç elementin tətbiqi yalnız kompleks şəkildə baş verə bilər. Biri o biri olmadan mümkün deyildir. Əlbəttə, demokratiyasız güclü iqtisadiyyatlı ölkə olmaq mümkündür. Belə hallar məlumdur. Amma əksinə ola bilməz. Güclü iqtisadiyyatsız demokratik, sosial problemləri həll olunmuş ölkə mövcud deyildir. Adətən, kasıb ölkələrdə insanlar demokratik cəmiyyət qurmaq haqqında deyil, yoxsulluğa üstün gəlmək haqqında düşünürlər. Ona görə də bu məsələdə prioritetlər mümkün deyildir. Adını çəkdiyiniz bütün amillər bizim üçün vacibdir. Amma iqtisadi bünövrəsiz demokratik cəmiyyət qurmaq mümkün deyildir. Azərbaycan bundan – iqtisadi əsas qurmaqdan, sərmayələri cəlb etməkdən, iqtisadiyyatı hərtərəfli inkişaf etdirməkdən başlayıb və bu gün gətirdiyim rəqəmlər ölkənin necə inkişaf etməsindən xəbər verir. Həm də nəzərə alın ki, ölkədə hər səkkiz nəfərdən biri qaçqın-köçkündür və hökumət ona vəsait ayırır. Amma, eyni zamanda, sosial ədalət, demokratik inkişaf və iqtisadi inkişaf bunlar bizim prioritetlərimizdir. Zənnimcə, həyata keçirdiyimiz siyasət bunu göstərir.

**S u a l (*Bolqarıstan*): Cənab Prezident, Assambleyanın sabiq üzvü kimi Sizə xatırlatmaq artıqdır ki, buradakı üzvlərin hamısı Cənubi Qafqazda həll olunmamış çoxsaylı münaqişələrdən narahatdır. Beynəlxalq ictimaiyyət münaqişə tərəfləri arasında etimad mühiti yaratmaq üçün bir neçə dəfə cəhd etmişdir. Tərəflər arasında etimad olmalıdır. Sizin münasibətiniz necədir, Siz bu cəhdləri qəbul edirsinizmi?**

**C a v a b:** Zənnimcə, qarşılıqlı etimad olmasa, ümumi razılığa gəlmək çətin olacaqdır. Biz sülh razılığının hər bir bəndi ilə indi razı olmaya bilərik. Razılığa gəlmək üçün müəyyən mərhələ keçməlidir. Ona görə də etimad qurmaq tədbirləri geniş anlayışdır. Etimad qurmaq dedikdə, biz münaqişənin addım-addım həll edilməsini nəzərdə tuturuq. Məsələyə bu cür yanaşmanın məntiqi var. Bu yanaşma hər iki tərəfə tədricən razılığa gəlmək imkanı verir. Məncə, etimadqurmanın ilk addımı kimi, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın işğal olunmuş, Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda yerləşən 7 rayonundan çıxarılarsa, bu, ümumi həllin bir hissəsi olar. Bu fikir müzakirə edilmişdir. Bu ideya Avropa Şurası parlamentində, digər müxtəlif dairələrdə müzakirədən keçib və etimadqurmanın yaxşı nümunəsi kimi ümumi həllə kömək edə bilər.

**S u a l (*Türkiyə*): Cənab Prezident, hər şeydən əvvəl ana dilimizdə – türkcə Sizə «Xoş gəldiniz!» – deyirəm. Tərcüməçi bunun nə demək olduğunu iştirakçılara deyər. Siz neft və qaz layihəsi haqqında danışdınız və həm də layihələrin regiondakı əhaliyə firavanlıq gətirəcəyini dediniz. Layihələrin uğurla həyata keçirilməsi ilə müasir şəraitdə qaldırılmış «daha geniş Avropa» təşəbbüsü arasında əlaqəni necə görürsünüz?**

**C a v a b:** Əlbəttə, layihələrin həyata keçirilməsi bizim Avropa Birliyi ilə müxtəlif sahələrdə əlaqələrimizə təsir göstərəcəkdir. Əvvəla, bu, Azərbaycanda çox güclü iqtisadiyyat yaradılmasına hər halda kömək edəcəkdir. Yalnız neft amilinin bizə firavan yaşamaq imkanı verəcəyini düşünmək sadəlövhlük olardı. Yox, biz gərək yorulmadan işləyək, təbiətin verdiyi nadir imkandan istifadə edib güclü iqtisadiyyat yaradaq ki, gələcəkdə neftdən və neftin qiymətlərindən asılı olmayaq. Budur, bizim strateji məqsədimiz. Lakin güclü iqtisadiyyatın qurulması həm də ölkəmizin Avropa standartlarına yaxınlaşması deməkdir. Zənnimcə, bu, münasibətlərimizdə mühüm rol oynayacaqdır. İkincisi, bizim proqramımızla Azərbaycan 2006-cı ildən başlayaraq Türkiyəyə təbii qaz nəql edəcəkdir. Bilirsiniz ki, Türkiyə Yunanıstanla qazpaylayıcı sistemlərini birləşdirmək barədə razılığa gəlibdir. Beləliklə, təbii qazımız Türkiyədən Yunanıstana, daha sonra Avropanın digər ölkələrinə daşınmalıdır. Bu, baş verərsə, – yeri gəlmişkən, bunun özü də bizim strategiyamızın gündəliyindədir, – onda Azərbaycan Avropa istehlakçılarının qaz təchizatçısı olacaqdır. Özü də bütün nəqliyyat xərclərinin və digər xərclərin nəzərə

alınması şərti ilə etibarlı və səmərəli bir təchizatçı. Bu, yalnız ilk baxışdan görünən və bizim nəzərdə tutduğumuz amillərdir. Bundan sonra da digər cəhətlər yaranacaqdır.

Bu, Azərbaycanda nəzərdə tutulan neft və qaz layihələrinin yalnız bir hissəsidir. Yeri gəlmişkən, sizə bu günün reallıqlarını əks etdirən bir rəqəm deyim. Azərbaycanda həyata keçirilən 4 neft və qaz layihəsi üzrə gündə 10 milyon dollar vəsait yatırılır. Hər gün 10 milyon! Bu onu göstərir ki, həmin kreditləri verən beynəlxalq maliyyə qurumları bizə inanırlar. Bu, bizə olan inamı artırır, gələcəkdə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə, digər banklarla, müxtəlif sektorlarla iş imkanlarımızı artırır. Əlbəttə, bu, baş verərsə, – əminəm ki, baş verəcək, – Avropa Birliyi ilə münasibətlərimiz başqa cür ölçüləcəkdir. Həm neft layihələri, həm nəqliyyat layihələri, qeyri-neft sahəsi, inteqrasiya ilə bağlı layihələr. Əsas enerji layihələrindən sonra digər layihələr də gələcəkdir.

**S u a l (*Finlandiya*): Cənab Prezident! Azərbaycanda keçirilmiş prezident seçkiləri ilə bağlı məruzədə deyilib ki, bəzi seçki məntəqələrində çatışmazlıqlara yol verilmişdir. Bununla bağlı nə kimi qərarlar qəbul olunmuşdur?**

**C a v a b:** Azərbaycanda ötən ilki seçkilər ölkədəki real durumu əks etdirir. Əlbəttə, bəzi çatışmazlıqlar olmuşdu, bu da onunla bağlıdır ki, bizdəki qanunlar kamil deyildir. Açıq desək, bugünkü gündə biz Avropa Birliyi standartları səviyyəsində seçki keçirə bilmərik. Amma seçkilərin real şəraiti əks etdirməsi, seçicilərin etdiyi seçimi düzgün göstərməsi faktı şübhəsizdir. Azərbaycanda seçkilərdən əvvəl bir neçə sorğu aparılmışdı, eləcə də beynəlxalq təşkilatların keçirdiyi sorğular olmuşdu. Onlardan biri Amerika Birləşmiş Ştatlarının Respublikaçılar İnstitutunun hələ seçki kampaniyası başlamazdan əvvəl keçirdiyi sorğudur. Bu sorğu göstərdi ki, seçicilərin 65 faizdən çoxu mənə səs verəcək. Bizim keçirdiyimiz seçki kampaniyası mənim proqramımı və görəcəyim işləri daha qabarıq bəyan etmək imkanı verdi. Daha bir vacib amil də ondan ibarətdir ki, müxalifət öz arasında vahid namizəd seçə bilmədi və seçki kampaniyasında hakim partiyanın namizədi ilə deyil, öz aralarında mübarizə aparırdılar, bu da mənə əlavə səslər gətirdi. Başqa sözlə, Azərbaycan cəmiyyətində və Azərbaycandan kənarda şübhə yoxdur ki, seçkinin nəticələri real şəraiti əks etdirir. Eyni zamanda, çatışmazlıqlar qeydə alınan seçki məntəqələri ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür. Səhv etmirəmsə, 600 seçki məntəqəsinin nəticəsi ləğv olunmuşdur. Bu o deməkdir ki, bütün lazımi addımlar atılmışdır və əminəm ki, proses davam etdiriləcək, gələn seçkilər daha yaxşı keçiriləcəkdir. İndiki seçkilər də əvvəlki seçkilərlə müqayisədə daha yaxşı keçirilmişdir. Reallıqda belə olur.

Azərbaycan yeni müstəqil ölkədir. Hələ ki, bütün standartlara uyğun deyildir. Bu seçkilərdə Azərbaycanda minlərlə müşahidəçi var idi və proses davam edəcəkdir. Əminəm ki, gələcəkdə bu sahədə problemlərin sayı azalacaqdır.

**S u a l (*Böyük Britaniya*): Cənab Prezident! Azərbaycanda siyasi məhbuslarla bağlı məruzəçi kimi Sizə minnətdarlığımı bildirirəm ki, dekabrda məni qəbul etdiniz və dünənki konstruktiv dialoqa görə sağ olun. Məhbusların azadlığa buraxılması ilə bağlı qəbul etdiyiniz qərara hörmətlə yanaşıram. Necə düsünürsünüz, sentyabra qədər Avropa Şurası ilə ölkəniz arasında bu məsələ ilə bağlı mövzunu qapadıb Sizin plüralist demokratiya qurmaq məqsədinizə çata biləcəyikmi?**

**S u a l (*Ermənistan*): Biz beynəlxalq əməkdaşlıq üzrə bir sıra sənədlərə qoşularkən Azərbaycan dəfələrlə Ermənistanın bütün regional və beynəlxalq layihələrdə iştirakının əleyhinə çıxmışdır. Azərbaycanda yeni seçilmiş prezident kimi Sizə belə sualla müraciət etmək istərdim. Siz bu siyasəti davam etdirmək əzmindəsinizmi? Əgər belədirsə, hesab etmirsinizmi ki, regionda hansısa bir ölkənin layihələrdə iştirakının olmaması gərginliyin azaldılmasına xidmət etməyəcək və əməkdaşlıq imkanını qaçıracağıq?**

**C a v a b:** İlk əvvəl cənab Brouzun sualına cavab vermək istəyirəm. Azərbaycan Avropa Şurasına üzvlüyə qəbul olunduğu zaman və daha sonrakı iştirakı dövründə üzərinə götürdüyü öhdəliklərə sadiqdir. Mən özüm bu səhifəni bağlamaq əzmindəyəm. Çünki bizim görəcəyimiz digər işlər var. Ölkəmizi inkişaf etdirməliyik. Gərək müasir, demokratik, azad cəmiyyət quraq və əlbəttə keçmişin, tarixin qalıqları tarix kimi qalmalıdır. Biz bu mövqeyimizi dəfələrlə bildirmişik və əminəm ki, Azərbaycanın bütün siyasi spektri birləşib dağıdıcılıqla yox, yaradıcılıqla məşğul olarsa, biz məqsədlərimizə daha tez çatarıq. Keçmişin problemləri ondan ibarətdir ki, Azərbaycandakı bəzi qüvvələr hökumətə qarşı çıxmaqla, əslində, dövlətçiliyə qarşı çıxırdılar, müstəqilliyimizə qarşı fəaliyyət göstərirdilər. Elə cinayətlər törətmişlər ki, həmin cinayətlər bizim suverenliyimizə qarşı yönəlmişdi. Ağır cinayətlər törədilmişdi. Biz buna yol verməməliyik. Biz çoxlu problemləri olan ölkəyik. Torpaqlarımız işğal altındadır, qaçqınlarımız var. Bizim cəmiyyət birləşməlidir. Bütün azərbaycanlılar Azərbaycanın müstəqilliyinin daha da gücləndirilməsi ideyası ətrafında birləşməlidirlər. Hamımız Ermənistanla münaqişəyə son qoymaq, torpaqlarımızı azad etmək ideyası ətrafında birləşməliyik. Mən prezident seçildikdən sonra, andiçmə mərasimindən sonrakı ilk çıxışımda dedim ki, bütün azərbaycanlıların prezidenti olacağam və mən bunu etməkdəyəm. Ona görə də keçmişin faciəvi tarixinə son qoymaq işimizi davam etdirəcəyik. Amma bunu tək etmək çətindir. Bütün siyasi qüvvələr bu prosesin fəal iştirakçıları olmalıdırlar. Elə bilirəm ki, məhbusları əfv etməklə bağlı atdığım addımlar mənim bu sahədə niyyətimi göstərir və bu yol davam edəcəkdir.

İkinci sualla bağlı həm cavab vermək, həm də aydınlaşdırmaq istəyirəm. Bu, çox vacib mövzudur. Yeri gəlmişkən, Assambleyanın üzvü olarkən bu haqda bir neçə dəfə danışmışam. Bir az da aydınlaşdırım. Bəzən yalançı görüntü yaratmağa çalışırlar ki, Ermənistan Azərbaycanla əməkdaşlıq etmək istəyir, Azərbaycan isə

yox. Bu, doğrudur. Amma bunun səbəbləri var. Azərbaycanın ərazisi işğal olunub. Əlbəttə ki, biz torpaqlarımızı işğal etmiş ölkə ilə əməkdaşlıq edə bilmərik. Təsəvvür edin ki, ölkəniz işğal olunub və işğalçılar sizə təklif edirlər ki, gəlin əməkdaşlığa başlayaq. Bu, ciddi söhbət deyil, ona görə də Dağlıq Qarabağ münaqişəsi həll olunmayanadək Azərbaycan heç vaxt Ermənistanla əməkdaşlıq etməyəcəkdir. Ermənistan regionda əməkdaşlıq etmək istəyirsə, qoy eləsin. Bizim öz siyasətimiz var. Amma bugünkü günün faktı, reallığı ondan ibarətdir ki, Azərbaycansız heç bir regional əməkdaşlıq mümkün deyildir.

Həm də gəlin görək, Ermənistan bu işğaldan nə əldə edibdir, nə qazanıbdır? Gəlin bu sualı verək: Ermənilər daha yaxşı yaşamağa başlayıblar? Ermənistan iqtisadi və siyasi cəhətdən daha çox güclənib? Onların dünyadakı imici yaxşılaşıb? Qoy bu sualları onlar özlərinə versinlər və cavab tapsınlar. Digərlərinə məxsus olan əraziləri işğal altında saxlamaq ölkəyə müsbət imic gətirmir. Ona görə Ermənistanla regional əməkdaşlıq mümkün deyildir. Bir daha vurğulamaq istəyirəm ki, bu, bizim ölkəmizin rəsmi mövqeyidir. O vaxta qədər ki, işğalçılar Azərbaycan ərazisindən geri çəkilməyəcəklər.

**P i t e r  Ş i d e r:** Cənab Prezident Əliyev, mən Assambleya adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Avropa Şurası Parlament Assambleyasına gəldiyinizə görə, buradakı çıxışınıza görə, sualları cavablandırdığınıza görə çox sağ olun. Sizə ən xoş arzularımızı, ölkənizə ən xoş diləklərimizi bildiririk.

**İ l h a m  Ə l i y e v:** Siz də sağ olun.

* * *

*Elə həmin gün Strasburqda Avropa Şurası Parlament Assambleyasının sədri Piter Şider tərəfindən Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verildi.*

*Cənab Piter Şider, eləcə də Avropa Şurasının digər rəhbərləri, deputatlar Azərbaycan prezidentini səmimi, məzmunlu və cəsarətli çıxışına görə təbrik etdilər. Fikir mübadilələri zamanı Azərbaycanın Avropa ailəsinə daha sıx inteqrasiyası istiqamətində aparılan işlər bir daha təqdirəlayiq hesab olundu.*

## AVROPA ŞURASININ İQAMƏTGAHINDA – AVROPA SARAYINDA MƏTBUAT KONFRANSI*

*29 aprel 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

İlk əvvəl demək istəyirəm ki, Avropa Şurasında olmaq mənim üçün böyük şərəfdir. Bu gün səhər Avropa Şurası Parlament Assambleyasının sədri, Avropa Şurasının Baş katibi, digər rəsmilərlə görüşlərim olmuşdur. Parlament Assambleyasının sessiyasında çıxış etmək imkanım olmuşdur. Mən bir neçə il Avropa Şurasındakı Azərbaycan nümayəndə heyətinin başçısı olmuşam və həmin dövrlərdə çox vacib mövzularla bağlı birgə fəaliyyətimizi məmnuniyyətlə xatırlayıram. Bunlar Avropa, bizim ölkə, region üçün çox mühüm mövzulardır. Azərbaycan Avropa Şurasının çox fəal üzvüdür. Bu təşkilatda üzvlüyümüz bizim üçün vacibdir. Avropa Şurasının üzvü kimi Azərbaycan üzərinə müəyyən öhdəliklər götürüb və onları həyata keçirir.

Avropa Şurasına qəbul edildiyimiz üç il müddətində ölkədə bir sıra dəyişikliklər baş veribdir. Siyasi sahədə bir sıra qanunvericilik aktları qəbul olunubdur və ölkə demokratik yöndə inkişafını davam etdirir. Bu, bizim strateji məqsədimizdir. Məqsədimiz müasir günün tələblərinə cavab verən demokratik cəmiyyət qurmaqdır. Güclü iqtisadiyyat yaratmaq, qanunun aliliyini, hər bir vətəndaşa bütün hüquqları və imkanları təmin etməkdir. Hər bir vətəndaşa imkan yaratmaqdır ki, öz fikirlərini və baxışlarını sərbəst ifadə edə bilsin. Giriş çıxışımla vaxtınızı çox almaq istəmirəm. Yaxşı olar ki, sual-cavaba çox vaxt ayıraq. Suallarınıza cavab verməkdən xoşbəxt olaram. Sağ olun!

* * *

**S u a l: Cənab Prezident, Siz bir neçə ay bundan əvvəl bildirmisiniz ki, Dağlıq Qarabağ üzrə danışıqlar sıfır nöqtəsindən başlamalıdır. Siz sıfır nöqtəsi dedikdə nəyi nəzərdə tutursunuz?**

**C a v a b:** Sizin dedikləriniz həqiqəti düzgün əks etdirmir. Bu mövzu ilə bağlı lap əvvəldən başlasaq görərik ki, ilk dəfə bu mövzu ilə əlaqədar Ermənistan şərh vermişdir. Çalışıb mövzunu elə qələmə versin ki, guya Ermənistanla Azərbaycan arasında hansısa bir razılıq əldə edilmişdir və İlham Əliyev prezident olduqdan sonra bu razılığı pozmuşdur. Bu, faktları saxtalaşdırmağın daha bir nümunəsidir.

Keçmişdə Ermənistan və Azərbaycan prezidentləri arasında heç bir razılıq olmayıbdır. Bu, birincisi. Mən istərdim mətbuat nümayəndələrindən xahiş edim ki, fikirlərini bunun ətrafında cəmləşdirsinlər, daha söz-söhbətə fikir verməsinlər. Bu yaxınlarda Birləşmiş Ştatların Dövlət katibinin müavini Azərbaycana səfər etmişdir. O açıq dedi ki, Ermənistanla Azərbaycan arasında heç bir razılıq yoxdur. Ona görə də razılıq olmadığı halda danışıqlar da müxtəlif istiqamətdə aparıla, bütün mövzular müzakirə oluna bilər. Razılıq olmadığına görə heç bir öhdəlik də yoxdur. Ona görə də hər tərəf danışıqları öz siyasətinə uyğun olaraq sərbəst apara bilər.

Azərbaycanın mövqeyi aydındır və dəfələrlə bəyan edilmişdir. Bu bəyanatlarla indiyədək tanış olmağa imkanınız olmayıbsa, mən sizin yadınıza salım: Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyinə, yaxud Ermənistanın bir hissəsi olmasına razılıq verməyəcəkdir. Dağlıq Qarabağ Azərbaycanındır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Beynəlxalq hüququn bütün normaları da bunu tələb edir.

**S u a l: Cənab Əliyev, mən Sizə Ukrayna ilə münasibətlər, regional əməkdaşlıqla bağlı sual vermək istəyirəm. Odessa–Brodı boru kəməri ilə bağlı bizim prezidentimiz Kuçma bildirmişdir ki, Amerika şirkətləri bu kəmərin tikintisində maraqlı deyildirlər. Siz bu mövzu ilə bağlı nə deyə bilərsiniz? Xəzər dənizindən neftin bu yolla Avropaya daşınması Azərbaycan üçün maraqlıdırmı? Belədirsə, bu kəmərlə nə qədər neft daşımaq fikrindəsiniz?**

**C a v a b:** Ukrayna ilə münasibətlərimiz konstruktiv və dostluq münasibətləridir. Biz dostuq, əməkdaşlıq münasibətləri qurmuşuq və çox yaxşı siyasi münasibətlərimiz var. Mənim prezident Kuçma ilə şəxsi münasibətlərim yaxşıdır və tezliklə Ukraynaya rəsmi səfər etməyə hazırlaşıram. Bir sıra regional təşkilatların, məsələn, GUÖAM-ın üzvüyük. Nəqliyyat, kommunikasiya boru kəmərləri daxil olmaqla müxtəlif sahələrdə əlaqə saxlayır, əməkdaşlıq edirik. Azərbaycan bir neçə dəfə Odessa–Brodı boru xəttinə siyasi dəstəyini bildirmişdir. Əlbəttə ki, bu mövzuya iqtisadi mənfəət baxımından yanaşmaq lazımdır. Azərbaycan neftini nəql etmək üçün bizim iki işlək neft kəmərimiz var. Üçüncüsü isə tikilir və gələn il istismara veriləcəkdir. Üç boru

* Mətbuat konfransında müxtəlif ölkələrdən olan kütləvi informasiya vasitələrinin Avropa Şurasında akkreditə olunmuş nümayəndələri iştirak edirdilər.

kəməri tam gücü ilə işləyərsə ümumi nəql həcmi təxminən 100 milyon tona yaxın olacaqdır. Bu həcmdə nefti müxtəlif istiqamətlərdə nəql etmək olar. Biz nəqliyyat siyasətimizi kommunikasiyaları şaxələndirmək əsasında qururuq. Əlbəttə, beynəlxalq bazarlara neftini daşımağa Azərbaycanın nə qədər çox imkanı olarsa, bir o qədər də yaxşı olar. Ona görə də biz Odessa–Brodı boru xəttinin praktiki əhəmiyyətinə ciddi fikir veririk. Deyə bilərəm ki, artıq əməli müzakirələrə başlamışıq. Mən boru xəttinə uğur arzu edirəm.

**S u a l: Cənab Prezident, sualım Azərbaycandakı siyasi məhbuslarla bağlıdır. Sizin növbəti əfv fərmanınızda 15-16 oktyabr hadisələri ilə bağlı həbs olunanların azadlığa buraxılması nəzərdə tutulurmu? İkinci sual, vətəndaş cəmiyyətinin həmrəyliyi üçün müxalifətlə dialoqu nəzərdə tutursunuzmu? Üçüncü sual, Prezident sarayında keçirilən bəzi tədbirlərdə müxalifət mətbuatının iştirakı problemli olur. Bu, sizin siyasətinizdir, yoxsa başqa səbəblər var?**

**C a v a b:** Son 3 il müddətində Avropa Şurasında məhbuslar mövzusu geniş müzakirələrdən keçdi. Mövzu ilə bağlı tövsiyələr, müzakirələr, fikir mübadiləsi hər iki tərəf üçün çox əhəmiyyətlidir. Azərbaycanın mövzu ilə bağlı siyasəti aydındır və faktlar bütün sözlərdən daha çox məna kəsb edir. Biz güclü, demokratik cəmiyyət qurmaq əzmindəyik. Bu cəmiyyətdə hər bir vətəndaş bütün haqlardan və azadlıqlardan istifadə etməli və onun bütün hüquqları və azadlıqları qorunmalıdır.

Eyni zamanda cinayət törədən adamlar cəzalanmalıdır. Belə olmasa nə demokratiya olar, nə də ümumiyyətlə, cəmiyyət ola bilər. Anarxiya və xaos olar. Ona görə də cinayət törətmiş adamlarla digərləri arasında ciddi fərq qoyulmalıdır. Proses davam edir və bugünkü gündə Avropa Şurasında ona hörmətlə yanaşırlar. Eləcə də Azərbaycan cəmiyyəti bu sahədə aparılan siyasəti bəyənir. 15-16 oktyabr hadisələrindən sonra həbs olunanlar siyasi məhbus hesab edilə bilməz. Onların təqsiri məhkəmə tərəfindən müəyyən olunacaq, qərarı da məhkəmə verəcəkdir. Elə bilirəm, cəmiyyətimizin xeyri üçün yaxşı olar ki, siyasi partiyalarımız müxtəlif mövzularla bağlı müzakirələri küçələrdə deyil, masa ətrafında aparsınlar. Daha əllərinə daş-kəsək, dəmir parçaları almaqla yox. Polisə rəhmsiz hücum etməklə yox. Dünyanın istənilən ölkəsində polisə Azərbaycanda 16 oktyabrda olduğu kimi hücum etsəydilər, cavab tədbirləri eyni olardı. Bəzi ölkələrdə isə cavab tədbirləri daha qətiyyətli olardı. Ona görə hesab edirəm, hər iki tərəf aydın anlamalıdır ki, demokratik cəmiyyətdə yaşayırıq. Amma elə cəmiyyətdə ki, qanunun aliliyi hər şeydən üstündür və kimsə cinayət törədirsə cəzalanmalıdır.

Dialoqla bağlı. Bununla bağlı bir neçə dəfə – seçkilərdən əvvəl, seçkilərdən sonra müraciət etmişəm. Seçkilərdən əvvəl bunu əlavə səslər qazanmaq xatirinə eləmədim. Ölkədəki vəziyyət mənə məlum idi. İctimaiyyətin rəyi ilə tanış idim. Əlavə səslərə ehtiyacım yox idi. Bunu inandığıma görə etdim. Mən hökumətlə müxalifət arasındakı konstruktiv münasibətlərə inanıram. Təəssüf ki, Azərbaycanda bu, belə deyildir. Amma eyni zamanda mən günaşırı dialoq təklif etmək fikrində də deyiləm. Mən bunu bir neçə dəfə, üç dəfədən də artıq etmişəm. Amma hələ cavab almamışam. Müxalifətə də dialoq lazımdırsa, hər iki tərəfdən qarşılıqlı hərəkət olmalıdır.

Mətbuatın fəaliyyətinə gəldikdə Azərbaycanda mətbuat azaddır, senzura, qadağalar yoxdur. İstədiklərini yaza bilərlər. Bu da normaldır, çünki demokratik cəmiyyətdə yaşayırlar. Eyni zamanda hər bir oxucu da bu və ya digər qəzeti oxuya bilər və yaxud ona baxmaya bilər. Hər bir təşkilat da bu və ya digər qəzeti öz tədbirlərinə dəvət edib-etməməkdə azaddır. Hər bir tərəfin haqqı var və bu haqdan istifadə edə bilər. Burada təsirlə nə isə əldə etmək mümkün deyildir. Biz gərək bir-birimizin haqlarına hörmət etməyi öyrənək.

**S u a l: Cənab Prezident, Sizin səyinizlə, Azərbaycan nümayəndə heyətinin səyi ilə Avropa Şurası Parlament Assambleyasının sənədlərində Ermənistan təcavüzkar, işğalçı dövlət kimi tanınır. Bu sənədlər Avropa Şurasının üzvü olan ölkələrin Ermənistanı işğalçı ölkə kimi tanımasına əsas ola bilərmi?**

**C a v a b:** Avropa Şurasında qəbul olunmuş bu sənədlər böyük əhəmiyyət kəsb edir. İlk dəfədir ki, belə mötəbər bir təşkilat öz sənədlərində Ermənistanı Azərbaycanın ərazilərini işğal etmiş bir dövlət kimi tanıyır. Bəzi qətnamələrdə Azərbaycanın bütün işğal olunmuş rayonlarının adı çəkilir. Digər qətnamələrdə bir milyondan artıq qaçqın-köçkün məsələsinə toxunulur. Bəzi sənədlərdə «Dağlıq Qarabağ və Azərbaycanın işğal olunmuş digər əraziləri» ifadəsi işlədilir. Bunun özü də vacibdir, çünki sənədlərdə tanınır ki, Dağlıq Qarabağın özü də ermənilər tərəfindən işğal olunmuş Azərbaycan ərazisidir. Bütün bunlar müsbət məqamlardır. Onlar vəziyyəti olduğu kimi, düzgün əks etdirir.

Ermənilər uzun müddət çalışıblar ki, vəziyyəti başqa cür büruzə versinlər. Elə indinin özündə də çalışırlar, amma bir o qədər müvəffəqiyyətlə yox. Özlərini qurban kimi qələmə verirlər. Amma mən başa düşə bilmirəm ki, nəyin qurbanı kimi. Bu gün həqiqət gizlədilə bilməz. Həqiqət də ondan ibarətdir ki, Ermənistan Azərbaycanın ərazilərini işğal edib, bu işğalın nəticəsi kimi bizim 1 milyon qaçqınımız və köçkünümüz var, onlar çox çətin şəraitdə yaşayırlar. Ermənistan beynəlxalq hüququn bütün normalarını pozub onlara məxsus olmayan əraziləri nəzarət altında saxlayır.

Yeri gəlmişkən, bu ərazilər heç vaxt onlara məxsus olmayıbdır. Tarixə nəzər salsaq – münaqişənin tarixini çoxları yaxşı bilirlər – ermənilər bugünkü Dağlıq Qarabağ ərazisinə gəlmədirlər. Ermənilər Dağlıq Qarabağ ərazisinə 1820-ci illərdən gəlmişlər. Onlar azərbaycanlıların qonaqpərvərliyindən istifadə edib bu yerlərdə məskən salmışlar. Bir əsr keçəndən sonra separatist hərəkata başladılar. Mənim dediklərimin təsdiqini tapmaq üçün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindəki abidənin şəklinə baxmaq kifayətdir. Həmin abidə 1970-ci illərdə ucaldılmış

və ermənilərin ilk köçünün Dağlıq Qarabağda məskən salmasının 150 illiyinə həsr olunmuşdur. Abidəni də ermənilər özləri ucaltmışlar. Bu, aydın göstərir ki, həmin ərazi heç vaxt ermənilərə məxsus olmayıbdır. Bu, məsələnin tarixi tərəfidir. Hüquqi tərəfi isə ondan ibarətdir ki, işğal bütün beynəlxalq hüquq normalarına ziddir və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Avropa Şurasının fəaliyyəti çox faydalıdır. Siyasi komitədə hazırlanan məruzə məsələyə siyasi qiymət verəcək və münaqişəyə ümumi yanaşma formulunu müəyyən edəcəkdir. Münaqişə öz əksini yazılı qətnamədə tapacaq, orada işğalçı qüvvələrin dərhal geri çəkilməsi zərurəti göstəriləcəkdir.

**S u a l: Budapeştdə Azərbaycan zabiti erməni zabitini qətlə yetirmişdir. Azərbaycan mətbuatında zabitin müdafiəsi üçün maddi vəsait toplamaqla bağlı çağırışlar səslənirdi, onu milli qəhrəman adlandırırdılar. Sizin məsələyə münasibətiniz necədir?**

**C a v a b:** Bizim rəsmi mövqeyimiz Xarici İşlər Nazirliyinin bəyanatında ifadə olunmuşdur. Hamının bu bəyanatla tanış olmaq imkanı vardır. Amma eyni zamanda, əlbəttə ki, biz baş verən hadisədən təəssüflənirik, buna bəraət qazandırmaq olmaz. Bununla yanaşı, yadınıza salmaq istəyirəm ki, 2003-cü il ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində erməni snayperləri tərəfindən 20 Azərbaycan vətəndaşı, dinc sakinlər, mülki adamlar qətlə yetirilmişdir. Qətlə yetirilənlər də insandır. Onların Avropada deyil, Azərbaycanda qətlə yetirilməsi vəziyyəti yüngülləşdirmir. Onlar da insandır, ermənilər tərəfindən qətlə yetiriliblər, erməni snayperləri tərəfindən qəsdən öldürülüblər. Ona görə də düşünürəm, yaxşı olar ki, bundan siyasi şou düzəltməyəsiniz. Belə hallar baş verir, bunun da səbəbi Ermənistanın təcavüzünün, Azərbaycan ərazilərinin işğal altında saxlanmasının davam etməsidir. Düşünürəm ki, məsələyə son qoymağın ən yaxşı çıxış yolu, bu cür halların baş verməməsinin yolu münaqişənin dinc vasitələrlə həll olunmasıdır. Bu problemin həll olunması isə yalnız beynəlxalq hüquq normaları gözlənildiyi halda mümkündür.

**S u a l: Sualım iqtisadiyyatla bağlıdır. Rusiya mediasında belə bir fikir vardır ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri tikildikdən sonra Azərbaycan Bakı–Novorossiysk neft kəməri ilə daşımaları azaldacaqdır. Bu, reallığa nə qədər uyğundur? İkinci sual. Sentyabrda, Siz hələ baş nazir olarkən, Krımda Rusiya, Ukrayna, Belarus və Qazaxıstan ümumi iqtisadi zona yaradılması barədə razılıq əldə ediblər. Azərbaycan bu razılaşmaya qoşulmağa nə qədər yaxındır?**

**C a v a b:** İndi Bakıdan Rusiyanın Novorossiysk limanına gedən kəmərlə təxminən 2,5 milyon ton neft nəql olunur. Demək istərdim ki, bu neft tamamilə Azərbaycana məxsusdur. Bu o deməkdir ki, yüz faiz ARDNŞ tərəfindən hasil edilir. Eyni zamanda Azərbaycanın xarici sərmayəçilərlə birgə hasil etdiyi neft də var və bu neft Bakı–Supsa kəməri ilə Gürcüstana ixrac olunur. Həmin kəmərlə daşınan neftin həcmi 6 milyon tona yaxındır. Əlbəttə ki, Bakı–Tbilisi–Ceyhan xətti tamamlandıqdan sonra Azərbaycanın daha böyük həcmdə, 50 milyon tondan artıq neft nəql etmək imkanı olacaqdır. Amma biz, ARDNŞ Bakı–Novorossiysk xətti ilə nəql edilən neftin həcmini azaltmaq fikrində deyilik. Əksinə, Rusiya–Azərbaycan birgə komissiyası Bakı–Novorossiysk xəttinin daha çox cəlbedici yollarını axtarırlar ki, bəlkə gələcəkdə bu kəmər vasitəsilə daşınan neftin həcmi artsın. Amma bunu etməkdən ötrü, əlbəttə, digər kəmərlərlə müqayisədə bu kəmər bərabər iqtisadi göstəricilərə malik olmalıdır. Təəssüf ki, bu gün Azərbaycan üçün nefti Novorossiyskə nəql etmək digər variantlardan az sərfəlidir.

Amma dediyim kimi, nəqli dayandırmaq fikrində deyilik və onu azaltmayacağıq. Rusiya tərəfi ilə mümkün variantlar üzərində işləyəcəyik.

İkinci sualla bağlı demək istəyirəm ki, Azərbaycan ümumi iqtisadi zona ilə əlaqədar hələ daha çox məlumat toplayır: bu zona nədən ibarət olacaq, əsas element nədir? Biz qonşularla regional əməkdaşlıq mövzuları ətrafında işləyirik və iqtisadi mövzular haqqında da düşünürük. Amma dediyiniz məsələ ilə bağlı daha çox məlumat almalıyıq. Ümid edirəm ki, bu məlumatı əldə edəcəyik.

**S u a l: Siz ölkənin siyasəti haqqında danışdınız. Ölkə vətəndaşlarının istifadə etdikləri hüquqlar milli azlıqlara da aiddirmi?**

**C a v a b:** Azərbaycanda milli azlıqlar var. Bütün başqa vətəndaşlar kimi, həmin azlıqların da öz hüquqları və öhdəlikləri var. Cəmiyyətimiz çox dözümlüdür. Etnik və dini tolerantlıq ölkəmizin əldə etdiyi ən yüksək nailiyyətlərdəndir. Bu, uğurlu inkişafın çox vacib amilidir. Milli azlıqları olmayan ölkələrdə, qonşuluğumuzda olan monoetnik ölkədə isə, əksinə, bununla bağlı problemlərlə üzləşirlər. Biz qloballaşma, inteqrasiya dövründə yaşayırıq və əlbəttə ki, Azərbaycanda yaşayan bütün milli azlıqlar bərabərhüquqlu vətəndaşlardır. Onların hüquqları bizim qanunvericiliklə qorunur. Ölkəmizdə milli azlıqların azad, sülh şəraitində yaşaması faktı onlara olan normal münasibətlərin göstəricisidir və bu siyasət davam etdiriləcəkdir.

**S u a l: ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri Rusiyadır və onun həm Ermənistanla, həm də Azərbaycanla yaxşı əlaqələri var. Rusiya münaqişənin həllində xüsusi rol oynaya bilərmi?**

**C a v a b:** Biz hesab edirik ki, Minsk qrupu həmsədrlərinin hər biri bu prosesdə fəal iştirak edəcəkdir. Onların mandatı bundan ibarətdir və cavabdeh olduqları sahə prosesdə vasitəçilik etməkdir. Biz bütün həmsədrlərdən – həm Rusiya, həm Fransa, həm də Birləşmiş Ştatlardan məsələnin sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında həll olunması istiqamətində daha fəal səylər gözləyirik. Əlbəttə, Rusiya həm

Ermənistanla, həm də Azərbaycanla yaxşı münasibətləri olan bir dövlətdir və münaqişəni həll etmək üçün mühüm rol oynaya bilər.

## AVROPA ŞURASININ İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞ

*29 aprel 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Avropa Şurasının İnsan Hüquqları Məhkəməsinə gəldi.*

*Dövlətimizin başçısını binanın önündə məhkəmənin sədri Luzius Vildhaber, Azərbaycan Respublikasının məhkəmədəki hakimi Xanlar Hacıyev və digər şəxslər ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev binanın salonları, iş otaqları ilə tanış oldu.*

*Sonra Azərbaycan prezidenti ilə Avropa Şurasının İnsan Hüquqları Məhkəməsinin sədri arasında görüş keçirildi.*

*Dövlətimizin başçısı Azərbaycanda insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin qurulması, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları barədə ətraflı bəhs etdi. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, insan hüquqlarının qorunması sahəsində Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.*

*Söhbət zamanı Azərbaycanda qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması və qarşılıqlı maraq doğuran bir sıra başqa məsələlər haqqında da fikir mübadiləsi aparıldı.*

**AVROPA ŞURASININ İQAMƏTGAHINDA –**
**AVROPA SARAYINDA AZƏRBAYCAN**
**PREZİDENTİ İLHAM ƏLİYEVİN**
**ŞƏRƏFİNƏ ZİYAFƏT**

*29 aprel 2004-cü il*

*Avropa Şurasının iqamətgahında –Avropa sarayında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin şərəfinə ziyafət verilmişdir.*

*Ziyafətdə Avropa Şurasının Baş katibi Valter Şvimmer, AŞPA-nın sədri Piter Şider, AŞ-nin digər rəhbər şəxsləri, AŞPA-da müxtəlif ölkələri təmsil edən deputatlar, Strasburqa yaşayan azərbaycanlılar, mətbuat nümayəndələri iştirak edirilər.*

*Prezident İlham Əliyev salona toplaşanlarla səmimi söhbət etdi, müxtəlif məsələlər haqqında fikir mübadiləsi apardı.*

## FRANSANIN «ARABİ» JURNALINA MÜSAHİBƏ

*Parisdə nəşr olunan aylıq «Arabi» jurnalının aprel nömrəsində tanınmış siyasi icmalçı Kristian Maların və jurnalist Florans Burdonun bu ilin yanvarında Fransaya rəsmi səfəri zamanı Azərbaycan prezidenti İlham Əliyev ilə müsahibələri dərc olunmuşdur. AzərTAc həmin müsahibənin mətnini oxuculara təqdim edir.*

*İlk rəsmi səfəri üçün Fransanı seçmiş Azərbaycanın Prezidenti İlham Əliyev ölkəsinin Fransa ilə iqtisadi münasibətlərindən, eləcə də Azərbaycan dövlətinin müsəlman dünyasındakı yeri haqqında söhbət açdı.*

**– Prezident seçildikdən sonra ilk rəsmi səfəriniz üçün Fransanı seçdiniz. Bu, strateji bir seçimdirmi?**

– Adətən ilk rəsmi səfərə xüsusi diqqət yetirilir və bu da təbiidir. Fransa və Azərbaycan bir-birlərinə yaxındırlar, siyasi və iqtisadi əməkdaşlıq çox yaxşıdır. Prezident Heydər Əliyev və prezident Jak Şirak dost idilər. 1993-cü ildə prezident Heydər Əliyev də ilk rəsmi səfərini məhz Fransaya etmişdi. Biz ikitərəfli əlaqələrimizə xüsusi diqqət yetiririk. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Fransanın daha fəal rol oynayacağına çox böyük ümid bəsləyirik. Prezident Jak Şirakın dəvətini böyük məmnuniyyətlə qəbul etdim. Beləliklə, səfərin bir neçə səbəbi vardır.

**– Avropaya yaxınlaşmağınız ABŞ-dan həddindən artıq asılı olmamaq deməkdirmi?**

– Son on il ərzində diplomatiyamız və xarici siyasətimiz qonşularımızla, böyük ölkələrlə və dostlarımızla səmimi əlaqələrin qurulmasından ibarətdir. Bu baxımdan istəyimizə nail olmuşuq. Bu gün, əlbəttə, Ermənistan istisna olmaqla, bütün qonşularımızla – Rusiya, Türkiyə, Gürcüstan və İranla çox yaxşı əlaqələrimiz vardır. Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Avropa Birliyi ilə də çox gözəl münasibətlər qura bilmişik. Biz ziddiyyət yaratmaq, birinə digərinin hesabına üstünlük vermək istəmirik.

Bu siyasətlə biz xalqımızın və ölkəmizin beynəlxalq əməkdaşlıqdan bəhrələnməsini əsas diqqət mərkəzində saxlayırıq. Bizim üçün Avropa Birliyi, Fransa ilə əlaqələr Amerika, Rusiya və digər ölkələrlə əlaqələrimiz qədər vacibdir. Azərbaycanı əməkdaşlıq zonasına çevirmək niyyətimiz müvəffəqiyyətlə həyata keçmişdir. Bütün bunlar bizim xeyrimizə xidmət edir.

**– 2003-cü ildə Azərbaycanla Fransa arasında mal dövriyyəsi üç dəfə artmışdır. Fransa ilə iqtisadi və siyasi əməkdaşlıqda nəyə ümid edirsiniz?**

– Mən inanıram ki, bizim iqtisadi əlaqələrimiz daha da inkişaf edəcəkdir. Azərbaycanın iqtisadiyyatı ildən-ilə güclənir. Biz yeni istehsal sahələri, yeni müəssisələr və iş yerləri açmaqla ölkənin iqtisadiyyatını çoxşaxəli etmişik. Dövlət daha güclü olanda onun xarici əlaqələri də intensivləşir. Əminəm ki, üç ildən sonra iqtisadi əlaqələrimiz daha üçqat artacaqdır. Bu, təbiidir: Avropanın tərkib hissəsi olmaq üçün Azərbaycanın həm potensialı, həm də iradəsi vardır.

**– Məlum hadisələrlə bağlı İraqdan təcrid olunmuş fransız neft şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün imkanlar varmı?**

– Bizim fransız şirkətləri, o cümlədən neft sahəsi ilə bağlı bir çox layihələrə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinə sərmayə qoymuş «Total» şirkəti ilə çox yaxşı əlaqələrimiz vardır. Biz «Total»ın və digər fransız şirkətlərinin Azərbaycanda fəaliyyətlərini daha da artırmaq üçün yeni imkanları nəzərdən keçirəcəyik. Fransa Sahibkarlar Hərəkatı Təşkilatında ölkənin işgüzar dairələri ilə görüşümdə onları sərmayə qoymaq üçün Azərbaycana dəvət etdim. Biz sərmayə qoyuluşu üçün əlverişli şərait yaratmışıq. Bütün ölkələrin Azərbaycanda eyni şəraitə malik olmalarına çalışırıq. Bunları həyata keçirməklə biz siyasi, iqtisadi və mədəni baxımdan güclü və daha varlı olacağıq. Mən fransız iş adamlarını ölkəmizdə işləməyə dəvət edirəm.

**– Azərbaycanla iş görmək istəyən digər ölkələrə münasibətiniz necədir?**

– Bizim iqtisadi siyasətimiz bazar münasibətlərinə əsaslanmışdır. Biz aqrar islahatı, iqtisadi dəyişiklikləri, özəlləşdirməni mühüm bir proqramla həyata keçiririk. Bu gün Azərbaycanda ümumi daxili məhsulun 70 faizindən çoxu dövlətin yox, özəl sektorun payına düşür. İşgüzar tərəfdaşları məhz bazar təyin edir. Bizə qarşı heç bir embarqo tətbiq edilməmişdir. Biz də hər hansı ölkə və şirkət ilə münasibətlər qurmağın əleyhinə deyilik. Azərbaycanda elə şərait yaratmaq istəyirik ki, hər hansı bir şirkət burada asanlıqla iş qura bilsin. Biz yalnız bir ölkə və şirkətlə deyil, dünyanın çox ölkələri ilə əməkdaşlıq etməyin tərəfdarıyıq.

**– Siz beynəlxalq liderlərin yeni nəslinin nümayəndəsisiniz. Brejnevin vaxtında Siyasi Büroda yüksək vəzifə tutmuş, böyük təcrübəyə malik bir şəxsiyyətin oğlusunuz. Bu, Sizdə hansı hissləri oyadır?**

– Bu, olduqca böyük məsuliyyətdir. Mənə etimad göstərmiş xalqı naümid edə bilmərəm. Mən prezident Heydər Əliyevin siyasətini bütün gücümlə davam etdirməli, işgüzarlığım, əməli fəaliyyətim və qərarlarımla müstəqilliyimizi qorumalıyam.

Mən prezident seçilmişəm, amma eyni zamanda, Azərbaycanın tarixində müstəsna rol oynamış bir şəxsin, bu ölkənin böyük vətəndaşının oğluyam. Bütün etdiklərim kiçik detallarına kimi izlənilir. Bu ağır məsuliyyət, eyni zamanda, mənə səhv etməməkdə kömək edir. Hər şey onun qərarından asılı olan prezident səhvə yol verməməlidir.

**– Azərbaycanın demokratikləşməsi və modernləşdirilməsini necə görürsünüz?**

– Bu, bizim ən başlıca məqsədimizdir. Biz, dünyaya və Avropaya inteqrasiya etməyi seçmiş xalqıq, başqa ölkələrin bölüşdüyü dəyərlərə malik, mədəni və müasir cəmiyyət qurmaq istəyirik. Biz demokratikləşmə yolunu davam etdiririk. Avropa Şurasına üzvlüyə qəbul olunduqdan sonra qanunvericiliyimizi Avropa səviyyəsinə çatdıran çoxlu sənədlər qəbul etmişik. Əlbəttə, biz hələ çox işlər görməliyik. 70 il ərzində kommunist rejiminin hökmranlığı altında olan respublika idik. Bu, bizim psixologiyamızda dərin izlər buraxmışdır. Bu vəziyyətdən çıxmaq üçün vaxta ehtiyacımız var. Bununla belə, biz işlərin öhdəsindən uğurla gəlirik. Azərbaycanda hər bir şəxs özünü Avropadakı kimi hiss edəcəkdir.

**– Çoxlu burulğanların olduğu müsəlman aləmində Azərbaycanın yeri barədə nə deyə bilərsiniz?**

– Sualınıza cavab olaraq bildirmək istərdim ki, Azərbaycanda din dövlətdən ayrıdır. Biz öz dinimizə böyük hörmət və ehtiramla yanaşırıq. Amma, eyni zamanda, biz müasir və mədəni ölkəyik. Bu baxımdan bizim heç bir problemimiz yoxdur. Bəzi islam ölkələri islamı ideologiya kimi qəbul etmişlər, lakin bu, bizim ölkəyə aid deyildir. Eyni zamanda, həmin ölkələrlə çox yaxşı əlaqələr saxlayırıq. Azərbaycan öz vətəndaşlarına din və söz azadlığı təmin edən azad bir ölkədir.

**– Qonşunuz İran Respublikasındakı vəziyyətə münasibətiniz?**

– Biz bir-birimizin daxili işlərinə qarışmırıq. Biz hökumətləri müxtəlif olan ayrı-ayrı ölkələrik, lakin bizim ümumi böyük sərhəd zonamız vardır. Digər tərəfdən isə, İranda çoxlu azərbaycanlı yaşayır. Əlbəttə, biz bu ölkədə sabitliyin tərəfdarıyıq. Əlaqələrimiz genişlənir və bu, iqtisadi müstəvi üzərində düzgün qurulmuşdur. Siyasətimizin əsas məqsədi bütün ölkələrlə yaxşı əlaqələr saxlamaqdan ibarətdir. Biz həyata baxışımızı başqalarına təlqin etmək istəmirik. Başqalarının işlərinə müdaxilə etməmək əməkdaşlıq üçün ən yaxşı əsasdır.

*Müsahibənin mətni «Azərbaycan» qəzetində*
*(30 aprel 2004-cü il) də dərc olunmuşdur.*

**MAKEDONİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB BRANKO ÇRVENKOVSKİYƏ**

Hörmətli cənab Prezident!

Makedoniya Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Makedoniya arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Makedoniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 aprel 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN**
**BEYNƏLXALQ HƏVƏSKAR BOKS ASSOSİASİYASININ PREZİDENTİ, PROFESSOR ƏNVƏR ÇOUDRİNİN ŞƏRƏFİNƏ KEÇİRİLMİŞ BOKS ÜZRƏ LİSENZİYA TURNİRİNİN YARIMFİNAL GÖRÜŞLƏRİNDƏ İŞTİRAKI**

*Bakı İdman Sarayı*

*1 may 2004-cü il*

*Görüşdə Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Emil Jeçev idmanın inkişafında böyük xidmətlərinə görə Assosiasiya adından Azərbaycan prezidenti İlham Əliyevə təşkilatın xüsusi mükafatını təqdim etdi. Dövlətimizin başçısı mükafata görə minnətdarlığını bildirdi.*

*Görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev rinqə qalxaraq Afina Olimpiadasına lisenziya qazanmış boksçularımız Ceyhun Əbiyevi, Fuad Aslanovu, Ağası Məmmədovu, Şahin İmranovu, Rövşən Hüseynovu, Ruslan Xairovu, Cavid Tağıyevi, Əli İsmayılovu və Vüqar Ələkbərovu, habelə onların məşqçilərini – baş məşqçi Məmməd Eyvazovu, məşqçilər Vaqif Kazımovu və Əsgər Eyvazovu bu böyük nailiyyət münasibətilə təbrik etdi, idmançılarla xatirə şəkli çəkdirdi.*

**Türkiyənin TRT-1 televiziya kanalının, Türkiyə Qəzetçilər Cəmiyyəti İdarə heyətinin rəhbəri, «Tərcüman» qəzetinin yazarı Orxan Ayxana məxsusi müsahibə:**

**S u a l: Cənab Prezident, Sizin idmana olan marağınız bizi çox sevindirir. Biz Sizi uzun illərdir tanıyırıq, Milli Olimpiya Komitəsinin rəhbərisiniz. Milli boks komandamız da çox yaxşı nailiyyət qazandı. Artıq komandanız yox, komandamız deyirəm. Çünki Türkiyə və Azərbaycan boksçuları rinqə çıxdıqları zaman salonda davamlı alqış sədaları eşidilirdi.**

**Cənab Prezident, biz bu proqramı mayın 10-da – türk dünyasının görkəmli oğlu, rəhmətlik atanızın doğum günündə yayımlayacağıq. Sizi idmana bu qədər bağlayan səbəblər nədir? Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Mən idmana gənc yaşlarımdan bağlıyam. Özüm də idmanla çox fəal məşğul olmuşam və bilirəm ki, idman insanın sağlamlığı, fiziki-mənəvi sağlamlığı üçün böyük bir vasitədir, bu işdə böyük rol oynayır. Eyni zamanda 1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin prezidentiyəm. Bu, mənim vəzifəmdir. Çox şadam ki, bu illər ərzində Azərbaycanda idman sahəsində böyük uğurlar, nailiyyətlər var. İdmançılarımız Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında böyük uğurlar, qızıl medallar qazanırlar.

Eyni zamanda Azərbaycanda idmanın kütləviliyi geniş vüsət alıbdır. Azərbaycanın müxtəlif yerlərində yeni müasir idman salonları tikilir, idmançılara verilir. Görülən bütün bu işlər bizə imkan verir ki, belə gözəl turnirlər Azərbaycanda keçirilsin.

Sizə deyə bilərəm ki, Olimpiya oyunlarına hazırlıq proqramı çərçivəsində Azərbaycanda üç idman növü – boks, voleybol və taekvondo üzrə təsnifat turniri keçirilibdir. Bu, Azərbaycan üçün böyük hadisədir, o deməkdir ki, bir növ Olimpiya oyunlarının tədbirləri burada keçirilir. Görürsünüz ki, insanlarımız buna nə qədər sevinirlər. Yəni bu, ölkənin imici üçün, tanınması üçün də böyük əhəmiyyət kəsb edir.

## HEYDƏR ƏLİYEV ADINA BAKI NEFT EMALI ZAVODUNDA ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*5 may 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycan neft sənayesinin tarixində böyük və əlamətdar bir gündür. Bakı neft emalı zavodunun təşəbbüsü və neft şirkətinin müraciəti nəzərə alınaraq, bu zavoda Heydər Əliyevin adı verilmişdir. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Zavod 1950-ci illərdən fəaliyyətə başlamışdır. Ancaq həqiqət ondadır ki, onun inkişaf, irəliləmə, çiçəklənmə dövrü 1970-80-ci illərə təsadüf edir. Bunun da obyektiv səbəbləri vardır. Məhz o illərdə Azərbaycana Heydər Əliyev kimi dahi səxsiyyət rəhbərlik edirdi və ölkəmizin həyatının bütün sahələrində, bütün istiqamətlərində canlanma, irəliləyiş, tərəqqi və uğurlar var idi. O cümlədən neft və neftayırma sahəsində. Burada deyildi ki, məhz o illər ərzində bu zavodun gələcəyi üçün, bu günü üçün mühüm qurğular istismara verildi. ELOU-AVT, katalitik riforminq, katalitik krekinq, kokslaşdırma qurğuları işə salınmışdır. Əgər bu qurğular istifadəyə verilməsəydi, bunu açıq deməliyəm, bu gün Azərbaycanın iqtisadiyyatı belə uğurla inkişaf edə bilməzdi. Bu qurğuların uğurla fəaliyyət göstərməsi ölkəmizin iqtisadiyyatı üçün çox mühüm bir amildir. Biz bu qurğular vasitəsilə emal olunmuş neft məhsullarını dünya bazarlarına çıxarmaqla öz iqtisadi potensialımızı gücləndirmişik. Çox sevindirici haldır ki, bu zavod indi də bütün müasir tələblərə, dünya standartlarına cavab verir.

Zavodun ikinci həyatı 1993-cü ildə Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra başlanmışdır. Burada gedən abadlıq və quruculuq, bərpa və təmir işləri 1970-80-ci illərdə yaradılmış qurğulara yeni həyat vermişdir. Bu qurğular təmir olunmuşdur və indi çox yüksək standartlara cavab verir.

Sizə yaxşı məlumdur ki, neftayırmanın əsas göstəricisi neft emalının dərinliyidir. Çox sevindirici haldır ki, 2003-cü ildən sonra bu göstərici 60 faizdən yuxarı olmuşdur. Əgər 1999-cu ildə zavodda avtomobil benzinlərinin istehsal həcmi 350 min ton təşkil edirdisə, bu gün bu rəqəm 700 min tona çatdırılmışdır.

Bu, onu göstərir ki, zavod çox səmərəli və fəal işləyir.

Burada qeyd olunduğu kimi, sosial məsələlər də öz həllini tapır, əmək haqqı artırılmışdır. Bu məni çox sevindirir. Çünki bizim siyasətimizin əsas istiqamətlərindən biri də insanlara qayğının yüksək səviyyədə olması, sosial problemlərin öz həllini tapmasıdır. Təsadüfi deyil ki, bu yaxınlarda qəbul etdiyimiz proqramların əsas məqamlarından biri də məhz sosial məsələlərin həllidir. Ümid edirəm ki, Azərbaycan öz iqtisadi potensialını gücləndirdikcə bu məsələlər də öz həllini tapacaq, insanlarımız ildən-ilə daha yaxşı və firavan yaşayacaqlar. Bunu etmək üçün hər cür imkanımız – siyasi iradə, gözəl şərait, insanlarımızın peşəkarlığı və ən önəmlisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasəti vardır. Bu siyasət bu gün də yaşayır, sabah da yaşayacaq və Azərbaycanın uğurlu, hərtərəfli inkişafı üçün bütün dövrlərdə həyata keçirilməlidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə neft sənayesinə böyük diqqət göstərmişdir. O, bu zavodda 20 dəfə olmuşdur və hər bir gəlişi müəssisənin inkişafına yeni bir təkan vermişdir. Heydər Əliyev neft sənayesinin digər sahələrinə də böyük diqqət göstərmişdir. Təsadüfi deyildir ki, 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyevin ilk addımları, təşəbbüsləri məhz neft sənayesi ilə bağlı olmuşdur. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycan yeni bir mərhələyə qədəm qoymuşdur. Həmin vaxtdan 10 il keçmişdir. Bu gün biz tam qətiyyətlə deyə bilərik ki, əgər 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanmasaydı və Azərbaycana böyük həcmdə xarici sərmayələr gətirilməsəydi, indi ölkəmizin iqtisadi və siyasi vəziyyəti çətin ola bilərdi. Budur uzaqgörənlik, budur xalqa xidmət.

Eynilə 1970-ci illərdə bu zavodda belə müasir qurğular tikilməsəydi, respublikamızda Dərin özüllər zavodu istifadəyə verilməsəydi, bugünkü investisiya layihələrini həyata keçirmək böyük çətinliklərlə başa gələrdi. Bu, təkcə bizim deyil, bizimlə bərabər neft sənayesində çalışan və sərmayə qoyan xarici şirkətlərin nümayəndələrinin də fikridir. Təsəvvür edin ki, əgər Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə Dərin özüllər zavodu tikilməsəydi, bizim platformalarımız, qazma qurğularımız haradasa tikiləcək və təmir olunacaqdı. Burada qeyd olundu ki, zavoddakı qurğuların birinin Rusiyada tikilməsi nəzərdə tutulmuşdu. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində həmin qurğu bu müəssisədə tikildi. Dərin özüllər zavodu da, habelə Azərbaycanda 1970-80-ci illərdə yaradılmış müəssisələrin bir hissəsinin tikintisi də başqa yerlərdə nəzərdə tutulmuşdu. Amma ümummilli liderimizin fəaliyyəti nəticəsində bu infrastruktur, müəssisələr Azərbaycanda tikildi və ölkəmizdə yeni sənaye sahələri yaradıldı.

1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»nin məntiqi nəticəsi kimi, Azərbaycanın neft sənayesində böyük irəliləyiş, canlanma baş vermişdir. Bu gün ölkəmizdə dünyanın ən böyük enerji layihəsi həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir, Bakı–Tbilisi–Ərzurum qaz kəməri ilə bağlı işlər aparılır. Eyni zamanda, «Azəri–Çıraq–Günəşli» və «Şahdəniz» yataqlarının işlənilməsi uğurla davam edir. Azərbaycanın neft sənayesində on minlərlə yeni iş yerləri açılmışdır, orada çalışan insanların əmək haqları ildən-ilə artır. Azərbaycan bütün region, dünya üçün çox mühüm bir dövlətə çevrilmişdir. Bütün bunların əsası məhz 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə başlanmış neft strategiyası ilə əlaqədardır. Artıq bütün dünya bunu etiraf edir. Bütün dünya bunu bilir. Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən uğurlu neft strategiyası təkcə ölkəmizə deyil, bütün regiona, qonşu dövlətlərə həm iqtisadi cəhətdən, həm də regional əməkdaşlıq, siyasi baxımdan böyük təsir göstərmişdir. Yəqin ki, bu amillərin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün çox mühüm rol oynadığını desəm, səhv etmərəm. Bu yaxınlarda mən bunu bir daha açıq-aydın gördüm.

Azərbaycanın potensialı, perspektivləri göstərir ki, ölkəmiz yaxın gələcəkdə iqtisadi, siyasi və digər cəhətdən çox qüdrətli bir dövlətə çevriləcəkdir. Əgər 1994-cü ildə bu addımlar atılmasaydı, Azərbaycana milyardlarla dollar sərmayə qoyulmasaydı, neft kəmərləri tikilməsəydi, Neft Fondu yaradılmasaydı və bu fondda 1 milyard dollara qədər vəsait toplanmasaydı, biz hansı iqtisadi potensialdan söhbət apara bilərdik? İqtisadi cəhətdən güclü olmayan dövlət öz maraqlarını müdafiə etməkdə çətinlik çəkə bilər.

Bu gün biz gələcəyə çox inamla baxırıq. Biz əminik ki, ölkəmiz güclənəcək, zəngin dövlətə çevriləcək və beləliklə, Azərbaycanın qarşısında duran bütün məsələlər öz həllini tapacaqdır. Bunun əsası 1970-ci illərdə qoyulmuşdur və 1993-cü ildən sonra davam etdirilmişdir.

İnsan tarixə öz əməlləri ilə düşür. Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, ölkəmizdə demokratik cəmiyyət qurmaq. Bütün bu istiqamətlərdə işlər davam etdirilir. Hamımız, Azərbaycan xalqı bu siyasətə sadiqdir. Biz bu siyasəti davam etdirəcəyik. Azərbaycanda bu siyasətin alternativi yoxdur. Xalqımız da, beynəlxalq ictimaiyyət də bunu çox yaxşı bilir. Mən etdiyim rəsmi səfərlər zamanı bir daha əmin oldum ki, ölkəmizdə aparılan siyasi, iqtisadi islahatlar, ümumilikdə, siyasətimiz çox böyük rəğbətlə qarşılanır.

Qarşımızda böyük vəzifələr durur. Biz Azərbaycanı bundan sonra da inkişaf etdirməliyik, ölkəmizin iqtisadi potensialını gücləndirməli və gələcəyə doğru inamla aparmalıyıq. Bunu etmək üçün cəmiyyətimizin bütün təbəqələri fəallıq göstərməlidir. Əminəm ki, bu, belə də olacaqdır.

Əziz dostlar, bildiyiniz kimi, mənim də fəaliyyətimin böyük bir hissəsi neft sahəsi ilə bağlı olmuşdur. 10 ilə yaxın bir müddətdə mən Neft Şirkətində çalışmışam, bu məsələlərlə bilavasitə məşğul olmuşam və şirkətdə işləyən əməkdaşlarla birlikdə Heydər Əliyevin neft strategiyasını həyata keçirmişik. O illərin, mənim indiki fəaliyyətim, ümumiyyətlə, həyatım üçün çox böyük əhəmiyyəti olmuşdur. Mən qürur hissi duyuram ki, bu on il ərzində sizinlə birlikdə, demək olar ki, bir kollektivdə olmuşam, işləmişəm. Bu gün də belə çıxır ki, sizin nümayəndəniz Azərbaycan Respublikasının prezidentidir. Bu mənim üçün çox əzizdir.

Bilməlisiniz ki, keçmişdə neft sənayesində çalışmış insanlara prezident Heydər Əliyev tərəfindən göstərilmiş qayğı və hörmət mənim tərəfimdən də davam etdiriləcəkdir. Təbii ki, buna heç bir şübhə yoxdur. Mən neft sənayesində çalışan insanlara böyük hörmətlə yanaşıram. Bu, cəsarətli və çox məsuliyyətli bir peşədir. Azərbaycanın iqtisadi potensialını gücləndirən, ölkəmiz üçün gözəl bir iqtisadi baza yaradan insanlar Neft Şirkətinin tabeliyində olan müəssisələrdə və şirkətlərdə çalışırlar. İstəyirəm biləsiniz ki, mən daim bu siyasəti aparacağam, bütün bu məsələləri nəzarət altında saxlayacaq və keçmişdə olduğu kimi, sizə tam dəstək verəcəyəm.

Burada qeyd olundu ki, ötən ilin avqust ayında prezident Heydər Əliyev zavod işçilərinin bir qrupunun orden və medallarla təltif olunması haqqında fərman imzalamışdı. «Tərəqqi» medalı ilə təltif olunmuş işçilərə artıq medallar təqdim edilmişdir. «Şöhrət» ordeni ilə təltif edilənlərə isə bu gün təqdim olunacaqdır. Çox məmnunam ki, bu missiyanı həyata keçirmək mənə nəsib olmuşdur. İndi böyük məmnuniyyətlə bu missiyanı həyata keçirəcəyəm.

Sizin hamınızı bu əlamətdar hadisə, zavoda Heydər Əliyevin adının verilməsi münasibətilə bir daha ürəkdən təbrik edirəm. Bilirəm ki, zavod bu adı daşımağa qadirdir, buna layiqdir. Əminəm ki, müəssisə gələcəkdə də bu adı ləyaqətlə daşıyacaqdır.

Sizin hamınıza uğurlar, cansağlığı, yeni-yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

**Mərasimdən sonra kütləvi informasiya vasitələri nümayəndələrinin suallarına cavab**

**S u a l: Cənab Prezident İspaniyadan sonra Azərbaycan da İraqla bağlı siyasətinə yenidən baxa bilərmi?**

**C a v a b:** Bizim siyasətimiz dəyişməz olaraq qalır və öz siyasətimizə sadiqik. Heç bir dəyişiklik etmək fikrimiz yoxdur.

**S u a l: Cənab Prezident, Gürcüstanda baş verən hadisələrə münasibətinizi bilmək olarmı?**

**C a v a b:** Gürcüstanda baş verən hadisələr bizi narahat edir. Biz bu ölkədə vəziyyətin sabit olmasını istəyirik. Sabitliyin pozulması, əlbəttə, çox böyük təhlükə yaradır. Ümid edirəm ki, bütün zamanlarda olduğu kimi, indi də Gürcüstanda sabitlik qorunacaq və beləliklə, Gürcüstan və Azərbaycan üçün heç bir problem yaranmayacaqdır.

**S u a l: Cənab Prezident, mayın 10-da əfv fərmanı gözlənilirmi?**

**C a v a b:** Bu fərman lazım gəldikdə elan olunacaqdır.

**S u a l: Cənab Prezident parlamentdə bununla əlaqədar məsələ müzakirə olunmuşdur...**

**C a v a b:** Bu, parlamentin işinə aiddir və bu məsələlər haqqında mən əvvəlcədən danışmaq istəməzdim. Lazım gələndə, onlar həll olunacaqdır.

**S u a l: Cənab Prezident, Gürcüstandakı vəziyyət Azərbaycanın neft daşımaları üçün təhlükə yarada bilərmi?**

**C a v a b:** Bilirsiniz ki, bizim neft məhsullarımızın bir hissəsi Batumi limanından dünya bazarlarına çıxarılır. Bunu nəzərə alsaq, əlbəttə, bu vəziyyət çox davam edərsə, neft daşımalarına müəyyən təsiri ola bilər. Biz həmişə demişik ki, Azərbaycanla Gürcüstanın gələcəyi bir-birindən asılıdır. Gərək Gürcüstanda vəziyyət nəzarət altında olsun və sabitlik pozulmasın ki, bizim iqtisadi layihələrimiz uğurla yerinə yetirilsin.

**S u a l: Cənab Prezident, AŞ PA-nın iclasında səsvermə zamanı azərbaycanlı deputatların orada olmaması ilə bağlı müəyyən məlumatlar yayılır. Qonşu ölkənin mətbuatında da bu barədə yazılar dərc olunur. Sizcə, bu süni olaraq şişirdilməyib ki?**

**C a v a b:** Mən buna münasibət bildirmək fikrində deyiləm. Bilirsiniz ki, mən üç il Avropa Şurasında fəaliyyət göstərmişəm. Orada belə bir praktika var ki, adətən, hər hansı bir ölkənin məsələsi müzakirəyə çıxarılanda həmin ölkənin nümayəndələri digər deputatlara səfirlik vasitəsilə və yaxud bilavasitə müraciət edərək, müzakirələrdə iştiraka dəvət edirlər. Biz bu praktikadan dəfələrlə istifadə etmişik. Azərbaycanla bağlı məsələlər müzakirəyə çıxarılarkən, mən şəxsən çoxlu deputatlarla əlaqə saxlamışam və onlardan bizi dəstəkləməyi xahiş etmişəm. Bu, ümumi bir praktikadır. Məndə olan məlumata görə, bizim deputatlara belə bir müraciət olunmamış və onların bəziləri bəlkə də texniki səbəbdən bu iclasda iştirak etməmişlər. Hesab edirəm ki, orada fəaliyyət göstərən deputatlar bütün iclaslarda iştirak etməlidirlər. Mən keçmişdə çalışırdım ki, bütün iclaslarda iştirak edim. Düzdür, Avropa Şurasında fəaliyyət təkcə geniş iclaslarda iştirak etməkdən ibarət deyil, orada çoxlu ikitərəfli söhbətlər, danışıqlar aparılır, əlaqələr yaradılır. Ona görə də ola bilər ki, hansısa deputatın bütün iclaslarda iştirak etməyə vaxtı olmur. Amma ümumiyyətlə, hesab edirəm ki, deputatlar iclaslarda iştirak etməlidirlər.

Azərbaycanla Türkiyə arasında hər zaman işbirliyi olmuşdur. Azərbaycan Avropa Şurasına üzv olduqdan sonra mən oraya Türkiyə nümayəndə heyəti ilə birlikdə getmişdim. Yola düşməzdən əvvəl Türkiyənin Böyük Millət Məclisində onların nümayəndə heyəti ilə görüşdük. Biz qərara aldıq ki, bütün məsələlərə birgə baxacağıq və müzakirə olunan məsələlər üzrə bir-birimizə dəstək verəcəyik. Biz eyni zamanda, orada digər ölkələrin nümayəndələri ilə fəal əməkdaşlıq edirdik. İndi də Türkiyə ilə Azərbaycan nümayəndə heyətləri arasında qarşılıqlı anlaşma, əlaqə mövcuddur. Sadəcə olaraq, sözügedən məsələni çox şişirtmək, yaxud da buna hansısa bir siyasi rəng vermək düzgün deyildir. Türkiyə ilə Azərbaycan arasında olan münasibətlər çox uğurla inkişaf edir. Mənim Türkiyəyə çox uğurlu səfərim və səfər əsnasında əldə etdiyimiz razılaşmalar xaricdə, Azərbaycanda və Türkiyədə bəzi dairələri narahat edir. Təəssüflər olsun ki, bizim cəmiyyətlərimizdə də belə qüvvələr var və onlar Türkiyə–Azərbaycan münasibətlərinin uğurlu inkişafını istəmirlər. Bunu onların gözü götürmür. Biz bu dairələrə məsələni dərinləşdirmək üçün səbəb verməməliyik. Ölkələrimiz arasında olan münasibətləri prezidentlər, xarici işlər nazirləri və digər orqanlar müəyyən edir. Əlbəttə, deputatların öz vəzifələri var və hər bir deputat öz hərəkətinə cavab verməlidir.

**S u a l: Cənab Prezident, Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı danışıqlar prosesinin indiki mərhələsini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Danışıqlar prosesi davam edir. Fəal getməsə də, danışıqlar davam edir. Artıq prezidentlər səviyyəsində iki görüş keçirilmiş, xarici işlər nazirlərinin görüşü olmuşdur. Onlar bu yaxınlarda yenə də görüşəcəklər. Bu baxımdan yanaşsaq və nəzərə alsaq ki, son bir il yarım ərzində ümumiyyətlə, danışıqlar aparılmırdı, bu, müsbət haldır. Hər bir tərəfin öz mövqeyi var və bu mövqelər sizin üçün də, bütün ictimaiyyət üçün də bəllidir. Hər bir tərəf öz mövqeyini müdafiə etməyə və əsaslandırmağa, beləliklə, öz siyasətini maksimum dərəcədə icra etməyə çalışır. Artıq həmsədrlərin də fəaliyyəti görünür. Onlar səmimi şəkildə bu məsələ ilə məşğul olurlar və ümid edirəm ki, hər hansı bir nəticə olacaqdır.

**S u a l: Cənab Prezident, zavodla tanışlıqdan təəssüratınızı bilmək olarmı?**

**C a v a b:** Zavodla tanışlıq mənə çox böyük təəssürat bağışlayıbdır. Mən bu müəssisənin fəaliyyətini həmişə izləmişəm və burada aparılan son quruculuq, təmir və abadlıq işləri məni çox sevindirir. Qurğuların əksəriyyəti dünya standartlarına cavab verir. Bu zavodda istehsal olunan neft məhsulları dünya bazarlarında yüksək qiymətə satılır. Bu da Azərbaycanın iqtisadi potensialını gücləndirir. Mən öz çıxışımda demişəm. Bu qurğuların əsas hissəsi 1970-ci illərdə

Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir. Əgər o zaman qurğular tikilməsəydi, indi bu zavod da olmazdı və Azərbaycan neft məhsulları emal edə bilməzdi. Nəticədə, iqtisadi baxımdan çətinlik yarana bilərdi.

Burada son on il ərzində də böyük quruculuq işləri aparılıbdır. Qurğular bərpa olunmuşdur, sosial məsələlər öz həllini tapır, əmək haqları artırılır. Mənə verilən məlumata görə, burada işləyən insanlara pulsuz yemək verilir və digər sosial məsələlər həll olunur. Artıq bu zavod böyük bir müəssisəyə çevrilmişdir və Azərbaycan iqtisadiyyatı üçün önəmli bir amildir.

**S u a l: Cənab Prezident, İrana səfəriniz nə vaxt olacaqdır?**

**C a v a b:** Əlbəttə, mən İrana səfər edəcəyəm. Bununla əlaqədar mən dəvət almışam. Diplomatik kanallarla səfərin müddəti və tarixi müəyyən olunacaqdır. Ondan sonra biz proqram haqqında da fikirləşəcəyik.

**S u a l: Naxçıvana səfəriniz nə vaxt olacaq?**

**C a v a b:** Bu, may ayında olacaqdır.

**S u a l: Cənab Prezident, NATO-nun İstanbul sammitində Azərbaycanın bu quruma üzvlüyü məsələsi müzakirə olunacaqmı? Ümumiyyətlə, bu sammitdən nə gözləyirsiniz?**

**C a v a b:** Azərbaycan bu sammitdə fəal iştirak edəcəkdir. Ölkəmiz uzun müddətdir ki, «Sülh naminə tərəfdaşlıq» proqramının fəal iştirakçısıdır, NATO-nun xətti ilə çoxlu tədbirlər keçirilib və bundan sonra da keçiriləcəkdir. Bizim siyasətimiz bundan ibarətdir. Amma konkret nə olacaq və nə vaxt olacaqdır, onları indidən demək çətindir. Hər halda, bizim niyyətimiz budur. Biz bütün beynəlxalq qurumlar və Avropa təşkilatları ilə sıx əməkdaşlıq edirik. Azərbaycan Avropa İdtifaqı, Avropa Şurası, NATO və digər qurumlarla, MDB, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə uğurlu əməkdaşlıq edir və onların fəal üzvüdür. Hansı təşkilatda fəaliyyət göstərmək bizim maraqlarımıza cavab verirsə, biz onun işində iştirak edəcəyik.

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BİNASINDA ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**

*7 may 2004-cü il*

Hörmətli Murtuz müəllim!
Hörmətli millət vəkilləri!
Əziz dostlar!

Bu gün Milli Məclisin binasında Heydər Əliyevin abidəsi ucaldılmışdır. Biz bu əlamətdar hadisəni qeyd edirik.

Azərbaycanda 1970-80-ci illərdə Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə çoxlu binalar, müəssisələr, mədəniyyət ocaqları tikilmişdir. O cümlədən, inzibati binaların tikilməsinə də böyük önəm verilirdi. O vaxt Azərbaycan müstəqil dövlət olmasa da, indi bu atributlar ölkəmizin müstəqilliyini təcəssüm etdirir. İndiki prezident Aparatının, Milli Məclisin binası və digər inzibati binalar bu gün müstəqil dövlətimizə xidmət edir. Bu bina da Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir. İndi Azərbaycan parlamenti bu binada çox səmərəli işləyir.

Bəzən sual verirlər ki, görəsən, 1970-80-ci illərdə Heydər Əliyev Azərbaycanın müstəqil olacağını təsəvvür edirdimi? Bu suala cavab vermək çətindir. Çünki o vaxtlar bu barədə açıq söhbət getmirdi. Amma bütün amilləri, faktları nəzərə alaraq demək olar ki, bəli, o, bunu görürdü. O görürdü ki, Azərbaycan bir vaxtlar müstəqil olacaq, bizim öz dövlətimiz, bayrağımız, himnimiz olacaqdır. Əgər buna inanmasaydı, 1970-80-ci illərdə bugünkü Azərbaycanın müstəqil fəaliyyəti üçün o müəssisələrin yaradılması, bəlkə də, o qədər önəmli olmazdı. Bu gün Azərbaycanın iqtisadi müstəqilliyini müəyyən edən müəssisələr məhz o illərdə tikilmişdir. Əgər o zaman neftayırma zavodları, elektrik stansiyaları, Dərin özüllər zavodu, digər müəssisələr tikilməsəydi, Azərbaycan müstəqil dövlət kimi öz inkişafında böyük çətinliklərlə üzləşə bilərdi. Bizim əsas iqtisadi potensialımız məhz o illərdə yaradılmışdır. Bu gün biz siyasətimizi elə aparmalıyıq ki, bu iqtisadi və siyasi potensialı gücləndirək.

1993-cü ildən sonra Azərbaycanın inkişafında yeni bir mərhələ başlanmışdır. Ölkəmiz yenidən dünya birliyinə üzv olandan sonra, öz siyasətini müstəqil surətdə apardıqdan sonra bütün sahələrdə uğurlar əldə etmişdir. Heydər Əliyevin ikinci qayıdışı məhz bu binadan başlamışdır. 1993-cü ildə parlamentin sədri seçildikdən sonra müstəqil Azərbaycanın həyatında yeni dövr başlanmışdır. O illərə qədər parlamentdə yalnız siyasi mübarizə gedirdi. Müəyyən qruplar bir-biri ilə hakimiyyət uğrunda mübarizə aparırdılar. Eyni zamanda, Azərbaycan torpaqları işğal olunurdu. Əgər 1993-cü ildə xalqın tələbi və təkidi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan çox böyük bəlalarla üzləşə bilərdi. Ölkə parçalanma ərəfəsində idi. Vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində torpaqlarımızın itirilməsi, digər təhlükəli amillər ölkəni dağıdırdı. Azərbaycan böhran içində idi.

Bu gün həmin dövrü təhlil edərkən açıq-aydın görürük ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, iradəsi Azərbaycanı bu bəlalardan qurtardı. Burada qeyd olundu ki, Heydər Əliyevin bu binada çətin günləri də olmuşdur. Ona qarşı edilən ədalətsizliklər də olmuşdur. 1991-ci ilin fevral və mart aylarında öz sözünü açıq deyəndə, burada bəzi öyrədilmiş «deputatlar» ona qarşı hücumlara başlamışdılar, təhqirlərə yol vermişdilər. Amma bu təzyiqlər onu seçdiyi yoldan çəkindirmədi. O, öz siyasətini aparırdı. O illər bunu etmək çox çətin olsa da, Heydər Əliyev xalqının müdrikliyinə, gücünə inanırdı. O bilirdi ki, xalq onu dəstəkləyir, onun arxasınca gedir. Əgər belə olmasaydı, 1993-cü ildə o, Bakıya qayıdıb bu vəziyyətdən çıxış yolları tapa bilməzdi. Heydər Əliyev xalqın gücünə arxalanaraq bütün tədbirləri həyata keçirdi və on il ərzində Azərbaycan müasir, iqtisadi cəhətdən qüdrətli dövlətə çevrildi. İndi Azərbaycanla hesablaşır, Azərbaycana hörmət edirlər. Ölkəmiz dünya birliyində özünəlayiq yerini tuta bilibdir. Bu gün Azərbaycan bütün parametrlərə görə regionda ən dinamik inkişaf edən ölkədir. Azərbaycanda siyasi, iqtisadi islahatlar aparılır. Dünya miqyasında ən böyük layihələr həyata keçirilir. Bütün bu amillər ölkəmizin nüfuzunu qaldırır, dünyada imicini artırır, dünya üçün nə qədər önəmli olduğunu sübut edir. Əlbəttə, biz heç zaman unutmamalıyıq ki, bütün bu uğurların əsası məhz o illərdə – 1993-94-cü illərdə qoyulmuşdur. «Əsrin müqaviləsi»nin imzalanması ilə Azərbaycan yeni bir eraya qədəm qoydu.

Deməliyəm ki, Milli Məclisin də bu proseslərdə rolu olmuşdur. Çünki bütün Azərbaycan iqtisadiyyatı üçün vacib olan müqavilələr Milli Məclis tərəfindən təsdiq edilmiş və qanun qüvvəsinə minmişdir.

Beləliklə, bu illər ərzində müasir Azərbaycanın inkişaf konsepsiyası çox sürətlə və dinamik həyata keçirilir. Ölkəmizin qarşısında böyük vəzifələr durur. Bizim məqsədimiz Azərbaycanı inkişaf etdirmək, ölkəmizdə

yaşayan hər bir insanın həyat şəraitini yaxşılaşdırmaq, çoxlu sosial problemlərin həllində iştirak etməkdir. Əminəm ki, biz bütün bu məqsədlərə çatacağıq. Artıq beş illik və on illik tədbirlər planı hazırlanmışdır və biz öz siyasətimizi bu planlara uyğun olaraq aparırıq. Azərbaycanın sosial-iqtisadi inkişaf proqramı, regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqramlar Azərbaycanın hər bir bölgəsinin, rayonunun, kəndinin inkişaf etdirilməsinə imkan verəcəkdir. Bu, Heydər Əliyevin siyasətidir. O, 1993-cü ildə öz həyatını təhlükə altına qoyaraq ikinci dəfə hakimiyyətə gəldikdə, qarşısında bir məqsəd var idi – xalqa xidmət etmək. O demişdi ki, mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram. Bu, belə də oldu. Onun başqa amalı yox idi, biz hamımız bunu yaxşı bilirik. Ömrünün son dəqiqəsinə qədər Heydər Əliyev bu ideyalarla, fikirlərlə, amallarla yaşamışdır. Bizim məqsədimiz bu ideyaları yaşatmaqdır, onun siyasətini davam etdirməkdir. Çünki bu, Azərbaycan üçün yeganə inkişaf yoludur. Bu yol ölkəmizi daha da gücləndirəcək, daha da irəliyə aparacaqdır. Ölkəmizin gələcəyi çox parlaq olacaqdır. Bunu etmək, buna nail olmaq üçün hər bir şərait vardır. Ən önəmlisi isə Heydər Əliyev siyasəti vardır.

Əgər biz hamımız bu siyasətə sadiq qalsaq, onu cəsarətlə və qətiyyətlə həyata keçirsək, tam əminəm ki, Azərbaycanın qarşısında heç bir problem olmayacaqdır.

Əziz dostlar, qeyd etmək istəyirəm ki, mənim də həyatımın bir hissəsi bu binada keçmişdir. Mən 8 il ərzində Milli Məclisin deputatı olmuşam və sizinlə birlikdə çox fəal, mehriban şəraitdə işləmişik. Biz Azərbaycan üçün çox böyük işlər görmüşük. Ümumiyyətlə, Milli Məclisin fəaliyyəti təqdirəlayiqdir. Burada çoxlu qanunlar qəbul edilmiş, Azərbaycan müxtəlif beynəlxalq konvensiyalara qoşulmuşdur. Ölkəmizdə çox güclü qanunvericilik bazası yaradılmışdır. Azərbaycanın dünya birliyinə daha güclü inteqrasiyası baxımından Milli Məclisdə qəbul olunmuş qanunların əhəmiyyəti çox böyükdür. Əminəm ki, bundan sonra da Milli Məclis çox səmərəli işləyəcək, ölkə iqtisadiyyatı üçün mühüm qanunların qəbul olunması davam edəcək, Azərbaycanda gedən siyasi islahatlar prosesi daha geniş vüsət alacaqdır. Milli Məclisin bu istiqamətdə rolu çox böyükdür.

Bizim yolumuz dünya birliyinə, Avropaya inteqrasiya yoludur. Bu yol artıq sınaqdan keçmişdir. Bu yolla getmiş ölkələr böyük uğurlar qazanmışlar. Azərbaycan öz strateji seçimini 1993-cü ildə etmişdir. Dünya Birliyinə, Avropa strukturlarına inteqrasiya bizim strateji seçimimizdir və biz bu siyasətə sadiqik.

Təbii ki, Azərbaycanın milli maraqlarının qorunması bütün zamanlarda ön planda olmuşdur və bu gün də belədir. Biz bu amili – Azərbaycanın milli maraqlarının qorunmasını daim yadda saxlamalıyıq. Eyni zamanda, strateji seçimimiz, yolumuz inteqrasiya ilə bağlıdır. O məqamlarda ki, bu yol bizim maraqlarımıza uyğun gəlir, biz bunu edəcəyik. Müəyyən məqamlarda baxışlar fərqli ola bilər və hər bir konkret halda biz siyasətimizi düzgün, xalqımızın, dövlətimizin gələcəyi və xoşbəxtliyi naminə aparmalıyıq. Ümidvaram ki, bundan sonra Milli Məclisdə qəbul olunacaq qanunlar bu məqsədə xidmət edəcəkdir.

Mayın 10-da biz Heydər Əliyevin doğum gününü ilk dəfə onsuz qeyd edəcəyik. Düzdür, keçmişdə həmin gün heç bir tədbir keçirilmirdi, hətta bəzi təşəbbüslər olsa da, o, həmişə deyərdi ki, buna ehtiyac yoxdur. Bu, adi gündür, ailəmiz üçün əzizdir, amma hər hansı bir tədbirin keçirilməsinə ehtiyac yoxdur. Bu dəfə də belə olacaqdır. Əlbəttə, müəyyən tədbirlər keçiriləcəkdir. Lakin ilk dəfə biz bu günü Heydər Əliyevsiz keçirəcəyik. Bu, bizim üçün, xalqımız, ailə üzvləri, onu tanıyan və sevən insanlar üçün böyük bir dərddir. Amma bütün məqamlarda insan özü üçün bir təsəlli tapır. Onun ideyaları yaşayır. Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycan yaşayır. Bu, böyük xoşbəxtlikdir. Yadımdadır, Heydər Əliyev xəstə olanda çox tanınmış bir şəxs mənə demişdi ki, o, xoşbəxt adamdır. Çünki, o, öz əməyinin nəticəsini görmüşdür və arxayındır ki, siz onun yolunu davam etdirirsiniz, 10 il ərzində qurulmuş sistem yaşayır, səmərəli işləyir və Azərbaycan xalqına xidmət edir. Bu baxımdan biz də xoşbəxtik ki, onun siyasətini davam etdirmək üçün əlimizdən gələni əsirgəmirik. Əminəm ki, biz hamımız – Heydər Əliyevin silahdaşları, onun komandası bu siyasəti gələcəkdə də aparacağıq.

Bu abidənin ucaldılması münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edir, sizə uğurlar, cansağlığı və xoşbəxtlik arzulayıram.

* * *

**M u r t u z Ə l ə s g ə r o v:** Cənab Prezident, dərin və məzmunlu çıxışınıza, Azərbaycanın çağdaş vəziyyətini, iqtisadi-siyasi durumunu ətraflı əhatə etdiyinizə görə və Milli Məclisin işinə verdiyiniz qiymətə görə bütün iştirakçılar və deputatlar adından minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, Azərbaycan Respublikasının Milli Məclisi bundan sonra da Heydər Əliyev ideyalarına sadiq qalaraq, Sizin ətrafınızda sıx birləşib Azərbaycanın xoşbəxt gələcəyi uğrunda fəaliyyət göstərəcəkdir.

* * *

**Mərasimdən sonra İlham Əliyev Milli Məclisdəki Heydər Əliyev muzeyinə gəldi. Dövlətimizin başçısı burada jurnalistlərin suallarına cavab verdi**

**S u a l: Cənab Prezident, Heydər Əliyevin ad günü ərəfəsində onun yerinə yetirmək istədiyi ən böyük arzunu açıqlaya bilərsinizmi?**

**C a v a b:** Prezident Heydər Əliyevin arzusu Azərbaycan xalqının rahat yaşaması, dövlətimizin güclənməsi, ölkəmizin dünya birliyində möhkəm yer tutması idi. Bu arzular bu gün həyata keçirilir. Biz onun siyasətini davam etdiririk.

**S u a l: Sabah Şuşanın işğalı günüdür. Azərbaycan prezidenti kimi demək istədiyiniz bir söz varmı?**

**C a v a b:** Bu, bizim böyük faciəmiz, dərdimizdir. Dağlıq Qarabağın və ətraf rayonların işğalı Azərbaycan və region üçün ən böyük problem və təhlükədir. Biz bu məsələni həll etməyə çalışırıq. Biz sülh danışıqlarına sadiqik. Mən qeyd etmişəm ki, əgər biz danışıqların nəticələrinə inanmasaydıq, onları aparmazdıq. Biz inanırıq ki, danışıqlar nəticəsində problem öz həllini tapa bilər. Çalışacağıq ki, Azərbaycanın ədalətli mövqeyi bu prosesdə əks olunsun.

**S u a l: Cənab Prezident, indiki reallıqları nəzərə alsaq, mərhələli həll variantı yenidən gündəliyə çıxa bilərmi?**

**C a v a b:** Hər bir tərəfin öz mövqeyi və təklifləri vardır. Mən dəfələrlə Azərbaycanın mövqeyini bəyan etmişəm və deyə bilərəm ki, bu mövqedə yeni bir şey yoxdur. Uzun illərdir biz işğal edilmiş ərazilərin azad olunmasının, qaçqınların öz doğma torpaqlarına qayıtmasının və yalnız bundan sonra status haqqında danışıqlar aparmağın tərəfdarıyıq. Bəzi hallarda erməni təbliğatı, yaxud hansısa siyasətçiləri reallığı əks etdirməyən fikirlər irəli sürürlər, keçmiş haqqında həqiqətə uyğun olmayan mülahizələrlə çıxış edirlər. Sizə tam qətiyyətlə deyə bilərəm ki, Ermənistanla Azərbaycan arasında heç vaxt heç bir razılaşma olmamışdır. Ona görə mən hesab edirəm ki, biz öz səylərimizi mövqelərimizin müdafiəsi istiqamətinə yönəltməliyik. Təbii ki, Ermənistan tərəfinin başqa mövqeyi vardır və məhz buna görə də vasitəçilərin mövcudluğu və fəaliyyəti zəruridir. Mən dəfələrlə demişəm ki, Minsk qrupunun həmsədrləri müşahidəçilik missiyasını yox, vasitəçilik missiyasını davam etdirməlidir. Əgər iki tərəf razılığa gələ bilmirsə, vasitəçilər təkliflər verməlidir. Keçmişdə belə praktika olmuşdur, təkliflər verilmişdir. Beynəlxalq ictimaiyyət də bu prosesdə fəal iştirak etməlidir. Əlbəttə, Minsk qrupunun mandatı vardır, amma başqa beynəlxalq qurumlar da, Avropa Birliyi, Avropa Şurası, BMT və digər qurumlar öz mövqelərini bildirməlidirlər.

**S u a l: Cənab Prezident, Gürcüstanda baş verən son hadisələrdən sonra bu ölkənin prezidenti Mixail Saakaşvili ilə danışmısınızmı?**

**C a v a b:** Yox, danışmamışam. Biz əvvəllər dəfələrlə əlaqə saxlamışıq, telefonla danışmışıq və ikitərəfli görüşlərimiz olmuşdur.

**S u a l: Cənab Prezident, yeddi rayonun azad edilməsi həmsədrlərin təklifidir, yoxsa iki dövlət başçısının razılığı əsasında irəli sürülmüşdür?**

**C a v a b:** Həmsədrlərin heç bir təklifi yoxdur və iki dövlət başçısı da heç bir razılığa gəlməyibdir. Əgər gəlsəydilər, biz bu barədə açıqlama verərdik. Bu, bizim – Azərbaycanın mövqeyidir.

**S u a l: Cənab Prezident, Siz bölgələrin inkişaf proqramı ilə əlaqədar yerlərə səfər edəcəksinizmi?**

**C a v a b:** Bu, mütləq olacaqdır. Bilirsiniz ki, bölgələrdə proqramın həyata keçirilməsi ilə əlaqədar müşavirələr keçirilibdir. Yerlərdə iş qrafikləri tərtib olunmuşdur və mən bütün bölgələrə səfər edəcəyəm. Səfər edəndə sizə xəbər verəcəyəm.

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB POL BİYYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kamerun arasındakı münasibətlərin inkişafı daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kamerun xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 may 2004-cü il*

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ƏLİ ABDULLA SALEHƏ**

Hörmətli cənab Prezident!

Yəmən Respublikasının Milli bayramı – Birlik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Yəmən arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yəmən xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 may 2004-cü il*

## «HEYDƏR ƏLİYEV FONDU»nun TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*10 may 2004-cü il*

Əziz dostlar!
Hörmətli qonaqlar!

Baxdığımız bu kadrlar, onların demək olar ki, əksəriyyəti Heydər Əliyevin şəxsi, yəni ailə arxivindən götürülmüş kadrlardır. Onların əksəriyyəti, bəlkə də, ilk dəfədir geniş auditoriyaya təqdim olunur. Biz hesab etdik ki, bunu etməliyik.

Heydər Əliyev dahi şəxsiyyətdir, görkəmli siyasi xadimdir, müasir Azərbaycanın qurucusudur. Ancaq, eyni zamanda, Heydər Əliyev çox mehriban ata idi, çox qayğıkeş baba idi. Çox əziz dost idi. Onun bu xüsusiyyətləri bizə, onun ailə üzvlərinə çox yaxşı tanış idi. Mən də, bacım da, uşaqlarımız da bütün zamanlarda, bütün dövrlərdə ona həmişə bizim üçün ən önəmli olan məsələlərlə əlaqədar müraciət edirdik və həmişə ondan məsləhət, ata sözü eşidir, qayğı görürdük.

Bu gün Heydər Əliyevin doğum günüdür və ilk dəfədir ki, bu gün onsuz keçir. Bu, bizim hamımız üçün, onu tanıyan, onu sevən, onunla birlikdə işləyən bütün insanlar üçün böyük sınaqdır, böyük dərddir. Adətən, öu gün adi bir gün kimi keçərdi. Yəni hər hansı xüsusi bir tədbir keçirilməzdi. O, həmişə bunun əleyhinə olurdu. Bəzi hallarda təkliflər gələndə deyirdi ki, xeyr, bu, adi bir gündür, ailəmiz üçün əziz bir gündür. Biz bu günü həmişə ailə şəraitində qeyd edirdik.

Xatirimdədir, bu, bəlkə də, bir dəfə, 1993-cü ildə – Heydər Əliyevin 70 illiyində daha da geniş tərkibdə qeyd olunmuşdur. O, həmin vaxt Naxçıvanda yaşayırdı. Naxçıvan Muxtar Respublikası Ali Məlisinin sədri idi. Onunla Naxçıvanda birlikdə işləyən insanlar bir məclis sıfrəsi açmışdılar. Orada onun yaxınları yığışmışdı, qohumları gəlmişdi, Bakıdan gələn tərəfdarları, Yeni Azərbaycan Partiyasının fəalları gəlmişdi. O dövr çətin bir dövr idi. Azərbaycanın o vaxtkı rəhbərliyi Heydər Əliyevə təzyiqlər etməyə çalışırdı və müəyyən təzyiqlər olmuşdu. Əlbəttə, Heydər Əliyevin Azərbaycanda artan nüfuzu Bakıda oturanları narahat edirdi. Ona görə o vaxt Naxçıvana gəlmiş insanlar, həqiqi mənada, onun əsl tərəfdarları idilər. Oraya gəlmək üçün, əlbəttə, cəsarət tələb olunurdu.

Xatırlayıram, o çox gözəl bir gün idi. Heydər Əliyev də çox şad idi. Biz də, hamımız çox sevinirdik. Çox gözəl bir gün idi. O gündən, təxminən bir ay keçəndən sonra xalqın tələbi ilə Heydər Əliyev Bakıya gəldi, Azərbaycana rəhbərliyə gəldi və o dövrdən, o günlərdən etibarən Azərbaycanın inkişaf dövrü başlandı.

1970-ci illərdə, 1980-ci illərdə də Heydər Əliyev Azərbaycanda rəhbər vəzifədə çalışanda Azərbaycan daim uğurlar qazanırdı. Azərbaycanın inkişaf ahəngi digər müttəfiq respublikalarla müqayisədə çox yüksək idi. Azərbaycanda yeni müəssisələr, sənaye obyektləri, mədəniyyət ocaqları yaradılırdı. Bütün bu məsələlərə böyük diqqət verilirdi. Demək olar ki, o illər bütün respublikalar eyni səviyyədə idi, lakin respublikanın rəhbərindən çox şey asılı idi. O, daim çalışırdı ki, bütün yeni texnologiyaları, müəssisələri Azərbpycana gətirsin. Bütün imkanlardan istifadə edirdi ki, Azərbaycan inkişaf etsin. Məhz o illərdə Azərbaycanda kənd təsərrüfatı da çox sürətlə inkişaf etdi. Azərbaycanda memarlıq baxımından bu gün də Bakını gözəlləşdirən binalar, saraylar tikildi. O vaxt statistika göstərirdi ki, Sovet İttifaqında yalnız iki respublika mənfəətlə işləyir. Onlardan biri də Azərbaycan idi. Digərləri hamısı dotasiya ilə işləyirdi.

Bu gün Azərbaycanın iqtisadi potensialında çox mühüm rol oynayan müəssisələr məhz o illərdə onun tərəfindən yaradılmışdır. Əgər biz bu müəssisələri indi çıxsaq, görərik ki, Azərbaycanın iqtisadiyyatı belə ahənglə inkişaf edə bilməzdi. Əgər məhz o illərdə Azərbaycanda bu müəssisələr yaradılmasaydı, biz bu gün böyük çətinliklərlə yaşayardıq. O illərdə Azərbaycanın digər sahələri də inkişaf edibdir.

Məhz onun təşəbbüsü ilə, demək olar ki, Sovet İttifaqında Moskva şəhərindən başqa ilk dəfə hərbi təmayüllü məktəb yaradılmışdır. Cəmşid Naxçıvanski adına həmin məktəb bu gün də yaşayır, Azərbaycan ordusu üçün peşəkar kadrlar hazırlayır. Amma o illərdə bunu etmək, bilirsiniz, hər adamın, əlbəttə, ağlına gəlməzdi. Bunu edən adam çox irəliyə baxırdı. Hiss edirdi, duyurdu ki, bir gün Azərbaycan müstəqil olacaq, bir gün Azərbaycana müstəqil ordu və bu orduda xidmət edəcək zabitlər, generallar lazım olacaqdır. Mən hesab edirəm və buna əminəm ki, həmin məktəb o məqsədilə yaradılıbdır. Belə hallar çoxdur. Belə misallar çoxdur. Heydər Əliyevin bütün həyatı, bütün fəaliyyəti bir amala qulluq edirdi. Azərbaycançılıq, Azərbaycan dövlətinə, Azərbaycan xalqına xidmət, millətimizə xidmət etmək onun həyatının ən ümdə amalı idi.

1993-cü ildə yenidən hakimiyyətə qayıdandan sonra o, öz həyatını yenidən xalqa xidmətə sərf etmişdir. 1993-cü ilə qədər Azərbaycan, demək olar ki, dağılmaq ərəfəsində idi. Ölkədə gedən proseslər Azərbaycanı dağıdırdı, böhran – iqtisadi, siyasi, hərbi böhran yaşanırdı. Azərbaycan müharibə vəziyyətində idi.

Torpaqlarımız işğal olunurdu. Eyni zamanda vətəndaş müharibəsi də başlamışdı. Əgər o vaxt, 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana, hakimiyyətə qayıtmasaydı, ölkə parçalana bilərdi. Demək olar ki, ölkə dünyada gedən bütün proseslərdən təcrid olunmuş vəziyyətdə idi. O çətin dövrdə, çətin vəziyyətdə onun nə silahı var idi, nə ordusu var idi, nə də dəstəsi var idi. Yalnız siyasi iradəsi, bir də xalqın inamı, dəstəyi var idi. O, bu dəstəyə arxalanaraq on il ərzində Azərbaycanı böhrandan tərəqqiyə gətirdi. Bu gün Azərbaycan inamla irəliləyir, Azərbaycanın bütün sahələri inkişaf edir.

Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda təal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycana böyük hörmət var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir.

Yenə deyirəm, Azərbaycanın iqtisadiyyatı dağılmış vəziyyətdə idi. Müəssisələr dayanmışdı, istehsal yox idi. İqtisadi tənəzzül yüzlərlə faizlə ölçülürdü və demək olar ki, 1996-cı ilə qədər ölkədə yaşanan böhran bizim hamımıza çox mənfi təsir göstərirdi. Amma onun iqtisadi siyasəti nəticəsində, Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində ölkə tez bir zamanda dirçəldi. Bu gün Azərbaycan keçmiş sovet respublikaları arasında iqtisadiyyatın inkişaf ahənginə görə birinci yerdədir. Azərbaycan adambaşına düşən sərmayələrin həcminə görə birinci yerdədir. Bu, Heydər Əliyevin siyasətinin, onun gördüyü işlərin nəticəsidir.

Bilirsiniz, adam yaxşı səraitdə, yaxşı meyillərə öyrənir, tez alışır. Bəzən elə gəlir ki, belə də olmalıydı. Xeyr, əgər 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, tamamilə başqa cür olacaqdı və bunu heç təsəvvür etmək də mümkün deyildir.

Ermənistan–Azərbaycan müharibəsinə son qoyuldu, atəşkəs əldə edildi və bu rejim bizə imkan verdi ki, öz iqtisadiyyatımızı, digər sahələri inkişaf etdirək. Əgər bu gün bizə təcavüz edən ölkə ilə Azərbaycanı müqayisə etsək, görərik ki, kim üstündür. Azərbaycanın gələcək perspektivləri bizə imkan verəcək ki, istədiyimizə nail olaq. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, işğal edilmiş torpaqlar geri qaytarılacaqdır. Başqa cür də ola bilməz. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir və Heydər Əliyev çoxlu səylər qoymuşdur ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında əsl həqiqətləri bütün dünya ictimaiyyətinə çatdırsın. Məhz o illər ərzində görülən işlərin, təbliğat işlərinin nəticəsində dünya birliyində bu münaqişə haqqında ədalətli təsəvvür yaranıbdır.

Ordu quruculuğunda böyük işlər görülübdür. 1993-cü ildə Azərbaycanda ordu yox idi. Ayrı-ayrı dəstələr var idi. O dəstələrin müəyyən siyasi əqidəsi var idi və hər bir siyasi qurum özünə bir dəstə yaradırdı. Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanda güclü ordu yaradılıbdır. Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, ölkəmiz zəngin dövlətə çevriləndən sonra, əlbəttə, ordu potensialımız da çox güclənəcək və bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Mən inanıram və əminəm ki, bu, belə də olacaqdır.

Bütün digər məsələlər də var və bunların hamısını bu gün, necə deyərlər, təqdim etmək çox vaxt aparar. Amma elə bir sahə yoxdur ki, orada son 10 il ərzində irəliləyiş, tərəqqi olmasın. Elm, mədəniyyət, incəsənət sahələrində də Azərbaycan, demək olar ki, indi intibah dövrünü yaşayır.

On il tarix baxımından böyük bir müddət deyildir. Amma baxın, son on ildə Azərbaycanda nə qədər böyük işlər görülübdür. Azərbaycan nə qədər böyük uğurlar əldə edibdir. Bütün bu uğurlara görə biz xalqımızın ümummilli lideri Heydər Əliyevə borcluyuq.

Bu gün onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilir. Bu ideya yeni deyildir. Bir neçə il bundan əvvəl belə bir fikir yaranmışdı ki, «Heydər Əliyev Fondu» yaradılsın. O da bu fikrə müsbət yanaşmışdı, amma nə isə bunu həyata keçirmək mümkün olmadı. Amma biz hesab etdik ki, bü gün belə bir Fond lazımdır. Bu Fond artıq yaradılıbdır. Fond Heydər Əliyevin siyasi irsini öyrənəcək, onu təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur. Fond ictimai təşkilatdır. Ümid edirəm ki, Azərbaycanın ictimai həyatında Fondun rolu böyük olacaqdır.

Bu gün Heydər Əliyev bizimlə deyil, amma onun fiziki yoxluğu bizi ruhdan salmamalıdır. Onun ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, azərbaycançılıq fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır və onun yolu ilə inkişaf edir. Hamımızın borcudur ki, biz doğma Vətənimizi onun yolu ilə irəliyə aparaq. Hamımızın borcudur ki, onun siyasətini yaşadaq, Azərbaycanı gücləndirək və onun istədiyi kimi, onun yolu ilə gələcəyə aparaq. Mən əminəm və şübhə etmirəm ki, biz bunu edəcəyik.

Xalq ötən il keçirilən prezident seçkilərində Heydər Əliyevin siyasətini bir daha dəstəklədi. Azərbaycanda bu siyasətə alternativ yoxdur. Bu siyasət Azərbaycana böyük uğurlar gətiribdir və əminəm ki, daha yeni-yeni uğurlar gətirəcəkdir. Sağ olun.

* * *

**Fondun fəxri qonaqları kitabına yazdığı ürək sözləri:**

*«Bu gün Azərbaycanın ümummilli lideri Heydər Əliyevin döğum günüdür. Bu bayram günündə onun adını daşıyan Fondun təqdimat mərasimi keçirilmişdir. «Heydər Əliyev Fondu» xalqımızın ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir.*

*«Heydər Əliyev Fondu» ictimai təşkilatdır və Azərbaycanın ictimai həyatında mühüm rol oynayacaqdır. Heydər Əliyevin ideyaları, fikirləri yaşayır. Heydər Əliyev siyasəti, fəlsəfəsi, ideologiyası yaşayır və bundan sonra da əbədi yaşayacaqdır. Heydər Əliyevin əsəri olan müasir Azərbaycan onun yolu ilə irəliyə, yeni qələbələrə doğru inamla gedəcəkdir.*

*İlham Heydər oğlu Əliyev*
*10 may 2004-cü il».*

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN**
**NAXÇIVANA SƏFƏRİ**

*12 may 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev günün birinci yarısında Naxçıvana gəldi.*

*Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısını və onun xanımı Mehriban Əliyevanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla, səmimiyyətlə qarşıladılar.*

## NAXÇIVAN BEYNƏLXALQ HAVA LİMANININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*12 may 2004-cü il*

Əziz naxçıvanlılar!
Əziz bacılar və qardaşlar!
Əziz dostlar!
Mən sizin hamınızı ürəkdən salamlayıram. Sizə öz dərin hörmətimi, dərin məhəbbətimi bildirirəm.

Bu gün həyatımızda çox əlamətdar bir gündür. Bu gün Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Naxçıvan hava limanı istifadəyə verilir. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm.

Bu hava limanı bütün yüksək dünya standartlarına cavab verir. Burada gözəl aerovağzal kompleksi, uçuş-enmə zolağı, digər infrastruktur obyektləri tikilmişdir və bunlar yüksək səviyyədə inşa olunmuşdur. Mən xatırlayıram ki, xalqımızın ümummilli lideri Heydər Əliyev bu tikinti ilə əlaqədar çoxlu müşavirələr, görüşlər keçirmişdir və tikinti başlayanda da inşaat işləri daim onun nəzarəti altında idi. O, çox istəyirdi ki, Naxçıvan üçün gözəl, Naxçıvana uyğun, Naxçıvana yaraşan bir hava limanı tikilsin və insanlara xidmət etsin. Bu gün biz buna nail olmuşuq. Heydər Əliyevin əsəri – yeni Naxçıvan hava limanı öz qapılarını açır.

Bu gün çox gözəl bir gündür. Amma eyni zamanda, kədərli bir gündür. Çünki bizim hamımızın istəyi, arzusu o idi ki, ümummilli liderimiz Heydər Əliyevin özü bu hava limanının açılışında iştirak etsin, özü bu qırmızı lenti kəssin və hava limanına öz xeyir-duasını versin. Amma onun səhhəti belə bir imkan yaratmadı.

Bu gün Azərbaycan Heydər Əliyevsiz yaşayır. Bu, bizim hamımız üçün böyük sınaqdır, hamımız üçün böyük imtahandır, hamımız üçün böyük kədərdir, dərddir. Amma bizə təskinlik verən odur ki, Heydər Əliyevin ideyaları yaşayır. Heydər Əliyevin fəlsəfəsi, siyasəti yaşayır. Onun qurduğu, yaratdığı müasir Azərbaycan yaşayır, güclənir və bundan sonra da yaşayacaqdır.

Biz hamımız bu siyasətə sadiqik. Biz hamımız bu siyasəti davam etdirməliyik. Azərbaycanı hərtərəfli inkişaf etdirməliyik. Azərbaycanı gücləndirməliyik, Heydər Əliyevin yolu ilə irəliyə aparmalıyıq. Mən əminəm ki, biz buna nail olacağıq. Xalq bu siyasəti dəstəkləyir. Xalq bu siyasətə alternativ siyasəti qəbul etmir və bizim gələcəkdə görəcəyimiz bütün işlərin uğurlu olması üçün bu, əsas şərtdir.

Bu hava limanı, eyni zamanda, Naxçıvanı digər yerlərlə, şəhərlərlə bağlayacaqdır. Azərbaycanın qədim torpağı Naxçıvan Azərbaycanın digər hissəsindən təcrid olunmuş vəziyyətdə, çətin blokada şəraitində yaşayır. Ona görə, əlbəttə, sərnişinlər üçün hava yolu yeganə rabitə vasitəsidir.

Bu gün səhər Bakıda Heydər Əliyevin adını daşıyan beynəlxalq hava limanının yerli hava xətləri üçün aerovağzal binası, terminalı açılmışdır. Biz o açılışda iştirak etmişdik. O terminal da, əsasən, naxçıvanlılara xidmət edəcəkdir, Naxçıvanda yaşayan insanlara ən yüksək səviyyədə xidmət edəcəkdir. Eyni zamanda, digər şəhərlərlə birbaşa uçuşların təşkil olunması nəzərdə tutulur. Naxçıvan hava limanına beynəlxalq status verilibdir. Bu statusdan istifadə edib digər marşrutlar üzərində işləmək mümkün olacaqdır.

Bir məsələni də qeyd etmək istəyirəm ki, yaxın zamanlarda, gələn il Azərbaycana yeni, müasir təyyarələrin alınması da nəzərdə tutulubdur. Xaricdə istehsal olunan yeni müasir təyyarələr gətiriləcəkdir ki, bu da öz növbəsində, insanlarımıza çox yüksək səviyyədə xidmət göstərməyə imkan verir.

Ümumiyyətlə, Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir. Bu, bizi çox sevindirir. Bizim hava yollarının fəaliyyəti yüksək səviyyədədir. Xəzər Dəniz Gəmiçiliyi çox böyük mənfəətlə, uğurla işləyir. Azərbaycan Dəmir Yolu İdarəsi uğurla işləyir, yeni avadanlıq, qatarlar alınır, bərpa işləri gedir. Azərbaycanda böyük avtomobil yollarının layihələri həyata keçirilir, yeni yollar salınır və yaxın zamanlarda Azərbaycanı bütün istiqamətlərə aparan yollar ən yüksək dünya standartlarına cavab verəcəkdir. Bu, çox mühüm bir amildir. Nəqliyyatın inkişafı ölkənin ümumi iqtisadi inkişafının göstəricisidir.

Bildiyiniz kimi, Azərbaycan son illər ərzində çox uğurla inkişaf edir, bu sahədə Azərbaycan bütün digər keçmiş sovet respublikalarını qabaqlayır. Azərbaycana böyük sərmayələr qoyulur, adambaşına düşən xarici sərmayənin həcminə görə Azərbaycan bölgədə, MDB və Şərqi Avropa məkanında birinci yerdədir. Bütün bunlar Heydər Əliyevin siyasətinin nəticəsidir. Azərbaycanda son illər ərzində aparılan siyasi, iqtisadi, sosial islahatların nəticəsidir.

Bu gün Azərbaycan çox inamla irəliyə gedir. Azərbaycanın çox gözəl perspektivləri vardır. Azərbaycanda insanların sosial vəziyyəti ildən-ilə yaxşılaşır, əmək haqları, pensiyalar artır. Bu proses bundan sonra da davam edəcəkdir. Azərbaycanın büdcəsi ildən-ilə artır və bizə imkan verir ki, belə gözəl binalar yaradaq. Əgər müstəqilliyimizin ilk illərində Azərbaycanda yaradılan müəssisələrin əksəriyyəti xarici kreditlərin hesabına

idisə, indi əsas tikinti işləri öz hesabımıza aparılır. Bu onu göstərir ki, ölkəmizin imkanları var. Bizim böyük valyuta ehtiyatlarımız var.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda 10 il ərzində aparılan uğurlu neft strategiyası bizə imkan verir ki, ölkəmizin valyuta ehtiyatları çoxalsın. Bu gün biz həmin strategiyanın əyani nəticələrini görürük. Neft sahəsində görülən işlər, Azərbaycana qoyulan sərmayələr, Azərbaycanda tikilən böyük, nəhəng neft-qaz kəmərləri bizə imkan verəcək ki, bir neçə ildən sonra ölkəmiz zəngin, qüdrətli ölkəyə çevrilsin. Bu, bizim məqsədimizdir, bizim siyasətimizdir. Gələn il Bakı–Tbilisi–Ceyhan neft kəməri istifadəyə veriləndən sonra Azərbaycan öz iqtisadi potensialını çox sürətlə gücləndirəcəkdir. Bu da öz növbəsində, imkan verəcəkdir ki, sosial məsələlərə daha da böyük diqqət göstərilsin, əmək haqları qaldırılsın, pensiyalar, digər müavinətlər artırılsın. Bizim məqsədimiz budur. Heydər Əliyevin siyasəti budur. Xalqa, millətə xidmət etmək, ölkəmizi gücləndirmək, Azərbaycanın müstəqilliyini gücləndirmək Heydər Əliyev siyasətinin əsas istiqamətləridir. Biz bu siyasətə sadiqik.

Azərbaycan, demək olar ki, bölgədə ən dinamik inkişaf edən ölkədir. Qonşu dövlətlərlə müqayisədə görərik ki, bizim inkişaf ahəngimiz, iqtisadi potensialımız çox fərqlənir və getdikcə bu fərq daha qabarıq şəkildə özünü büruzə verəcəkdir.

Planlarımız çoxdur. Azərbaycanda növbəti 5 il ərzində sosial-iqtisadi proqramların həyata keçirilməsi nəticəsində yüz minlərlə iş yerlərinin açılması nəzərdə tutulur. Əminəm ki, biz buna nail olacağıq. Biz nəzərdə tutulan bütün tədbirləri həyata keçirəcəyik.

Naxçıvan çox sürətlə inkişaf edir. Bu, bizim hamımızı sevindirir. Naxçıvan hər bir azərbaycanlı üçün əziz, doğma torpaqdır. Azərbaycanın qədim torpağıdır. Naxçıvanda son illər ərzində aparılan abadlıq, quruculuq işləri bizim hamımızı çox sevindirir. Çətin şəraitdə, blokada şəraitində yaşayan naxçıvanlılar böyük işlər görüblər. Bu hava limanının tikilməsi, şəhərdə digər obyektlərin inşa olunması, yüksək səviyyədə tikilməsi onu göstərir ki, Naxçıvan çox sürətlə inkişaf edir.

Naxçıvan həmişə Heydər Əliyevin diqqət mərkəzində idi. Təkcə ona görə yox ki, Heydər Əliyevin vətənidir və Heydər Əliyev Naxçıvanda doğulmuşdur. Ona görə ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən diyardır. Əlbəttə, Naxçıvanın hərtərəfli güclənməsinə Heydər Əliyev həmişə böyük əhəmiyyət verirdi. Bu siyasət davam etdiriləcəkdir.

Mən bunu bir neçə dəfə qeyd etmişəm – Naxçıvana olan xüsusi münasibət bundan sonra da göstəriləcək və mən naxçıvanlıları daim, həmişə dəstəkləyəcəyəm.

Biz istəyirik ki, Naxçıvanda və Azərbaycanın digər bölgələrində insanlar daha yaxşı yaşasınlar, işlə təmin olunsunlar, əmək haqları onları təmin etsin, onlar sosial cəhətdən daha güclü müdafiə olunsunlar. Bütün bu amillər bizim proqramlarımızın tərkib hissəsidir. Mən ümid edirəm ki, biz buna nail olacağıq.

Əziz naxçıvanlılar!

Əziz dostlar!

Mən bu gün Naxçıvana gəlmişəm. Mən keçmişdə Naxçıvanda dəfələrlə olmuşam. Xüsusilə, 1990-1993-cü illərdə, Heydər Əliyev Naxçıvanda işləyəndə, yaşayanda burada dəfələrlə olmuşam, o çətin şəraiti görmüşəm. Soyuq, şaxtalı qışda insanların necə çətin şəraitdə yaşamasını görmüşəm. Köhnə hava limanından böyük çətinliklərlə dəfələrlə istifadə etmişəm. Baxmayaraq ki, Heydər Əliyev Naxçıvanda Ali Məclisin sədri idi, hava limanından hamı necə, biz də elə istifadə edirdik. Həmin o meydanda növbə gözləyər, növbə çatanda Bakıya balaca "YAK" təyyarəsi ilə gedərdik. Amma baxın, bu gün nə gözəl şərait yaradılıbdır. Bu şərait onu göstərir ki, ölkəmiz inkişaf edir, ölkəmiz yaşayır, ölkəmiz güclənir və bundan sonra da güclənəcəkdir.

Mən çox şadam, xoşbəxtəm ki, bu gün sizinlə birlikdəyəm, Azərbaycanın qədim Naxçıvan torpağındayam. Biz hələ bir neçə gün birlikdə olacağıq. Amma bundan sonra biz Bakıya qayıtsaq da, biləsiniz ki, bizim qəlbimiz buradadır, sizinlədir. Sizi bir daha təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyev Vətənin azadlığı və suverenliyi, həmçinin bu qədim diyarın erməni təcavüzündən müdafiəsi uğrunda canlarını qurban vermiş naxçıvanlıların məzarlarını ziyarət etdi.*

*Respublikamızın rəhbəri Azərbaycanın, doğma Naxçıvanın hər daşını özünə vətən bilən və onun uğrunda mərdliklə döyüşən, şəhidlik zirvəsinə ucalan mərd mübarizlərin ruhuna dərin ehtiram əlaməti olaraq abidə kompleksinin önünə əklil qoydu.*

* * *

*Prezident İlham Əliyev sonra Əcəmi seyrəngahına gəldi. Orta əsr Şərqinin ən böyük memarlarından olan Əcəmi Əbubəkir oğlu Naxçıvaninin adını daşıyan bu seyrəngahda naxçıvanlılar dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev sovet dövründə iki dəfə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülmüş ümummilli lider Heydər Əliyevin o vaxt burada ucaldılmış büstünü ziyarət edərək gül dəstəsi qoydu, xatirə şəkli çəkdirdi.*

* * *

*Prezident İlham Əliyev mayın 12-də Naxçıvan Muxtar Respublikası xəstəxanasında istifadəyə verilmiş kompüter tomoqrafiyası kabinetinin təntənəli açılışı mərasimində iştirak etmişdir.*

* * *

*İlham Əliyev mayın 12-də babası Əlirza kişinin və dünyadan köçmüş digər doğmalarının məzarlarını ziyarət etmək üçün xanımı Mehriban Əliyeva ilə birlikdə Naxçıvanın köhnə qəbiristanlığına gələrək onların xatirəsini ehtiramla yad etdi, məzarların üzərinə gül qoydu.*

## "N" HƏRBİ HİSSƏSİNDƏ YENİ KORPUSUN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*12 may 2004-cü il*

Əziz əsgərlər, zabitlər, generallar!

Sizin hamınızı salamlayıram, seçdiyiniz şərəfli peşənizdə uğurlar arzulayıram.

On üçüncü ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır. Hər bir müstəqil dövlət üçün onun ordusu müstəqilliyin ən vacib əlamətlərindən biridir. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda ordu, demək olar, yox idi. Ayrı-ayrı dəstələrdən ibarət olan birləşmələr, təbii ki, ölkə qarşısında duran çox çətin vəzifələrin öhdəsindən gələ bilməzdilər. Azərbaycan çox çətin vəziyyətə düşmüşdü və bunun nəticəsində torpaqlarımız işğal olunurdu.

Yalnız ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə Azərbaycana qayıdışından, prezident vəzifəsinə seçilməsindən sonra Azərbaycanda ordu quruculuğunda dönüş yarandı. O ildən başlayaraq son on il ərzində ordumuz gücləndi, inkişaf etdi və bu gün, demək olar ki, bizim ordumuz çox yüksək səviyyədədir. Qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur.

Ordumuzun qarşısında böyük vəzifələr durur. Ordumuz Azərbaycanın dövlət müstəqilliyini qoruyur, sərhədlərimizi qoruyur. Əminəm ki, bundan sonra da bu vəzifələrin öhdəsindən layiqincə gələcəkdir.

Azərbaycan müharibə vəziyyətindədir. Azərbaycan torpaqları işğal altındadır. Biz çalışırıq ki, bu münaqişəni, Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Danışıqlar yolu ilə həll edək. Amma hələ ki, buna nail ola bilmirik. Eyni zamanda, biz daim orduya qayğı göstərməliyik, diqqət göstərməliyik, ordumuzu gücləndirməliyik. Bu siyasət bundan sonra da aparılacaqdır.

Orduya ayrılan xərclər hər il artır. Büdcədə nəzərdə tutulmuş xərclər artır. Bundan sonra da orduya ayrılacaq vəsaitlər artacaqdır. Azərbaycanın iqtisadi potensialı güclənir. Ölkə zəngin dövlətə çevriləcəkdir. Əlbəttə, bütün başqa sahələrlə yanaşı, ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Biz öz ordu, hərbi potensialımızı gücləndirməliyik. Artıq bu istiqamətdə çox önəmli addımlar atılır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə bu istiqamətdə çox önəmli, demək olar ki, həlledici addımlar atılmışdır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Amma biz istəyirik ki, ordumuz daha da güclü olsun. Orduda xidmət edən zabitlərin, əsgərlərin şəraiti daha da yaxşı olsun. Bu istiqamətdə də böyük işlər görülür. Bu gün burada gördüyünüz yeni binalar, tikililər bir daha buna sübutdur. Orduya qayğı var və bundan sonra da olacaqdır.

Hər bir hərbi hissədə şərait yüksək olmalıdır. Burada, Naxçıvanda bu istiqamətdə çox böyük işlər görülür. Naxçıvanda yerləşən hərbi hissələr muxtar respublikanı çox möhkəm qoruyurlar və mən Ali Baş Komandan kimi burada aparılan işlərdən razıyam.

Naxçıvan çətin vəziyyətdə, blokada şəraitində yaşayır. Düşmənlə sərhəddə yaşayır. 1990-1993-cü illərdə erməni təcavüzkarları Naxçıvana da hücumlar etmişlər, belə cəhdlər göstərmişlər. Amma Heydər Əliyevin rəhbərliyi ilə naxçıvanlılar onlara çox layiqli cavab verdilər, çox sarsıdıcı zərbələr endirdilər və düşməni yerinə oturtdular. O illər Naxçıvanın taleyi üçün həlledici illər olmuşdur. Heç kəs üçün sirr deyil ki, Ermənistanın qəsbkar siyasətinin bir istiqaməti ondan ibarət idi ki, Naxçıvanı da işğal altına salsınlar. Amma buna nail ola bilmədilər. Çünki Heydər Əliyev və xalq bunun qarşısını aldılar.

Mən bilirəm ki, ümummilli liderimiz Heydər Əliyev daim Naxçıvan haqqında düşünürdü. Daim Naxçıvana böyük diqqət göstərirdi. O cümlədən Naxçıvanda yerləşən hərbi hissələrə böyük diqqət göstərilirdi. Bu istiqamətdə işlər davam etdiriləcək, hazırda əməli addımlar atılır və bundan sonra da atılacaqdır. Naxçıvanda yerləşən hərbi hissələr qarşıda duran bütün vəzifələri yerinə yetirməyə hazırdırlar və qadirdirlər. Bundan sonra görüləcək tədbirlərin nəticəsində isə burada çox güclü hərbi birləşmə yaranacaqdır.

Bütün bunları həyata keçirmək üçün, qarşıda duran məqsədlərə nail olmaq üçün Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf etməlidir. Ümummilli liderimiz tərəfindən təməli qoyulmuş iqtisadi islahatlar, Azərbaycanda həyata keçirilən irimiqyaslı layihələr bizə imkan verəcəkdir ki, yaxın zamanlarda ölkəmiz iqtisadi cəhətdən çox qüdrətli ölkəyə çevrilsin. Heç kəs üçün sirr deyil ki, iqtisadi cəhətdən zəif ölkələrdə güclü ordu olmur. Yalnız iqtisadi cəhətdən güclü olan ölkələr güclü orduya malik olurlar. Bizim də vəzifəmiz budur. Biz ölkəmizi gücləndirəcək, zənginləşdirəcəyik. Ölkəmiz sürətlə inkişaf edəcək və yaranmış iqtisadi potensial, o cümlədən bəlkə də, ilk növbədə, ordu quruculuğuna sərf olunacaqdır.

Ölkəmiz müharibə şəraitindədir. Bizim işimiz haqq işidir. Biz heç kəsin torpağını işğal etməmişik, heç kəsin də torpağında gözümüz yoxdur. Bizim ərazi bütövlüyümüz pozulubdur, torpaqlarımız işğal altındadır. Azərbaycan xalqı, Azərbaycan ordusu hər an öz ərazi bütövlüyünü bərpa etmək üçün lazımi addımlar ata bilər.

Bizim buna haqqımız çatır. Beynəlxalq hüquq normaları da bizə belə bir imkan yaradır. Ermənistan bütün beynəlxalq hüquq normalarını pozubdur. Artıq dünyada bu məsələ ilə əlaqədar ictimai rəy formalaşıbdır. Deyə bilərəm ki, bu ictimai rəy ədaləti əks etdirən rəydir, bizim üçün müsbət rəydir. Azərbaycanın tələbləri artıq böyük diqqətlə qarşılanır və biz görürük ki, beynəlxalq ictimaiyyət, dünyanın aparıcı ölkələri bu məsələyə daha ədalətli yanaşmağa başlamışlar.

Biz ümid edirik ki, Azərbaycanın ərazi bütövlüyü danışıqlar yolu ilə bərpa olunacaqdır. Biz buna çalışacağıq və sülh danışıqlarına sadiqik. Ancaq eyni zamanda – Azərbaycan xalqı heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Əgər biz görsək ki, danışıqların heç bir nəticəsi yoxdur, bütün vasitələrdən istifadə edib torpaqlarımızı azad edəcəyik. Bunu etmək üçün güclü ordu lazımdır, vətənpərvərlik ruhu lazımdır, xalqın birliyi, iradəsi lazımdır. Bunların da hamısı var.

Azərbaycanda son 10 il ərzində Heydər Əliyev tərəfindən həyata keçirilən siyasət xalq tərəfindən bəyənilir və dəstəklənir. Ötən il keçirilən prezident seçkilərində xalq Heydər Əliyev siyasətinə, Heydər Əliyev ideologiyasına səs veribdir. Azərbaycan xalqı bu siyasətə alternativ görmür. Azərbaycanın rahat yaşaması üçün, xalqımızın rahat şəraitdə yaşaması üçün bu siyasət davam etdirilməlidir. Azərbaycanda ictimai-siyasi asayiş var, iqtisadi tərəqqi var, sosial məsələlər öz həllini tapır, ölkəmiz ildən-ilə güclənir. Bu gün Naxçıvanda olarkən bunu bir daha açıq-aydın görürük. Blokada şəraitində yaşayan Naxçıvan böyük addımlarla irəliləyir. Burada aparılan abadlıq, quruculuq işləri məni çox sevindirir. Yeni binalar, müəssisələr, elm ocaqları, səhiyyə ocaqları, idman qurğuları yaradılır, demək olar ki, həyatımızın hər bir sahəsi Naxçıvanda inkişaf edir. O cümlədən ordu quruculuğu da. Burada Naxçıvan rəhbərliyinin xüsusi xidmətləri vardır. Mən buna görə onlara minnətdaram.

Əziz əsgərlər, zabitlər, generallar!

Mən sizi bir daha salamlayıram və vətən uğrunda xidmətinizə görə sizə öz təşəkkürümü bildirirəm. Sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyev müasir səviyyədə qurulmuş hərbi hissə ilə tanış oldu, əsgərlərin şəraiti ilə maraqlandı, yeni korpusun kazarması, ideoloji otağı, tibb məntəqəsi, qərargahı ilə tanış oldu, yeməkxanada əsgərlərlə birlikdə nahar etdi. Dövlətimizin başçısı burada görülən işləri yüksək qiymətləndirdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev mayın 12-də Naxçıvan Dövlət Universitetinin İnternet kitabxanası binasının açılışı mərasimində iştirak etmişdir.*

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN YENİ KORPUSUNUN TƏNTƏNƏLİ AÇILIŞINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*12 may 2004-cü il*

Əziz naxçıvanlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizi bu yağışın altında çox saxlamaq istəmirəm. Amma eyni zamanda, öz ürək sözlərimi demək istəyirəm.

Mən bu gün səhərdən Naxçıvandayam. Naxçıvanda böyük quruculuq, abadlıq işləri görülür. Bu gün Naxçıvanda Heydər Əliyev tərəfindən əsası qoyulmuş yeni hava limanı açıldı. Biz onun açılışında iştirak etdik. O, bütün yüksək standartlara cavab verən hava limanıdır və naxçıvanlılara gözəl xidmət edəcəkdir. Naxçıvanda yeni kompüter tomoqrafiyası kabineti yaradılmışdır. İndi naxçıvanlılar müayinədən keçmək üçün başqa şəhərlərə, Bakıya, yaxud da xaricə getməyəcəklər, burada pulsuz olaraq müayinədən keçəcəklər.

Bu gün yeni kitabxana ilə tanış olduq. Universitetin gözəl kitabxanası öz qapılarını açdı. Demək olar ki, Naxçıvanda bütün dünya standartlarına cavab verən kitabxana yaradılıbdır. Eyni zamanda, hərbi hissədə olmuşam. Deyə bilərəm ki, bu hərbi hissə Azərbaycanda bütün hərbi hissələr üçün nümunə, örnək ola bilər. Çünki orada görülən işlər belə şəraiti yaradıbdır. Əsgərlər, zabitlər orada gözəl xidmət edirlər.

Bu gün Təbii Ehtiyatlar İnstitutunun binasının açılışıdır, sabah digər tədbirlər də keçiriləcəkdir. Eyni zamanda bilirsiniz ki, Heydər Əliyevin təşəbbüsü ilə burada böyük məktəb binası tikilir. Əminəm ki, bu məktəb də Azərbaycanda bir nömrəli məktəb olacaqdır. Çünki o, Heydər Əliyevin adını daşıyacaq, çünki onun təməli Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Bu gün yeni üzgüçülük kompleksi ilə tanış olduq. Bu da xalqımıza xidmət edəcəkdir. Naxçıvanda digər tədbirlər də həyata keçirilir. Bu, məni çox sevindirir. Naxçıvan bizim hamımız üçün doğma diyardır, əziz vətəndir. Mənim atamın vətənidir. Demək, mənim də vətənimdir. Hər bir azərbaycanlının vətənidir.

Mən çox xoşbəxtəm, çox sevinirəm ki, Azərbaycanın qədim torpağı olan Naxçıvan yaşayır, inkişaf edir. Burada yeni mədəniyyət ocaqları, səhiyyə ocaqları, insanlara xidmət edəcək müəssisələr yaradılır. Bu, belə də olacaqdır. Naxçıvan daim, bütün zamanlarda ümummilli liderimiz Heydər Əliyevin diqqət mərkəzində idi. Bu diqqət bundan sonra da göstəriləcəkdir.

Mən bu fürsətdən istifadə edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Onun yorulmaz fəaliyyəti nəticəsində burada böyük işlər görülübdür. Ümummilli liderimiz Heydər Əliyev hər dəfə Naxçıvana gələndə buradan böyük ruh yüksəkliyi ilə qayıdırdı. İkinci tərəfdən, əlbəttə, bura onun doğma vətənidir. Əlbəttə ki, burada keçirdiyi günlər onun üçün çox əziz idi.

Eyni zamanda, Heydər Əliyev görəndə ki blokada şəraitində, ağır vəziyyətdə yaşayan Naxçıvan – demək olar ki, Naxçıvan Azərbaycanın yeganə diyarıdır ki, buraya təbii qazın verilməsi hələ mümkün deyil, qışda havalar soyuq keçir, bəzi hallarda elektrik enerjisi verilməsində problemlər yaranır, amma biz bütün bu məsələləri həll edəcəyik, görüləcək tədbirlər nəticəsində bu məsələlər öz əksini tapacaqdır – Naxçıvan çiçəklənir, inkişaf edir, burada abadlıq işləri gedir, bu onu çox sevindirirdi. Məni də çox sevindirir. Bu güclənən yağış da mənim sözümün qüvvətidir.

1990-1993-cü illərdə, Naxçıvanın ən çətin dövründə Heydər Əliyev naxçıvanlılarla birlikdə olubdur. O, Naxçıvana gəldi və naxçıvanlılar onu qorudular. Bundan sonra Heydər Əliyev Naxçıvanın rəhbərliyinə gəldi və o, naxçıvanlıları qorudu.

O dövrlərdə Heydər Əliyev xalqla bir idi. Heydər Əliyev – xalq birliyi imkan verir ki, Azərbaycan çox uğurla inkişaf etsin. Naxçıvan, blokada şəraitində yaşayan əziz diyarımız inkişaf edir, çiçəklənir, güclənir və bu ənənələr, bu siyasət bundan sonra da davam etdiriləcəkdir.

Bu gün mən də sizinlə bərabər bu yağışın altındayam. Amma mən bu yağışı hiss etmirəm. Sizin göstərdiyiniz qonaqpərvərliyi, istiqanlılığı, məhəbbəti görəndə mənə elə gəlir ki, sanki səmada günəş çıxıbdır. Mən sizin hamınıza bir daha öz dərin hörmət və ehtiramımı, məhəbbətimi bildirirəm. Sizə öz təşəkkürümü bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Naxçıvan bundan sonra da yaşayacaq, güclənəcək, zənginləşəcəkdir. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan əbədi yaşayacaqdır. Sağ olun.

* * *

*Azərbaycan prezidentinə məlumat verildi ki, bölmənin yeni korpusunda Təbii Ehtiyatlar İnstitutu, Batabat Astrofizika Rəsədxanasının mərkəzi aparatı və Əlyazmalar Fondu yerləşir. Burada elmi kitabxana, nəşriyyat, arxiv, seysmoloji mərkəz vardır, elmi tədqiqat işləri aparılacaq 8 laboratoriya fəaliyyət göstərir. Yeni korpusda 200 nəfər çalışacaqdır.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev daha sonra Vayxır Su Anbarına gəldi.*

*Ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə tikilən bu su anbarı Muxtar Respublikanın Babək və Şahbuz rayonları kəndlərinin suvarma suyuna olan ehtiyacını tam ödəyəcəkdir.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Vayxır Su Anbarı ilə tanışlıqdan sonra qədim diyarın müqəddəs yerlərindən biri olan Əshabi-Kəhf ziyarətgahına gəldi.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva bu müqəddəs ocağı ziyarət etdilər, nəzir verdilər.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev mayın 13-də Naxçıvan şəhərində Əlillərin Bərpa Mərkəzinin təntənəli açılışında iştirak etmişdir.*

* * *

*Həmin gün Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan şəhərində Heydər Əliyev adına orta məktəbin binasının tikintisi ilə tanış olmuşdur.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev mayın 13-də İqtisadi İnkişaf Nazirliyinin inşa etdirdiyi Naxçıvan Yeyinti Sənaye Kompleksinin təntənəli açılışı mərasimində iştirak etmişdir.*

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ**

*13 may 2004-cü il*

Hörmətli müşavirə iştirakçıları!

İkinci gündür mən Naxçıvandayam. Prezident seçkilərindən sonra ilk dəfədir ki, Naxçıvana gəlmişəm və bu iki günün ərzində gördüklərim məni çox sevindirir. Naxçıvanda böyük quruculuq işləri davam edir.

Naxçıvan çətin şəraitdə yaşayan bir diyardır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan blokada şəraitində yaşayır. Azərbaycanın bütün başqa regionlarından fərqli olaraq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanın bağlantısı yoxdur. Yalnız hava yolu vasitəsilə əlaqə var. Bütün bunları nəzərə alaraq, möhtərəm prezidentimiz, xalqımızın ümummilli lideri Heydər Əliyevin göstərişi və bilavasitə tapşırığı ilə Naxçıvanda beynəlxalq hava limanı tikilib istifadəyə verilmişdir. Biz dünən onun açılışını təntənəli şəkildə qeyd etdik.

Deyə bilərəm ki, bu hava limanı ən yüksək dünya standartlarına cavab verir, sərnişinlərə gözəl xidmət göstərəcəkdir və gələcəkdə yeni təyyarələrin alınması da nəzərdə tutulubdur. Beləliklə, Naxçıvanla Bakı arasında əlaqələr, digər şəhərlərlə əlaqələr daha da etibarlı olacaqdır.

Naxçıvanda son illər ərzində görülən işlərin əsası 1990-cı illərin əvvəlində qoyulmuşdur. O vaxt xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana gəlmişdi. Naxçıvanlılar onu rəhbər seçmişdilər və burada quruculuq işləri başlanmışdı. Siz hamınız o günləri yaxşı xatırlayırsınız. Mən də yaxşı xatırlayıram. Çünki 1990-1993-cü illərdə Naxçıvanda dəfələrlə olmuşdum, o çətin, ağır şəraiti görmüşdüm. Ardıcıl, düşünülmüş, uzaqgörən siyasətin nəticəsində bu gün Naxçıvan öz dirçəliş dövrünü yaşayır.

Naxçıvanın sosial-iqtisadi göstəriciləri çox yüksəkdir. Muxtar respublikanın ümumi daxili məhsulu ildən-ilə artır, sənaye potensialı, yerli istehsal artır, mühüm sosial məsələlər öz həllini tapır. Əlbəttə, görülən bütün bu işlərin təməli məhz o illərdə qoyulmuşdur. Amma təbii ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana hakimiyyətə qayıtmasından sonra bütün ölkədə yeni dövr – quruculuq, yaradıcılıq dövrü başladı. Əgər Azərbaycanın, o cümlədən Naxçıvanın inkişaf ahənginə nəzər salsaq, görərik ki, 1996-cı ildən sonra çox sürətli artım var. Ölkəmiz sürətlə inkişaf edir, ümumi daxili məhsul artır. Sərmayələrin qoyuluşuna görə Azərbaycan ön sıralardadır. Azərbaycanın beynəlxalq nüfuzu artıbdır. Ölkəmizdə iri, dünya miqyaslı beynəlxalq layihələr həyata keçirilir.

Bir sözlə, Azərbaycan regionda öz mövqelərini möhkəmləndiribdir. Regional məsələlərdə Azərbaycanın sözü həlledicidir. Əlbəttə, bu, bizə imkan verir ki, öz siyasətimizi daha da inamla həyata keçirək.

Bu yaxınlarda Azərbaycanda sosial-iqtisadi inkişafın sürətləndirilməsinə dair xüsusi fərman verilmişdir. Eyni zamanda, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı da qəbul olunubdur. Amma bu iki gündə Naxçıvanda açdığımız müəssisələr onu göstərir ki, bu sosial-iqtisadi inkişaf proqramı Naxçıvanda çoxdan həyata keçirilir.

Baxın, burada muxtar respublikanın həyatı, gələcəyi üçün əhəmiyyətli müəssisələr, infrastruktur obyektləri yaradılır, çox yüksək səviyyədə yollar salınır, hava limanı istifadəyə verilibdir. İdman kompleksləri, üzgüçülük hovuzu, mədəniyyət obyektləri tikilir. Deyə bilərəm ki, idman kompleksləri, universitet binası ən müasir avadanlıqla təchiz olunmuş, internetə qoşulmuş kitabxana, Əlillərin Bərpa Mərkəzi, digər obyektlər bütün dünya standartlarına cavab verir. Bu, onu göstərir ki, sosial məsələlərin həllinə böyük önəm verilir, hər bir sahədə inkişaf var.

Bizim ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri yeni iş yerlərinin açılmasıdır. Bu istiqamətdə də Naxçıvanda çox gözəl işlər görülür. Bu gün açılışında iştirak etdiyimiz sənaye kompleksində çoxlu yeni iş yerləri yaradılıbdır. İnsanlar işlə təmin olunubdur. Eyni zamanda, yerli istehsalın potensialı artır. Bizim məqsədimiz ondan ibarətdir ki, imkanımız çatan sahələrdə yerli istehsalı gücləndirək, idxalı azaldaq. Əlbəttə, Azərbaycanda istehsal edilməyən məhsullar, təbii ki, idxal olunmalıdır. Amma Azərbaycanda istehsal olunan məhsulların buraxılması Naxçıvanda da inkişaf etməlidir. Bu gün mənə verilən məlumata görə, Naxçıvan özünü, demək olar, böyük həcmdə təmin edir. Bu ənənələr, bu meyllər davam edəcəkdir. Naxçıvan daha da inkişaf edəcək. Burada yeni sənaye müəssisələri, yeni infrastruktur obyektləri tikiləcəkdir.

Heydər Əliyevin təşəbbüsü ilə Vayxır su anbarının, demək olar ki, yenidən qurulmasına başlanmışdır. Oraya böyük həcmdə sərmayə qoyulur və bu gün biz gördük ki, işlər necə uğurla davam edir. Bu, imkan verəcək ki, kənd təsərrüfatı inkişaf etsin. Bir sözlə, görülən bütün bu işlər gələcəkdə imkan verəcək ki, Naxçıvan çox uğurla inkişaf edə bilsin. Bizim məqsədimiz ondan ibarətdir ki, Naxçıvan maksimum dərəcədə özünü bütün cəhətlərdən təmin edə bilsin. Mən ümid edirəm ki, biz buna nail olacağıq.

Naxçıvanın əsas problemlərindən biri elektrik enerjisi məsələsidir. Bilirsiniz ki, buraya elektrik enerjisinin əsas hissəsi xaricdən gəlir. Naxçıvana 140 meqavat həcmində elektrik enerjisi verilir. Onun yalnız 20 meqavatı daxildə istehsal olunur. Qalanı isə Türkiyə və İrandan alınır. Bizim planlarımız, proqramlarımız var. Bu istiqamətdə işlər aparırıq ki, Naxçıvanı elektrik enerjisi ilə tam şəkildə təmin etmək üçün yeni layihələr həyata keçirək. Biz bu yaxınlarda həmin məsələ ilə ciddi məşğul olmuşuq. Mən "Azərenerji"nin prezidenti Pirverdiyevə göstərişlər vermişəm. Sizə deyə bilərəm ki, artıq İranla çox önəmli danışıqlar aparılır. İranla elektrik enerjisi mübadiləsi həyata keçirilir. Düzdür, onun həcmi o qədər də böyük deyildir. Nə qədərdir?

**Etibar Pirverdiyev** (*«Azərenerji» SC-nin prezidenti*): Cənab prezident, cəmi 200 meqavatdır.

**İlham Əliyev:** Yay ərzində ildə 200 meqavatdır. Amma görüləcək işlərin nəticəsində biz bunu 700 meqavata çatdıra bilərik. Belə olan halda, Naxçıvanın elektrik enerjisinə olan tələbatı tam ödəniləcəkdir.

Qaz verilməsi məsələsi də gündəlikdədir. Bu istiqamətdə də işlər aparılır. Əlbəttə, əgər Naxçıvanla Azərbaycan arasında əlaqə olsaydı, buraya qaz vermək bizim üçün problem olmazdı. Çünki Azərbaycanda ildə 5 milyard kubmetrdən çox qaz hasil edilir. Eyni zamanda, 4 milyard kubmetrdən artıq idxal olunur. Naxçıvanın tələbatı 350-400 milyon kubmetrdir. Bunu təmin etmək problem deyildir. Problem odur ki, biz bu qazı Naxçıvana verə bilmirik. Belə olan halda, əlbəttə, başqa yollar arayırıq ki, bu məsələni də həll edək. Mən ümid edirəm ki, bu məsələni həll edəcəyik. Bu məsələ öz həllini taparsa, əlbəttə ki, Naxçıvanda yeni müəssisələrin yaradılması prosesi daha da sürətlə gedəcəkdir. Bizim məqsədimiz bundan ibarətdir.

Ordu quruculuğu sahəsində burada çox böyük işlər görülür. Mən dünən hərbi hissədə olarkən öz çıxışımda qeyd elədim ki, bu hərbi hissə Azərbaycanın hər bir hərbi hissəsi üçün nümunə, örnək ola bilər. Əsgərlərlə bir yerdə olduq, yemək yedik, yemək də çox dadlı idi. Orada olan şərait ən yüksək standartlara cavab verir. Azərbaycanın Ordusu məhz bu cür olmalıdır.

Əlbəttə, görülən bütün bu işlərin səbəbi vardır. İlk növbədə, xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvana münasibətini xatırlatmaq istəyirəm. O, həmişə deyirdi ki, Naxçıvana xüsusi münasibət olmalıdır. Naxçıvan Muxtar Respublikası blokada şəraitində yaşayır, ona görə Naxçıvana xüsusi diqqət olmalıdır. Özü də daim bu diqqəti göstərirdi. Digər tərəfdən, siz Naxçıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz.

Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma topağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir. Buna görə mən sizə öz minnətdarlığımı bildirirəm.

Sizi əmin etmək istəyirəm ki, Naxçıvana bu vaxta qədər Azərbaycan rəhbərliyi tərəfindən göstərilmiş diqqət, qayğı bundan sonra da göstəriləcəkdir. Bu, Heydər Əliyevin siyasətidir və mən də bu siyasəti davam etdirirəm.

Yadımdadır, prezident Heydər Əliyev Naxçıvanda olarkən Bakıdan gəlmiş nazirlərə göstəriş vermişdi ki, onlar vaxtaşırı Naxçıvana gəlsinlər, burada məsələlərlə məşğul olsunlar, lazımi köməyi də göstərsinlər. Mən bu gün nazirləri tənqid etmək fikrində deyiləm. Amma deyə bilərəm ki, mənə verilən məlumata görə, prezident seçkilərindən sonra buraya Daxili İşlər naziri Ramil Usubovdan başqa heç bir nazir gəlməyibdir. Bu, yaramaz bir haldır. Prezident seçkilərindən 7 ay keçib və bu 7 ay ərzində Usubovdan başqa heç bir nazir buraya gəlməyibdir.

Hörmətli nazirlər, bəlkə də, bu gün bunun yeri deyil, amma mən istəyirəm biləsiniz: Heydər Əliyevin hər bir sözü bizim üçün qanundur. Əgər o, belə deyibsə, bundan sonra da belə olacaqdır. Mən sizdən tələb edirəm ki, Heydər Əliyevin sizə verdiyi tapşırıqları yerinə yetirəsiniz və vaxtaşırı, rübdə azı bir dəfə buraya gələsiniz, bütün məsələlərlə məşğul olasınız, lazımi köməyi göstərəsiniz ki, işlər daha da sürətlə getsin. Mən ümid edirəm ki, növbəti dəfə bu tapşırığı verməli olmayacağam.

Görülən bütün işlər məni çox sevindirir. Çox sevindirir ki, doğma vətənimiz belə uğurla inkişaf edir. İnsanların rifah halı yaxşılaşır, gəlirləri artır. Son illər ərzində Azərbaycanda aparılan sosial-iqtisadi islahatların nəticəsində bütün sahələrdə çox dinamik inkişaf müşahidə olunur.

Azərbaycan bazar iqtisadiyyatı prinsipləri ilə irəliləyir. Bu, bizim siyasətimizdir. Dünya təcrübəsi bunu göstərir ki, başqa alternativ yoxdur. Yalnız və yalnız bazar münasibətləri prinsipləri əsasında qurulmuş iqtisadiyyat uğurlar əldə edir. Amma, eyni zamanda, Azərbaycanda sosial məsələlərə böyük önəm verilir. Mən bu barədə bir neçə dəfə fikirlərimi bildirmişəm.

Baxmayaraq ki, iqtisadiyyatımız bazar prinsipləri əsasında qurulub, büdcəmizin böyük hissəsi sosial məsələlərin həllinə yönəldilir. Bu, onu göstərir ki, sosial məsələlər, başqa sözlə, insanlara olan qayğı daim diqqət mərkəzindədir. Bu siyasət davam edəcəkdir. Azərbaycanda hələ çətin vəziyyətdə yaşayan insanların sayı az deyildir. Onların arasında ən çətin vəziyyətdə olan soydaşlarımız qaçqın-köçkün insanlardır. Onların vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görülür.

Bilirsiniz ki, ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Neft Fondundan 70 milyon dollar vəsait ayrılmışdır ki, qaçqınlar, köçkünlər üçün yeni müasir evlər, binalar, şəhərciklər tikilsin. Bu binalar tikilir. Biləsuvar rayonunda belə bir şəhərciyin açılışında mən iştirak etmişdim. Bu siyasət davam etdirilir. Artıq mənim fərmanlarımla müəyyən tədbirlər planı nəzərdə tutulub ki, yaxın zamanlarda digər qaçqın–köçkünlər üçün də oxşar şərait yaradılacaqdır.

Amma bu, məsələnin həlli deyildir. Məsələnin həlli ondadır ki, Ermənistanın silahlı qüvvələri Azərbaycan torpaqlarından geri çəkilsin və qaçqınlar, köçkünlər doğma torpaqlarına qayıtsınlar. Bu istiqamətdə böyük səylər göstərilib, danışıqlar aparılıbdır. Düzdür, hələ ki, danışıqların heç bir nəticəsi yoxdur. Amma Azərbaycanın mövqeləri günbəgün möhkəmlənir. Bu gün beynəlxalq təşkilatlardan gələn xəbərlər, dəyişən mövqelər bizdə nikbinlik hissi oyadır. Artıq dünya ictimaiyyəti bu məsələ ilə əlaqədar daha ədalətli mövqe tutubdur. Aparıcı beynəlxalq təşkilatlar öz mövqelərini açıq-aydın ortaya qoyurlar. Ümid edirəm ki, görülən bütün bu işlərin nəticəsində ədaləti əks etdirən, beynəlxalq hüquq normalarına əsaslanan sülh müqaviləsi mümkün olacaqdır. Hər halda, biz çalışırıq və əlimizdən gələni edirik ki, buna nail olaq. Amma bilirsiniz ki, Azərbaycanın prinsipləri var və biz bu prinsiplərdən geri çəkilməyəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. İşğal olunmuş torpaqlar azad edilməli, qaçqınlar, köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu prinsiplərin əsasında biz istənilən danışıqları apara bilərik. Amma bu prinsiplərin xaricində biz heç vaxt heç bir razılaşmaya gedə bilmərik.

Biz məsələni sülh yolu ilə həll etmək əzmindəyik. Amma eyni zamanda, hər an hazır olmalıyıq ki, bu məsələni bütün digər vasitələrlə həll edək. Azərbaycanın iqtisadi potensialı ildən-ilə artır, güclənir. Bu gün Azərbaycanın büdcəsi Ermənistanın büdcəsindən üç dəfə çoxdur. Amma Heydər Əliyevin əsəri olan Bakı–Tbilisi–Ceyhan neft kəməri istismara veriləndən, digər önəmli layihələr həyata keçiriləndən sonra, əlbəttə, Azərbaycanın büdcəsi daha böyük olacaq, iqtisadi potensialı güclənəcəkdir. Bu da imkan verəcəkdir ki, Azərbaycanın hər bir sahəsi inkişaf etsin, güclənsin. Mən əminəm ki, vaxt gələcək, Azərbaycanın torpaqları azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Əziz dostlar!

Bir daha qeyd etmək istəyirəm ki, bu iki gün mənim üçün çox xoş keçir. Mən yenə 1990-cı illərin əvvəlində Naxçıvanda atamla birlikdə keçirdiyim günləri xatırlayıram. Onun sizə olan məhəbbətini xatırlayıram. Naxçıvanlıların Heydər Əliyevə göstərdiyi dəstəyi xatırlayıram. Mən xatırlayıram ki, o, Moskvada böyük təzyiqlərə məruz qalmışdı. Bakıya gəldi. O vaxt Sovet İttifaqı Kommunist Partiyasının əlaltıları ona Bakıda da qalmağa imkan vermədilər. Doğma vətəni Naxçıvana gəldi və naxçıvanlılar onu qorudular, dəstəklədilər, özlərinə rəhbər seçdilər.

Heydər Əliyev burada, bu binada işləmişdir. Bu bina da mənim üçün çox əzizdir. Çünki mənim yadımdadır ki, Naxçıvana atamı görməyə gələndə səhərdən-axşama qədər onu bu binada gözləyirdim ki, işi nə vaxt qurtaracaq, evə gedəcəyik. Ona görə bütün bu xatirələr məndə yaşayır. Bu xatirələr mənim üçün çox əzizdir.

Mən bilirəm və siz də bilirsiniz ki, Heydər Əliyev burada əsasını qoyduğu bütün layihələrin həyata keçirilməsini, özünün də gəlib onların açılışında iştirak etməsini necə istəyirdi. Bilirəm, Vasif Talıbovdan dəfələrlə soruşurdu ki, hava limanının inşası necə gedir. Məndən soruşurdu ki, idman qurğularını nə vaxt açacaqsınız, bunu niyə belə yubadırsınız, nə vaxt olacaq. Ürəkdən istəyirdi, tələsirdi ki, onların açılışlarında iştirak etsin və belə də olmalı idi. Amma bəzi hallarda həyatda ədalətsizliklər də baş verir. Əfsuslar olsun ki, o, bunları görmədi.

Amma eyni zamanda, mən bilirəm, bəzən insan təsəlli axtarır. O gördü ki, onun işi davam etdirilir, onun əsəri olan müstəqil Azərbaycan yaşayır, onun yolu ilə gedir. Gördü ki, xalq o siyasəti dəstəkləyir. Bizim hamımızın borcudur ki, Heydər Əliyevin siyasətini yaşadaq, davam etdirək, Azərbaycanı onun yolu ilə irəliyə aparaq.

Sizi bir daha salamlayıram. Sizə yeni uğurlar, yeni qələbələr, cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Naxçıvan MR Ali Məclisində keçirilən müşavirədən sonra prezident İlham Əliyev şəhəri gəzərək, ümummilli liderimiz Heydər Əliyevə burada ucaldılacaq heykəlin yerini müəyyənləşdirmək üçün mütəxəssislərlə məsləhətləşmələr apardı.*

*Sonra Azərbaycan prezidenti və xanımı Mehriban Əliyeva Naxçıvandakı Heydər Əliyev Muzeyinə gəldilər.*

*Muzeydə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən fotolara, dahi rəhbərin uşaqlıq, gənclik illərindən qalan dəyərli nümunələrə baxdılar. Buradakı eksponatlar müstəqil Azərbaycanın qurucusunun 1969-cu ildən başlayaraq, respublikamıza rəhbərlik etdiyi uzun bir dövrün ayrı-ayrı tarixi məqamlarını, onun əfsanəvi həyatını əks etdirir. Ulu öndərimizin və onun ömür-gün yoldaşı Zərifə xanımın portretləri toxunmuş xalça və digər qiymətli eksponatlar diqqəti xüsusilə cəlb edir.*

*Muzeyin yeni eksponatları arasında Heydər Əliyevin Naxçıvan Pedaqoji Məktəbini əla qiymətlərlə qurtarması barədə 1939-cu ildə verilmiş diplom və 1951-ci ildə Azərbaycan Dövlət Universitetinə qəbul imtahanlarını əla qiymətlərlə verməsi barədə sənəd də vardır.*

* * *

**Muzeylə tanışlıqdan sonra jurnalistlərə verdiyi müsahibə:**

**S u a l: Cənab Prezident, Siz dediniz ki, bu, prezident seçkilərindən sonra Naxçıvana ilk səfərinizdir. Sizcə, Naxçıvan hesab etdiyiniz səviyyəyə çatıbmı? Siz, ilk növbədə, hansı mühüm işlərin görülməsini tapşırdınız?**

**C a v a b:** Prezident kimi ilk səfərimdir. Amma keçmişdə mən Naxçıvanda dəfələrlə olmuşam. Naxçıvanın ən çətin dövrlərində də mən dəfələrlə burada olmuşam. Əlbəttə, Naxçıvanda gedən proseslər çox uğurludur. Burada gedən sosial-iqtisadi islahatlar, quruculuq işləri, yeni müəssisələrin yaradılması – bütün bunlar çox müsbət haldır. Mən çox şadam, çox sevinirəm ki, Naxçıvan belə yüksək ahənglə inkişaf edir. Əlbəttə, bunlar məni razı saldı.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağın separatçı rejiminin qeyri-legitim rəhbərliyi Minsk qrupunun həmsədrlərinə, Ermənistan və Azərbaycan prezidentlərinə müraciət edərək, sülh sazişi imzalanana qədər atəşkəs rejiminə dair saziş haqqında bəyannamə imzalanmasını xahiş etmişdir. Sizcə, buna lüzum varmı?**

**C a v a b:** Mən bunu eşitməmişəm. Zənnimcə, buna heç bir lüzum yoxdur. Atəşkəs rejimi davam edir və hər iki tərəf onu dəstəkləyir. Odur ki, belə sənədlərə lüzum yoxdur.

**S u a l: Siz Naxçıvana gəlməzdən əvvəl İran prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi ilə görüşmüsünüz. Əgər mümkünsə, görüşün nəticələri barədə məlumat verin. İranın mövqeyində hər hansı irəliləyiş varmı?**

**C a v a b:** Orada biz bir çox məsələləri, o cümlədən Naxçıvana qaz göndərilməsi, Naxçıvanın və digər rayonlarımızın elektrik enerjisinə tələbatını tam ödəmək üçün İranla Azərbaycan arasında yeni elektrik xətti çəkilməsi məsələsini müzakirə etdik. Xəzərlə bağlı məsələ də müzakirə olundu. Aparılan danışıqlar nikbinlik doğurur, bütün tərəflərin tez bir zamanda qarşılıqlı surətdə məqbul qərar tapmaq istəyi var. Ona görə də biz bu istiqamətdə bundan sonra da birlikdə işləyəcəyik.

**S u a l: Cənab Prezident, Rusiya-Azərbaycan-İran elektrik xətlərinin birləşdirilməsi layihəsindən söhbət gedir. Sizin Rusiyaya səfəriniz zamanı bu barədə məlumat yayılmışdı. Çubaysın Azərbaycana səfəri barədə də danışılır. Ümumiyyətlə, bu barədə müzakirələr olubmu və bunun perspektivlərini necə görürsünüz?**

**C a v a b:** Yox, belə müzakirələr olmayıbdır. Ola bilər, hansısa ekspertlərin səviyyəsində bu məsələ müzakirə edilib, amma, hələ qərar verilməyibdir. Bu, çox ciddi, mühüm məsələdir. Biz buna təkcə iqtisadi baxımdan yanaşa bilmərik. Gərək bütün başqa amillər təhlil edilsin. Ondan sonra biz öz fikrimizi bildirə bilərik. Hazırda bu istiqamətdə heç bir danışıqlar aparılmır.

**S u a l: Cənab Prezident, ötən gün Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin görüşü olmuşdur. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Hələ danışmamışam. Naxçıvanda o qədər çox işlər var ki, hələ bizim xarici işlər naziri ilə danışmamışam. Yəqin ki, bu axşam danışacağam.

**S u a l: Cənab Prezident, Naxçıvana qaz verilməsi ilə bağlı razılıq əldə olunubmu?**

**C a v a b:** Razılıq belədir ki, bu barədə İranla danışıqlar gedir. Bizim təklifimiz ondan ibarətdir ki, İran Naxçıvana istənilən həcmdə qaz versin, biz də gələcəkdə bu borcu qazla ödəyək, yaxud elektrik enerjisi ilə indi də ödəyə bilərik. İranın başqa təklifləri var. Gərək bu məsələ iqtisadi cəhətdən işlənilsin. Hər halda, ümid edirəm ki, prinsip etibarilə məsələ öz müsbət həllini tapacaqdır.

**S u a l: Cənab Prezident, Sizin İrana səfəriniz gözlənilirmi? Ümumiyyətlə, belə məlumatlar yayılmışdır ki, prezident Məhəmməd Xatəmi ilə birlikdə Siz Astara–Bakı avtomobil yolunun təməlqoyma mərasimində iştirak edəcəksiniz. Bu, nə vaxt olacaq, gözlənilirmi?**

**C a v a b:** Bu məsələ də müzakirə olunubdur. İlkin layihə işlərinə artıq İran tərəfindən vəsait ayrılıbdır. Texniki-iqtisadi əsaslandırma hazırlanacaq, ondan sonra digər işlər də görüləcəkdir. Yəqin ki, bizim xarici işlər naziri İrana səfər edəcəkdir və hər iki dövlət başçısının səfərləri nəzərdə tutulur. Vaxtı hələ ki, bəlli deyildir.

**S u a l: Cənab Prezident, Siz Malkolm Bryus ilə görüşmüsünüz. Onun hüquq müdafiəçiləri ilə görüşü zamanı işlətdiyi bəzi ifadələr var idi. Sizinlə görüşdə onun fikirləri nədən ibarət oldu? Hər hansı məsələ ilə bağlı narahatlığını bildirdimi?**

**C a v a b:** Bilirsiniz, biz cənab Bryus ilə dəfələrlə görüşmüşük. İlk dəfə dekabr ayında görüşmüşdük, o vaxt bir az narahat idi. Azərbaycanda fəaliyyət göstərən hüquq müdafiəçiləri ona demişdilər ki, hökumət heç bir addım atmayacaq, hökumət sizə yalan məlumatlar ötürür. Buna oxşar digər fikirlər də deyilmişdi. Amma bu dəfə və ondan əvvəl Strasburqda görüş zamanı Malkolm Bryusun fikri çox müsbət idi. Yəni o da, biz də eyni

fikirdəyik ki, aramızda konstruktiv dialoq gedir, bu məsələ öz həllini tapır. Azərbaycanın rəhbərliyi öz xoşniyyətli iradəsini göstəribdir. Əlbəttə, Malkolm Bryus belə bir söz işlədibdir: «Siz mənim işimi asanlaşdırırsınız».

Digər narahatlıqlar ola da bilər, olmaya da bilər. Bu barədə bir şey deyə bilmərəm. Onu deyə bilərəm ki, Avropa Şurası ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyədədir. Təkcə bu məsələ ilə bağlı deyil, bütün istiqamətlərdə çox yüksək səviyyədədir. Ümid edirik ki, Ermənistan–Azərbaycan münaqişəsi ilə əlaqədar Avropa Şurası siyasi qiymət verəcəkdir. Ona görə bütün məsələlər həll olunacaqdır.

**S u a l: Cənab Prezident, Sizin xəbəriniz var, bir vaxtlar mətbuatda dövlət məmurları ilə bağlı yazılar verilir və deyilirdi ki, kimlərsə işdən də çıxarıla bilər. Ümumiyyətlə, bu məsələyə münasibətiniz necədir?**

**C a v a b:** Mən bu məsələlərə çox mənfi yanaşıram. Hesab edirəm ki, bu, çox aşağı səviyyəli mübarizə üsuludur və özünə hörmət edən şəxslər buna getməməlidir. Əgər kimsə fikirləşir ki, hansısa qəzet məqaləsi ilə mənim fikrimə təsir edə bilər, o adamlar yanılırlar. Mən öz qərarlarımı müstəqil şəkildə qəbul edirəm. Qərarın qəbul edilməsi üçün səbəblər olmalıdır. Əlbəttə, qəzet yazısı – xüsusilə də biləndə ki, bu, sifarişli yazıdır – mənim fikrimə təsir edə bilməz.

**S u a l: Cənab Prezident, Siz NATO-nun İstanbulda keçiriləcək zirvə toplantısında bu təşkilatın Baş katibi ilə görüşəcəksiniz. İstanbulda Sizin hər hansı bəyanatınız gözlənilirmi?**

**C a v a b:** Baxarıq, indidən bir şey deyə bilmərəm. NATO-nun Baş katibi ilə görüş gözlənilir. Bizim əməkdaşlığımız çox uğurludur.

**S u a l: Cənab Prezident, yaxın vaxtlarda hökumətdə dəyişikliklər gözlənilirmi? Siz bu gün nazirləri bir az danladınız. Gözlədikləriniz nə idi, yəni hökumət nə etməli idi?**

**C a v a b:** Bilirsiniz, mən heç vaxt heç kimə əsassız irad tutmuram. Əgər səbəb varsa, ancaq o təqdirdə iradımı bildirirəm. Hesab edirəm ki, bu, düzgün siyasətdir. Nazirlərə göstəriş verilmişdir ki, onlar Naxçıvanla bağlı məsələlərə diqqətlə yanaşsınlar. Buraya tez-tez gəlsinlər, beləliklə, gedən işlərə kömək etsinlər. Düzdür, onlar buraya gəlməsələr də, Naxçıvanda işlər sürətlə gedir və gedəcəkdir. Amma, əlbəttə, bir halda, vaxtilə cənab prezidentin belə göstərişi olmuşdur, deməli, onlar bunu etməli idilər. Prezident seçkilərindən 7 ay keçibdir. Bir nəfər istisna olmaq şərtilə qalanları gəlməyiblər. Ona görə tələbim budur ki, onlar gəlsinlər. Digər məsələlər də olubdur.

**S u a l: Cənab Prezident, Gürcüstanın yeni prezidenti ilə yaxşı münasibətiniz var. Gürcüstanda vəzifələrdə qubernatorun azərbaycanlı müavinləri var idi. İndi onlar yoxdur. Yəni azərbaycanlılar, demək olar ki, vəzifələrə təyin edilmirlər. Eyni zamanda, orada yaşayan soydaşlarımızın gömrük problemi də var. Onların yaşaması Azərbaycanla bağlıdır. Yəni mal gətirib aparırlar. Bununla bağlı edilən müraciət Sizə çatdırılıbmı?**

**C a v a b:** Yox, belə müraciət mənə çatdırılmayıbdır. Amma buna baxmayaraq, Gürcüstan prezidenti ilə hər dəfə görüşəndə mən bu məsələni qaldırıram və müzakirələr aparılır. Artıq təhsil sahəsində əməli işlər görülür. Bilirsiniz ki, keçmişdə Azərbaycanda çap olunmuş dərsliklərlə bağlı orada süni şəkildə çətinliklər yaradılırdı. İndi artıq bu halların qarşısı alınıbdır. Tarix dərslikləri birgə hazırlanacaqdır. Bu da çox mühüm haldır. Digər məsələlər də öz həllini tapacaqdır.

Bilirsiniz ki, Gürcüstana yeni səfir təyin olunubdur. Səfirə çox ciddi tapşırıqlar verildi. Mən ümid edirəm ki, həm orada yaşayan azərbaycanlılar, həm də səfirliyin işçiləri soydaşlarımızın gündəlik problemlərinin həll olunması istiqamətində mühüm addımlar atacaqlar. Gürcüstanın prezidenti də məni inandırıb ki, bu məsələlərə böyük diqqətlə yanaşacaqdır. Mənə verilən məlumata görə, artıq bəzi azərbaycanlılar məmur vəzifələrinə təyin ediliblər.

Əlbəttə, biz istəyirik ki, onların sayı çox olsun. Ümid edirəm ki, bundan sonra bu ənənə davam edəcəkdir. Bizim çox gözəl münasibətlərimiz var. Münasibətlərin çox gözəl, zəngin tarixi var. Gürcüstan Azərbaycan üçün çox önəmli dost ölkədir. Bizim strateji tərəfdaşımızdır. Gürcüstan–Azərbaycan münasibətləri gərək həmişə çox yüksək səviyyədə olsun.

**S u a l: Cənab Prezident, Siz xarici ölkələrdə səfirliklərin açılması barədə hökumətə tapşırıqlar vermişdiniz. Bu istiqamətdə işlər nə yerdədir və cari ilin sonuna qədər neçə səfirliyin açılması nəzərdə tutulur?**

**C a v a b:** Mənim tərəfimdən Milli Məclisə müraciətlər olub, Milli Məclis də qərar çıxarıbdır. Bəzi ölkələrdə təyin ediləcək səfirlərin aqremanları göndərilibdir. Bu elə məsələdir ki, gərək qarşı ölkədən təsdiq alaq. Yaxın zamanlarda olacaqdır.

**S u a l: Cənab Prezident, Venesiya Komissiyasının Mərkəzi Seçki Komissiyası ilə bağlı tövsiyələrinə münasibətiniz necədir?**

**İ l h a m Ə l i y e v:** Hansı tövsiyələrə?!

**J u r n a l i s t:** Mərkəzi Seçki Komissiyasının tərkibinin dəyişdirilməsi ilə bağlı.

**İ l h a m Ə l i y e v:** Mən buna ehtiyac görmürəm. Mərkəzi Seçki Komissiyasının tərkibi Azərbaycandakı bütün siyasi spektrin nümayəndələrini əks etdirir. Azərbaycanda fəaliyyət göstərən partiyalar burada təmsil olunurlar. Hesab edirəm, Mərkəzi Seçki Komissiyası seçkilərdə çox fəal işlədi. Belə bir ehtiyac yoxdur.

**S u a l: Cənab Prezident, Sizin burada insanlarla görüşünüz çox yaxşı qarşılanırdı. Bu, həm prezidentlə əhali arasında münasibəti səmimiləşdirir, həm də məmurlarda qorxu yaradır ki, ölkə əhalisi prezidentlə birbaşa danışa bilir. Yəni onlar daha məsuliyyətli olurlar. Prezident İlham Əliyev bölgələrdə bu işi davam etdirəcəkmi?**

**C a v a b:** Əlbəttə, davam etdirəcəyəm. Bu, çox vacibdir. Həm məlumat mənbəyidir, həm də belə görüşlər mənə insanların əhval-ruhiyyəsinin hansı səviyyədə olmasından xəbər verir. Mən belə görüşləri başqa bölgələrdə də davam etdirəcəyəm. Yəni bölgələrə gedəcəyəm.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*14 may 2004-cü il*

Əziz naxçıvanlılar!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Mən sizin hamınızı Naxçıvan Muxtar Respublikasının 80-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı və uğurlar arzulayıram.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan qədim diyardır. Naxçıvanın çox qədim tarixi vardır. 3500 il bundan əvvəl insanlar burada yaşamış və yaratmışlar. Eyni zamanda, Naxçıvanın çox zəngin dövlətçilik tarixi vardır. Naxçıvan Atabəylər, Eldəgizlər dövlətinin paytaxtı olmuşdur. Bütün dövrlərdə Naxçıvan Azərbaycan üçün dayaq olmuş, arxa olmuşdur. Heydər Əliyev demişkən, naxçıvanlılar çox cəsarətli insanlardır. Onlarda milli qürur, milli şüur hissi çox yüksəkdir.

Naxçıvan Azərbaycana böyük mütəfəkkirlər, elm, incəsənət, mədəniyyət xadimləri, siyasi xadimlər, böyük sərkərdələr bəxş etmişdir. Naxçıvan Azərbaycana və dünyaya xalqımızın ümummilli lideri Heydər Əliyevi bəxş etmişdir.

Heydər Əliyev bütün dövrlərdə xalqa, millətə, dövlətə xidmət etmişdir. O, hakimiyyətə gəlməzdən əvvəl Azərbaycan müttəfiq respublikalar arasında ən aşağı səviyyədə idi. İqtisadi və sosial göstəriciləri digər respublikalardan çox geri qalırdı. Amma 1982-ci ildə Heydər Əliyev Moskvaya gedəndə Azərbaycan bütün sovet respublikaları arasında birinci yerdə idi. Məhz o illərdə Azərbaycanda yeni sənaye müəssisələri, istehsalat kompleksləri, mədəniyyət ocaqları, müasir Azərbaycan üçün mühüm rol oynayan böyük potensial yaranmışdır. Əgər o illərdə bu potensial yaradılmasaydı, müstəqillik əldə etdikdən sonra ölkəmiz daha çətin vəziyyətə düşə bilərdi. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılmışdır – infrastruktur yeniləşmiş, ölkəmiz üçün önəmli rol oynayan neft sənayesi yenidən qurulmuşdur. Bu gün Azərbaycanın neft potensialını müəyyən edən infrastruktur məhz o illərdə yaradılmışdır. Heydər Əliyev bütün vasitələrdən istifadə edərək çalışırdı ki, Azərbaycanda yeni müəssisələr tikilsin, ölkəyə texnologiyalar gətirilsin, yeni iş yerləri açılsın. Məhz onun fəaliyyəti nəticəsində 1982-ci ildə Azərbaycan 15 müttəfiq respublika arasında birinci yerdə idi. Bu, bir daha göstərir ki, iş olan yerdə nəticə də olur.

Eyni zamanda, deməliyəm ki, bu tarix sonralar da təkrar olunmuşdur. 1987-ci ilədək Azərbaycanın inkişaf sürəti yüksək idi. Amma 1987-ci ildən 1993-cü ilədək ölkəmiz çox çətin bir vəziyyətə düşdü. O vaxt Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində, respublika rəhbərliyinin fəaliyyətsizliyi ucbatından çox ağır və çətin vəziyyət yaranmışdı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ən çətin vəziyyətdə yaşayan ölkəyə çevrilmişdi. Təsadüfi deyil ki, 1991-93-cü illərdə Azərbaycan çox ağır bir şəraitdə yaşayırdı.

1990-cı ildə Heydər Əliyev Naxçıvana qayıtdı. O, burada naxçıvanlılarla birlikdə çox ağır və çətin şəraitdə yaşadı və işlədi. Həmin illər Naxçıvan üçün çox çətin, muxtar respublikanın gələcəyi üçün həlledici bir dövr idi. Heydər Əliyevin nüfuzu, beynəlxalq təcrübəsi, iradəsi həmin illər Naxçıvanı qorudu. Heç kəs üçün sirr deyil ki, Ermənistanın təcavüzü Naxçıvana da istiqamətləndirilmişdi. Onların planlarında buranın da işğalı var idi. Ermənilər Naxçıvana hücumlar etmişdilər. Amma naxçıvanlılar Heydər Əliyevin rəhbərliyi altında bütün bu hücumların qarşısını aldılar. Naxçıvan yaşadı və burada sülh və əmin-amanlıq təmin olundu.

Xalqın tələbi ilə Heydər Əliyev 1993-cü ildə Azərbaycana hakimiyyətə qayıtdı. O illərdən etibarən yenidən Azərbaycanda dirçəliş dövrü başladı – müharibəyə son qoyuldu, atəşkəs rejimi tətbiq edildi, inkişaf üçün gözəl şərait yaradıldı, asayiş bərpa olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi və xalqımız rahat yaşamağa başladı. Əgər biz yenidən qonşu ölkələri, keçmiş sovet respublikalarını Azərbaycanla müqayisə etsək, görərik ki, bu son on il ərzində ölkəmiz Heydər Əliyevin rəhbərliyi ilə geniş mənada bölgədə liderə çevrilmişdir. Bütün digər keçmiş sovet respublikaları ilə müqayisədə Azərbaycanın inkişaf sürəti çox yüksəkdir. Ölkəmizdə geniş islahatlar aparılır, ümumi daxili məhsulun həcmi ildən-ilə artır, Azərbaycana böyük inam və hörmət vardır. İqtisadiyyatımıza böyük həcmdə sərmayələr qoyulur. Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan bütün başqa qonşu ölkələrdən irəlidədir. Biz bu liderliyi saxlayırıq və əminəm ki, əldən verməyəcəyik.

Azərbaycanda ölkəmiz, region və bütün dünya üçün çox mühüm olan layihələr həyata keçirilir. Heydər Əliyevin neft strategiyası öz gözəl nəticələrini verməkdədir. Bu strategiya uğurla həyata keçirilir. Neft sənayesində minlərlə yeni iş yerləri açılmış, bu sahəyə böyük həcmdə sərmayələr cəlb olunmuşdur. Bu sərmayələrin nəticəsində ölkədə çox geniş infrastruktur, kommunikasiya-nəqliyyat layihələri həyata keçirilir. Azərbaycanın neft sənayesinin uğurlu inkişafı ölkəmizin gələcəyi üçün mühüm bir amildir.

Azərbaycanın büdcəsi ildən-ilə artır. Heç kəs üçün sirr deyil ki, bu artım, ilk növbədə, neft sektorunun hesabına baş verir. 1993-cü ildə Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdanda dövlətin xəzinəsində 1 manat da pul yox idi, xəzinə tamamilə boş idi. Ölkə, demək olar ki, müflisləşmişdi. Bu gün isə Azərbaycanın valyuta ehtiyatları 1 milyard 500 milyon dollara bərabərdir. Bu, yalnız və yalnız Heydər Əliyevin apardığı siyasətin nəticəsində baş vermişdir. Bütün bu siyasət davam edir. Azərbaycanda geniş özəlləşdirmə proqramı həyata keçirilir, iqtisadi islahatlar aparılır, sosial məsələlərə böyük diqqət göstərilir, əməkhaqları və pensiyalar ildən-ilə artırılır və bundan sonra da artırılacaqdır. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir.

Ölkəmiz dinamik surətdə inkişaf edir və bu inkişafı vətəndaşlarımız öz gündəlik həyatında hiss etməlidirlər. Ən çətin vəziyyətdə yaşayan soydaşlarımız qaçqınlar və məcburi köçkünlərdir. Onlar üçün də imkan daxilində yeni şərait yaradılır, valyuta ehtiyatlarından istifadə edilərək yeni şəhərciklər, qəsəbələr salınır, xəstəxanalar və məktəblər tikilir. Bu siyasət gələcəkdə də davam etdiriləcəkdir. Sosial baxımdan ən az müdafiə olunan insanlara diqqət artırılacaqdır.

Azərbaycan digər istiqamətlərdə də çox uğurlar əldə edir. Bildiyiniz kimi, 1993-cü ilə qədər ölkəmiz informasiya blokadası şəraitində yaşayırdı. Azərbaycan haqqında məlumat, demək olar ki, dünya ictimaiyyətinə çatdırılmırdı. Çatdırılan cüzi informasiyalar isə mənfi xarakter daşıyırdı. Biz bu blokadanı yara bildik və bu gün Azərbaycan dünya birliyində öz layiqli yerini tuta bilmişdir. İndi Azərbaycan müxtəlif beynəlxalq təşkilatların fəal üzvü və iştirakçısıdır. Bu təşkilatların ölkəmizə olan münasibəti də məhz Heydər Əliyevin diplomatiyası sayəsində çox yüksək səviyyədədir. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar beynəlxalq təşkilatların mövqeyi göstərir ki, onlarda bu məsələ barədə aydın bir fikir də vardır. Fakt ondan ibarətdir ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etmiş, bu işğalın nəticəsində ölkəmizdə 1 milyon qaçqın və köçkün vardır. Bizim haqlı tələbimiz ondan ibarətdir ki, ərazi bütövlüyümüz bərpa olunsun. Ümidvaram ki, Azərbaycan bundan sonra da beynəlxalq təşkilatlarda fəal rol oynayacaq və bu istiqamətdə yeni addımlar atılacaqdır. Son iki gün ərzində Naxçıvanda səfərdə olarkən mən öz fikirlərimi bildirmişəm və bir daha demək istəyirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında öz həllini tapa bilər.

Gələcəkdə bizim böyük planlarımız var. Bizi böyük işlər gözləyir. Biz Heydər Əliyev siyasətini davam etdirməliyik. Bu yaxınlarda imzalanmış fərmanlar məhz bu məqsədə xidmət edir. Son on il ərzində Azərbaycanda görülmüş işlər davam etdirilməlidir. Bunun üçün bütün imkanlar vardır. Azərbaycanın təbii sərvətləri, çox gözəl coğrafi-siyasi vəziyyəti vardır. Regionda ölkəmizin iştirakı olmadan heç bir beynəlxalq layihə həyata keçirilə bilməz. Azərbaycanda çox peşəkar kadrlar, mütəxəssislər vardır. Ən önəmlisi isə, xalqın dəstəyi və Heydər Əliyevin siyasəti vardır.

Mən Azərbaycanın gələcəyinə çox nikbin baxıram. Hamımız bilirik ki, Heydər Əliyev tərəfindən əsası qoyulmuş və ölkəmiz üçün çox önəmli rol oynayan layihələr yaxın zamanlarda Azərbaycana daha yüksək səviyyədə xidmət etməyə başlayacaqdır. Bakı–Tbilisi–Ceyhan neft kəməri Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, bu kəməri inşa edən beynəlxalq konsorsium ona Heydər Əliyevin adını vermişdir. Kəmər istismara verildikdən sonra Azərbaycan bundan çox böyük mənfəət götürəcəkdir. Ölkəmizə böyük həcmdə valyuta axını təmin olunacaqdır. Bu bizə Azərbaycanı hərtərəfli inkişaf etdirməyə imkan verəcəkdir. Yeni infrastruktur layihələri, sosial proqramlar həyata keçiriləcəkdir. İqtisadi inkişafın daha da sürətlə artımı təmin olunacaqdır. Bir sözlə, bu amillər həyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərəcəkdir.

Burada Heydər Əliyevin ordu quruculuğu sahəsində müstəsna xidmətləri qeyd olundu. Hələ 1970-ci illərdə Bakıda Cəmşid Naxçıvanski adına məktəbin yaradılması göstərir ki, o dövrdə ümummilli liderimiz Azərbaycanın müstəqil dövlət olacağını və güclü orduya ehtiyac olacağını görürdü. Bu istiqamətdə də çox böyük işlər görülür. Ali baş komandan Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda çox güclü ordu yaradılmışdır. Əgər 1993-cü ilə qədər bizdə ordu yox idisə, indi Silahlı Qüvvələrimiz müasir standartlara cavab verir və qarşıda duran bütün vəzifələri yerinə yetirməyə qadirdir. Biz çalışacağıq ki, ordumuzu daha da gücləndirək, peşəkarlığını daha da artıraq.

Mən üçüncü gündür ki, Naxçıvandayam. Çox sevinirəm ki, bu qədim diyar belə sürətlə inkişaf edir. Çətin vəziyyətdə, blokada şəraitində yaşayan Naxçıvan uğurla inkişaf edir. Bu inkişaf bütün sahələri əhatə edir. Naxçıvanda ümumi daxili məhsulun artımı çox yüksəkdir. Ümumi daxili məhsulda özəl sektorun payı 85 faiz təşkil edir. Deməliyəm ki, bu göstərici Azərbaycan üzrə 75 faizdir. Naxçıvan bu sahədə də liderdir və əminəm ki, bu liderliyini gələcəkdə də əldən verməyəcəkdir.

Baxın, son iki gün ərzində nə qədər yeni müəssisə, obyekt istifadəyə verilmişdir. Onların tikilib istifadəyə verilməsi yalnız Heydər Əliyevin dəstəyi nəticəsində mümkün olmuşdur. Artıq Naxçıvanın bütün beynəlxalq standartlara cavab verən hava limanı vardır. Deməliyəm ki, bu hava limanı çox yüksək səviyyədə tikilmişdir. Mən dünyanın bir çox ölkələrində olmuşam və təbii ki, hava limanlarını görmüşəm. Ona görə də deyə bilərəm ki, Naxçıvan hava limanı çox yüksək səviyyədədir və bəlkə də Avropada bir çox hava limanlarından daha keyfiyyətli və gözəldir.

Naxçıvanda sosial məsələlərə böyük diqqət göstərilir. Əlillərin Bərpa Mərkəzi, digər sosial obyektlər istifadəyə verilmişdir və yüksək səviyyədə fəaliyyət göstərir. Kompüter tomoqrafiyası kabineti açılmışdır. İndi

naxçıvanlılar müayinədən keçmək üçün başqa şəhərlərə getməyəcək, burada ən yüksək səviyyədə və pulsuz müayinə olunacaqlar. Biz elektron kitabxananın açılışında iştirak etdik. Bu kitabxana çox gözəl və müasir binada yerləşir. Bina həm gözəl memarlıq üslubunda tikilmiş, həm də yüksək səviyyədə təchiz olunmuşdur. Dünən Naxçıvanda böyük sənaye kompleksi açıldı. Bu kompleks muxtar respublikanın tələbatını ödəyəcəkdir. Məqsədimiz budur ki, Azərbaycanın da, Naxçıvanın da istehsal etdiyi məhsullar daxili tələbatı ödəsin, yerli istehsal güclənsin. Bu, belə olarsa, idxal da azalar, habelə yeni iş yerləri açılar. Yeni iş yerlərinin açılması bizim siyasətimizin əsas istiqamətidir. Mən çox sevinirəm ki, son aylar ərzində Azərbaycanın hər bir yerində yeni iş yerləri açılır, yerli icra orqanları və sahibkarlar bu məsələyə böyük diqqətlə yanaşırlar. Bilirlər ki, dövlət bu istiqamətdə onların fəaliyyətini dəstəkləyəcəkdir.

Naxçıvan üçün böyük əhəmiyyət kəsb edən Vayxır su anbarı tikilir və yaxın zamanlarda istifadəyə veriləcəkdir. Bu obyekt də Heydər Əliyevin əsəridir. O, Naxçıvanda olarkən müvafiq tapşırıqlar vermişdir, vəsait ayırmışdır. Bu vəsaitin hesabına Vayxır su anbarı tikilir. Mən dünən oraya baş çəkdim, vəziyyətlə tanış oldum və işlərin çox yüksək səviyyədə aparıldığını gördüm. Bu obyekt Naxçıvanın gələcəyi üçün, kənd təsərrüfatının inkişafı üçün çox vacibdir. Digər məsələlər də öz həllini tapır. Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır.

Fürsətdən istifadə edərək mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm.

Biz hamımız – mən də, Vasif Talıbov da, sizlər də Heydər Əliyevin komandasıyıq. Hamımız Heydər Əliyevin övladlarıyıq və gərək elə işləyək ki, onun adını daim uca tutaq.

Mən yenə də 1990-93-cü illərə qayıtmaq istəyirəm. O vaxt Heydər Əliyev naxçıvanlılarla birlikdə yaşayırdı, çalışırdı, böyük işlər görürdü. Mən də tez-tez Naxçıvana gəlirdim, qısa da olsa, onunla birlikdə olurdum. Onun hər bir uğura, görülən hər bir işə necə sevindiyini görürdüm. Vasif Talıbov burada dedi ki, Azərbaycanın dövlət simvolu olan milli bayrağımız ilk dəfə Naxçıvanda qaldırılmışdır. O vaxt Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının bayrağı dalğalanırdı. Naxçıvan isə milli bayrağımızı qaldırmışdı. Ondan sonra qardaş Türkiyənin iştirakı və köməyi ilə "Ümid" körpüsü tikildi. Bu körpü, həqiqətən, Naxçıvan üçün həyat körpüsünə çevrildi. Çünki bir tərəfdən, Ermənistanın blokadası, digər tərəfdən isə Azərbaycanın o vaxtkı rəhbərliyinin ögey münasibəti, təzyiqlər naxçıvanlıların həyatını daha da çətinləşdirirdi. Amma bütün bunlara baxmayaraq, naxçıvanlılar öz liderini qorudular, heç bir təzyiq onlara təsir etmədi və axıra qədər Heydər Əliyevi dəstəklədilər. Sonra Heydər Əliyev Bakıya getdi, orada işləməyə başladı. Ancaq hamımız bilirik ki, onun ürəyi, qəlbi həmişə naxçıvanlılarla bir yerdə idi. Onun qəlbində Naxçıvanın xüsusi yeri vardı.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas hissəsindən təcrid olunmuş vəziyyətdə yaşayır. Naxçıvan Heydər Əliyevin doğma vətənidir. Mən də bu hisslərlə yaşayıram. İstəyirəm biləsiniz ki, mənim də qəlbimdə Naxçıvanın xüsusi yeri var və bu yer çox böyükdür. Bu torpaq mənim də vətənimdir, mənim övladlarımın da vətənidir. Əminəm ki, biz – Heydər Əliyevin davamçıları Naxçıvanı da, Azərbaycanı da Heydər Əliyevin yolu ilə inamla yeni qələbələrə doğru aparacağıq.

Bir daha bu gözəl bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Naxçıvan və naxçıvanlılar!

Yaşasın Heydər Əliyevin əsəri olan müstəqil Azərbaycan!

**NORVEÇİN KRALI**
**ƏLAHƏZRƏT V HARALDA**

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Norveç arasında əlaqələrin genişlənməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, ikitərəfli münasibətlərimiz bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 may 2004-cü il*

**NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KYEL MAQNE BUNDEVİKƏ**

Hörmətli cənab Baş nazir!

Norveç Krallığının milli bayramı – Konstitusiya günü münasibətilə Sizə və bütün xalqınıza səmimi təbriklərimi və ən xoş arzularımı yetirirəm.

İrimiqyaslı iqtisadi layihələr zəminində əlaqələrimizin dərinləşməsindən məmnunluq duyuram. Əminəm ki, dostluq və əməkdaşlıq münasibətlərimizin hərtərəfli inkişafı üçün birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Norveç xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 may 2004-cü il*

**VI ƏNƏNƏVİ BEYNƏLXALQ**
**«ŞƏRQ–QƏRB» BAKI KİNOFESTİVALINA**

Sizi – VI Ənənəvi Beynəlxalq «Şərq–Qərb» Bakı kinofestivalının iştirakçılarını Azərbaycan torpağında ürəkdən salamlayır və festivalın iştirakçılarına xoş arzularımı çatdırıram.

Sürətlə qloballaşan dünyada mədəni inteqrasiya proseslərinin geniş vüsət aldığı bir dövrdə «Şərq–Qərb» kinofestivalının keçirilməsi təqdirəlayiq hadisədir. Artıq gözəl bir ənənə şəklini alan bu festival ölkələrimiz, xalqlarımız arasında qarşılıqlı anlaşma və dostluq əlaqələrinin möhkəmlənməsinə, kinematoqrafiya ənənələrinin qorunması işinə xidmət edir. Kinofestivalın Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində təşkil olunması, bu qədim şəhərin Şərqlə Qərb dünyasının qovuşuğunda yerləşməsi onun xalqlar arasında həqiqi mənəvi körpü rolunu təcəssüm etdirir. Ümidvar olduğumu bildirirəm ki, belə tədbirlərin keçirilməsi mədəniyyətlərin konstruktiv və faydalı dialoqu prosesinə öz töhfəsini verməklə yanaşı, milli kinematoqrafiyamızın bundan sonrakı inkişafına da müsbət təsir göstərəcəkdir.

Hörmətli kinofestival iştirakçıları! Ölkəmizin mədəni həyatında əlamətdar hadisə olan bu böyük kino bayramı münasibətilə sizi səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *15 may 2004-cü il*

**ARGENTİNA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB NESTOR KİRÇNERƏ**

Hörmətli cənab Prezident!

Argentina Respublikasının milli bayramı – May inqilabının ildönümü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Argentina arasındakı mövcud münasibətlər zəminində əlaqələrimiz daha da genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Argentina xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2004-cü il*

**İORDANİYANIN MƏLİKİ**
**ƏLAHƏZRƏT II ABDULLAYA**

Əlahəzrət!

İordaniya Haşimilər Məmləkətinin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İordaniya arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı naminə bundan sonra da səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İordaniya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2004-cü il*

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİXAİL SAAKAŞVİLİYƏ**

Hörmətli Mixail Nikolayeviç!

Gürcüstanın milli bayramı – Dövlət müstəqilliyinin bərpası günü münasibətilə Sizi və Sizin simanızda bütün dost Gürcüstan xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ölkələrimizi və xalqlarımızı dərin tarixi kökləri olan möhkəm dostluq, mehriban qonşuluq münasibətləri birləşdirir.

Əminəm ki, xalqlarımızın iradəsi ilə bu gün artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ikitərəfli münasibətlərimizin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 may 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ**

*Prezidenti İlham Əliyev mayın 17-də Belçika Krallığına işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Brüsselə gəldi. Dövlətimizin başçısını hava limanında Avropa Komisssiyasının protokol xidmətinin rəhbəri Jak de Baynts, Avropa Komissiyasının Azərbaycandakı xüsusi elçisi Antonius de Vriz, ölkəmizin Belçika Krallığındakı səfiri Mirhəmzə Əfəndiyev, Azərbaycan Respublikasının Avropa Birliyi yanındakı nümayəndəliyinin başçısı Arif Məmmədov hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev maşın karvanının müşayiəti ilə onun üçün ayrılmış «Conrad» mehmanxanasına gəldi.*

## AVROPA KOMİSSİYASININ
## SƏDRİ ROMANO PRODİ İLƏ GÖRÜŞ

*18 may 2004-cü il*

*Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev Brüsseldə Avropa Komissiyasının sədri Romano Prodi ilə görüşmüşdür.*

*Cənab Romano Prodi Azərbaycan prezidenti İlham Əliyevi binanın önündə böyük səmimiyyətlə qarşıladı, onunla ilk dəfə görüşmək imkanından məmnun olduğunu vurğuladı. Onlar Azərbaycan Respublikasının və Avropa Komissiyasının bayraqları önündə xatirə şəkli çəkdirdilər.*

*Söhbət zamanı, əsasən, «Avropa qonşuluq siyasəti» proqramı və Azərbaycanın ona cəlb edilməsi ətrafında fikir mübadiləsi oldu. Romano Prodi dedi ki, bu gündən etibarən Avropa Komissiyası ilə Azərbaycan arasında geniş əməkdaşlıq başlayır və biz bu ölkənin Dünya Ticarət Təşkilatına üzv qəbul olunmasını, Azərbaycanda aparılan iqtisadi islahatları dəstəkləyirik. O, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bu problemin hələ də həll edilməməsindən Avropa Komissiyasının narahat olduğunu söylədi və bildirdi ki, biz münaqişənin ədalətlə aradan qaldırılması üçün Minsk qrupunun fəaliyyətinin nəticələr verməsini istəyirik.*

*Azərbaycan prezidenti İlham Əliyev Avropaya inteqrasiyanın ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən olduğunu xatırlatdı və bu sahədə görülən məqsədyönlü tədbirlərdən danışdı. Dövlətimizin başçısı bildirdi ki, Avropa Birliyi Cənubi Qafqazda öz nümayəndəsini təyin etmişdir. Həmin nümayəndə Azərbaycanın «Avropa qonşuluq siyasəti» proqramına qoşulmasını tövsiyə edib və biz bunu yüksək qiymətləndiririk. Prezident İlham Əliyev Azərbaycanda aparılan sosial-iqtisadi islahatlar və onların uğurlu nəticələri barədə də məlumat verdi. Azərbaycan rəhbəri Dağlıq Qarabağ problemindən söhbət açaraq dedi ki, biz öz ərazi bütövlüyümüzü bərpa etmək əzmindəyik. Məsələnin ədalətli həllində Minsk qrupu daha fəal olmalıdır, Azərbaycan bu istiqamətdə Avropa Birliyinin, Avropa Şurasının və digər təşkilatların kömək göstərməsini arzulayır. Avropanın bir hissəsi olan, «Avropada qonşuluq siyasəti»nə qoşulan Azərbaycana qarşı Ermənistanın təcavüzünə dözmək olmaz.*

## GÖRÜŞDƏN SONRA MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BRİFİNQ

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Ən əvvəl istərdim ki, Avropa Birliyinə məni dəvət etdiyinizə görə minnətdarlığımı bildirim. Azərbaycanın Avropa strukturlarına inteqrasiya strategiyası davam edir. Bugünkü səfər bu strategiyanı bir daha təsdiq edir. Biz bu seçimi 10 il əvvəl etmişik. Azərbaycan Avropaya fəal inteqrasiya istiqamətində sürətlə irəliləyir. Avropa Birliyinin Cənubi Qafqaz məsələləri ilə məşğul olan xüsusi nümayəndəsinin təyin edilməsi və xüsusilə də yeni «qonşuluq siyasəti»ndə Cənubi Qafqaza ayrılan diqqət göstərir ki, Avropa Birliyi bizim regionda təmsil olunmuş ölkələrlə əlaqələrə xüsusi əhəmiyyət verir.

Azərbaycan iqtisadiyyatın inkişafı sahəsində böyük addımlar atmışdır. Biz ölkəmizdə siyasi, sosial və iqtisadi islahatlar keçiririk. Azərbaycandakı vəziyyət hər il yaxşılığa doğru dəyişir. Biz enerjidaşıyıcılarının inkişafı, nəqli məsələlərini, həm də Avropa Birliyi ilə Azərbaycan arasında münasibətləri və əlbəttə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məsələləri müzakirə etdik. Əsas müzakirə mövzularının biri elə bu idi. Azərbaycan münaqişənin sülh yolu ilə həll olunması siyasətini davam etdirmək niyyətindədir. Amma eyni zamanda, bu həll yolu beynəlxalq hüququn hamı tərəfindən tanınmış və qəbul olunmuş prinsiplərinə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunmalıdır. Minsk qrupunun münaqişəni həll etməkdə vasitəçilik mandatı var, biz bu qrupun daha fəal iştirakına ümid bəsləyirik. Ümid edirik ki, Minsk qrupu məsələnin həlli yolunun axtarılmasını davam etdirəcəkdir. Amma eyni zamanda, Azərbaycan digər Avropa qurumlarının və ilk növbədə Avropa Birliyinin bu məsələdə daha fəal mövqe tutacağına da ümid bəsləyir. Biz özümüzü Avropanın bir hissəsi hesab ediriksə, həm Azərbaycan, həm də Ermənistan bu yeni «qonşuluq siyasəti»nin çərçivəsindədirsə, bir ölkənin digər ölkənin ərazilərini işğal etməsinə son qoyulmalıdır. Bu, Avropa ailəsinə xas olan davranış tərzi deyildir. Hər bir ölkə digər ölkələrin ərazi bütövlüyünü tanımalıdır. Əlbəttə ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal çıxarılması məsələnin sülh yolu ilə həllinin əsas şərtlərindən biridir. Bir daha Avropaya inteqrasiya siyasətimizi təsdiq etmək istəyirəm.

Ümidvaram ki, Avropanın bütün ölkələrinin naminə münasibətlərimiz gələcəkdə davam etdiriləcəkdir. Sağ olun!

**Avropa Komissiyasının sədri Romano Prodinin çıxışı**

Birincisi, deyim ki, bu, prezident İlham Əliyevin Brüsselə, Avropa Birliyinə ilk səfəri idi və mən bu görüşdən olduqca məmnunam. Mən məmnuniyyətlə demək istəyirəm ki, bu gün biz ümumi məsələləri, məqsədləri müzakirəyə çıxardıq. Çox açıq müzakirələrimiz oldu. İlk əvvəl görüşün çərçivəsi «qonşuluq siyasəti» ilə bağlı idi. Bildiyiniz kimi, uzun müzakirələrdən sonra Avropa Birliyi üç Cənubi Qafqaz ölkəsini öz «qonşuluq siyasəti»nə daxil etmişdir. Bu da AB ilə Azərbaycan arasında dərin, artan əməkdaşlıq strategiyası deməkdir. Aydındır ki, bu, iqtisadi-siyasi əməkdaşlıqdır. Bu bizim təsisatlara, siyasi dəyərlərə, hüquqlara hörmətə, ümumi siyasi strategiyaya yaxınlaşmaqdan ötrü aparılan uzun-uzadı danışıqlar deməkdir.

Beləliklə, Azərbaycanın dostlar cərgəsinə daxil olması çox sevindiricidir. Deyə bilərəm ki, bu, bizim davamlı əlaqələrimizin yalnız başlanğıc görüşü idi. Bu gündən etibarən bu əlaqələrin yeni mərhələsi başlayır. Bu, həm də o deməkdir ki, biz Azərbaycanın dünya Ticarət Təşkilatına yaxınlaşmaq üzrə atdığı addımlarını da dəstəkləyirik. Bundan sonra çiyin-çiyinə işləyib xarici ticarət sahəsindəki fəaliyyəti də şaxələndirməyə çalışacağıq. Energetika sahəsində əməkdaşlıq edəcəyik.

Görüşümüzün ikinci hissəsində biz Dağlıq Qarabağ münaqişəsini dərindən təhlil və müzakirə etdik. Biz narahatıq ki, 10 ildən çoxdur məsələ uzanır və sülh yolu ilə həll olunmur. Artıq 10 ildən çoxdur sülh yoxdur. Aydındır ki, biz Minsk qrupunun işinə qarışmaq istəmirik. Amma təkidlə inandırır və təzyiq edirik ki, bu qrup müəyyən nəticə ilə işləsin. Mən arzu və iradəmi ifadə edərək bildirdim ki, biz hər iki tərəfin, ölkənin sərəncamındayıq. Minsk qrupuna məsələnin həllində əlimizdən gələn köməyi etməyə hazırıq. Çünki həqiqətən dost deyiriksə, bu cərgədə olan ölkələrin hamısı əsl dost olmalıdır. Dostluğa xələl gətirə bilən problemlər olmamalıdır. İqtisadi və siyasi əməkdaşlıq olmalıdır. Sağ olun!

* * *

**S u a l: Nəyə görə Avropa Birliyi Cənubi Qafqazda mövcud olan separatizmə diqqət yetirmir? Avropa Birliyi Dağlıq Qarabağ məsələsinin həllində hansı rolu oynaya bilər?**

**R o m a n o  P r o d i:** Biz bu məsələni sadədən mürəkkəbədək ətraflı müzakirə etmişik. Belə münaqişənin mövcudluğundan təəssüflənirik. Ümumiyyətlə, «qonşuluq siyasəti»ndə bu 3 ölkəni görmək istəməyimiz o deməkdir ki, onların arasında münaqişə olmasını istəmirik. Nəyi bacarırıqsa edəcəyik ki, münaqişələr həll olunsun. Bu işlə məşğul olan xüsusi qrup var – Minsk qrupu. Biz istəməzdik ki, onların işinə qarışaq. Onları narahat etmək istəmirik, amma təzyiq edəcəyik. Çünki neçə ildir ki, bu işlə məşğul olurlar, amma nəticə yoxdur. Avropa Birliyi məsələnin həllini təcili hesab edir. Əgər bizdən xahiş olunarsa, bizə müraciət edilərsə, biz sizin ixtiyarınızdayıq. Əlbəttə ki, bizə məsələnin həllini sürətləndirməklə bağlı müraciət olunarsa.

**S u a l: Cənab Prodi, sizin iştirakınızla bağlı kim müraciət etməlidir?**

**Ermənistan və Azərbaycanın «qonşuluq siyasəti»nə cəlb olunmasından əvvəl Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi ilə bağlı prezident İlham Əliyevin bəyanatına münasibətiniz necədir?**

**Prezident Əliyev, Dağlıq Qarabağla bağlı son görüşlərdən sonra atılacaq addımlar necə olacaq?**

**R o m a n o  P r o d i:** Biz detallara varmamışıq. Amma arzumuzu ifadə etmişəm ki, hər iki ölkənin sərəncamındayıq və kömək edə bilərik. Bu mərhələdə müsbət təklif verə bilmirik. Sadəcə, tərəfləri razılığa çağırırıq və deyirik ki, müraciət olunarsa, ixtiyarınızdayıq. Elə bilirəm ki, bunun özü elə bizim tərəfimizdən müsbət addımdır. Münaqişədə olan ölkələrin siyasi müstəqilliyinə və seçiminə göstərdiyimiz hörmətdir.

**İ l h a m  Ə l i y e v:** Mən elə bilirəm ki, sülh dialoqunun davam etdirilməsi üçün Ermənistan və Azərbaycanın xarici işlər nazirlərinin görüşləri vacibdir. Dialoqun davamı yaxşı göstəricidir. Amma eyni zamanda, biz həmişə deyirik ki, danışıqlar yalnız danışıq obyekti ola biləcək halda aparıla bilər. Gündəlikdə müzakirə olunacaq mövzu yoxdursa, biz düşünmürük ki, yalnız danışıqlar xatirinə və yaxud da danışıqlar görüntüsü yaratmaq xatirinə danışıqları davam etdirmək lazımdır. Əgər müzakirə olunacaq məsələ varsa, danışıqlar prosesində olacağıq. Mən elə düşünürəm ki, xarici işlər nazirlərinin görüşləri mövzunu geniş səpkidə müzakirə etməyə imkan verir. Biz belə fikirdəyik ki, görüşlər davam etdirilməlidir və ümidvarıq ki, bu görüşlər nəticə verəcəkdir.

**S u a l: Cənab Əliyevə sual. Cənab Prodi dedi ki, siz xahiş etsəniz, Avropa Birliyi məsələ ilə məşğul olacaqdır. Nə zaman xahiş edəcəksiniz?**

**İ l h a m  Ə l i y e v:** Biz artıq müraciət etmişik. Bugünkü görüş zamanı bir daha müraciət etdik. Əlbəttə, hamımız anlamalıyıq ki, Minsk qrupunun ATƏT-dən mandatı var və heç kim bu mandatı şübhə altına almır. Minsk qrupu məsələnin sülh yolu ilə həll olunması üçün mümkün yol axtarır. Eyni zamanda, biz düşünürük ki, Avropa qurumları, Avropa təşkilatları – Avropa Birliyi, Avropa Şurası, habelə Avropa ictimai rəyi də prosesə

qatıla, sülh yolu ilə həll tapmaq imkanlarına təsir edə bilər. Biz heç də nəzərdə tutmuruq ki, hansısa ölkə və yaxud da qurum Minsk qrupuna alternativ olacaqdır. Biz bu məsələyə geniş beynəlxalq diqqət ayrılmasını istəyirik. Sağ olun!

**AVROPA KOMİSSİYASININ GENİŞLƏNMƏ ÜZRƏ ÜZVÜ GÜNTER VERHOGEN İLƏ GÖRÜŞ**

*18 may 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Brüsseldə Avropa Komissiyasının genişlənmə üzrə üzvü Günter Verhogen ilə görüşmüşdür.*

*Cənab Günter Verhogen dövlətimizin başçısını Avropa Komissiyasının iqamətgahı önündə böyük hörmət və ehtiramla qarşıladı. Prezident İlham Əliyev və cənab Günter Verhogen binanın foyesində, Azərbaycan Respublikasının və Avropa Komissiyasının bayraqları önündə xatirə şəkli çəkdirdilər.*

*Sonra təkbətək görüş keçirildi. Söhbət zamanı Azərbaycan–Avropa Komissiyası əməkdaşlığı və onun perspektivlərinə dair müzakirələr aparıldı. Cənab Günter Verhogen bildirdi ki, Avropa Komissiyası özünün yeni proqramı olan "Avropa qonşuluq siyasəti"nə Azərbaycanı da cəlb etmək niyyətindədir və bu, Azərbaycanın iqtisadi və digər sahələrdə inkişafı üçün faydalı ola bilər.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına dair danışıqlar prosesinin gedişi, Cənubi Qafqaz regionunda vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi edildi.*

*Cənab Günter Verhogen dövlətimizin başçısı ilə görüşməkdən şərəf duyduğunu vurğuladı və prezident Heydər Əliyevin Azərbaycanın inkişafı sahəsində göstərdiyi xidmətləri vaxtilə yaxından izlədiyini bildirdi.*

## AVROPA KOMİSSİYASI SƏDRİNİN MÜAVİNİ LOYOLA DE PALASİO İLƏ GÖRÜŞ

*18 may 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 18-də Brüsseldə Avropa Komissiyası sədrinin müavini, energetika, nəqliyyat və Avropa Parlamenti ilə əlaqələr üzrə üzvü xanım Loyola de Palasio ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev ilə görüşmək imkanından məmnun olduğunu bildirən xanım Loyola de Palasio son illərdə Azərbaycanda həyata keçirilən mühüm işləri vurğuladı, bunların Avropa Komissiyası tərəfindən yüksək qiymətləndirildiyini, dövlətimizin başçısının demokratiyanın inkişafı və insan hüquqlarının qorunması sahəsindəki fəaliyyətinin faydalı olacağını söylədi.*

*Görüşdə TRACEKA proqramının, Xəzərin enerji ehtiyatlarının işlənilməsinə dair imzalanmış müqavilələrin həyata keçirilməsi, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisi barədə söhbət getdi. «Şahdəniz» yatağından çıxarı lacaq qazın Avropaya nəqli məsələsi diqqət mərkəzində oldu. Xanım Loyola de Palasio dedi ki, biz bu layihəyə böyük əhəmiyyət veririk və Avropa Komissiyası Azərbaycan qazının Türkiyə və Yunanıstan vasitəsilə Avropaya çatdırılması üçün öz köməyini əsirgəməyəcəkdir. O bunu da bildirdi ki, Avropa Komissiyası «Avropada qonşuluq siyasəti» stra–teji sənədini bu il mayın 12-də hazırlamış və Avropa Birliyinə göndərmişdir. İyunun sonunda həmin sənəd Avropa Parlamentində müzakirə olunacaqdır.*

*Prezident İlham Əliyev ölkəmizdə aparılan iqtisadi islahatların müsbət nəticələrindən, əsas ixrac boru kəmərinin tikintisinin gedişindən danışdı, Azərbaycanın TRACEKA layihəsinə böyük əhəmiyyət verdiyini vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan «Şahdəniz» yatağından hasil ediləcək qazın tezliklə Avropa bazarlarına çatdırılmasında maraqlıdır. Azərbaycan prezidenti dedi ki, ölkəmiz Avropa strukturlarına inteqrasiyanı öz siyasətinin mühüm istiqamətlərindən biri hesab edir.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Avropa Komissiyası sədrinin müavini ilə görüşdən sonra Dünya Gömrük Təşkilatının (DGT) iqamətgahı qarşısında «Dədə Qorqud» abidəsinin təntənəli açılış mərasimində iştirak etdi.*

*Abidənin açılışından sonra Dünya Gömrük Təşkilatının binasında DGT ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında niyyət protokolunun imzalanma mərasimi oldu.*

* * *

*Mayın 18-də Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Conrad» mehmanxanasında Küveytin xarici işlər naziri şeyx Məhəmməd əs-Sabahı qəbul etdi.*

* * *

*Mayın 18-də Azərbaycan prezidenti İlham Əliyev Belçika Krallığının Baş naziri Gi Verhofstadt ilə görüşdü.*

*Görüş başa çatdıqdan sonra prezident İlham Əliyev və Baş nazir Gi Verhofstadt Azərbaycan Respublikası ilə Belçika Krallığı arasında üç sənəd – ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında konvensiya, sərmayələrin qarşılıqlı qorunması və təşviqi haqqında saziş və gömrük məsələləri üzrə qarşılıqlı inzibati yardım göstərilməsi haqqında ikitərəfli saziş imzaladılar.*

* * *

*Prezident İlham Əliyev Brüsselə səfərinin ikinci gününün sonunda Türkiyə Baş nazirinin müavini, Xarici İşlər naziri Abdullah Gülü qəbul etdi.*

## AVROPA BİRLİYİ ŞURASININ BAŞ KATİBİ HAVYER SOLANA İLƏ GÖRÜŞ

*18 may 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Brüsseldə Avropa Birliyinin iqamətgahında AB Şurasının Baş katibi, AB-nin ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Havyer Solana ilə görüşdü.*

*Sonra Avropa Birliyinin iqamətgahında «Avropa Birliyinə yeni 10 ölkənin qoşulmasını nəzərdə tutan Avropa Birliyi ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq sazişinə protokol»un imzalanma mərasimi oldu. Sənədi AB tərəfindən İrlandiyanın AB yanında daimi nümayəndəsi xanım Ann Anderson və Avropa Komissiyasının xarici əlaqələr üzrə baş direktorunun müavini Maykl Li, Azərbaycan tərəfindən ölkəmizin AB yanında daimi nümayəndəliyinin başçısı səfir Arif Məmmədov imzaladılar.*

*Sənədin imzalanmasından sonra Avropa Birliyinin iqamətgahında Azərbaycan prezidenti İlham Əliyev ilə AB Şurasının Baş katibi Havyer Solana arasında görüş oldu.*

*Prezident İlham Əliyev ölkəmizdə gedən proseslərdən, əldə edilmiş nailiyyətlərdən danışdı, Azərbaycanda sabitliyin tam bərqərar olduğunu, sosial-iqtisadi inkişafın sürətləndiyini bildirdi. Dövlət başçısı seçildiyi vaxtdan ötən yeddi ay ərzində üçüncü əfv fərmanı imzaladığını xatırladan prezident İlham Əliyev cəmiyyətdə dialoqun tərəfdarı olduğunu vurğuladı.*

*Azərbaycanda gedən proseslərdən məmnunluğunu söyləyən cənab Solana Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin tikintisi ilə də maraqlandı. Prezident İlham Əliyev bu barədə ətraflı məlumat verərək bildirdi ki, hazırda inşaat işləri uğurla davam edir. Dövlətimizin başçısı Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndə təyin etməsindən məmnunluğunu bildirdi.*

*Söhbət zamanı regional və beynəlxalq məsələlər, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə ətraflı fikir mübadiləsi aparıldı.*

### GÖRÜŞDƏN SONRA MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BRİFİNQ

**Avropa Birliyi Şurasının Baş katibi Havyer Solananın çıxışı**

Hər vaxtınız xeyir. İcazə verin, gorüşümüz haqqında qısaca deyim. Mənim üçün doğrudan da, burada, Brüsseldə ilk dəfə olaraq prezident İlham Əliyevi qəbul etmək, həqiqətən, çox xoş oldu. Onunla bir müddət əvvəl, o, hələ digər məsul vəzifəni icra edərkən görüşmək imkanım olmuşdur. Mən siyasi həyatım boyu bir neçə dəfə Azərbaycana səfər etmişəm. Ölkəni, Bakını görə bilmişəm və o gözəl şəhərə, o füsunkar ölkəyə səfərlərimi ürəyimə çox yaxın ülvi xatirələrdə saxlayıram. Bu gün prezidentlə Avropa Birliyi və Azərbaycan arasındakı münasibətləri təhlil etdik. Eyni zamanda, son müddət ərzində baş verən inkişafa daha çox təsir etmək, münasibətləri daha da irəli aparmaq yollarını nəzərdən keçirdik. Ölkədəki müsbət iqtisadi proseslər bizi valeh edir, mən energetika layihələrini nəzərdə tuturam. Möhkəm ikitərəfli münasibətləri davam etdirmək təkcə siyasi baxımdan deyil, iqtisadi baxımdan da bizim üçün həmişə maraqlı olacaqdır. Beləliklə, mən istərdim ki, prezidentə bu səfərə görə minnətdarlığımı bildirim və Sizə, cənab prezident, həm siyasi, həm şəxsi həyatınızda ən xoş arzularımı yetirirəm. Ölkənizə xoşbəxtlik arzulayıram.

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Çox sağ olun, cənab baş katib. Bəli, biz Bakıda bir neçə dəfə görüşmüşük. Cənab baş katib ölkəmizi bir neçə dəfə ziyarət edib və məmnunuq ki, Azərbaycanda gedən proseslər barədə xoş təəssüratı var. Bu gün burada, Avropa Birliyində prezident kimi baş katiblə görüşməyim mənim üçün böyük şərəfdir.

Bugünkü günüm çox səmərəli oldu. Səhər lap tezdən keçirdiyim bütün görüşlər, cənab baş katiblə bu görüş də daxil olmaqla, bir daha göstərdi ki, bizim Avropa strukturlarına inteqrasiya siyasətimiz uğurla davam edir. Bu, bizim strateji seçimimizdir. Azərbaycan gələcəyini Avropa ailəsində görür. Əlbəttə ki, biz əlimizdən gələni edəcəyik ki, Avropanın bütün meyarlarına cavab verək.

Bizim müxtəlif sahələrdə – həm nəqliyyatda, həm energetika sahəsində, ümumiyyətlə, iqtisadiyyatda əməkdaşlığımız olduqca uğurludur və biz bu münasibətləri qətiyyətlə davam etdirmək əzmindəyik. Biz Avropa Birliyinin ölkəmizə, ümumiyyətlə, bütün Cənubi Qafqaza yetirdiyi diqqətə çox hörmətlə yanaşırıq. Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin təyin olunması və Cənubi Qafqaz ölkələri ilə yeni qonşuluq proqramı göstərir ki, bizim bölgə yaddan çıxmayıbdır, maraq dairəsindədir. Bölgəmizdəki ölkələrlə Avropa Birliyinin münasibətləri olduqca böyük əhəmiyyət kəsb edir. Mən Azərbaycanın adından çıxış edirəm və şübhə olmasın ki, bizim ölkəmiz bu istiqamətdə siyasətini davam etdirəcəkdir. Daha möhkəm münasibətlərə, daha yüksək səviyyəli əməkdaşlığa və daha sıx inteqrasiyaya çalışacaqdır.

Mən qonaqpərvərliyə görə cənab Solanaya şəxsən minnətdarlığımı bildirmək istəyirəm. Çox gözəl söhbətimiz oldu. Bir çox məsələləri əhatə etdik. Əminəm ki, gələcək görüşlərimiz, Bakıda keçirəcəyimiz görüşlər də bu görüş kimi səmərəli olacaqdır. Sağ olun.

* * *

**S u a l: Dağlıq Qarabağ mövzusunu müzakirə etdinizmi? Belə görünür ki, ATƏT məsələnin həlli ilə bağlı uğur əldə edə bilmir. Avropa Birliyi ATƏT-dən fərqli addım ata bilərmi?**

**İ k i n c i   s u a l: Azərbaycanın uğrunda çalışdığı yeni qonşuluq proqramının Dağlıq Qarabağ məsələsinə təsiri necə ola bilər?**

**H a v y e r   S o l a n a**: Əlbəttə, biz Dağlıq Qarabağ mövzusunu müzakirə etdik. Bu, bizi uzun müddətdir narahat edən mövzudur. Doğrudur ki, bu məsələdə tərəqqinin əldə olunması nəzərə çarpmır. Biz istərdik ki, danışıqların irəliyə getməsini görək. Ümid edirik ki, son vaxtlar keçirilən görüşlər, təkcə prezidentlərin görüşləri yox, xarici işlər nazirlərinin də ünsiyyətləri prosesə töhfə verəcək, bu prosesi yerindən tərpətməyə başlayacaqdır. Prezidentə bunu söz vermişəm, əlimizdən nə gəlirsə, çalışacağıq edək.

Doğrudur ki, ölkələrə təklif etdiyimiz yeni qonşuluq layihəsi Avropa Birliyinin prosesə qatıla bilməsinə yardım edəcəkdir. Amma o da doğrudur ki, proseslə ATƏT-in Minsk qrupu məşğul olur. Biz kömək edə, biz əməkdaşlıq edə bilərik. Amma bu işlə birbaşa Minsk qrupu məşğuldur.

**S u a l: Cənab Prezident və cənab Solana, Avropa Birliyi ilə Azərbaycan arasındakı siyasi və iqtisadi münasibətləri qənaətbəxş hesab edirsinizmi?**

**İ k i n c i   s u a l:** Cənab Solana, üç Qafqaz ölkəsindən hansı Sizə daha yaxındır?

**H a v y e r   S o l a n a:** Siz istəyirsiniz ki, mən üçündən birini seçim. Bilirsiniz ki, mən çox qəliz siyasətçiyəm, bunu etməyəcəyəm.

İcazə verin, deyim ki, Azərbaycanla münasibətlərimiz çox yaxşıdır. Yaxın gələcəkdə Azərbaycanın iqtisadi perspektivi çox-çox ümidvericidir, çox parlaqdır, olduqca gözəldir. Ona görə də əlaqələr artacaqdır. Buna şübhə ola bilməz. Ölkənin irəliləyişi, enerji ehtiyatlarının nəzərə alınması ilə nəqliyyat sistemlərinin inkişafı, infrastrukturun şaxələnməsi, Türkiyə, Yunanıstan vasitəsilə Avropa ölkələrinə daşımaların həcminin artması ümidvericidir. Ona görə də münasibətlərdə inkişaf olacaqdır. Bu gün yaxşıdır. Amma daha vacibi sabah bundan da yaxşı olmasıdır.

Əvvəl dediyim kimi, ikinci sualınıza cavab verməyəcəyəm.

**İ l h a m   Ə l i y e v:** Mən istərdim əlavə edim ki, Avropa Birliyi ilə münasibətlərimiz, iqtisadi münasibətlərimiz uğurla inkişaf edir. Təkcə 2003-cü ildə ticarət əlaqələrimiz 40 faiz artmışdır. Bu, yaxşı dinamikanın göstəricisidir. Azərbaycan iqtisadiyyatı artan ölkədir. İqtisadi potensialımız artır. Əlbəttə, bunun nəzərə alınması ilə gələcəkdə daha geniş, daha fəal iqtisadi əməkdaşlıqdan danışmaq olar.

Mən həm də istərdim ki, birinci sualla – Dağlıq Qarabağla bağlı şərhimi verim. Biz hesab edirik ki, Avropa Birliyi bu yöndə çox vacib rol oynayır. Əlbəttə ki, məsələ ilə bağlı ATƏT-in Minsk qrupunun mandatı var. Biz bu mandatı əvəz etmək fikrində deyilik. Amma eyni zamanda, Azərbaycan qəti inanır ki, daha geniş beynəlxalq diqqət, Avropa strukturlarının diqqəti və Avropa ictimaiyyətinin rəyi münaqişənin sülh yolu ilə və tezliklə həll olunması istiqamətində kömək etmiş olar.

Fürsətdən istifadə edərək, bu problemlə bağlı fəal iştirakına görə Avropa Birliyinin rəhbərliyinə bir daha minnətdarlığımı bildirirəm. Çox sağ olun.

## «EURONEVS» TELEKANALINA MÜSAHİBƏ*

*Brüssel,*
*«Conrad» mehmanxanası*

*18 may 2004-cü il*

***A p a r ı c ı:** Avropa Birliyi Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında iştirak edəcəkdir. Bu qərar Azərbaycan prezidenti İlham Əliyevin Brüsselə səfərinin nəticəsi olmuşdur. Avropa Birliyi Azərbaycan, Ermənistan və Türkiyə arasında üçtərəfli diskussiya aparılmasının mümkünlüyünü nəzərdən keçirir. Dağlıq Qarabağ münaqişəsinin nizama salınması Azərbaycanda vəziyyətin sabitliyi üçün vacibdir, ölkənin coğrafi-siyasi mövqeyi isə elədir ki, bütün regionda da sabitlik Azərbaycanın ərazisindəki sabitlikdən çox asılıdır.*

*«Euronews» müxbirinin suallarına Azərbaycan prezidenti İlham Əliyev cavab verir.*

**S u a l: Cənab Prezident, «Euronews»ə xoş gəlmisiniz. İraqda vəziyyət gərginləşir. Azərbaycan bu qarşıdurmada, terrorizmə qarşı mübarizədə nə kimi mövqe tutur?**

**C a v a b:** İraq Azərbaycanın yaxınlığında yerləşir. Əslində, bu, eyni bir regiondur. Odur ki, biz bu ölkədə baş verən hadisələrə biganə qala bilmərik. Azərbaycan antiterror koalisiyasının həmişə iştirakçısı olub, çünki bu bəladan, terrordan ölkəmiz də əziyyət çəkir. Biz müharibənin və terrorizmin nə demək olduğunu çox yaxşı təsəvvür edirik. Çünki bunlar bizə tanışdır. Ona görə də biz İraqda sülhün bərqərar edilməsinə tərəfdarıq. Bu, nə qədər tez olsa, bir o qədər yaxşıdır.

**S u a l: Siz Azərbaycanda vəziyyətin gərginləşməsinin mümkünlüyündən ehtiyat etmirsinizmi?**

**C a v a b:** Ölkəmiz bütün sahələrdə – dini sahədə də, etnik sahədə də dözümlülüyü ilə fərqlənir. Azərbaycan tarixində dini zəmində hər hansı münaqişə baş verdiyini xatırlaya bilmirəm. Xristianlar, müsəlmanlar, yəhudilər – onların hamısı ölkəmizdə sülh və həmrəylik şəraitində yaşayır. Həqiqətən, bu gün Azərbaycanda dini təməlçilik üçün səbəblər yoxdur. Ölkə inkişaf edir, adamlar getdikcə varlanır, daha savadlı olurlar. Biz Avropa cəmiyyətinə yaxınlaşırıq. Odur ki, belə şəraitdə bu cür münaqişələr riski, demək olar, yoxdur.

**S u a l: Sizin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair təklifləriniz varmı?**

**C a v a b:** Biz istəyirik ki, Ermənistan öz qoşunlarını bu ərazidən çıxarsın. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər. Ermənilərin yaşadıqları bütün yerləri Ermənistan hesab etmək olmaz. Bu gün onlar San–Fransiskoda, Marseldə, Gürcüstanda, Rusiyada yaşayırlar. Amma bu o demək deyil ki, onlar harada yaşayırlarsa, orada müstəqil dövlət yaratmaq lazımdır. Azərbaycanda ermənilər milli azlıqdır və bütün hüquqlardan istifadə edə bilərlər. Biz güzəştə getməyə və Dağlıq Qarabağda ermənilərə mümkün qədər çox müstəqillik verməyə hazırıq. Lakin biz ərazi bütövlüyümüzü və suverenliyimizi təhlükəyə məruz qoya bilmərik.

**S u a l: Bu gün Azərbaycan neftin mühüm təchizatçısıdır. Dünya bazarında indiki qiymətlər barədə nə düşünürsünüz? Hesab edirsinizmi ki, qiymətlər qəsdən qaldırılıb, yaxud bu, məhz real dəyərdir?**

**C a v a b:** Əgər məndən soruşsaydınız ki, neftin qiymətlərinin yüksək olmasından razıyammı, iqtisadiyyatı neft satışından götürülən gəlirlərdən çox asılı olan ölkənin lideri kimi cavab verərdim: Bəli, razıyam. Yox, əgər dünya iqtisadiyyatından danışsaq, onda mən, ümumən, güman edirəm ki, qiyməti bazar tənzimləyir, qiymət tələbata müvafiq olur. Azərbaycan artıq dünya iqtisadiyyatının bir hissəsinə çevrilmişdir, ona görə də dünyada baş verən bütün proseslər ölkəmizə də aiddir. Əlbəttə, bizim bazar çox həssasdır və azacıq belə uyğunsuzluğa reaksiya verir. Ona görə də biz neftin elə bir qiymətinə tərəfdarıq ki, bu qiymət onun real dəyərini əks etdirsin. Çünki bu, öz növbəsində, real vəziyyəti əks etdirir.

**S u a l: Nə vaxtsa Azərbaycanın Avropa Birliyi üçün enerji ehtiyatlarının mühüm təchizatçısı olması mümkündürmü?**

**C a v a b:** Biz neft kəmərinə neftimizi dünya bazarına göndərmək və bununla da ölkə iqtisadiyyatının inkişafı üçün maliyyə axınını cəlb etmək vasitəsi kimi baxırıq. Biz həmişə neftin qiymətlərindən asılı olmaq istəmirik. Biz bu amildən ölkəni inkişaf etdirmək, yeni iş yerləri, iqtisadiyyatda yeni sektorlar yaratmaq imkanı kimi istifadə edirik. Əlbəttə, Azərbaycan nefti Avropa istehlakçıları üçün vacibdir. Lakin hesab edirəm ki, Azərbaycanın qaz ixracında da böyük gələcəyi var. Bir neçə ildən sonra ölkəmiz avropalı tərəfdaşları üçün qazın etibarlı təchizatçısı olacaqdır. Biz olduqca böyük qaz ehtiyatları kəşf etmişik və hazırda qazı Avropaya çatdıracaq boru kəmərinin tikintisi ilə məşğuluq.

*May ayının 20-də efirə gedən həmin müsahibənin mətninin bir hissəsi «Azərbaycan» qəzetində (21 may 2004-cü il) dərc olunmuşdur.*

---

* Böyük marağa səbəb olmuş müsahibə ayrı-ayrı mövzular üzrə qruplaşdırılaraq həmin televiziya kanalının proqramlarında dünyanın müxtəlif dillərində bütün gün ərzində bir neçə dəfə yayımlanmışdır.

## BRÜSSELDƏ, DÜNYA GÖMRÜK TƏŞKİLATININ (DGT) İQAMƏTGAHI QARŞISINDA «DƏDƏ QORQUD» ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ* ÇIXIŞ

*18 may 2004-cü il*

Əziz xanımlar və cənablar!

Əziz dostlar!

Mən bu gün burada, Ümumdünya Gömrük Təşkilatının binası qarşısında olmaqdan və Dədə Qorqudun abidəsinin açılmasından çox xoşbəxtəm. «Kitabi-Dədə Qorqud» Azərbaycan xalqının yaratdığı incilərdən biridir. Onun Azərbaycan xalqı və bütün türk dünyası üçün qədim tarixi və böyük mənası var.

1997-ci ildə Azərbaycanın prezidenti Heydər Əliyev «Dədə Qorqud» dastanının 1300 illiyinin rəsmi qeyd olunması barədə fərman imzaladı və 2000-ci ildə Bakıda türkdilli ölkələrin prezidentlərinin iştirakı ilə bu yubileyə həsr edilmiş böyük mərasim keçirildi. 1999-cu ildə YUNESKO da böyük proqramlarla çıxış edərək, «Dədə Qorqud» dastanının 1300 illiyini qeyd etdi. Bu ədəbi inci bu gün də yaşayır, «Kitabi-Dədə Qorqud»dakı ideyalar və fikirlər bugünkü nəsil üçün də əhəmiyyət kəsb edir və mən əminəm ki, hələ bir neçə əsrlər boyu öz aktuallığını saxlayacaqdır.

Bu gün mən həm də çox xoşbəxtəm ki, Brüsseldə, Avropanın paytaxtındayam. Buraya Avropa Birliyinin dəvəti ilə gəldim. Çox səmərəli fikir mübadiləmiz oldu. Azərbaycan Avropa ailəsinə inteqrasiya xəttini bir daha qəti surətdə təsdiq etdi. Bizim Avropa Birliyi ilə gözəl münasibətlərimiz yaranıb, birlikdə iqtisadiyyatımızın və həyatımızın ayrı-ayrı sahələrində müxtəlif proqramlar üzərində işləyirik. Düşünürəm ki, Azərbaycan da daxil olmaqla, Cənubi Qafqaz ölkələri üçün hazırlanmış yeni qonşuluq strategiyası bizim ölkəni Avropa Birliyinə daha da yaxınlaşdıracaqdır.

Bugünkü Avropanın sərhədləri Azərbaycana daha çox yaxınlaşır. Bu da hadisələrin müsbət inkişafıdır. Azərbaycan Avropa strukturlarına genişmiqyaslı inteqrasiya siyasətini davam etdirəcəkdir. Düşünürəm ki, biz qazandığımız uğurlara gələcəkdə yenilərini əlavə edəcəyik.

Dünya Gömrük Təşkilatında olmaq mənim üçün xoşdur. Azərbaycan ilə Dünya Gömrük Təşkilatı arasında münasibətlər uğurla inkişaf edir, yaxşı qarşılıqlı anlaşma mövcuddur və bizim gömrük xidmətinə göstərdiyi yardıma görə Dünya Gömrük Təşkilatına minnətdaram. Cənab Baş katib regional tədris mərkəzinin açıldığını qeyd etdi. Bu mərkəz tamamilə müasir cihazlar və infrastrukturla təchiz olunmuşdur. Burada təkcə Azərbaycandan deyil, bütün regiondan gömrük işçiləri təhsil alıb peşə bacarıqlarını artıra biləcəklər. Mərkəzin Bakıda, ölkəmizin paytaxtında açılması faktı Dünya Ticarət Təşkilatı ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsini bir daha göstərir.

Cənab Baş katib, Siz bizim ölkəyə bir neçə dəfə səfər etmisiniz. Siz Azərbaycanın necə inkişaf etdiyini, necə irəlilədiyini bilirsiniz və ölkədə aparılan əməli işlərin inkişaf prosesinə necə təsir etdiyindən xəbərdarsınız. Bizim siyasi, iqtisadi və sosial islahatlar xəttimiz davam etdiriləcəkdir. Düşünürəm ki, bizim Avropa strukturlarına inteqrasiya siyasətimiz çox uğurla davam etdiriləcəkdir. Bu gün Avropa Birliyindəki görüşlər bir daha göstərdi ki, qarşılıqlı surətdə faydalı münasibətlərə maraq olduqca böyükdür.

İstərdim ki, Dədə Qorquda heykəl qoyulması münasibətilə bir daha hamınızı təbrik edim, bu abidənin bu gözəl ağaclıqda, bağçada ucaldılmasına görə Dünya Gömrük Təşkilatına, onun baş katibinə minnətdarlığımı bildirim. Bir daha Azərbaycanla Avropa arasındakı daha sıx inteqrasiya ilə bağlı arzu və düşüncələrimi ifadə edirəm. Azərbaycan özünü Avropanın bir hissəsi hesab edir və biz əlimizdən gələni edəcəyik ki, münasibətlərimizi gələcəkdə daha da irəli aparaq.

Diqqətinizə görə sağ olun.

* * *

*Mayın 19-da Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – «Conrad» mehmanxanasında Ukraynanın Baş naziri Viktor Yanukoviçi qəbul etmişdir.*

*Səmimilik şəraitində keçən söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında mövcud olan dostluq münasibətlərindən, iqtisadi-ticarət əlaqələrinin genişlənməsindən məmnunluq ifadə edildi. Görüşdə iri iqtisadi layihələr diqqət mərkəzində oldu.*

---

* Mərasimdə DGT-nin baş katibi Mişel Dane, görkəmli qazax ədibi, Qazaxıstanın YUNESKO-dakı daimi nümayəndəsi Oljas Süleymenov çıxış etdilər.

## NATO-nun BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞ

*19 may 2004-cü il*

*NATO-nun qərargahında Azərbaycan prezidenti ilə NATO-nun Baş katibi arasında təkbətək görüş oldu. Prezident İlham Əliyev Azərbaycanın NATO yanında nümayəndəliyi tərəfindən hazırlanmış, Azərbaycan–NATO əməkdaşlığına və ölkəmizin mədəniyyətinə həsr olunmuş fotosərgiyə baxdı.*

*Alyansın iqamətgahının daxili televiziyasında on gün müddətində Azərbaycan mədəniyyəti və incəsənətindən bəhs edən film nümayiş etdirilir.*

*Fotosərgi ilə tanışlıqdan sonra prezident İlham Əliyev Şimali Atlantika Şurasında çıxış etdi.*

*Sonra Azərbaycan prezidenti və NATO-nun Baş katibi mətbuat nümayəndələri üçün brifinq keçirdilər.*

### NATO-nun Baş katibi Yaap de Hoop Sxefferin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Hər vaxtınız xeyir. Bu gün Azərbaycan prezidenti zati-aliləri İlham Əliyevi qəbul etmək həm Şura, həm də mənim üçün, həqiqətən çox xoşdur. Bu görüş çox vacib bir zamanda baş tutur. Azərbaycan adından prezident mənə bu gün «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı» adlanan sənədi təqdim etdi. Bu sənədin Azərbaycanla NATO arasında münasibətlərin, əlaqələrin və əməkdaşlığın gələcəyi üçün böyük əhəmiyyəti vardır. Azərbaycan və NATO bu sənədə əsaslanaraq, aidiyyəti olan bütün mövzuları, müdafiə islahatlarını, siyasi islahatları müzakirə edə biləcəklər.

Prezident İlham Əliyev və mən qısa ikitərəfli görüş keçirdik. Görüş zamanı mən Azərbaycana və onun prezidentinə Azərbaycanın sülhməramlı əməliyyatlarda iştirakına görə NATO-nun təriflərini ünvanladım. Bilirsiniz ki, Azərbaycan Əfqanıstandakı əməliyyatlarda iştirak edir, NATO əməliyyatları olmasa da, İraqda sülhməramlı əməliyyatlarda iştirak edir. Beləliklə, əməkdaşlıq üçün əla əsas var.

Hörmətli prezident İlham Əliyev bu gün buradadır və mən Bakıya dəvət olunmuşam. İndi bilirəm ki, gələn dəfə Bakıda prezidentlə NATO nümayəndəsi kimi görüşəcəyəm. Şurada prezidentin çox maraqlı çıxışına qulaq asdıq. NATO səfirləri çox məmnun oldular. Maraqlı müzakirələrimiz oldu. Əminəm və bilirəm ki, regionun siyasi problemləri ilə bağlı prezident İlham Əliyev və regionun digər prezidentləri əsl liderlik nümayiş etdirərək orada sülh və sabitliyin təmin olunması üçün əllərindən gələni əsirgəməyəcəklər. Çox sağ olun.

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

İlk əvvəl istəyirəm ki, cənab baş katibə və Şuraya bu dəvətə görə minnətdarlığımı bildirim.

Bu gün burada, NATO-nun baş qərargahında olmaq məndən ötrü böyük şərəfdir. Cənab baş katibin qeyd etdiyi kimi, bugünkü gün NATO ilə Azərbaycan arasındakı münasibətlər üçün çox əlamətdar gündür. 10 il əvvəl Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşuldu, bu, 1994-cü ilin may ayı idi. Bu gün, 2004-cü ilin mayında Azərbaycan «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı»na qoşulur. Bu, bizim gələcək münasibətlərimiz, daha sıx əlaqələrimiz, NATO ilə əməkdaşlığımız üçün çox vacib təməldir.

Azərbaycan öz strateji seçimini 10 il əvvəl edibdir. Bizim Avroatlantik strukturlara inteqrasiyamız, NATO ilə yaxın tərəfdaşlığımız və əməkdaşlığımız Azərbaycanın əməli işi ilə bu strateji seçimə nə dərəcədə sadiq olduğunu hər bir sözdən daha qabarıq nümayiş etdirir. Əminəm ki, «Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı» bizə daha dərin inteqrasiya imkanı verəcəkdir. Azərbaycan həqiqi tərəfdaşdır, etibarlı tərəfdaşdır, biz dünyanın müxtəlif yerlərində həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirakçıyıq. Biz artıq sübuta yetirmişik ki, tərəfdaşlıqda möhkəmik.

Şimali Atlantika Şurasında görüşümüz çox gözəl keçdi. Səfirlər çox vacib şərhlər verdilər, mən də çıxış etdim. Burada olmağıma şadam və əminəm ki, Bakıda keçirəcəyimiz növbəti görüş də – Baş katib gəlməyə söz veribdir, – uğurlu olacaqdır. Əminəm ki, hər yeni görüş, hər yeni addım Azərbaycanı NATO-ya daha da yaxınlaşdıracaqdır. Qonaqpərvərliyinizə görə bir daha çox sağ olun.

* * *

**S u a l: Cənab Prezident, NATO-nun baş katibi ilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemini müzakirə etdinizmi? NATO-nun münaqişə ilə bağlı bugünkü mövqeyini izah edə bilərsinizmi?**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olundu. Görüşlərimiz zamanı bu mövzu həmişə mənim gündəliyimdədir. Mən mövzu ilə bağlı Azərbaycanın mövqeyini bildirdim və bizim danışıqları davam etdirməyə hazır olduğumuzu nəzərə çatdırdım. Biz məsələnin elə həll yoluna ümid bəsləyirik ki, o, beynəlxalq hüquq normalarına və prinsiplərinə əsaslansın. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır, bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Əlbəttə ki, bu mövzu mənim bütün görüşlərim zamanı müzakirə edilir.

**Y a a p  d e  H o o p  S x e f f e r**: Bilməlisiniz ki, NATO-nun Baş katibi olmaqdan əvvəl, mən başqa vəzifədə idim, ATƏT-in fəaliyyətdə olan sədri vəzifəsini yerinə yetirirdim. Demək istəmirəm ki, Dağlıq Qarabağ münaqişəsini daxildən bilirəm, amma bu məsələ ilə tanış olmayan adam da deyiləm. Biz bunu müzakirə etmişik, mən bilirəm ki, çox şey prezident Əliyevin, prezident Köçəryanın iradəsindən asılı olacaq, onların təmasları, Xarici İşlər nazirlərinin görüşləri münaqişənin ədalətli həllini tapmağa imkan verəcəkdir. Münaqişə həddindən artıq çox uzanır. Məsələ ilə beynəlxalq qurumların məşğul olmasına da gəldikdə, bildiyiniz kimi, bununla ATƏT-in Minsk qrupu məşğuldur. Elə bilirəm ki, Minsk qrupu  əlindən gələni edəcək ki – onların fəaliyyəti ilə tanışam – problem həll olunsun. Amma gərək çoxdan həll ediləydi.

Cənab prezident, Sizə bir daha təşəkkür edirəm, uğurlar arzulayıram. Çox sağ olun.

## AVROPA SİYASİ MƏRKƏZİNİN TƏŞKİL ETDİYİ SİYASİ BRİFİNQDƏ – «AVROPA BİRLİYİ VƏ AZƏRBAYCAN – TƏRƏFDAŞLIQ ÜÇÜN YENİ ÜSULLAR» MÖVZUSUNDA KEÇİRİLƏN DİSKUSSİYADA* NİTQ

*19 may 2004-cü il*

Əziz xanımlar və cənablar!
Əziz dostlar!

Mən hər şeydən əvvəl istərdim ki, bugünkü görüşə gəldiyinizə görə sizə minnətdarlığımı bildirim. Dünəndən etibarən mənim Brüsseldə Avropa Birliyi rəsmiləri ilə çox faydalı görüşlərim olubdur. Bu görüşlərin böyük əhəmiyyəti var, çünki bizim Avropa Birliyi ilə münasibətlərimiz uğurla inkişaf edir. Azərbaycan Avropa strukturlarına inteqrasiya siyasətinə möhkəm sadiqdir. Mənim Avropa Birliyinə səfərim bu siyasəti bir daha təsdiq edir. Bu, bizim strateji seçimimizdir. Azərbaycan bu seçimi 10 il əvvəl edibdir. SSRİ dağıldıqdan və Azərbaycan müstəqillik qazandıqdan sonra, əlbəttə ki, ölkənin qarşısında müxtəlif imkanlar var idi və seçim imkanları da çox idi. Amma bizim ölkənin, Azərbaycanın lideri Heydər Əliyevin siyasəti Avropa ailəsinə inteqrasiya siyasəti idi. Dünya iqtisadiyyatına inteqrasiya siyasəti idi. O zamandan indiyədək ölkəmiz nəzərəçarpacaq dərəcədə tərəqqi əldə edibdir.

Sovet İttifaqı dağılan zaman Azərbaycan digər respublikalarla müqayisədə ən pis vəziyyətdə idi. Tam siyasi, iqtisadi və hərbi böhran vətəndaş müharibəsi və Ermənistanın hərbi təcavüzü ilə müşayiət olunurdu. Bütün bu hallar Azərbaycanı uçurum kənarına gətirib çıxarmışdı. Bir neçə il lazım oldu ki, vəziyyəti sabitləşdirə bilək. Düşmənçiliyə, vətəndaş müharibəsinə son qoyaq, Ermənistanla atəşkəsə nail olaq və iqtisadiyyatımızı inkişaf etdirməyə başlayaq.

Bu gün Azərbaycanın regiondakı mövqeyinə baxsaq, qonşuları ilə müqayisə etsək, görərik ki, iqtisadi baxımdan ölkəmiz böyük tərəqqiyə nail olubdur. Bu baxımdan lider mövqeyindədir. 1996-cı ildən illik ümumi daxili məhsul orta hesabla 10 faizədək artmışdır. Son 7 il müddətində ümumi daxili məhsulun həcmi 90 faiz artmışdır. Azərbaycan adambaşına xarici sərmayə cəlb edilməsi baxımından keçmiş SSRİ ölkələri içərisində aparıcı mövqedədir. Ölkədə yaxşı sərmayə mühiti yaranmışdır. Bu da iri xarici transmilli şirkətlərin Azərbaycanda özlərini çox rahat hiss etmələrinə imkan verir. Son 7 ildə Azərbaycan iqtisadiyyatına 17 milyard dollar vəsait qoyulmuşdur. Əlbəttə, bu rəqəmi daha da artırmaq fikrindəyik. Artıq imzalanmış müqavilələr də, yerinə yetiriləcək layihələr də göstərir ki, növbəti üç ildə daha 10 milyard dollar vəsait yatırılacaqdır. Əlbəttə ki, xarici sərmayəçilər vəsaitlərinin qorunacağına, ölkədəki sabitlik və təhlükəsizliyə arxayın olmasaydılar, bəlkə də Azərbaycana gəlib-gəlməməyi çox ölçüb-biçərdilər. İctimai-siyasi sabitlik, təhlükəsizlik uğurlu iqtisadi siyasətin ən başlıca elementlərindəndir.

Azərbaycan regionda ən sabit ölkələrdəndir. Bu da ölkəmizə iqtisadi islahatları həyata keçirməyə imkan verir. Bəzən islahatları həyata keçirərkən çətinliklərlə üzləşirik, amma Azərbaycan iqtisadi islahatlar keçirmək qətiyyətində israrlıdır. Ölkəmizdə irimiqyaslı özəlləşdirmə proqramı həyata keçirilir. Artıq torpağın özəlləşdirilməsi proqramı tamamlanmışdır. İndi ölkəmiz Avropa ailəsinə daha çox inteqrasiya etməkdən ötrü Avropa məkanının meyarlarına cavab vermək üçün çalışır. Siyasi vəziyyət də müsbət xarakter daşıyır. Ötən ilin oktyabrında keçirilən prezident seçkiləri göstərdi ki, Azərbaycan xalqı tərəqqi, sabitlik olmasını, hadisələrin inkişafının əvvəlcədən görünə biləcəyi şəraitdə yaşamağını istəyir.

Azərbaycan xalqı sülh şəraitində yaşamaq istəyir. Təəssüf ki, Azərbaycan Sovet İttifaqı dağıldıqdan sonra təcavüzə məruz qalmış ölkədir. Azərbaycanın əraziləri Ermənistan tərəfindən təcavüzə və işğala məruz qalmışdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələnmişdir. İşğal nəticəsində bizim ölkədə bir milyondan artıq qaçqın və köçkün var. Azərbaycan əhalinin sayına nisbətdə dünyada ən çox qaçqını olan ölkədir. Səkkiz milyon əhalinin bir milyonunun belə vəziyyətdə olması, əlbəttə, həm böyük siyasi, həm də iqtisadi problemdir. Təəssüf ki, Ermənistanla Azərbaycan arasında gedən danışıqlar hələ heç bir nəticə vermir. Amma son vaxtlar beynəlxalq birlik bu mövzuya daha çox diqqət yetirir. Biz ümid edirik ki, məsələyə beynəlxalq birliyin qatılması ilə həll yolu tapıla bilər. Amma əlbəttə, həll yolu yalnız beynəlxalq hüququn normalarına əsaslana bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmAlıdır, Ermənistanın silahlı qüvvələri işğal edilmiş ərazilərdən geri çəkilməlidir ki, qaçqınlar doğma yurdlarına qayıda bilsinlər.

Ermənistan yalnız Dağlıq Qarabağı yox, həm də Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan 7 digər rayonu da işğal etmişdir. O ərazilər ki, keçmişdə ermənilər heç zaman orada yaşamayıblar. Həmin

---

* Belçika Krallığının nüfuzlu siyasətçilərinin iştirak etdiyi diskussiyanı Avropa Siyasi Mərkəzinin rəhbəri Hans Martens açdı.

ərazilərdə yaşamış 700 min azərbaycanlı Ermənistanın təcavüzü nəticəsində ölkə daxilində məcburi köçkünə çevrilmişdir. Üstəgəl, 250 mindən çox azərbaycanlı – əvvəllər Ermənistan ərazisində yaşamış azərbaycanlılar qaçqın olmuşlar. Ermənistanın mövqeyi beynəlxalq hüququn qanunlarına tam ziddir.

Biz bu gün XXI əsrdə yaşayırıq. Bu gün təcavüzkar separatizm siyasəti qəbulolunmazdır. Bu gün Avropanın birləşdiyi vaxtda, qloballaşma və inteqrasiya prosesinin dünyada vüsət aldığı bir vaxtda bir ölkənin digər ölkənin ərazisini işğal etməsi faktı və həmin ərazini 10 ildən çox işğal altında saxlaması, ordusunu geri çəkmək istəməməsi, əlbəttə, narahatlıq doğurmaya bilməz. Biz ümid edirik ki, Avropa Birliyi və digər təşkilatlar və əlbəttə, məsələnin həlli ilə bağlı mandatı olan ATƏT daha fəal rol oynayacaq, azərbaycanlı qaçqınların daimi yaşadığı ərazilərə qayıtmalarına çalışacaqlar.

Hazırda Dağlıq Qarabağın özünün ərazisi regional sabitlik üçün təhlükə doğurur. Çünki bu, tamamilə nəzarətsiz zonadır. Burada beynəlxalq monitorinq keçirilmir, beynəlxalq nəzarət yoxdur və bizdə təsdiqini tapmış məlumat vardır ki, həmin ərazidə qeyri-qanuni fəaliyyət həyata keçirilir. Ona görə də münaqişə nə qədər tez həll edilərsə, bütün region üçün bir o qədər yaxşı olar. Çünki bu, həqiqi mənada, daha geniş regional təhlükəsizlik məsələsidir.

İndi regional əməkdaşlıq inkişafdadır. Azərbaycan regional əməkdaşlığın fəal hissəsidir. Azərbaycan Xəzər dənizinin neft və qazının beynəlxalq bazarlara daşınması layihələrində vacib rol oynayan tərəfdir. Son on ildə Azərbaycanda həyata keçirilən neft siyasəti Xəzər dənizindən Aralıq dənizinə enerji daşıyıcıları nəql edəcək kəmərləri reallığa çevirmişdir. Buna inananların sayı çox deyildi. Bəziləri fikirləşirdilər ki, bu, əfsanədir. Digərləri isə düşünürdülər ki, bu, xülyadır. Amma bu əfsanə həqiqətə çevrildi. Gələn il Bakı–Tbilisi–Ceyhan neft kəməri fəaliyyətdə olacaq və böyük həcmdə Xəzər neftinin dünya bazarlarına daşınmasına imkan yaradacaqdır. Əlbəttə, bunun özü də regional təhlükəsizliyə və sabitliyə töhfə olacaqdır.

İkinci vacib layihə Azərbaycan qazının Türkiyəyə və daha sonra Avropaya daşınmasıdır. Bu layihə Avropa istehlakçıları üçün, bəlkə də neft layihəsindən də vacibdir. Çünki Azərbaycan qazı böyük həcmdə Avropaya daşınacaq və Avropa istehlakçıları üçün alternativ qaz təchizatı çox faydalı olacaqdır. Qiymətlər rəqabət baxımından münasibdir, mənbə etibarlıdır. Azərbaycan bu layihəni yerinə yetirməyə qadirdir. Əminəm ki, bir neçə ilə, təqribən 5-6 ilə Avropa istehlakçılarına Azərbaycan qazından istifadə etmək imkanı yaranacaqdır. Planlaşdırdığımız kimi, 2006-cı ilin sonunda qaz layihəsi tamamlanacaq və sonra qaz hasilatının özünü yuxarı həddə çatdırmaq üçün müəyyən vaxt tələb olunacaqdır. Regional əməkdaşlığın bütün elementləri bizim regiona, bizim ölkəyə, dostlara bu layihələrdən bəhrələnməyə imkan verəcəkdir.

Çox zaman belə bir sual çıxır ki, Ermənistan necə olsun? Nəyə görə Ermənistan regional əməkdaşlığın bir hissəsi deyil? Nəyə görə Azərbaycan Ermənistanı bu proseslərdən təcrid edir? Biz regional əməkdaşlığın əleyhdarı deyilik, biz bütün mümkün variantları nəzərdən keçirə bilərik. Amma burada əsas amil ölkəmizin ərazilərinin işğal altında qalmasıdır. Əminəm ki, sizin ölkənizin bir hissəsi başqa ölkə tərəfindən işğal olunsa, heç biriniz həmin ölkə ilə iqtisadi əməkdaşlıq istəməzsiniz. Erməni işğalçı qüvvələri bizim əraziləri tərk etməlidirlər, ondan sonra iqtisadi əməkdaşlıq baş tuta bilər. Mən düşünürəm ki, bu, məsələyə çox ədalətli baxışdır və regiondakı real şəraiti əks etdirir.

Ölkəmizin böyük planları var. Rayonlarımızın inkişafına dair sosial-iqtisadi proqramımız var. Eləcə də, Dünya Bankı ilə birlikdə yoxsulluğun azaldılması proqramı üzərində işləyirik. Çünki ölkənin iqtisadiyyatda böyük tərəqqi əldə etməsinə baxmayaraq, problemlər hələ də mövcuddur. İşsizlik, yoxsulluq, qaçqın-köçkünlərin sosial-məişət problemləri. Bütün bu problemlərlə ölkə məşğul olmalıdır. Bunu etməkdən ötrü bizə maliyyə ehtiyatları, bütün regionda sülh, sabitlik lazımdır. Regional təhlükəsizlik olmadan planlarımız təhlükə altında olar. Amma zaman göstərir ki, biz qarşımızda duran vəzifələrin öhdəsindən gələ bilərik.

Azərbaycan öz gələcəyini Avropa ailəsinə inteqrasiyada görür. Bu siyasət dəyişməz olaraq qalır və bu, bizim strateji məqsədimizdir. Qeyd etdiyim kimi, bu seçim 10 il əvvəl edilib və Azərbaycan bu illər ərzində tədricən, lakin qətiyyətlə bu istiqamətdə irəliləyir. Azərbaycan özünü belə şəraitdə görmək istəyir. Çünki Avropanın nailiyyətləri, uğurları göstərir ki, bu, bizim də getməli olduğumuz yoldur və biz bu yolu gedirik. Yeni qonşuluq siyasəti, Avropa Birliyi tərəfindən Cənubi Qafqaz ölkələrinə dair təklif olunmuş siyasət bizim ölkəyə Avropa Birliyi ilə daha səmərəli əməkdaşlıq imkanı verəcəkdir. Bu gün Avropa Birliyinin sərhədləri Cənubi Qafqaza daha çox yaxınlaşır və əlbəttə, biz də çox istərdik ki, regional proseslərin, Avropa inteqrasiyasının iştirakçısı olaq. Ölkəmizin bunu etməyə bütün potensialı var.

O da məlumdur ki, davamlı inkişafın əsas elementlərindən biri də davamlı siyasi islahatlardır. Cəmiyyətimizin demokratikləşdirilməsi prosesi davam edir. Bu istiqamətdə çoxlu müsbət addımlar atılmışdır və bu gün Azərbaycan cəmiyyəti əlbirdir. Bizdə bütün azadlıqlar mövcuddur. Bütün siyasi spektrlərdə siyasi fəaliyyətə imkan vardır. Ölkəmizin daha bir nailiyyəti də Azərbaycanda olduqca güclü etnik və dini dözümlülüyün mövcudluğudur. Bu mənada bizdə keçmişdə heç vaxt heç bir problem olmamışdır. Azərbaycan çoxmillətli ölkədir və burada yaşayan bütün xalqlar, millətlər və etnik qruplar eyni məsuliyyət daşıyır və eyni hüquqlardan istifadə edirlər. Azərbaycandakı dini dözümlülük də yaxşı məlumdur və təqdirəlayiqdir. Bunlar da bizim gələcək inkişafımıza müsbət təsir edə biləcək amillərdir. İqtisadiyyatın da güclü ola bilər, özün də güclü

ola bilərsən, amma ölkədə yaşayan müxtəlif millətlər arasında birlik yoxdursa, normal ünsiyyət çatışmırsa, onda heç bir uğur əldə edə bilməzsən.

Qarşımızda duran daha bir prioritet məsələ də neftdən gələn gəlirləri gələcəkdə necə idarə etməkdir. Biz artıq bu haqda indidən, iri neft sahəsində böyük inkişafın başlanğıcında fikirləşirik. Mən elə bilirəm ki, biz bunu əsl vaxtında düşünməyə başlamışıq. Təəssüf ki, neft hasil edən elə ölkələr vardır ki, onların nəhəng neft ehtiyatlarına baxmayaraq, uğur əldə edə bilməyiblər. Sadə vətəndaşlar neftdən gələn gəlirləri hiss etməlidirlər. Yaşından, mənşəyindən asılı olmayaraq, ölkənin hər bir vətəndaşı gündəlik həyatında hiss etməlidir ki, neft gəlirlərində onun da payı var.

Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır və neftdən gələn bütün vəsait burada toplanır. Bu, şəffaf strukturdur, beynəlxalq auditorlar onun işinə nəzarət edirlər. Azərbaycanın hər bir vətəndaşına məlumdur ki, ölkənin Neft Fondunda nə qədər vəsait var. Xərcləmələr şəffaf, büdcə vasitəsilə, parlamentdəki müzakirələrdən sonra həyata keçirilir və istənilən adam bu haqda məlumat əldə edə bilər. Bu, uğurun əsas elementlərindən biridir. Çünki bugünkü dünyada şəffaflıq mühümdür. Xüsusilə də keçid dövründə yaşayan Azərbaycan kimi ölkələr üçün.

Amma eyni zamanda, əvvəl dediyim kimi, bütün bu uğurlarla yanaşı, Azərbaycanın həll etməli olduğu problemlər də var. Çətinliklər çoxdur. Amma biz siyasi, iqtisadi və sosial islahatları davam etdirmək xəttimizdə qətiyyətliyik. Avropa Birliyinin yardımı, müdaxiləsi və digər Avropa təşkilatlarının iştirakı bu proseslərə çox yardım etmiş olar.

Dünən burada keçirdiyim görüşlər göstərdi ki, energetika, nəqliyyat sahəsində, siyasi sahədə münasibətlərin inkişafı üçün hər iki tərəfdən böyük istək və arzu var. Avropa ilə əməkdaşlıq bizim münasibətləri davam etdirməyimizə yardım edəcəkdir.

Vaxtınızı çox almaq istəmirəm. Səhər yeməyində iştirak etdiyinizə görə hamınıza bir daha minnətdarlığımı bildirirəm. Sizin hamınıza uğur arzulayıram və hamınızı Azərbaycana dəvət etmək istəyirəm ki, ölkəmizə gələsiniz və Azərbaycanın həyata keçirdiyi layihələrdə yaxından iştirak edəsiniz.

**H a n s M a r t e n s:** Cənab Prezident, dəvətə görə çox sağ olun. Həqiqətən, bu proseslərdən geri qalmamaqdan ötrü gərək indidən Bakıya təyyarə biletlərimizi sifariş edək. Sizə minnətdarıq ki, ölkənizdəki proseslərlə bağlı bu cür əla şərh verdiniz. Çox xoşagələn haldır ki, danışıqlarınızın əsasında realist nikbinlik durur və qarşınızda duran iqtisadi, sosial, ətraf mühit, demokratikləşmə ilə bağlı məsələlərin həyata keçirilməsi yolunda üzləşdiyiniz problemlərin həll olunacağında da qətiyyətlisiniz.

Sizə deyim ki, kənardan baxdıqda ölkənin potensialı çox böyük görünür. Həqiqətən də, Sizin özünüzün qeyd etdiyiniz kimi, qarşınızdakı vəzifənin yerinə yetirilməsi həmin potensialdan bacarıqla istifadə etməkdən çox asılı olacaqdır. Bizim hamımız, həqiqətən də, çox mütəəssirik ki, Siz ölkənizin uzunmüddətli strateji inkişafını Avropa ilə əlaqələrdə, Avropa ailəsinə inteqrasiyada görürsünüz.

Cənab prezident, çıxışınıza görə bir daha çox sağ olun. İndi isə müzakirələrə başlayırıq. Prezident suallara münasibətini əyləşdiyi yerdən bildirəcəkdir. Mən burada qalacağam ki, sual verənləri görə bilim.

**S u a l: Cənab Prezident, çox məmnunuq ki, Siz buradasınız. Məmnuniyyətlə bildirirəm ki, bizim qrupun prezidenti Bakıda olacaq və Sizinlə görüşəcəkdir. Sizə iki sualım var. Birincisi, ölkənizdə mətbuat azadlığını necə qiymətləndirirsiniz? 2003-cü il prezident seçkilərindən sonrakı hadisələrə münasibətiniz necədir?**

**İkinci sualım daha mürəkkəbdir. Dağlıq Qarabağ məsələsi ilə bağlı Sizin hökumətiniz nə dərəcədə güzəştə gedə bilər?**

**C a v a b:** Bəli, mətbuat azadlığı ilə bağlı ölkədəki şərait müsbətdir. Bir neçə il bundan əvvəl mətbuatda senzura aradan qaldırıldı. Yeri gəlmişkən, senzuranı bu gün müxalifətdəki qüvvələr vaxtilə hakimiyyətdə olanda tətbiq etmişdilər. Bu gün bizim ölkədə 300-400 qəzet var ki, onların çoxu müstəqildir. Hər bir siyasi partiyanın öz qəzeti var. Odur ki, məhdudiyyət yoxdur, nəşriyyat azadlığı var. Azərbaycanda bütün digər azadlıqlar mövcuddur.

Müxalifətlə münasibətlərə gəldikdə, mən şəxsən bir neçə dəfə, həm seçkilərdən əvvəl, həm də seçkilərdən sonra açıq bəyanat verərək müxalifəti dialoqa çağırmışam. Bu dialoq ölkənin gələcək inkişafı üçün vacibdir. Biz düşünürük ki, cəmiyyətin bütün siyasi spektri normal münasibətlər qurmalıdır. Ölkənin qarşısında olan problemləri masa arxasında, əlimizdə kağız, qələmlə müzakirə etməliyik. Seçkilərdən sonra baş verdiyi kimi, küçələrdə daş-kəsəklə yox. Təəssüflər olsun ki, mənim müraciətlərim cavabsız qaldı. Bu gün müxalifətin siyasi dialoqu istəməməsinə görə, bu, baş tutmur.

Amma eyni zamanda, sizin diqqətinizi bir məsələyə də cəlb edirəm. Bugünkü Azərbaycan cəmiyyəti siyasiləşməyibdir. Azərbaycan əhalisinin yalnız 3–4 faizi siyasi partiya üzvüdür. Ona görə də bizim cəmiyyətin qarşısında duran məsələlər, gündəlikdə olan suallar tam fərqlidir: həyat şəraitini necə yaxşılaşdırmaq, yeni iş yerlərini necə açmaq, cəmiyyəti necə demokratikləşdirmək, işsizliyə, müxtəlif sosial problemlərə üstün gəlməkdən ötrü hansı səmərəli yollardan istifadə etmək. Cəmiyyəti düşündürən mövzular bunlardır.

Cəmiyyətin siyasi komponenti çox güclü deyil və bu gün cəmiyyətdə ayrı-seçkilik də yoxdur. Çünki əhalinin təxminən 97 faizi heç bir partiyaya məxsus deyil və insanları düşündürən digər məsələlər var.

Seçkilərdən sonrakı qanun pozuntuları böyük biabırçılıqdır. Çünki seçkilərin nəticələri rəsmi elan olunmamışdan əvvəl, bir qrup adam əllərində daş və metal parçaları ilə gözlərinin önündə olan hər bir şeyi sındırıb-dağıtmağa başladı və bu, lentə alınıb, beynəlxalq kanallar daxil olmaqla, müxtəlif televiziya kanalları vasitəsilə göstərilmişdir. Hamı polisin hücuma necə məruz qaldığını, müxalifət nümayəndələrinin böyük yük maşınını polisin üzərinə necə sürdüyünü gördü. İnsanların döyülməsi, daşa basılması ekranlarda görünürdü. Hər dövlətin özünü müdafiəetmə haqqı var və Azərbaycan polisi yerinə yetirməli olduğu işi gördü. Azğınlığın qarşısını aldı və xaosa son qoydu. Amma bir daha deyirəm, cəmiyyətin bütün siyasi spektri ünsiyyətə başlasa, bu, ölkənin xeyrinə olar.

Mən Dağlıq Qarabağla bağlı ölkəmizin mövqeyini bildirdim. Bizim rəsmi mövqeyimiz dəyişməzdir. Biz ərazi bütövlüyümüzü güzəştə getməyəcəyik, Azərbaycanın suverenliyinə güzəşt yoxdur. Dağlıq Qarabağ heç zaman müstəqil qurum olmayacaq və yaxud, ermənilərin istədiyi kimi, heç zaman Ermənistana qatılmayacaqdır. Bu məsələdə güzəşt ola bilməz. Bundan əlavə, Azərbaycan özünə məxsus olmayan heç nəyə yiyələnmək fikrində deyildir. Biz Ermənistana məxsus olan nəyisə istəmirik ki, nəyisə güzəştə gedək. Biz bu məsələdə tərəzinin eyni gözündə deyilik. Biz təcavüzün qurbanlarıyıq. Ermənistan təcavüzkardır. Ona görə də güzəştdən yox, qanunun bərpa olunmasından və Ermənistan ordusunun Azərbaycan ərazilərindən tam çıxarılmasından danışmalıyıq.

**S u a l: Azərbaycan bildirmişdir ki, Kiprin birləşməsi məsələsi baş tutmasa, onda Şimali Kipr Türk Cümhuriyyətini tanıyacaqdır. Beləliklə, birləşmə alınmadı. Növbəti addım necə olacaqdır? Siz referendumdan əvvəlki mövqeyinizdə qalırsınızmı?**

**C a v a b:** Azərbaycanın məsələ ilə bağlı rəsmi mövqeyi bir neçə dəfə bəyan olunub və mənim şəxsi bəyanatım və ölkəmizin Xarici İşlər Nazirliyinin rəsmi bəyanatları da daxil olmaqla qəzetlərdə dərc edilmişdir. Budur, bizim rəsmi mövqeyimiz, prezidentin bildirdiyi mövqe. Daha hansısa mətbuat nümayəndəsinin şərh etdiyi mövqe yox. Bizim mövqeyimiz belə idi ki, referendumdan sonra bir tərəf «bəli», bir tərəf «xeyr» deyərsə, yeni beynəlxalq şərait yaranacaq və əlbəttə ki, Azərbaycan yaranmış yeni şəraitdə fəal iştirak edənlərin ilk sıralarında olacaqdır. Biz inanırıq ki, qadağalar aradan götürülməlidir, BMT və beynəlxalq ictimaiyyət Şimali Kiprlə münasibətlərində ciddi addımlar atmalıdır. Bu idi bizim rəsmi mövqeyimiz. Bu mövqe dəyişməyib, dəyişməz olaraq qalır. Sizə isə məsləhət görərdim ki, bizim rəsmi mövqeyimizi öyrənəsiniz, müxtəlif qəzetlərdə verilən şərhlər əsasında fikir yürütməyəsiniz.

**S u a l: Mən də Dağlıq Qarabağla bağlı sual vermək istəyirəm. Sizin ölkənin mövqeyini çox yaxşı anlayıram. Amma digər tərəfə qulaq asdıqda, onlar bu münaqişədən ağızdolu sözlərlə danışırlar. Bu, dünyanın çox mürəkkəb bir hissəsində – bəlkə də, Balkan yarımadası ilə müqayisə olunacaq qədər – baş verən münaqişədir. Dediyiniz kimi, beynəlxalq ictimaiyyət Dağlıq Qarabağla bağlı artıq on ildir ki, yerində sayır. Siz, əlbəttə ki, digər tərəfin razılığı ilə, Dağlıq Qarabağda müşahidəçi və yaxud da sülhməramlı missiyanın olmasına razılıq verərsinizmi? Məsələn, belə praktika dünyanın digər yerlərində məlumdur.**

**C a v a b:** Əlbəttə, hər bir tərəfin özünün dəlilləri var. Hər bir tərəf dəlillərini daha qabarıq təqdim etməyə çalışır. Amma bundan savayı, reallıqlar və faktlar da var. Xəritəyə baxsanız, görərsiniz ki, Dağlıq Qarabağ işğal olunub, Dağlıq Qarabağın inzibati sərhədlərindən kənarda olan və ermənilərin heç zaman yaşamadıqları ərazilər də işğal altındadır. Bütün bunlar Azərbaycanın əraziləridir, Azərbaycanın dövlət sərhədləri beynəlxalq səviyyədə tanınmışdır. Dağlıq Qarabağ qurum kimi tanınmır və Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktı şübhə doğurmur. Fərqi yoxdur, hansı dəlilləri gətirirlər, hansı təbliğatı aparırlar, yaxud da erməni rəsmiləri nə deyir.

İşğal faktı öz əksini BMT qətnamələrində tapıbdır. BMT-nin dörd qətnaməsi ermənilərin işğal olunmuş əraziləri qeyd-şərtsiz tərk etməsini tələb edir. Amma Ermənistan bu qətnamələrə məhəl qoymur. Azərbaycanın ərazi bütövlüyü ATƏT-in Lissabon sammitində də təsdiq olundu, orada ATƏT ölkələrindən yalnız biri Azərbaycanın ərazi bütövlüyünü tanımadı ki, o da Ermənistandır. ATƏT-in bütün digər üzvləri Azərbaycanın ərazi bütövlüyünü tanıdılar. Bu da o deməkdir ki, onlar Dağlıq Qarabağın Azərbaycana məxsus olmasını tanıyırlar. Bu faktdır. Fərqi yoxdur ermənilər nə deyirlər.

İlk növbədə, reallıqlar nəzərə alınmalıdır. Reallıq isə ondan ibarətdir ki, erməni yox, 1 milyon azərbaycanlı qaçqın və köçkün olubdur. Ermənistanın təcavüzünün nəticəsi kimi. Ona görə də ilk əvvəl Ermənistan işğal olunmuş əraziləri tərk etsin.

Ermənilərin tələbi isə Dağlıq Qarabağa öz müqəddəratını təyin etmək hüququnun verilməsidir. Mən bir neçə tədbirdə qeyd etmişəm ki, öz müqəddəratını təyin etmək hüququ çox mühüm hüquqdur. Amma ermənilər artıq bu hüquqlarından istifadə ediblər. Onların Ermənistan dövləti var və o dövlətin sərhədləri içərisində ermənilər öz müqəddəratlarını təyin ediblər. Təsəvvür edin ki, ermənilər yaşadıqları hər bir ərazidə öz müqəddəratlarını təyin etməyə başlasalar, nə olacaq? Dünyanın müxtəlif hissələrində – Birləşmiş Ştatlarda, Fransada, Gürcüstanda, digər ölkələrdə böyük erməni icmaları yaşayır. Harada yaşayırlarsa öz müqəddəratlarını təyin etməyə başlasalar, nə olacaq? Avropada azlıqlarla bağlı praktika var. Milli azlıqsansa, o demək deyil ki, muxtariyyət yaratmalı və yaxud da təcavüzkar separatizmlə məşğul olmalısan!

Bir çox ölkələrdə azərbaycanlılar azlıq təşkil edən icma şəklində yaşayırlar. Məsələn, qonşu ölkələrdə. Biz heç zaman muxtariyyət məsələsini qaldırmağı əsla düşünmürük. Avropada milli azlıqlar var, Belçikada da var və bu milli azlıqlar digər millətlərin nümayəndələri ilə normal münasibət qururlar. Bax, məsələ bu cürdür, həqiqət belədir. Təbliğatsız həqiqət.

Əlbəttə, biz anlayırıq ki, Ermənistan işğal olunmuş ərazilərdən qoşunlarını çəkəndən sonra Azərbaycan vətəndaşları olan ermənilər qorunmalıdırlar. Bununla bağlı narahatlığa dəyməz. Bu gün paytaxt şəhəri Bakı daxil olmaqla Azərbaycanın müxtəlif hissələrində minlərlə erməni yaşayır və onlar üçün heç bir problem törətmirlər. ATƏT-in müşahidəçi missiyası var. Daima gəlib müşahidə edirlər. Amma atəşkəsin ən böyük nailiyyəti odur ki, Ermənistanla Azərbaycan özləri atəşkəs rejimini qoruyub saxlayırlar. Bunun özü göstərir ki, bu sahədə xarici yardıma ehtiyac yoxdur.

**H a n s  M a r t e n s:** Yəqin mənə də bir sual verməyə imkan verərsiniz. Qeyd etdiniz ki, ölkənizdə əhalinin yalnız təxminən 3 faizi siyasi baxımdan mütəşəkkil formada siyasi fəaliyyətlə məşğuldur. Özlüyündə, bəlkə də, o demək deyil ki, bu, çox yaxşı haldır. Amma ölkənin keçid dövründə yaşamasını da, ərazilərinin işğal olunmasını da nəzərə almaq lazımdır. Bəlkə elə müxalifətin radikallaşmasının səbəbini də burada axtarmaq olar. Amma həqiqi iqtisadi inkişafı davam etdirməyə başlasanız, bəlkə də, əsas gündəlik məsələlər arxa plana keçər və insanlar daha mütəşəkkil formada siyasətlə məşğul olarlar.

Mənim fikrim belədir ki, inkişaf uğurla davam edərsə, möhkəm orta sinif yaranarsa, sistem özü yəqin ki, siyasi debatları tənzim edə bilər. Bəlkə də hansısa islahatlar lazım olar ki, müxtəlif siyasi baxışlar meydana gəlsin.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, yeni şərait yeni mühit tələb edəcəkdir. Amma bugünkü siyasi sistem, məncə, normal siyasi prosesi davam etdirməyə kifayətdir. Bizdə bütün siyasi qüvvələr üçün öz mövqelərini mətbuat vasitəsilə, televiziya, qəzetlər, parlament vasitəsilə ifadə etmək imkanı yaradılıb. Parlamentdə müxtəlif siyasi partiyaların nümayəndələri var. Başqa sözlə, əgər siyasi baxışlarını ifadə etməyi lazım bilirsənsə, küçələrə çıxmaq vacib deyildir. Amma razıyam, ölkə iqtisadi cəhətdən inkişaf etdikcə, orta sinif gücləndikcə, – yeri gəlmişkən bizim əsas məqsədlərimizdən biri də güclü orta sinif yaratmaqdır, – əlbəttə, siyasi prosesə maraq artacaq və mümkündür ki, həmin zaman üçün hansısa yeni islahatlar lazım olsun. Amma razılaşdığımız kimi, insanların bugünkü həyat tərzi siyasətdən uzaqdır.

**S u a l: Cənab Prezident, Acarıstan ilə bağlı son hadisələrlə əlaqədar şərh verə bilərsinizmi? Bu hadisələrin Xəzər neft və qazının Avropa bazarlarına daşınmasına təsiri olacaqmı?**

**C a v a b:** Bizim Gürcüstandan Türkiyəyə gedəcək neft və qaz kəmərlərimiz Acarıstanın inzibati sərhədlərindən keçmir. Ona görə də oradakı vəziyyət bu prosesə təsir edə bilməz. Bundan əlavə, hər bir ölkə – həm Azərbaycan, həm Gürcüstan, həm də Türkiyə boru kəmərinin təhlükəsizliyi ilə bağlı üzərinə müəyyən öhdəliklər götürübdür. Hər bir ölkə kəmərin öz ərazisindən keçən hissəsinə görə məsuliyyət daşıyır. İndiyədək nə Azərbaycanda, nə Gürcüstanda, nə də Türkiyədə problem olmayıbdır. Bununla bağlı əminik ki, hər üç ölkənin hökuməti öhdəliklərini yerinə yetirməkdə davam edəcəklər.

Əlbəttə ki, vəziyyətin sabitləşməsi regional inkişaf üçün olduqca vacib amildir. Gürcüstanla tarixən yaxşı əlaqələri olan ölkə kimi Azərbaycan üçün də vəziyyətin sabit olması mühümdür. Sovet dövründən əvvəl də, sovet dövründə də münasibətlərimiz yaxşı olubdur. Ən vacibi isə odur ki, müstəqillik qazandıqdan sonra ölkələrimiz strateji tərəfdaş olublar. Ona görə də Gürcüstanda vəziyyətin normallaşması, yəni hökumətin sabitləşməyə yönəlmiş siyasəti Azərbaycanda rəğbətlə qarşılanır.

Gürcüstan hökumətinə bu siyasətində uğur arzu edirik.

**S u a l: Cənab Prezident, Siz Avropa Birliyinin yeni qonşuluq siyasətinin adını çəkdiniz. Bu siyasət inkişaf etdirilir. Amma Sizin özünüzün baxışınız necədir? Siz Avropanın siyasətini necə görmək istəyirsiniz? Bu, azad ticarət formasında olmalıdır və yaxud hansısa başqa bir formaya üstünlük verirsiniz?**

**C a v a b:** İndidən demək çətindir, çünki yeni qonşuluq siyasəti təzəcə yaranıbdır. Görək necə inkişaf etdirilir, amma, əlbəttə ki, düşünürəm, ikitərəfli münasibətlərdə uğur vacibdir. Qeyd etdiyim kimi, Avropa Azərbaycan üçün vacibdir. Avropa Birliyinə inteqrasiya bizim məqsədimizdir və strateji siyasətimizdir. Eyni zamanda, Azərbaycan da Avropa üçün cəlbedici ölkədir. Burada artıq qeyd olunduğu kimi, təbii sərvətlər baxımından böyük potensiala malik olan ölkədir. Təbii sərvətlərin Avropa bazarlarına daşınması böyük əhəmiyyət kəsb edir.

Azərbaycan yolların kəsişdiyi nöqtədə yerləşir və coğrafi-siyasi baxımdan əhəmiyyət kəsb edən ölkədir. Avropa Birliyinin bəzi nəqliyyat təşəbbüsləri, TRASEKA proqramı Azərbaycanın fəal iştirakı ilə həyata keçirildi. Avropa Birliyinin digər layihələri də birlikdə həyata keçirilə bilər. Əlbəttə, gələcəkdə biz istərdik ki, vizalarla bağlı, ticarətlə bağlı, nəqliyyatla, enerji daşıyıcılarının nəqli ilə bağlı daha sərbəst münasibətlər olsun. Bu yeni siyasətin Azərbaycana aid bir çox elementləri ola bilər. Çünki, həqiqətən, uğurlu iqtisadi ikitərəfli əməkdaşlıq üçün böyük potensial mövcuddur.

**S u a l: Cənab Prezident, mən Sizin diqqətinizi digər bir tərəfə yönəltmək istərdim. İki sualım var. Birincisi, öz tədris sisteminizi Avropa Birliyi sistemi ilə uyğunlaşdırmaq planınız varmı və əgər varsa, yaxın gələcəkdə hansı addımları atacaqsınız?**

**İkincisi, vətəndaş cəmiyyətinə aid olan məsələlərdə Azərbaycan xalqı nə dərəcədə fəal iştirak edir?**

**C a v a b:** Azərbaycanın xoşbəxtliyi həm də ondadır ki, bizdə savadlılığın faizi çox yüksəkdir. Əhali təxminən 100 faiz savadlıdır və yeni gənc nəsil təhsil prosesində, bəlkə də, Sovet İttifaqı dövründəkindən daha fəal iştirak edir. Çünki sovet dövründə hər şeyə təminat verilirdi, işə təminat verilirdi, maaşa təminat verilirdi, hamı üçün bərabər olsa da, təmin olunurdu. Bugünkü şərait başqadır. Bu gün yaxşı iş istəyirsənsə, biliyin olmalıdır. Xoşbəxtlikdən, Azərbaycanın gənc vətəndaşları bunu yaxşı dərk edirlər. Bu gün Azərbaycan gəncləri hər yerdə – Avropada, Birləşmiş Ştatlarda təhsil alırlar. Azərbaycanda yeni, özəl universitetlər açılıb və bu da biliklərə olan böyük marağın nəticəsidir.

Hazırda bizim parlamentdə təhsillə bağlı müzakirələr gedir və düşünürəm ki, müzakirələrin nəticəsi kimi, təhsil standartları Avropadakına yaxınlaşdırılacaqdır. Bu baxımdan Avropa Birliyi ilə birgə işləmək üçün geniş imkan var. Biz birgə işləməyə qərarlıyıq.

İkinci sualınız vətəndaş cəmiyyəti ilə bağlı idi. Bizdə çoxlu qeyri-hökumət təşkilatları var. Onların fəaliyyətlərində, qeydiyyatlarında məhdudiyyət yoxdur. Azərbaycanda, bəlkə də, yüzlərlə qeyri-hökumət təşkilatı işləyir. Bu, bizim cəmiyyət üçün yeni elementdir. Sovet dövründə belə təcrübəmiz yox idi. Amma yeni şəraitə hamı uyğunlaşmalıdır. Vətəndaş cəmiyyəti inkişaf edir. Hökumət sivilizasiyalı cəmiyyətin, vətəndaş cəmiyyətinin inkişafında maraqlıdır.

**S u a l: Sizə Rusiya ilə bağlı sualım var. Rusiya ilə münasibətlərinizi necə qiymətləndirirsiniz?**

**C a v a b:** Rusiya ilə münasibətlərimiz çox yaxşıdır. Çox yaxşı siyasi dialoqumuz var. İqtisadi münasibətlər də yaxşıdır. Ticarət dövriyyəsi ilbəil artır. Keçmişdə olan bütün məsələləri həll etmişik. Xəzərin sektorlara bölünməsi məsələsini də, digər məsələləri də. Nefti boru kəməri vasitəsilə Rusiyaya göndəririk. Rusiyadan təbii qaz və elektrik enerjisi alırıq. İqtisadi münasibətlərimiz çox yaxşıdır və bu münasibətləri inkişaf etdirməkdə maraqlıyıq. Keçmişdə problemlərimiz olub, 1990-cı illərin əvvəllərində də problemlər olub. Amma indi bu problemlər mövcud deyildir. İndi Rusiya ilə heç bir problemimiz yoxdur, əksinə, siyasi səviyyədə yaxşı qarşılıqlı anlaşma var. İqtisadi əməkdaşlıq da yaxşı səviyyədədir.

**S u a l: İşğal olunmuş ərazilərdən Ermənistan ordusunun çıxarılması və qaçqınların qayıtması ilə bağlı Sizin bəyanatınıza Avropa Birliyinin münasibəti necədir? Yeni qonşuluq siyasəti ilə bağlı sizin ölkəyə müəyyən islahatlar keçirmək, müəyyən tədbirlər görmək üçün Avropa Birliyi tərəfindən maliyyə vəsaitinin ayrılması nəzərdə tutulurmu?**

**C a v a b:** Sağ olun. Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması ilə bağlı, əlbəttə, Avropa Birliyi mühüm rol oynaya bilər. Əlbəttə, hamımız anlayırıq ki, bu məsələ ilə bağlı mandat ATƏT-in Minsk qrupuna məxsusdur və Rusiya, Fransa və Birləşmiş Ştatlardan olan həmsədrlər öz vəzifələrini icra etməkdədirlər. Biz Minsk qrupu tərəfindən yeni ideyalar gözləyirik. Amma eyni zamanda, Avropa Birliyinin, digər beynəlxalq təşkilatların da fəal iştirak etməsini istəyirik.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Avropa Birliyi və yaxud da, hansısa başqa beynəlxalq təşkilat Minsk qrupunun əvəzinə işləməyəcəkdir. Burada anlaşılmazlıq yoxdur. Bizim istəyimiz yalnız daha geniş diqqətin, daha geniş beynəlxalq rəyin ayrılmasıdır. Yeni qonşuluq siyasətinə gəldikdə isə, dediyim kimi, bu, yeni təşəbbüsdür. Ona görə də ayrı-ayrı elementlərdən danışmaq çətindir. Amma gələcək görüşlərimizdə bu məsələləri müzakirə edəcəyik.

**H a n s M a r t e n s:** Çox sağ olun. Bu təqdimatdan sonra, ekspert olmasaq da, Azərbaycan haqqında bilgilərimiz bir az da artdı.

Cənab prezident, gözəl çıxışınıza görə Sizə hamının adından minnətdarlığımızı bildirirəm. Bugünkü çıxışınızla ölkənizi çox yaxşı reklam etdiniz, çox yaxşı tanıtdırdınız. İndi bizdə inam var ki, sizin ölkə tərəqqiyə doğru inkişaf edəcəkdir. Hamımız istərdik ki, bu dinamik inkişafı, inkişafda olan böyük potensialı yaxından izləyə bilək. Yaxşı olar ki, əldə olunmuş nəticələrlə bağlı bir neçə ildən sonra bir daha görüşək və bugünkü kimi söhbət edək. Ümid edirik ki, Siz bizə belə imkanı bir daha verəcəksiniz.

Mən Sizə təkcə çıxışınıza görə yox, həm də müzakirələrdə açıq, səmimi iştirakınıza görə minnətdarlığımı bildirirəm. Suallar müxtəlif səpkidə, çətin olsalar da, Siz onlara məharətlə cavab verdiniz və ölkənizin gələcəyi ilə bağlı qətiyyətiniz bizdə valehedici hisslər oyatdı. Gördüyünüz kimi, suallar həm təhsil, həm vətəndaş cəmiyyəti, həm Dağlıq Qarabağ münaqişəsi ilə bağlı idi. Bugünkü təqdimatda hörmətli prezidenti tam iti zehni, hazırcavablığı və parlaqlığı ilə görə bildik. Çox sağ olun ki, bizimlə görüşə gəldiniz və bununla bizə başucalığı gətirdiniz. Bizə verdiyiniz məsləhətlərə, təlimatlara görə, iştiraka görə Sizə bir daha təşəkkür edirəm. Bugünkü görüşə görə hamınıza minnətdaram. Uğur olsun.

**ALMANİYA FEDERATİV**
**RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HORST KÖLERƏ**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Almaniya münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2004-cü il*

**İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YORAN PERSSONA**

Hörmətli cənab Baş nazir!

İsveç Krallığının milli bayramı – İsveç bayrağı günü münasibətilə Sizi və bütün xalqınızı təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–İsveç əlaqələri xalqlarımızın rifahı naminə daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2004-cü il*

**İSVEÇİN KRALI ƏLAHƏZRƏT**
**XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveç Krallığının milli bayramı – İsveç bayrağı günü münasibətilə Sizi və Sizin simanızda bütün İsveç xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveç xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2004-cü il*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KARLO ADZELYO ÇAMPİYƏ**

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə sizi və sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə İtaliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ikitərəfli əlaqələrimizin bütün sahələrdə genişlənməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 may 2004-cü il*

## 28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*"Gülüstan" sarayı*

*27 may 2004-cü il*

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizi Azərbaycanın milli bayramı – istiqlaliyyət, Respublika günü münasibətilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, rifah arzulayıram.

1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini və onun qurucularının xidmətlərini çox yüksək qiymətləndirir.

Ancaq Xalq Cümhuriyyətinin ömrü uzun olmadı və təxminən iki ildən sonra gənc respublika süqut etdi. Yalnız 1991-ci ildə, Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. O illər ölkəmiz üçün çox çətin illər olmuşdur. Digər keçmiş sovet respublikaları ilə müqayisədə Azərbaycan daha çətin vəziyyətə düşmüşdü. Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, torpaqlarımızın işğal altına düşməsi, daxildə gedən mənfi proseslər ölkəmizi çox çətin vəziyyətdə qoymuşdu. Bununla yanaşı, səriştəsiz, bacarıqsız rəhbərliyin yarıtmaz fəaliyyəti nəticəsində ölkə böhran içində idi. İqtisadi, siyasi, hərbi böhran içində idi. Xaos, anarxiya, hərc-mərclik hökm sürürdü. Ümumiyyətlə, Azərbaycan müstəqil dövlət kimi dünya xəritəsindən silinə bilərdi.

Bu şəraitdə Azərbaycan xalqının tələbi, təkidi ilə xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdı. Bütün mənfi meyllərə son qoyuldu, ictimai–siyasi sabitlik yarandı, asayiş bərpa olundu, qeyri–qanuni silahlı birləşmələr tərksilah edildi, ölkədə qayda-qanun yaradıldı. Bütün bunları etmək üçün, əlbəttə ki, ilk növbədə, Heydər Əliyev iradəsi, cəsarəti lazım idi və Azərbaycan xalqının dəstəyi lazım idi. Azərbaycan xalqı öz liderinə inandı və xalqın dəstəyi ilə Azərbaycanda böyük quruculuq işləri başlandı.

İnkişafı təmin etmək üçün hər bir ölkədə, ilk növbədə, sabitlik, qanunun aliliyi olmalıdır, nizam-intizam olmalıdır. Bütün bu amillər Azərbaycanda bərqərar oldu və ölkəmiz inkişaf yoluna çıxdı. İqtisadi baxımdan ölkə çox sürətlə inkişaf etməyə başladı. İqtisadiyyatı xarakterizə edən ən mühüm amil – ümumi daxili məhsul son 7 ildə 90 faiz artmışdır. Ölkəyə böyük həcmdə sərmayələr qoyulmuşdur. Genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirildi və bu proses davam edir.

Ölkəmiz öz neft sərvətlərinin dünya bazarlarına çatdırılması üçün mühüm addımlar atmışdır. 10 il bundan əvvəl məhz bu «Gülüstan sarayında «Əsrin müqaviləsi» imzalandı, Heydər Əliyevin neft strategiyası başlandı. «Əsrin müqaviləsi»ndən sonra Azərbaycana böyük həcmdə xarici sərmayələrin qoyulması ölkəmizi hərtərəfli inkişaf etdirir. Bu gün qonşu ölkələrlə müqayisədə, keçmiş sovet respublikaları ilə müqayisədə adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan liderdir.

Bu layihələrdən sonra Azərbaycanın ölkəmiz üçün, region üçün önəmli digər layihələri həyata keçirilməyə başlandı. Bütün dünya üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə başlanmışdır. Heç kəs üçün sirr deyil ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşasının təşəbbüskarı və memarı xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Təsadüfi deyildir ki, Bakı–Tbilisi–Ceyhan şirkətinin üzvləri bu kəmərə Heydər Əliyevin adını vermişlər.

Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir. Bir vaxt ölkəmiz dünyada, bölgədə, regionda gedən bütün proseslərdən təcrid olunmuş vəziyyətdə idi. Azərbaycan müxtəlif ölkələrlə ikitərəfli əlaqələri qura bildi və beynəlxalq aləmin çox dəyərli üzvünə çevrildi. Ölkəmizin mövqeləri möhkəmləndi, Azərbaycan müxtəlif regional və beynəlxalq təşkilatların üzvü olmuşdur və onlarda çox fəal iştirak edir.

Ordu quruculuğunda böyük addımlar atıldı. 1993-cü ilə qədər orduda vəziyyət çox ağır idi, demək olar ki, Azərbaycanda ordu yox idi, ayrı-ayrı birləşmələr müstəqil şəkildə fəaliyyət göstərirdilər. Bu gün Azərbaycanın ordusu ən yüksək standartlara cavab verir, peşəkar orduya çevrilibdir və qarşıda duran vəzifələri həll etməyə qadir bir ordudur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində addımlar atılmışdır. Atəşkəs əldə olunmuşdur və bu, bizə imkan verdi ki, sakit şəraitdə ölkəmizi inkişaf etdirək.

Bir sözlə, bu 11 il ərzində Azərbaycanda görülən işlər, aparılan siyasət öz müsbət təsdiqini həyatda tapır. Azərbaycan xalqı bu siyasətə səs verir, bu siyasəti bəyənir. Bu siyasət bu gün də yaşayır, ölkəmizin xoşbəxt gələcəyi üçün bu siyasət Azərbaycanda uzun illər aparılmalıdır.

Prezident seçkilərindən yeddi ay keçir. Bu müddət ərzində biz qarşımızda duran bütün vəzifələri yerinə yetiririk. Seçkilər ərəfəsində verilən sözlər yerinə yetirilir. Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini daha da gücləndirir. Etdiyim xarici səfərlər, keçirdiyim ikitərəfli görüşlər çərçivəsində Azərbaycanın nüfuzu regionda, dünyada daha da möhkəmlənibdir. Xaricdə Azərbaycana olan rəğbət çox yüksək səviyyədədir. Azərbaycan, demək olar ki, dünyada böyük hörmətə malikdir. Regional məsələlərdə ölkəmiz liderliyi əldən vermir və bu liderlik gündən-günə möhkəmlənir. Azərbaycan bütün ölkələrlə faydalı, səmərəli, ikitərəfli əlaqələrin qurulmasına çalışır və demək olar ki, bütün ölkələrlə çox mehriban münasibətlər qura bilibdir.

Bizim beynəlxalq təşkilatlarla əməkdaşlığımız çox sürətlə inkişaf edir. Beynəlxalq təşkilatlara etdiyim səfərlər çox uğurlu olmuşdur. Avropa Şurasına, Avropa İttifaqına, NATO-ya etdiyim rəsmi səfərlər Azərbaycanın siyasətini bir daha təsdiqlədi. Azərbaycan öz gələcəyini dünya və Avropa strukturlarına inteqrasiyada görür. Bu, bizim strateji seçimimizdir və ona sadiqik. Sevindirici haldır ki, beynəlxalq təşkilatlarda Azərbaycana olan münasibət çox müsbətdir.

Azərbaycanda seçkilərdən sonra gedən proseslərə çox müsbət reaksiya vardır, görülən işlər təqdirlə qarşılanır. Əlbəttə ki, bu, bizim mövqelərimizi daha da möhkəmləndirir. Deyə bilərəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə beynəlxalq təşkilatların diqqəti artmışdır. Bu, bizi çox sevindirir. Biz əminik ki, yalnız və yalnız beynəlxalq ictimaiyyətin fəal iştirakı ilə bu münaqişə tezliklə öz həllini tapa bilər. Sevindirici haldır ki, uzun fasilədən sonra danışıqlar prosesi bərpa olundu və biz ümid edirik ki, danışıqlar yolu ilə sülh müqaviləsinə nail ola bilərik. Əlbəttə ki, bu müqavilə beynəlxalq hüquq normalarına əsaslanmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Mən ümid edirəm ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun və digər beynəlxalq təşkilatların iştirakı və fəaliyyəti ilə biz tezliklə bu məsələni həll edə bilərik.

Seçkilərdən keçən dövr ərzində iqtisadiyyatımız daha da güclənibdir. 2004-cü ilin birinci rübündə iqtisadiyyatda artım 10 faiz olmuşdur. Bu, onu göstərir ki, keçmişdə yaranmış meyllər davam edir, iqtisadi siyasətimiz çox uğurludur və bu siyasət öz bəhrəsini verməkdədir. İki proqram çərçivəsində – sosial-iqtisadi və regional inkişaf proqramları çərçivəsində böyük işlər görülür. Xüsusilə bölgələrdə yeni iş yerlərinin açılması istiqamətində atılan addımlar öz ilkin nəticələrini verməkdədir və deyə bilərəm ki, son aylar ərzində 30 minə yaxın yeni iş yeri açılmışdır. Bu meyllər davam edəcək və mən şübhə etmirəm ki, qarşımızda duran bu böyük vəzifə öz həllini tapacaq, biz Azərbaycanda işsizliyi, yoxsulluğu aradan qaldıracağıq.

Sosial məsələlərin həllində mühüm addımlar atılır, böyük proqramlar həyata keçirilir. Ən çətin vəziyyətdə yaşayan, sosial cəhətdən ən az müdafiə olunan qaçqınlar, köçkünlər üçün nəzərdə tutulmuş yeni layihələr həyata keçirilir. Bu proqram davam etdiriləcək və mən dediyim kimi, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Çadır şəhərciklərində yaşayan soydaşlarımız yeni evlərlə təmin olunacaqdır. Bu istiqamətdə işlər gedir, müvafiq fərmanlar da imzalanıbdır.

Ordu quruculuğunda işlər uğurla davam edir, ordumuz güclənir, bu sahəyə xüsusi diqqət var. Ümumiyyətlə, cəmiyyətdə bu sahəyə böyük diqqət olmalıdır, insanlarımız, gənc nəslimiz vətənpərvərlik ruhunda tərbiyə edilməli, böyüməlidir. Hər bir vətəndaş çalışmalıdır ki, orduya kömək etsin, orduya öz dəstəyini versin.

Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisələr baş vermişdir. Seçkilərdən sonra Azərbaycanda sabitlik pozulmadı, sabitlik qorundu. Sabitliyi pozmaq istəyən qüvvələr öz layiqli cavabını aldılar. Azərbaycan dövləti öz dövlətçiliyini qorumağa qadirdir. Biz insanlarımızın rahat şəraitdə yaşamaq haqqını müdafiə edirik, bundan sonra da edəcəyik. Hər bir qeyri-qanuni hərəkət öz layiqli cavabını alacaqdır. Azərbaycanda qayda-qanun var və hər bir vətəndaş qanunlara tabe olmalıdır. Azərbaycanda sabitliyin qorunması gələcək inkişafımız üçün ən önəmli şərtlərdən biridir.

Ölkəmizin mədəni həyatında, ictimai həyatında mühüm, gələcəyə yönəlmiş addımlar atılır. Bilirsiniz ki, kitabların latın əlifbası ilə nəşri üçün tədbirlər görülür. Azərbaycan Milli Ensiklopediyasının hazırlanması və nəşri haqqında qərarlar verilibdir. Bu, bizim tariximiz üçün, gələcək üçün çox mühüm, önəmli addımlardır.

Bir sözlə, ölkəmiz inkişaf edir. Heydər Əliyevin siyasəti yaşayır və həyata keçirilir. Çox sevindirici haldır ki, bütün görülən işlər xalq tərəfindən böyük rəğbətlə qarşılanır, dəstəklənir. Mən bu dəstəyi hiss edirəm və bu dəstəyə arxalanıram, ümid edirəm ki, hər bir vətəndaş əlindən gələni edəcək ki, ölkəmiz daha da güclənsin, möhkəmlənsin.

Əziz dostlar, sizi bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan möhkəmlənəcək, öz dövlət müstəqilliyini gücləndirəcək və müstəqilliyimiz əbədi, dönməz olacaqdır. Sağ olun.

**TÜRKİYƏ –AZƏRBAYCAN**
**DƏRNƏKLƏRİ FEDERASİYASININ**
**TƏSİS KONFRANSININ İŞTİRAKÇILARINA**

Əziz həmvətənlər! Hörmətli soydaşlar!

Sizi – Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının təsis konfransının iştirakçıları və qonaqlarını səmimiyyətlə salamlayır, toplantının işinə uğurlar diləyirəm.

Hazırda dünya azərbaycanlılarının birlik və həmrəyliyinin möhkəmləndirilməsində, onların azərbaycançılıq ideyaları, Azərbaycan dövləti ətrafında sıx birləşməsi işində mühüm bir mərhələ yaşanmaqdadır. Bu işdə müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli liderimiz Heydər Əliyevin tarixi rolu xüsusi qeyd olunmalıdır. Onun rəhbərliyi ilə keçən illərdə dünya azərbaycanlılarının yüksək səviyyədə təşkilatlanması, bir-biri ilə və tarixi vətənlə əlaqələrinin möhkəmlənməsi, yaşadıqları ölkələrin siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak etməsi üçün mühüm işlər görülmüşdür. Dövlət başçısı kimi xarici ölkələrə səfərləri zamanı Heydər Əliyev mütəmadi olaraq azərbaycanlı icmaları ilə görüşlər keçirir, diaspor təşkilatlarının qurulmasına kömək göstərir, fəaliyyəti üçün dəyərli tövsiyələr verirdi. 2001-ci ildə dünya azərbaycanlılarının I qurultayının keçirilməsi, daha sonra Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması soydaşlarımızla işə güclü təkan oldu.

Ümummilli liderimizin əsasını qoyduğu böyük iş bu gün inamla davam etdirilir. Dövlətimiz xaricdəki azərbaycanlı icmalarının təşkilatlanması, onların birliyinin təmin edilməsi, doğma vətənlə əlaqələrinin möhkəmləndirilməsi, güclü Azərbaycan lobbisinin formalaşdırılması, azərbaycanlıların beynəlxalq hüquq və konvensiyalarla təsbit olunmuş milli və vətəndaş haqlarının təmin olunması üçün zəruri tədbirlər görür və bu iş bundan sonra da davam etdiriləcəkdir. Eyni zamanda xaricdəki azərbaycanlılar da mühüm ictimai amilə çevrilərək yaşadıqları ölkələrin siyasi, iqtisadi, ictimai və mədəni həyatında fəal iştirak etməlidirlər. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlı icma və cəmiyyətləri ümummilli məsələlərdə razılaşdırılmış mövqe nümayiş etdirməli, Azərbaycanın xeyrinə səmərəli və davamlı lobbiçilik fəaliyyətini genişləndirməlidir.

Azərbaycanlılar həmişə Türkiyənin siyasi və mədəni həyatında fəallığı ilə seçilmiş, bütün sahələrdə yüksək səviyyədə təmsil olunmuş, cəmiyyətə sıx inteqrasiya olunmuşlar. Dost və qardaş Azərbaycan və Türkiyə dövlətlərini və xalqlarını bütün sahələrdə eyni məqsədlər, ortaq mövqe birləşdirir. Strateji məqsədlərin ümumiliyi, eyni mədəni-mənəvi dəyərlər, üst-üstə düşən milli maraqlar bütün sahələrdə səmərəli əməkdaşlıq üçün gözəl zəmin yaradır. Bu mənada qardaş Türkiyədə yaşayan azərbaycanlıların, onların icma və cəmiyyətlərinin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan və türk xalqlarını bir-birindən heç vaxt ayırmayan, «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir», «bir millət, iki dövlət» söyləyən böyük öndərlər – Mustafa Kamal Atatürk və Heydər Əliyev hər iki xalq üçün vahid fəaliyyət istiqaməti müəyyən etmişlər. Türkiyə və Azərbaycan arasında rəsmi və ictimai əlaqələrin genişlənməsində, hər iki dövləti təmsil edən qeyri-hökumət təşkilatlarının fəaliyyətinin gücləndirilməsində həm Azərbaycanın, həm də Türkiyə dövlətinin rəhbərləri xüsusi rol oynamışlar.

Bu gün təsis konfransına toplanmış Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasını qarşıda məsul və şərəfli işlər gözləyir. Bu ölkədə fəaliyyət göstərən azərbaycanlı təşkilatlarının zəngin ictimai-siyasi təcrübəsi vardır. Onlar iki xalqın birliyi üçün çox iş görmüşlər. Lakin qarşıda bu icmaları daha böyük işlər gözləyir. Azərbaycanlı cəmiyyətləri bundan sonra da iki qardaş xalqın daha da yaxınlaşması işinə fəal kömək göstərməli, Türkiyə də Azərbaycanı layiqincə təmsil və təbliğ etməli, ictimai, humanitar və elmi-mədəni əlaqələri inkişaf etdirməlidirlər. Bu sahədə onların istifadə olunmamış imkanları və geniş potensialı vardır.

Türk və azərbaycanlı icmaları Avropa və Amerikada öz fəaliyyətlərini əlaqələndirməli, ortaq mövqedən çıxış etməlidirlər. Ayrıca qeyd etməliyəm ki, Türkiyəni təmsil edən təşkilatlar hər zaman və hər yerdə Azərbaycanın maraqlarını fəal müdafiə etmiş, onun təəssübünü çəkmiş, müxtəlif bədxah niyyətlərin qarşısının alınmasında mühüm rol oynamışlar. Heç şübhə etmirəm ki, bu fəaliyyət bundan sonra da davam etdiriləcəkdir.

Konfrans iştirakçılarını və qonaqları bir daha salamlayır, onun qəbul edəcəyi qərarların, qarşısına qoyduğu nəcib məqsədlərin həyata keçirilməsində uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 may 2004-cü il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin şimalında baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 may 2004-cü il*

## «XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI – 2004» XI BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*Heydər Əliyev adına Bakı İdman-Konsert Kompleksi*

*1 iyun 2004-cü il*

Hörmətli xanımlar və cənablar!
Əziz qonaqlar!

Mən sizi «Xəzər neft, qaz, neftayırma və neft kimyası-2004» XI beynəlxalq sərgi və konfransının açılışı münasibətilə ürəkdən təbrik edirəm. Konfransa uğurlar arzulayıram.

1994-cü ildə Azərbaycanda ilk sərgi keçirilmişdir. Mən o günləri çox yaxşı xatırlayıram. Xatırlayıram ki, o vaxt bu sərginin keçirilməsi bəzilərində şübhə doğururdu, bəziləri buna təəccüb edirdilər, çünki o zaman Azərbaycan çox çətin vəziyyətdə yaşayırdı. Ölkədə vəziyyət çox ağır idi. Ermənistan–Azərbaycan müharibəsi təzəcə dayanmışdı, atəşkəs sazişi təzə bağlanmışdı. Əlbəttə, belə bir şəraitdə sərginin keçirilməsi çox fövqəladə bir hal idi. Ölkə ağır günlər yaşayırdı. Azərbaycanda iqtisadi böhran hökm sürürdü.

Ümumiyyətlə, o vaxt Azərbaycan dünyada çox riskli bir ölkə kimi tanınırdı. Ancaq sərginin təşkilatçılarının səyləri nəticəsində və prezident Heydər Əliyevin dəstəyi ilə həmin sərgi baş tutdu və xatırlayıram ki, çox uğurlu keçdi. Azərbaycana gəlmiş xarici şirkətlər ölkəmizə olan maraqlarını burada ifadə etdilər, Azərbaycana öz inamlarını bildirdilər və beləliklə, Azərbaycanda böyük neft şirkətlərinin iştirakı ilə beynəlxalq bir tədbir keçirildi.

Ümumiyyətlə, 1994-cü il Azərbaycanın tarixində xüsusi yer tutur. Məhz 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandı və bu müqavilə ilə Azərbaycanın yeni neft strategiyası başlandı. Heydər Əliyevin neft strategiyası artıq 10 ildən artıqdır ki, həyata keçirilir və Azərbaycana böyük uğurlar gətirmişdir. Bu illər ərzində Azərbaycana, ölkəmizin neft sənayesinə böyük həcmdə sərmayələr qoyulmuşdur. Tanınmış neft şirkətləri Azərbaycana gəlmişdir və ölkəmizlə çox uğurlu işbirliyi, əməkdaşlıq qurmuşdur. Deyə bilərəm ki, 1994-cü ildə başlanan işlər Azərbaycanın gələcəyi üçün həlledici xarakter daşıyırdı.

«Əsrin müqaviləsi»ndən sonra 20-dən artıq neft müqaviləsi imzalandı. Bu müqavilələrin çərçivəsində təxminən 60 milyard dollar sərmayə gözlənilir . Neft sənayesinə qoyulan sərmayələr, təbii ki, ümumiyyətlə, iqtisadiyyatımıza təkan verəcəkdir. Sizə deyə bilərəm ki, son 7–8 il ərzində Azərbaycana qoyulan sərmayələrin həcmi 17 milyard dollar təşkil edir. Bunlardan 12 milyardı birbaşa xarici sərmayədir. Bu, onu göstərir ki, Azərbaycana böyük inam var, Azərbaycan çox etibarlı tərəfdaşdır. Əgər belə olmasaydı, əlbəttə, xarici şirkətlər Azərbaycana bu qədər sərmayə qoymazdılar. Onu da deməliyəm ki, qonşu ölkələrlə müqayisədə, keçmiş sovet respublikaları ilə, eyni zamanda, bəzi Şərqi Avropa dövlətləri ilə müqayisədə adambaşına düşən xarici sərmayəyə görə Azərbaycan liderdir və uzun illərdir bu liderliyi saxlayır.

Əgər Azərbaycanda ictimai-siyasi sabitlik, asayiş bərpa edilməsəydi, əlbəttə, xarici sərmayənin bu səviyyədə gətirilməsi mümkün olmazdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti, səyi nəticəsində Azərbaycan çox qısa müddət ərzində böyük addımlar atıbdır. Neft sektoru inkişaf edir, iqtisadiyyatımızın digər sektorları inkişafdadır. Bu, onu göstərir ki, Azərbaycan düz yoldadır.

Azərbaycanda çox gözəl sərmayə mühiti var. Bizim xarici dostlarımız, tərəfdaşlarımız əmindirlər ki, onların sərmayələri lazımi səviyyədə qorunur. Artıq hamıya bəllidir ki, hər bir neft müqaviləsi imzalanandan sonra Milli Məclis tərəfindən təsdiq edilir və beləliklə, qanun kimi qüvvəyə minir və bu qanunu heç kəs dəyişə bilməz. Sevindirici haldır ki, bu on il ərzində Azərbaycanla neft şirkətləri arasında mübahisə doğuran heç bir məsələ ortaya çıxmadı. Biz həmişə çox mehriban şəraitdə işləyirik, əməkdaşlıq edirik və ölkəmizdə fəaliyyət göstərən xarici neft şirkətləri, burada yaşayan xarici mütəxəssislər Azərbaycan cəmiyyətinin üzvləri olmuşlar və bilirəm ki, özlərini Azərbaycanda çox rahat hiss edirlər.

Məqsədimiz Azərbaycanı hərtərəfli inkişaf etdirməkdir. Neft amilindən istifadə edib iqtisadiyyatımızı şaxələndirmək, yeni iş yerləri yaratmaqdır. Neft sektorunda, xüsusilə xarici neft şirkətlərinin fəaliyyəti nəticəsində Azərbaycanda minlərlə, on minlərlə yeni iş yerləri açılmışdır. Bu sektorda fəaliyyət göstərən bizim vətəndaşlarımız çox yüksək maaş alırlar və onların şəraiti çox yaxşıdır. İndi bu amildən istifadə etməliyik ki, Azərbaycanda iqtisadiyyatın digər sektorları da irəliləsin, ölkəmiz hərtərəfli inkişaf etsin. Bu məqsədlə xüsusi proqramlar qəbul edilib və artıq həyata keçirilir. Ümid edirəm ki, bu proqramlar öz nəticələrini verəcəkdir.

Çox böyük məmnunluq hissi ilə deyə bilərəm ki, son 7 ay ərzində, prezident seçkilərindən sonra Azərbaycanda 30 minə yaxın yeni iş yeri açılıbdır. Bu, bir daha onu göstərir ki, seçkilərdən əvvəl verilən sözlər həqiqətə uyğundur və həyatda öz təsdiqini tapır.

Azərbaycanın neft sektoru inkişaf edir. Deyə bilərəm ki, 1990-cı illərdə ən mürəkkəb məsələlərdən biri Xəzər dənizinin hüquqi statusu məsələsi idi. Bu məsələ ilə bağlı çoxlu mübahisələr, müəyyən gərginlik var idi. Amma onu da deyə bilərəm ki, Heydər Əliyev diplomatiyası nəticəsində bu məsələ də öz həllini tapır. Bu məsələnin həlli istiqamətində çox önəmli addımlar atılmışdır və artıq Azərbaycan Rusiya və Qazaxıstanla Xəzər dənizinin hüquqi statusu haqqında sazişlər imzalamışdır. Bu, onu göstərir ki, hətta belə çətin beynəlxalq məsələlərdə də ortaq məxrəcə gəlmək mümkündür və hər bir tərəfi qane edən qərar tapılmışdır. Mən ümid edirəm ki, yaxın zamanlarda Xəzər dənizinin statusu məsələsi nəhayət ki, bütövlükdə öz həllini tapa bilər.

Azərbaycanın gələcək perspektivləri çox gözəldir. Qarşımızda duran bütün planları həyata keçirmək üçün, əlbəttə, güclü iqtisadiyyatımızın olması lazımdır. Təbii ki, iqtisadiyyatımızın əsas sektoru olan neft sektoru burada önəmli, deyə bilərəm, həlledici rol oynayır. Biz artıq işlərin ilkin mərhələsini görmüşük. Azərbaycana böyük həcmdə sərmayə gətirilibdir. Azərbaycanın neft sektoru çox sürətlə inkişaf edir, yeni infrastruktur yaradılır.

Bu illər ərzində Azərbaycanda dörd qazma qurğusu tikilib istifadəyə verilibdir: «Dədə Qorqud», «İstiqlal», «Qurtuluş» və ən nəhəng qazma qurğusu, Xəzər dənizinin ən dərin sularında işləyə bilən «Heydər Əliyev» qazma qurğusu. Bu, bizim infrastrukturumuzu çox gücləndirir. Amma eyni zamanda, gələcək mərhələ ondan ibarət olacaq ki, neftdən əldə olunan gəlirlər səmərəli işləsin. Biz onlardan səmərəli istifadə edək. Məhz bu məqsədlə Azərbaycanda Neft Fondu yaradılmışdır. Neft Fondu çox şəffaf bir qurumdur, onun fəaliyyəti beynəlxalq maliyyə təsisatları tərəfindən dəstəklənir. Mütəmadi qaydada beynəlxalq audit keçirilir və Neft Fondunun gəlirləri və xərcləri haqqında mətbuatda vaxtaşırı məlumat dərc edilir.

Şəffaflıq bizim uğurumuzun əsas səbəblərindən biri olacaqdır. Bilirsiniz ki, Azərbaycan Beynəlxalq Şəffaflıq Təşəbbüsünə qoşulmuşdur. Artıq bir ildən çoxdur ki, bu məsələ ilə ciddi məşğuluq və Böyük Britaniya Baş nazirinin təşəbbüsünü dəstəkləyirik. Deyə bilərəm ki, bölgədə Azərbaycan, bəlkə də, yeganə ölkədir ki, bu təşəbbüsdə çox fəal iştirak edir. Bu, bizə imkan verəcək ki, gələcəkdə neftdən əldə olunan gəlirlər səmərəli işləsin və hər bir Azərbaycan vətəndaşı bunu öz gündəlik həyatında hiss etsin.

Doğrudur, neftdən əldə olunan gəlirlər artıq həyatımıza öz təsirini göstərir. Sizə deyə bilərəm ki, keçən il ümummilli liderimiz Heydər Əliyevin fərmanları ilə əmək– haqları, pensiyalar məhz Neft Fondunun vəsaiti hesabına artırılmışdır. Bu o deməkdir ki, neftdən əldə olunan gəlirlər artıq insanlarımızın gündəlik həyatında öz əksini tapır. Gələcəkdə, əlbəttə, gəlirlərimiz artdıqca, bizim daha çox imkanlarımız olacaqdır ki, insanlarımız daha da yaxşı yaşasınlar.

Heydər Əliyevin neft strategiyasının ən önəmli istiqamətlərindən biri də neft kəmərlərinin tikilməsi və Azərbaycan neftinin dünya bazarlarına çatdırılmasıdır. Hazırda Azərbaycan neftini nəql edən iki neft kəməri fəaliyyətdədir və bu, bizə imkan verir ki, öz neftimizi çox səmərəli şəkildə dünya bazarlarına çatdıraq.

Bilirsiniz ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri inşası çox uğurla gedir və ümid edirik ki, gələn ilin əvvəllərində istismara veriləcəkdir. Bu da Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, Bakı–Tbilisi–Ceyhan şirkətinin üzvləri bu kəmərə Heydər Əliyevin adını vermişlər və Türkiyədə yaşayan qardaşlarımız, dostlarımız, Türkiyə hökuməti Ceyhan terminalına Heydər Əliyevin adını vermişlər. Həqiqətən, Heydər Əliyev Bakı–Tbilisi–Ceyhan neft kəmərinin memarıdır.

Bakı–Tbilisi–Ceyhan haqqında çoxlu sözlər deyilibdir. Mən onları təkrarlamaq istəmirəm. Bircə onu demək istəyirəm ki, bu, Azərbaycanın gələcəyini çox böyük dərəcədə müəyyən edəcək bir layihədir. Azərbaycana, bölgəyə sülh, əmin-amanlıq gətirə biləcək bir layihədir. Regionda gedən əməkdaşlığı gücləndirən bir layihədir. Ümid edirəm və əminəm ki, bu layihə həyata keçiriləndən sonra bölgəmiz dəyişəcək, nəhayət, sülh, əmin-amanlıq gələcəkdir. Əlbəttə, Azərbaycan bu kəmərdən istifadə edib öz neftini dünya bazarlarına çatdırandan sonra ölkəmiz daha da inkişaf edəcək, insanlarımız daha da yaxşı yaşayacaq, iqtisadiyyatımız güclənəcəkdir.

Güclü iqtisadiyyat ən önəmli şərtdir. Azərbaycanda bütün məsələləri həll etmək üçün, ilk növbədə, iqtisadiyyat güclü olmalıdır. Sosial məsələlər öz həllini tapır. Neft Fondundan ayrılan vəsaitlər, ilk növbədə, ən çətin vəziyyətdə yaşayan qaçqınlar, köçkünlər üçün sərf edilir. Ümid edirəm ki, bu məsələ öz həllini tapacaqdır. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. Ancaq bu, bütün beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olmalıdır.

«Şahdəniz» layihəsi Azərbaycana yeni uğurlar gətirəcəkdir. Artıq Azərbaycan qazının Avropaya, Türkiyəyə çatdırılması istiqamətində böyük işlər görülür. Ümid edirəm ki, bu layihə də öz gözəl nəticəsini verəcək və Azərbaycan qazı yaxın zamanlarda Türkiyəyə, oradan isə Avropaya göndəriləcəkdir. Azərbaycan Avropa istehlakçıları üçün çox etibarlı bir mənbə olacaqdır.

Əziz dostlar!

Bir sözlə, Azərbaycanda son on il ərzində görülən bütün işlər çox uğurludur. O cümlədən neft-qaz sektorunda. Bu, bir daha göstərir ki, 1994-cü ildə atılan addımlar düzgün addımlar idi. Bu, Heydər Əliyevin neft strategiyasının, neft diplomatiyasının təntənəsidir. Mən ümid edirəm ki, biz bu siyasəti davam etdirdikcə yeni nailiyyətlərə çatacağıq, ölkəmizi gücləndirəcək, hərtərəfli inkişaf etdirəcəyik.

Sizi bu sərgi və konfransın açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, uğurlar arzulayıram. Sağ olun!

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ EHTİYATLARI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR STİVEN MƏNN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*1 iyun 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli səfir, Azərbaycana xoş gəlmisiniz. Bu gün öz işinə başlayan XI benalxalq teft-qaz sərgisi fəaliyyətə başlamışdır. Adətən, ənənəvi keçirilən tədbirlərə maraq tədricən azalır. Lakin bu sərgi-konfransa olan maraq ildən-ilə artır. Əlbəttə, bu, həm də Azərbaycanda həyata keçirilən çox mühüm və irimiqyaslı layihilərdə əlaqədardır. Azərbaycan xarici şirkətlər, sərmayəçilər, xidmət sahəsində fəaliyyət göstərən firmalar üçün cəlbedici ölkə olaraq qalır.

İlk növbədə, səmimi məktuba görə ABŞ prezidentinə mənim təşəkkürümü çatdırmağı xahiş edirəm. Siz bu məktubu bu gün səhər təqdim etdiniz. Bu, çox mühümdür və əlaqələrimizin inkişafına güclü bir təkandır. Mən bundan çox məmnunam. Əminəmki, bizim enerji və digər sahələrdə əməkdaşlığımız gələcəkdə uğurla davam etdiriləcəkdir.

**S t i v e n M ə n n:** Səmimi sözlərə görə Sizə təşəkkürümü bildirirəm. Sərgi-konfransı tədbir kimi dəyərləndirir və burada burada sizin ölkənin 11 il ərzində əldə etdiyi naliyyətlər bir daha nümaiş etdirildi. Prezident Corc Buş məktubunda neft və qaz sərgisi münasibətiilə öz təbriklərini və Sizə şəxsi salamlarını ifadə etmişdir. Mənim ölkəm Azərbaycanla enerji sahəsində tərəfdaşlıqdan çox məmnundur və biz bu yolda çox böyük uğurlar qazanmışıq. Gələn il Bakı–Tiblisi–Ceyhan neft kəməri işə düşəcəkdir. Bugünki tədbir aydın şəkildə göstərir ki, Azərbaycan neft şirkətləri və digər sərmayəçilər üçün çox cəlbedici ölkədir. Ölkəmizin - buradakı səfiri Rino Harnişlə və ABŞ şirkətləri ilə əmkdaşlıq yüksək səviyyədədir.

**İ l h a m Ə l i y e v:** Neft və qaz layihələri sahəsində əldə olunan uğurlar Azərbaycan və ABŞ-ın bircə naliyyətidir. Bakı–Tiblisi–Ceyhan və digər layihələrin uğurla həyata keçirilməsi Birləşmiş Ştatların güclü dəstəyi sayəsində mümkün olmuşdur və Siz, cənab səfir, bu uğurlara öz töhvənizi vermisiniz. Mən sizin bu istiqamətdə göstərdiyiniz səylərin şahidiyəm və əminəm ki, bu uğurlarımız gələcəkdə də davam edəcəkdir.

Siz cənab Stiven Mənn, daha bir mühüm missiyanı yerinə yetirirsiniz. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrisiniz. Əminəm ki, ölkəmiz üçün ən ağırlı problemin aradan qaldırılmasında səylərinizi əsirgəməyəcəksiniz.

Biz münaqişənin sülh yolu ilə həlli məsələsini dəstəkləyəcəyik və bu beynalxalq hüquq normaları əsasında olmalıdır.

## BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN BİZNES İMKANLARININ İNKİŞAFI ÜZRƏ XÜSUSİ TƏMSİLÇİSİ BRAYN UİLSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*1 iyun 2004-cü il*

**İlham Əliyev:** Hörmətli dostlar və qonaqlar Azərbaycana xoş gəlmişsiniz.

Cənab Brayn Uilsonla əvvəllər keçirdiyim görüşləri məmnunluqla xatırlayıram. Sizin başçılıq etdiyiniz nümayəndə heyətinin indiki sərgi-konfransında iştirakını yüksək dəyərləndirirəm.

Britaniya Baş nazirinin mənə göndərdiyi məktubdan məmnunluğumu bildirirəm. Xahiş edirəm, ünvanıma göndərdiyi məktuba görə cənab Toni Bleyrə mənim təşəkkürümü çatdırın. Bu məktubda Azərbaycan hasilat sənayelərinin şəffaflığı təşəbbüsündə fəal iştirakı yüksək qiymətləndirilmişdir.

Deməliyəm ki, neft və qaz layihələrinin həyata keçirilməsində hər il yeni-yeni uğurlar əldə olunur. Böyuk Britaniyanın BP şirkətinin aparıcı rol oynadığı Bakı-Tiblisi-Ceyhan kəmərinin tikintisi uğurla həyata keçirilir və ümüd edirik ki, gələn il başa çatacaqdır. BP şirkəti ölkəmizdə həyata keçirilən digər layihələrdə də çox fəal iştirak edir. Bu şirkətin əməkdaşları artıq cəmiyyətimizin ayrılmaz hissəsinə çevirmişlər, sosial və humanitar proqramların həyata keçirilməsində də böyük səylər göstərirlər. Bir sözlə Azərbaycanda neft və qaz sektorunun inkişafı uğurla davam edir və bütün layihələr nəzərdə tutulduğu vaxtda keçirilir.

**Brayn Uilson:** Cənab Prezident! Mən əvvəllər prezident Heydər Əliyevlə keçirdiyim görüşləri çox böyük məmnunluq hissi ilə xatırlayıram.

Onun neft və qaz sənayesinin inkişafında böyük xidmətlərini xüsusi vurğulayıram.BP şirkətinin Azərbaycadakı çox uğurlu fəaliyyəti ümumən Azərbaycan–Böyük Britaniya əlaqələrinə körpü salır. Əmin olduğumu bildirirəm ki, neft və qaz layihələri uğurla başa çatacaq və bu, təkcə Azərbaycanda deyil, digər ölkələrə də böyük mənfəət gətirəcəkdir.

## NORVEÇİN NEFT VƏ ENERGETİKA ÜZRƏ DÖVLƏT KATİBİ OYVİND HABREKKENİN BAŞÇILIĞI İLƏ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*1 iyun 2004-cü il*

**İ l h a m  Ə l i y e v**: Sizi səmimi-qəlbdən salamlayıram. Qaz sərgi-konfransında fəal iştirakınıza görə sizə təşəkkürümü bildirirəm. On birinci dəfə keçirilən bu tədbirin iştirakçıları ilbəil çoxalır. Bu onu göstərir ki, sərgi-konfransına maraq ildən-ilə artır. Bilirsiniz ki, xarici şirkətlərə, o cümlədən Norveçin «Statoyl» şirkəti ilə ölkəmiz arasında əməkdaşlıq uğurla inkişaf edir. «Statoyl» bir sıra mühüm beynalxalq layihələrin də fəal iştirakçısıdır. ARDNŞ ilə bu şirkət arasında ikitərəfli əlaqələrin səviyyəsindən də məmnunluğumu bildirirəm. Ümüdvaram, bu əməkdaşlıq gələcəkdə də davam edəcək və yeni layihələr həyata keçiriləcəkdir. Azərbaycanın neft və qaz ehtiyatları artıq dünya bazarlarına yol açır. «Statoyl» şirkətinin qaz sektorunda böyük təcrübəsi vardır və Azərbaycan bu sahədə şirkətlə əməkdaşlığı müsbət qiymətləndirir.

**O y v i n d  H a b r e k k e:** Cənab Prezident, bu mənim Azərbaycana ilk səfərimdir. Bu səfərdən məmnunluğumu və Azərbaycan prezidenti ilə görüşdən fərəh duyduğumu bildirirəm. ARDNŞ-də keçirdiklərim konustruktiv danışıqlar haqqında Sizə məlumat verərək bildirirəm ki, bu əməkdaşlığın daha da inkişaf edəcəyinə əmin ola bilərsiniz. Ölkələrimiz arasında iqtisadi sahə ilə yanaşı, mədəniyyət sahəsində də fəal əməkdaşlığın olduğunu vurğulamaq istəyirəm. İkitərəfli və qarşılıqlı surətdə faydalı münasibətlər daha da inkişaf etdirilməsi üçün geniş potensial mövcuddur.

## TÜRKİYƏNİN TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏR VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*1 iyun 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Azərbaycana xoş gəlmişsiniz. Bilirsiniz ki, artıq on birinci dəfədir Bakıda keçirilən ənənəvi sərgi-konfransı bu gün də çox uğurla davam edir. Sizin də, Türkiyənin Enerji və Təbii Ehtiyatlar nazirinin konfransda çox gözəl çıxış etdiyini məmnunluqla bildirirəm. Hər il təşkil olunan bu tədbirə xarici şirkətlərin və müxtəlif ölkələrin marağı durmadan artır. Təsadüfi deyildir ki, bu il iştirakçıların sayı təxminən 340-a çatmışdır.

Neft-qaz sektorunun inkişafı sahəsində ölkəmiz çox uğurlu bir yol keçmişdir. 1994-cü ildə Azərbaycan haqqında dünyada, demək olar ki, məlumat yox idi və neft sahəsində elə də böyük işlər görülməmişdir. Bu gün artıq Azərbaycanda irimiqyaslı və bütün dünya üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Sevindirici haldır ki, bu layihələr qardaş Türkiyə ilə birgə həyata keçirilir. Bakı–Tiblisi–Ceyhan kəməri isdifadəyə verildikdən sonra Bakı–Tiblisi–Ərzurum qaz kəmərinin tikintisinə başlanacaq ki, bu da təbii qazın qardaş ölkəyə və Avropaya çatdırılmasına imkan verəcəkdir. Onu da qeyd edirəm ki, Türkiyyənin prezidenti Əhməd Necdət Sezər və Baş nazir Rəcəb Tayyib Ərdoğanla bu sahədə mühüm danışıqlar aparılmışdır və iki ölkənin rəhbəri arasında dostluq və qarşılıqlı anlaşma vardır. Bu gün ölkələrimiz arasında istər yüksək səviyyədə, istərsə də ayrı-ayrı qurumlar səviyyəsində konstrktiv əməkdaşlıq mövcuddur. Mən Türkiyəyə rəsmi səfərimi xatırlatmaq istəyirəm, orada imzalanmış sənədlər və aparılmış danışıqlar böyük əhəmiyyətə malikdir.

**H i l m i G ü l ə r:** Azərbaycənla Türkiyə arasında dostluq və qardaşlıq əlaqələri durmadan möhkəmlənir. Həyata keçirilən irimiqyaslı layihələr hər iki ölkənin inkişafında önəmli rol oynayacaqdır. Mən İngiltərədə olarkən aparılan danışıqlar zamanı Böyük Britaniya rəhbərliyi də bu layihələrə daim dəstək verirdi. Biz buradakı fəaliyyətimizə göstərdiyinizköməyə görə Sizə öz təşəkkürümüzü bildiririk. İnşallah, möhtərəm Heydər Əliyevin arzuları reallığa çevriləcəkdir. Biz bunu çox istəyirik.

## GÜRCÜSTANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ İSAQ NOVRUZOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*1 iyun 2004-cü il*

**İlham Əliyev:** Mən sizi ürəkdən salamlayıram. Uğurla davam edən bu sərgi-konfransında Gürcüstan nümayəndə heyəti həmişə fəal iştirak edib. Azərbaycanla Gürcüstan bir çox irimiqyaslı layihələri uğurla həyata keçirirlər. İki ölkə vahid mexamizim kimi Şərq–Qərb dəhlizində fəal iş aparır. Bakı–Tiblisi–Ceyhan neft kəməri və həyata keçiriləcək qaz kəməri layihəsi hər iki ölkənin xalqları üçün böyük əhəmiyyət kəsb edir.

Sevindirici haldır ki, dövlətlərimiz arasında olan siyasi əlaqələrin yüksək səviyyəsi, qarşılıqlı inam və dəstək bu layihələrin uğurla həyata keçirilməsinə şərait yaradır. Gürcüstan prezidentinin ölkəmizə səfəri çox uğurlu olmuşdur. Mən də tezliklə Gürcüstana rəsmi səfər edəcəyəm. Bizim ənənəvi qardaşlıq uğurla inkişaf edir.

Mən Gürcüstana və gürcü xalqına böyük uğurlar diləyirəm.

**İsaq Novruzov:** Xoş sözlərə görə təşəkkür edirəm. Cənab Prezident, Azərbaycan və gürcü xalqları arasında əsrlər boyu mövcud olan qardaşlıq əlaqələri durmadan inkişaf edir. Prezident Heydər Əliyev və Eduard Şevardnadzenin əsasını qoyduqları indiki strateji tərəfdaşlıq münasibətləri bu gün İlham Əliyev, Mixail Saakaşvili tərəfindən uğurla davam etdirilir. Prezident Mixail Saakaşvili həmişə qeyd edir ki, bizim xalqlar dost deyil, qardaş xalqlardır.

Bu yaxınlarda Gürcüstanın dövlət başçısı Tiblisidəki məscidə gələrək azərbaycanlılarla görüşmüş və soydaşlarımızın həmişə onu dəstəklədiklərini söyləmişdir. Heydər Əliyev Gürcüstana səfəri zamanı həmişə burada yaşayan azərbaycanlılara müraciətlə qeyd edərdi ki, siz Gürcüstan vətəndaşısınız və əsirlər boyu burada yaşamısınız. Siz də cənab prezident, Gürcüstanda yaşayan azərbaycanlılara göstərdiyiniz qayğıya görə çox sağ olun, Sizə minnətdarlığımı bildirirəm.

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ,**
**SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT**
**FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əl-Xudar şəhərində çoxsaylı insan tələfatına səbəb olmuş terror aktlarının törədilməsi xəbəri məni son dərəcə hiddətləndirdi.

Biz terrorizmi qətiyyətlə pisləyir, onun bütün təzahürlərinə qarşı mübarizəni dəstəkləyirik.

Baş vermiş faciə ilə əlaqədar dərdinizə şərik sıxır, Sizə, həlak olanların ailələrinə və bütün Səudiyyə Ərəbistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 iyun 2004-cü il*

**PORTUQALİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB JORJİ SAMPAYYUYA**

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının milli bayramı – Portuqaliya günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Portuqaliya münasibətlərinin hərtərəfli inkişafı üçün səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 iyun 2004-cü il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının milli bayramı – Dövlət suverenliyi haqqında Bəyannamənin qəbul edilməsi günü münasibətilə Sizi və Sizin simanızda dost Rusiya xalqını şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Dövlətçiliyin möhkəmləndirilməsi, siyasi-hüquqi, sosial-iqtisadi islahatların aparılması sahəsində son illərdə Rusiyanın qazandığı uğurlar beynəlxalq aləmdə ölkənizin nüfuzunu artırmaqdadır.

Azərbaycan ilə Rusiya arasındakı əlaqələrin inkişafı da böyük məmnunluq doğurur. Çox şadam ki, əzəldən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımızın iradəsi ilə ardıcıl inkişaf edən ikitərəfli münasibətlərimiz bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Əminəm ki, Azərbaycan–Rusiya münasibətləri üçün səciyyəvi olan açıq dialoq, qarşılıqlı anlaşma, əməkdaşlıq və dəstək daim əlaqələrimizin dinamik və çoxtərəfli inkişafını təmin edəcək, regionumuzda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına öz töhfəsini verəcəkdir.

Hörmətli Vladimir Vladimiroviç, bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rusiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 iyun 2004-cü il*

**BÖYÜK BRİTANİYA VƏ**
**ŞİMALİ İRLANDİYANIN KRALİÇASI**
**ÜLYAHƏZRƏT II ELİZAVETAYA**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı möhkəm dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 iyun 2004-cü il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA**
**BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TONİ BLEYRƏ**

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Kraliçanın təvəllüd günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Biz ikitərəfli münasibətlərimizin inkişafına xüsusi əhəmiyyət veririk. Əminəm ki, dost ölkələrimiz arasında münasibətlərin hərtərəfli inkişafı, əməkdaşlığımızın genişləndirilməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost ölkənizə əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 iyun 2004-cü il*

**FİLİPPİN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM**
**QLORİYA MAKAPAQAL ARROYOYA**

Hörmətli xanım Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında təşəkkül tapmış dostluq münasibətləri xalqlarımızın mənafeyinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 iyun 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN**
**UKRAYNAYA DÖVLƏT SƏFƏRİ**

*3 iyun 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Ukraynanın prezidenti Leonid Kuçmanın dəvəti ilə Kiyevə dövlət səfərinə gəlmişdir.*

*Azərbaycan Respublikasının və Ukraynanın dövlət bayraqları ilə bəzədilmiş Borispol beynəlxalq hava limanında prezident İlham Əliyevi Ukraynanın Baş naziri Viktor Yanukoviç, Xarici İşlər naziri Konstantin Qrişşenko, Kiyev şəhər şurasının sədri Aleksandr Omelçenko, Azərbaycanın bu ölkədəki səfiri Tələt Əliyev, Ukraynanın Bakıdakı səfiri Boris Aleksenko və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli qızlar dövlətimizin başçısına duz-çörək təqdim etdilər. Prezident İlham Əliyevin xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından maşın karvanının müşayiəti ilə Kiyevə, onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*İyunun 3-də Ukrayna prezidentinin iqamətgahında, Kiyevin XVIII əsrə aid gözəl memarlıq abidələrindən olan Mariya sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə Ukraynanın prezidenti Leonid Kuçma və xanımı Lyudmila Kuçma böyük hörmət və səmimiyyətlə qarşıladılar. Ukrayna dövlətinin başçısı Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim etdi.*

**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞ**

*Kiyev,*
*Ukrayna dövlət başçısının iqamətgahı –*
*Mariya sarayı*

*3 iyun 2004-cü il*

*Prezident İlham Əliyev Ukraynaya dövlət səfərinə dəvətə görə prezident Leonid Kuçmaya minnətdarlıq etdi və ümidvar olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin inkişafında mühüm rol oynayacaqdır. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Kiyevdə abidəsinin ucaldılması haqqında qərarına görə Ukrayna rəhbərinə təşəkkürünü bildirərək dedi ki, məhz Heydər Əliyevin və Leonid Kuçmanın səyləri nəticəsində ölkələrimiz arasında münasibətlər sürətlə və uğurla inkişaf edir. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq da yüksək səviyyədədir. Prezident İlham Əliyev iqtisadi əlaqələrin inkişafından, mal dövriyyəsinin səviyyəsindən və bir sıra ikitərəfli layihələrin həyata keçirilməsindən də məmnunluğunu söylədi.*

*Prezident Leonid Kuçma Ukrayna–Azərbaycan münasibətlərinin inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayaraq dedi ki, o, bu böyük insanı daim xatırlayır.*

*Cənab Kuçma ölkələrimiz arasında münasibətlərin perspektivlərinə toxunaraq əmin olduğunu bildirdi ki, prezident İlham Əliyevin dövlət səfəri və onun gedişində imzalanacaq sənədlər, o cümlədən dövlət başçılarının imzalayacaqları birgə bəyannamə ikitərəfli əlaqələrin möhkəmlənməsində yeni bir mərhələ olacaqdır.*

*Görüşdə ticarət-iqtisadi əməkdaşlıq, o cümlədən neft sahəsində və enerji daşıyıcılarının Avropaya nəqli sahəsində işbirliyi məsələləri ətraflı müzakirə edildi, beynəlxalq problemlər, GUÖAM çərçivəsində əməkdaşlıq məsələləri, Avropa Birliyi və NATO ilə qarşılıqlı əlaqələr, hər iki ölkədə siyasi, sosial-iqtisadi vəziyyət barədə fikir mübadiləsi aparıldı. Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxundular. Prezident Leonid Kuçma bildirdi ki, Ukrayna problemin sülh yolu ilə həllinə tərəfdardır, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir.*

* * *

*Azərbaycan və Ukrayna prezidentlərinin təkbətək görüşü başa çatdıqdan sonra Mariya sarayında nümayəndə heyətlərinin iştirakı ilə dövlət başçılarının geniş tərkibdə görüşü olmuşdur.*

*Prezident Leonid Kuçma görüşdə çıxış edərək bildirdi ki, Azərbaycan prezidenti İlham Əliyev ilə keçirdikləri təkbətək görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafının perspektivləri barədə səmərəli müzakirələr aparılmışdır. O, xüsusi vurğuladı ki, Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan–Ukrayna əlaqələrinin möhkəm təməli var və bu gün prezident İlham Əliyev həmin xətti davam etdirir.*

*Azərbaycan prezidenti İlham Əliyev Ukraynaya dövlət səfərinə dəvətə və özünə, habelə respublikamızın nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlıq edərək dedi ki, Ukrayna və Azərbaycan xalqlarının tarixi dostluq əlaqələri var və ölkələrimiz indi də bütün sahələrdə uğurlu əməkdaşlıq edirlər.*

*Görüş başa çatdıqdan sonra ikitərəfli sənədlərin imzalanması mərasimi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Leonid Kuçma birgə bəyannamə imzaladılar.*

*Neft-qaz sahəsində əməkdaşlığın əsas prinsipləri, neft-qaz maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, habelə döyüş sursatının, partlayıcı maddələrin, narkotik preparatların, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizədə əməkdaşlıq haqqında, sənayenin müdafiə sahələri müəssisələrinin istehsal və elmi-texniki kooperasiyası haqqında, milli televiziyalar arasında əməkdaşlıq haqqında sazişlər və digər sənədlər imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİNDƏN SONRA PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT LEONİD KUÇMANIN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*3 iyun 2004-cü il*

### Ukrayna Prezidenti Leonid Kuçmanın bəyanatı

Çox hörmətli İlham Heydər oğlu!

Əziz azərbaycanlı dostlar!

Xanımlar və cənablar!

Prezident başda olmaqla Azərbaycan Respublikasının yüksək nümayəndə heyətini Ukrayna torpağında salamlamaq mənim üçün böyük şərəfdir. Mən qəti əminəm ki, bu səfər sizə ən xoş təəssürat bağışlayacaqdır. Siz bilirsiniz ki, bugünkü görüşümüzü mən Heydər Əliyevin xatirəsi haqqında sözlərlə başladım. Mən bununla başlamaya bilməzdim, çünki bu insan Ukrayna – Azərbaycan dostluğu üçün çox işlər görmüşdür. O, həmişə kömək əlini uzatmağa hazır idi və Ukrayna bu və ya digər problemlə qarşılaşarkən bunu edirdi.

Bu müdrik insanla ünsiyyətdə olmaqdan mən həmişə, sadəcə, çox böyük məmnunluq duyurdum. O, həmişə öz ağıl-zəkası ilə yaşayırdı. Bilirsiniz ki, prezidentlərin həmişə çoxlu məsləhətçisi olur. Bax, mən bunu nəzərə çarpdırmaq istərdim.

İlham Heydəroviçlə bizim bütün problemləri, ikitərəfli münasibətlərimizi müzakirə etmək imkanımız oldu. Biz şadıq ki, münasibətlərimiz yüksələn xətlə inkişaf edir, iqtisadiyyatda əmtəə dövriyyəsi də artır, bütün digər sahələrdə, o cümlədən siyasi sahədə, beynəlxalq aləmdə də münasibətlərimiz genişlənir. Bu gün siz özünüz də burada, bu salonda imzalanmış sənədlərin sayına görə gördünüz ki, biz doğru yoldayıq. Sadə sözlərlə desək, indi mövcud olan bütün problemlər barəsində bizim aramızda qarşılıqlı anlaşma var və biz onları həm ikitərəfli formatda, həm də bütün beynəlxalq təşkilatlar formatında həll etmək əzmindəyik. Strateji inkişaf planları baxımından bizim aramızda fikir ayrılığı yoxdur. Mən həm Avropa yolunu, həm MDB çərçivəsində əməkdaşlığı, həm GUÖAM çərçivəsində əməkdaşlığı, həm də NATO çərçivəsində geniş əməkdaşlığı nəzərdə tuturam.

Bu gün bizim kontingentlərimiz İraqdadır, orada sülhyaratma borcumuzu birlikdə yerinə yetiririk. İraqın gələcəyi barədə bizim eyni baxışlarımız var. Həm BMT Təhlükəsizlik Şurasının İraq barədə qərarı mümkün qədər tezliklə qəbul etməsini, həm də İraqda Birləşmiş Millətlər Təşkilatının bayrağının qaldırılmasını istəməyimiz nöqteyi-nəzərindən də baxışlarımız uyğun gəlir. İstəyirik ki, orada mülki hökumət tezliklə formalaşdırılsın və bütün hakimiyyət İraq xalqına verilsin. Başqa heç bir problemimiz yoxdur.

Odur ki, İlham Heydəroviçi bir daha səmimi qəlbdən salamlamaq və demək istəyirəm ki, biz hamımız həmişə onu burada görməyə şad olacağıq. Bu səfərlə biz həm Azərbaycan Respublikasına, həm də Azərbaycan xalqına dərin hörmət bəslədiyimizi nəzərə çarpdırmaq istəyirik. Sağ olun.

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox hörmətli Leonid Daniloviç, sağ olun.

Əziz dostlar!

Mən, ilk növbədə, Ukraynaya dövlət səfərinə gəlmək barədə dəvətinə görə Ukrayna prezidenti Leonid Daniloviç Kuçmaya təşəkkür etmək istərdim.

Bu səfərin mənim üçün böyük əhəmiyyəti var. Ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Ukrayna və Azərbaycan xalqları arasında bütün dövrlərdə səmimi dostluq, qardaşlıq münasibətləri olmuşdur. Çox dəyərlidir ki, ölkələrimiz müstəqillik əldə etdikdən sonra bu əlaqələr daha möhkəm, daha sıx olmuşdur. Bu işdə bütün dünyada tanınmış iki liderin – öz ölkələrinin təşəkkülünün, bəlkə də, ən ağır dövründə onlara başçılıq etmiş və onları tərəqqi, iqtisadi inkişaf yolu ilə aparmış liderlərin çox böyük xidməti var. Məhz Leonid Daniloviç Kuçmanın və Heydər Əlirza oğlu Əliyevin sayəsində ölkələrimiz daha yaxın olmuş, istər ikitərəfli münasibətlərdə, istər regional təşkilatlar, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində daha fəal əməkdaşlıq etməyə başlamışlar. Ona görə də inamla demək olar ki, bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Bizim aramızda ən dərin qarşılıqlı anlaşma, çox fəal siyasi dialoq və bütün istiqamətlərdə əməkdaşlıq mövcuddur. Bu gün görüş zamanı biz məmnunluqla qeyd etdik ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi dönmədən və ildən-ilə artır. Bu, onu göstərir ki, ilk növbədə, ölkələrimizin iqtisadiyyatı getdikcə daha da güclənir və indi Ukraynada da, Azərbaycanda da ümumi daxili məhsulun artım sürəti ən yüksək səviyyədədir, bəlkə də, dünyada ən yüksək səviyyələrdən birini təşkil edir. Birgə hökumətlərarası komissiya iqtisadi münasibətlərin daha da inki-

şaf etdirilməsi baxımından böyük iş görmüş, iqtisadi əlaqələrin inkişafının mühüm yollarını müəyyənləşdirmişdir.

Humanitar sahədə çoxdan yaranmış və inkişaf edən möhkəm münasibətlər mövcuddur. Azərbaycanda Ukrayna dilinə böyük hörmətlə yanaşılır və Bakı Slavyan Universitetində Ukrayna dili fakültəsi fəaliyyət göstərir. Biz buna çox qayğı ilə yanaşırıq. Azərbaycanda bütün xalqlar, bütün millətlər özlərini çox rahat, azad hiss edirlər və hökumət tərəfindən də onlara münasibət çox müsbətdir. Ölkələrimizi və xalqlarımızı bu da bir-birinə bağlayır. Bizdə dini dözümlülük, tolerantlıq mövcuddur.

Ukraynada yaşayan çoxsaylı azərbaycanlılar burada özlərini evlərindəki kimi hiss edirlər. Biz onların istər siyasi səviyyədə, istər məişət səviyyəsində, istərsə də bütün işlərdə rəhbərlik tərəfindən necə diqqət və qayğı ilə əhatə olunduqlarını bilirik. Mən buna görə də Leonid Daniloviçə və ukraynalı dostlarımıza təşəkkür etmək istərdim.

Leonid Daniloviçin qeyd etdiyi kimi, ölkələrimiz arasında problem yoxdur. Biz dostuq, tərəfdaşıq. Biz inteqrasiya proseslərimizi çox fəal inkişaf etdiririk, beynəlxalq qurumlara inteqrasiya olunuruq. Beynəlxalq işlərdə Ukraynanın və Azərbaycanın sanbalı da, əhəmiyyəti də ildən-ilə artır. Bu, ölkələrimizin uğurla inkişaf etməsinin ən mühüm göstəricisidir. Mən Leonid Daniloviçə dedim ki, son 10 ildə Azərbaycanda aparılmış siyasətin, o cümlədən də ikitərəfli münasibətlər çərçivəsində aparılmış siyasətin davam etdirilməsi üçün öz tərəfimdən bütün işləri görəcəyəm.

Prezident Heydər Əlirza oğlu haqqında dediyi səmimi sözlərə görə mən Leonid Daniloviçə çox minnətdaram. Sizin necə dostluq etdiyinizi, bir-birinizə necə dərin məhəbbət, rəğbət hissləri bəslədiyinizi mən şəxsən bilirəm, bunu Azərbaycanda da hamı bilir. Əlbəttə ki, Sizin diqqətiniz və Ukraynada Heydər Əliyevə abidə qoyulması haqqında şəxsən qəbul etdiyiniz qərar həm ölkələrimiz arasında ikitərəfli münasibətlərin səviyyəsini, həm də siyasətdə heç də sonuncu rol oynamayan məhz Sizin aranızda olmuş şəxsi, sırf insani münasibətləri bir daha nəzərə çarpdırır.

Mən səfərimdən çox razıyam, Ukraynada olmağıma çox şadam. Ümidvaram ki, belə səfərlər çox olacaqdır. Mən lap əvvəldən böyük diqqətlə, qonaqpərvərliklə, səmimi münasibətlə əhatə olunmuşam və bütün bunlara görə, ilk növbədə, prezidentə, habelə bütün ukraynalı dostlarımıza çox minnətdaram. Sağ olun.

* * *

**S u a l: İki ölkə arasında əməkdaşlıq beynəlxalq təşkilatlar çərçivəsində necə inkişaf edəcəkdir?**

**L e o n i d  K u ç m a:** Mən öz çıxışımda dedim ki, bizimlə Azərbaycan arasında həm ikitərəfli səviyyədə, həm də müasir dünya məsələləri, Qarabağ münaqişəsi də daxil olmaqla beynəlxalq aləmdə mövcud olan problemlər üzrə heç bir fikir ayrılığı yoxdur. Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal altındadır, 750 min azərbaycanlı yurdsuz-yuvasız qalmışdır. Bu, insanların çox böyük faciəsidir. Biz ərazi bütövlüyü prinsipini həmişə dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Bu baxımdan bizim bu problemə heç vaxt başqa bir münasibətimiz olmamışdır və olmayacaqdır. Zənnimcə, vaxt sizin xeyrinizə işləyir. Belə bir həqiqəti getdikcə daha çox adam dərk edir ki, bu cür problemləri sülh yolu ilə həll etmək lazımdır. Minsk qrupunun öz fəaliyyətini artırması və problemə təkcə bir ölkənin nöqteyi-nəzərindən yanaşması deyil, həm də Qafqazda sabitliyin təkcə bu regiona yox, həm də bütün dünyaya təsir göstərdiyini düşünməsi arzu olunur. Bu təsirdən danışarkən Xəzər regionunun inkişafı – neft-qaz hasilatı və onların digər ölkələrə nəqli nəzərə alınmalıdır. GUÖAM-a gəldikdə isə, biz bu təşkilat çərçivəsində birgə fəaliyyət göstəririk və başlıca vəzifə nəqliyyat problemidir. Allah eləsin, əməkdaşlığımız indiki kimi inkişaf etsin.

**İ l h a m  Ə l i y e v:** Mən hörmətli Leonid Daniloviçin dediklərini tam dəstəkləyirəm. Biz strateji tərəfdaşlarıq, regionumuzda və ümumən bütün dünyada baş verən bir çox əsas proseslərə münasibətlərimiz eynidir. Buna görə də problemə ümumi yanaşmalar hərtərəfli qərarlar qəbul edərkən daha düzgün yol tapmağa kömək edir. Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Ukraynanın tutduğu mövqeyə görə də Leonid Daniloviçə çox minnətdaram. Biz bu məsələni təkbətək görüşdə də, geniş heyətdə görüşdə də müzakirə etdik. Əlbəttə, münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətlə həllində Ukraynanın birmənalı mövqeyi böyük hörmət hissi doğurur. Şübhəsiz, həqiqət Azərbaycanın tərəfindədir. Heç kimə sirr deyil ki, Ermənistan Azərbaycan ərazilərini işğal etmişdir, bu işğal nəticəsində Azərbaycanın yüz minlərlə vətəndaşı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Həqiqət bundan ibarətdir ki, ərazilərimizin 20 faizi erməni işğalı altındadır və Ermənistanın köməyi və fəal iştirakı ilə Dağlıq Qarabağ tərəfindən təcavüzkar separatizm siyasəti bu işğala gətirib çıxarmışdır. Təəssüf ki, müxtəlif ölkələrdəki müəyyən dairələr bu həqiqəti ya görmək istəmirlər, ya görsələr də, susmağa üstünlük verirlər, yaxud da ondan istifadə etmək istəyirlər. Ən dəhşətlisi də odur ki, hansısa siyasi, regional və digər mənafelər naminə dünyada ikili standartlar mövcuddur. Müəyyən dairələr baş vermiş hadisənin mahiyyətini təhrif etməyə cəhd göstərirlər. İndiki halda bu məsələdə Ukrayna prezidentinin beynəlxalq hüquq normalarına və bütün dövlətlərin ərazi bütövlüyü prinsipinə tam uyğun olan birmənalı mövqeyi Azərbaycanda və Azərbaycan xalqında hörmət və minnətdarlıq hissi doğurur. Zənnimcə, bütün münaqişələr məhz beynəlxalq hüquq normaları əsasında öz həllini tapsa, Qafqazda da, bütün dünyada da daha heç bir problem olmayacaq, qan axıdılmayacaq və çoxdan gözlənilən sülh yaranacaqdır.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Siz GUÖAM-ın növbəti zirvə toplantısından nə gözləyirsiniz?**

**İ l h a m Ə l i y e v:** Azərbaycan ilə Ukrayna təkcə ikitərəfli formatda deyil, həm də regional qurumlarda fəal əməkdaşlıq edir. Həmin qurumlardan biri də GUÖAM-dır. Bu təşkilat bizi və digər ölkələri birləşdirir, regional əməkdaşlığın inkişafına kömək edir.

Azərbaycan regional əməkdaşlığın dərinləşdirilməsinə həmişə tərəfdar olmuşdur. Deyə bilərəm ki, indi Azərbaycanda baş verən proseslər buna sübutdur. Ölkəmizdə çox mühüm beynəlxalq iqtisadi layihələr gerçəkləşdirilir.

Bunu demək kifayətdir ki, ümumi rəyə görə, dünyanın ən iri energetika layihəsi Azərbaycanda həyata keçirilir.

Bu, bir daha göstərir ki, biz regional əməkdaşlıq, dialoq üçün açığıq. GUÖAM məhz bu istiqamətdə irəliləmək üçün çox yaxşı qurumdur. GUÖAM ölkələri siyasi və iqtisadi münasibətləri inkişaf etdirmək istəyirlər. Əminəm ki, həm ikitərəfli, həm də regional əməkdaşlıq çərçivəsində biz konkret layihələrin həllində irəliləyəcəyik. Əlbəttə, konkret layihələr olduqda, məsləhətləşmək imkanı olduqda beynəlxalq təşkilatlar cəlbedici olurlar. Belə layihələr var və biz onları inkişaf etdirməyə, habelə regional əməkdaşlığın inkişafı üçün yeni yollar tapmağa çalışacağıq.

**L e o n i d K u ç m a:** Mən İlham Heydəroviçi dəstəkləmək istəyirəm. Regional qurumlar olmuşdur, var və olacaqdır. Biz, ilk növbədə, iqtisadi mənafeləri əsas götürürük. Biz bu təşkilatın yaradılması haqqında qərarı imzalayarkən indi dillər əzbəri olan Böyük İpək yolunun dirçəldilməsi perspektivlərini nəzərdə tuturduq. Mən onun Xəzər dənizi vasitəsilə və oradan da o yana davam etdirilməsini deyirəm.

Təfərrüatı xatırlaya bilərəm. Biz Heydər Əliyevin təklifi ilə qərara aldıq ki, GUÖAM-ın zirvə toplantıları Yaltada keçirilsin. İndi biz Gürcüstan tərəfinin – Mixail Saakaşvilinin xahişi ilə bu prinsipdən çəkilirik. Lakin vəzifələr və nəticələr məlumdur. Ən başlıcası isə, bu gün malik olduqlarımızı itirməmək və iqtisadiyyatımızın sürətli inkişafını nəzərə alaraq indiyədək əldə edilənləri artırmaqdır.

Bir daha vurğulamaq istəyirəm ki, Ukraynadan Gürcüstan, Azərbaycan vasitəsilə və oradan da o yana nəqliyyat kommunikasiyalarının çox böyük əhəmiyyəti var. Biz vahid iqtisadi məkanın timsalında bilirik ki, Qazaxıstan, Ukrayna və Belarusun təklif etdiyi başlıca məsələlərdən biri nəqliyyat tarifləridir. Hər hansı yükün Rusiya ərazisi ilə daşınması malın dəyərinin azı 15 faizinə başa gəlir.

Bu problemlərin həlli ölkələrimizin iqtisadiyyatının inkişafı üçün zəmin yaradır.

**S u a l: İmzalanmış bəyannamə və sazişlər münasibətlərimizin inkişafına necə təsir göstərəcəkdir?**

**İ l h a m Ə l i y e v:** Siz elə yaxşı suallarla müraciət edirsiniz ki, onlara cavab vermək xoşdur. Əlbəttə, bu sənədlər münasibətlərimizin möhkəmlənməsinə təsir göstərəcəkdir. Sənədlər müxtəlif sahələrdə əməkdaşlığın geniş spektrinə aiddir və gələcək qarşılıqlı fəaliyyətimizin həm iqtisadi, həm də siyasi tərəflərini əhatə edir. Bu, Leonid Daniloviçlə danışdıqlarımıza daha bir sübutdur.

Münasibətlərimiz uğurla inkişaf edir. Hökumətlərarası komissiya öz işinə başlayanda beş sənəd imzalamaq planlaşdırılırdı, lakin böyük potensial olduğunu nəzərə alaraq sənədlərin sayı 9-dək artırıldı. Bunun özü də son hədd deyildir. Əminəm ki, ikitərəfli sazişlərin həyata keçirilməsi çərçivəsində ölkələrimiz daha da yaxınlaşacaq, müxtəlif sahələrdə daha sıx əməkdaşlıq edəcəklər. Bu, bizim milli mənafelərimizə uyğundur.

**L e o n i d K u ç m a:** Bir neçə kəlmə əlavə etmək istəyirəm. İlham Heydəroviçin dediyi kimi, biz strateji tərəfdaşlarıq. Müstəqil dövlətlərimizin təşəkkül illəri ərzində biz çox məsələləri həll etməli olduq. Biz çoxsaylı problemlərin həlli ilə məşğul olduq. Qarşılıqlı əməkdaşlığın və etimadın ildən-ilə dərinləşməsi əlaqələrimizin möhkəm zəminə söykəndiyini duymağa kömək edirdi. Bu, mütləq həqiqətdir. İmzalanmış bəyannamə də əməkdaşlığımızın inkişafı üçün yeni bünövrə qoyur. Biz bunu alqışlamalıyıq.

**S u a l: Mənim sualım Azərbaycan prezidentinədir. Neft sahəsində əməkdaşlıq haqqında sazişin girişində deyilir ki, Azərbaycan tərəfi Odessa-Brodı boru kəmərini doldurmaq üçün Ukraynaya kommersiya əsasında neft almağa imkan verəcəkdir. Lütfən deyin, Azərbaycan Ukraynaya neft satmağa nə vaxt hazır olacaqdır? Bu, ölkəmiz üçün çox vacib məsələdir.**

**İ l h a m Ə l i y e v:** Azərbaycan özünün neft ehtiyatlarını müxtəlif istiqamətlərdə satır. Hazırda Azərbaycan nefti iki neft kəməri ilə nəql olunur. Bakı–Tbilisi–Ceyhan marşrutu üzrə üçüncü neft kəmərinin tikintisində fəal iş gedir. Bu kəməri gələn ilin birinci rübündə istismara vermək nəzərdə tutulmuşdur. Bir neçə milyard dollar dəyərində olan bu ən iri beynəlxalq layihə uğurla həyata keçirilir. Əlbəttə, hər hansı digər əmtəə kimi, neft də beynəlxalq bazarda sərbəst tədavülə malikdir, müəyyən kommersiya şəraitində iqtisadi cəhətdən sərfəli olan hər hansı istiqamətdə nəql oluna bilər. Artıq dediyim kimi, indi Azərbaycan nefti səmərəli surətdə Qara dənizin limanlarına çatdırılır və təbiidir ki, oradan istənilən istiqamətdə daşına bilər. Deməliyəm ki, Azərbaycandan Qara dəniz limanlarına nəql olunan neftin həcmi təxminən 8–9 milyon tona bərabərdir. Əlbəttə, müştərilərin onu almağa tam haqqı vardır. Biz dəfələrlə bildirmişik ki, Azərbaycan Odessa–Brodı neft kəmərini siyasi cəhətdən dəstəkləyir, bu məsələnin kommersiya tərəfinə gəldikdə isə, bununla kommersiya təşkilatları məşğul olurlar. İqtisadi məsələlər öz prioritetlərini özləri müəyyənləşdirməlidir.

**L e o n i d K u ç m a:** Əlavə etmək istərdim ki, İlham Heydəroviç sizin sualınıza çox diplomatik cavab verdi, mən isə bu suala müəyyən dərəcədə fəhlə-kəndli sayağı cavab vermək istəyirəm. Qərar qəbul ediləndə hə-

min qərar üçün məsuliyyət dərəcəsini də başa düşmək lazımdır. Siz hamınız yaxşı bilirsiniz, Azərbaycan prezidenti də bunu təsdiq etdi ki, bu gün dünyada ən iri enerji layihəsi Azərbaycanda həyata keçirilir. Mən Bakı–Tbilisi–Ceyhan neft kəmərini nəzərdə tuturam. Bu neft kəməri gələn ilin birinci rübündə istismara veriləcəkdir. Buna görə də hasil edilən neftin miqdarını, həqiqətən, strateji əhəmiyyətə malik bu boru kəmərinin buraxıcılıq qabiliyyətini hesablamaq üçün Karl Marks, yaxud Fridrix Engels, böyük iqtisadçı olmaq lazım deyildir, çünki o, nefti Aralıq dənizinə və bütün dünya bazarlarına çıxarır. Bu baxımdan Odessa–Brodı neft kəmərinin imkanlarını da nəzərə almaq lazımdır. Odur ki, azərbaycanlılar bizim dostlarımız və strateji tərəfdaşlarımız kimi bizə neft satmağa hazırdırlar, lakin biz bunu hələ 5–6 il gözləməli olacağıq. Zənn edirəm ki, şərhə ehtiyac yoxdur. Çox sağ olun, mətbuat konfransımız başa çatdı.

## UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 3-də onun üçün ayrılmış iqamətgahda Ukraynanın Baş naziri Viktor Yanukoviç ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev ölkələrimizin iqtisadi sahədə çox uğurlu əməkdaşlıq etdiklərini, hökumətlərarası komissiyanın bu baxımdan səmərəli fəaliyyət göstərdiyini vurğuladı. İqtisadi əməkdaşlığın geniş perspektivləri olduğunu söyləyən dövlətimizin başçısı dedi ki, indiki səfər çərçivəsində imzalanmış sənədlər əlaqələrin gələcək inkişafı üçün yeni imkanlar açacaqdır.*

## «NAMƏLUM ƏSGƏR» MEMORİALINI ZİYARƏT

*İyunun 3-də Azərbaycan Prezidenti İlham Əliyev Kiyev şəhərindəki «Naməlum əsgər» memorialını ziyarət etmişdir. Prezident İlham Əliyev «Əbədi məşəl»in önünə əklil qoydu, 1941–45-ci illər Böyük Vətən müharibəsində həlak olmuş döyüşçülərin xatirəsini bir dəqiqəlik sükutla yad etdi. Azərbaycanın və Ukraynanın dövlət himnləri səsləndi. Dövlətimizin başçısı qədim Kiyev şəhərinin mənzərəsini seyr etdi.*

## BANKNOT FABRİKİ VƏ ZƏRBXANA İLƏ TANIŞLIQ

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 3-də Ukrayna Milli Bankının banknot fabriki və zərbxanasının yerləşdiyi kompleksə gəldi.*

*Ukrayna Milli Bankının sədri Sergey Tigipko prezident İlham Əliyevə 1993-cü ildə tikilmiş kompleks haqqında məlumat verdi. Bildirildi ki, ümummilli liderimiz Heydər Əliyev də 1997-ci ildə Ukraynaya rəsmi səfəri zamanı burada olmuş, fəxri qonaqlar kitabına ürək sözlərini yazmışdır. Burada Azərbaycan Respublikasının sifarişi ilə qızıl sikkələr də kəsilmişdir.*

### Zərbxananın fəxri qonaqları kitabına yazdığı ürək sözləri:

*«Zərbxananın məhsulları böyük təəssürat yaradır və ən yüksək beynəlxalq standartlara cavab verir. Təqdim olunan nümunələrlə böyük maraqla tanış oldum. Fürsətdən istifadə edərək qardaş Ukrayna xalqına dərin hörmətimi ifadə etmək istəyirəm. Dövlət çərçivəsində mənə göstərilmiş qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Əminəm ki, ölkələrimizin xalqları arasında olan ənənəvi dostluq əlaqələri inkişaf edəcək və möhkəmlənəcəkdir.*

*Dərin hörmətlə,*

**İİLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*3 iyun 2004-cü il».*

## UKRAYNA DÖVLƏT TELEVİZİYASINA MÜSAHİBƏ

*İyunun 3-də Azərbaycan respublikasının Prezidenti İlham Əliyev Ukrayna dövlət televiziyasının birinci kanalına müsahibə vermişdir.*

*Dövlətimizin başçısı iki ölkə arasında əlaqələrin perspektivləri, Azərbaycanın Avropa strukturlarına inteqrasiyası, ölkəmizdə aparılan siyasi, iqtisadi, hüquqi və sosial islahatlar, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyası və həyata keçirilən irimiqyaslı neft və qaz layihələri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və digər məsələlərə dair suallara ətraflı cavab verdi.*

*Azərbaycan prezidentinin Ukraynaya dövlət səfəri bu ölkənin digər kütləvi informasiya vasitələri tərəfindən də geniş işıqlandırılmışdır. Ukraynanın «1+1», «İCTV», «İNTER», «Novıy Kanal» televiziya kanalları və «Den», «Ekonomiçeskiye izvestiya» və digər qəzetlər Azərbaycan prezidentinin səfərinə geniş yer ayırmışdılar. Dövlətimizin başçısının «Azərbaycan Odessa–Brodı neft kəmərini siyasi cəhətdən dəstəkləyir» fikri xüsusilə vurğulanmışdır.*

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ**
**UKRAYNA PREZİDENTİ**
**LEONİD KUÇMANIN ADINDAN**
**TƏŞKİL EDİLMİŞ**
**RƏSMİ QƏBULDA NİTQ**

*3 iyun 2004-cü il*

**İ l h a m   Ə l i y e v:** Çox hörmətli Leonid Daniloviç!
Möhtərəm Lyudmila Nikolayevna!
Əziz dostlar!

Hörmətli Leonid Daniloviç, əvvəla, izn verin, qardaş Ukraynaya dövlət səfərinə dəvət edildiyimə görə Sizə dərin minnətdarlığımı bildirim. Bu səfər artıq indidən çox uğurlu oldu. Bu gün keçirilən təkbətək və geniş heyətdə görüşlər, habelə imzalanmış sənədlər sübut edir ki, Ukrayna ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri inkişaf edir və möhkəmlənir. Ölkələrimizin və xalqlarımızın ümummilli liderləri Leonid Kuçma və Heydər Əliyev bu münasibətlərin inkişafına böyük tövfə vermişlər. Onların ölkələrimizin müstəqilliyinin inkişafına və möhkəmlənməsinə yönəlmiş ardıcıl və uzaqgörən siyasəti sayəsində həm Ukrayna, həm də Azərbaycan beynəlxalq aləmdə də, ölkədaxili iqtisadi və sosial vəzifələrin həllində də böyük uğurlara nail olmuşdur. Əlbəttə ki, ölkələrimiz arasında əlaqələrin inkişafı və möhkəmlənməsi işində Leonid Daniloviç Kuçma ilə Heydər Əlirza oğlu Əliyev arasında olan şəxsi münasibətlər böyük rol oynamışdır. Dostluq, qarşılıqlı hörmət, qarşılıqlı kömək, bir-birini dəstəkləmək hissləri ölkələrimiz arasında münasibətlərə həmişə xas olmuşdur. Dövlətlərimizin tarixində elə hal olmamışdır ki, aramızda hər hansı bir fikir ayrılığı, yaxud müəyyən problemə müxtəlif münasibətlər meydana çıxsın. Xalqlarımız ölkələrimizin möhkəmlənməsi və müstəqilliyi kimi yeganə məqsədə doğru birgə addımlamışlar. Ukrayna prezidentinin qərarı ilə sabah Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsinin açılması faktı Leonid Daniloviçin Heydər Əliyevə dərin şəxsi münasibətini və ölkələrimiz arasında əlaqələrin nə dərəcədə möhkəm olduğunu və bu əlaqələrin heç vaxt, heç kim tərəfindən pozula bilməyəcəyini sübut edir. Bizim vəzifəmiz bu münasibətləri inkişaf etdirmək, möhkəmləndirmək və təkmilləşdirməkdir, elə etməkdir ki, Ukrayna və Azərbaycan uzun illər, əsrlər dost və qardaş ölkələr, strateji tərəfdaşlar olaraq qalsınlar. Ukrayna və Azərbaycan həm ikitərəfli münasibətlərdə, həm də regional miqyasda, habelə mühüm beynəlxalq problemlərin həlli çərçivəsində həmişə çiyin-çiyinədir. Onlar eyni mövqedən çıxış edirlər. Leonid Daniloviçin qeyd etdiyi kimi, beynəlxalq qurumlarda qarşılıqlı yardım bizim qardaşlıq münasibətlərimizə çox parlaq sübutdur.

Bu gün fürsətdən istifadə edərək Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normalarının prinsipləri çərçivəsində nizama salınması məsələsində Ukraynanın prinsipial, birmənalı mövqeyinə görə Leonid Daniloviçə bir daha təşəkkür etmək istəyirəm.

İqtisadi baxımdan çox böyük uğurlar var. Əmtəə dövriyyəsi artır, ötən il xeyli çoxalmışdır. İlin əvvəlindən bəri əmtəə dövriyyəsi 70 faiz artmışdır. Bu, çox şey deyir. Əvvəla, ölkələrimizin iqtisadiyyatları inkişaf edir. Deməli, ölkələrimizdə aparılan iqtisadi siyasət uğurludur. İnteqrasiyaya qarşılıqlı səylərimiz və meylimiz də artır. Biz buna çalışırıq. Biz çalışırıq ki, Ukrayna ilə ikitərəfli münasibətlər bundan sonra da inkişaf etsin.

Mən bu yaxınlarda Azərbaycan prezidenti seçilmişəm. Bütün istiqamətlərdə – daxili siyasətdə də, xarici siyasətdə də Heydər Əliyevin siyasətini davam etdirmişəm və davam etdirirəm. Çünki bu, yeganə düzgün siyasətdir və onun alternativi yoxdur. Azərbaycan xalqı seçkilərdə bu siyasətə səs vermişdir və Azərbaycan millətinin və dövlətinin inkişafının gələcək yüksəlişini yalnız bu siyasət təmin edə bilər.

İkitərəfli münasibətlərimiz çərçivəsində də belədir. Mən bu gün bu barədə Leonid Daniloviçə dedim, ölkələrimiz və onların rəhbərləri arasında təşəkkül tapmış bütün dostluq, qardaşlıq, qarşılıqlı yardım, dəstək ənənələrini davam etdirəcəyəm. Çox sevindirici haldır ki, bütün səviyyələrdə – nazirlər, idarələrin rəhbərləri səviyyəsində də çox yaxşı əlaqələr və qarşılıqlı anlaşma var. Mən çox şadam ki, bu gün dost torpaqda, qardaş Ukraynadayam. Mehriban xanıma, mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən hərarətli, səmimi qəbula və qonaqpərvərliyə görə çox-çox təşəkkür edirəm.

Çox hörmətli Leonid Daniloviç, bu dəvətə görə, xoş münasibətə, dostluq və qardaşlığı dəstəkləyən səmimi sözlərə görə Sizə bir daha təşəkkür etmək istəyirəm.

Bu badəni çox hörmətli Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın, çox hörmətli Lyudmila Nikolayevnanın, ukraynalı qardaşlarımızın şərəfinə qaldırmaq istəyirəm.

Ukraynanın və Azərbaycanın tərəqqisi şərəfinə!

## UKRAYNA ALİ RADASININ SƏDRİ VLADİMİR LİTVİN İLƏ GÖRÜŞ

*4 iyun 2004-cü il*

*Ukraynada dövlət səfərində olan Azərbaycan prezidenti İlham Əliyev ölkə parlamentində – Ali Radada Ukrayna parlamentinin sədri və üzvləri ilə görüşü oldu.*

*Ali Radanın sədri Ukrayna–Azərbaycan əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluğunu bildirərək dedi ki, ölkələrimizin parlamentləri də səmərəli əməkdaşlıq edirlər. Azərbaycan prezidentinin səfəri çərçivəsində imzalanmış sənədlər qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsində yeni mərhələ olacaq və Ukrayna parlamenti həmin razılaşmaların həyata keçirilməsinə öz köməyini göstərəcəkdir.*

*Söhbət zamanı GUÖAM Parlamentlərarası Assambleyasının yaradılması perspektivləri də müzakirə olundu. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu ideyanı tam dəstəkləyir və öz köməyini göstərməyə hazırdır.*

*** * ***

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 4-də Kiyev vilayətinin İrpen şəhərində əvvəlcə Ukraynanın böyük şairi Taras Şevçenkonun abidəsini ziyarət etdi. Milli geyimli qızlar dövlətimizin başçısını abidənin yanında duzçörəklə qarşıladılar. Prezidentin xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim etdi.*

*Taras Şevçenkonun bu abidəsi Ukraynada yaşayan azərbaycanlı iş adamlarının İrpen şəhərinə hədiyyəsidir.*

## AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ABİDƏSİNİN* AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*4 iyun 2004-cü il*

Əziz dostlar!

İcazə verin, ilk növbədə, dostluğa görə, Azərbaycana, ölkəmizin nümayəndəsinə – bu gün abidəsini birlikdə açdığımız görkəmli alim Zərifə Əliyevaya münasibətə görə sizə öz ehtiramımı və minnətdarlığımı bildirim.

Zərifə Əliyeva heyrətamiz insan idi. O, bütün həyatını elmə, təbabətə həsr etmişdi, çox məşhur oftalmoloq-praktik, habelə böyük alim idi. O, insanlara görmə qabiliyyətini qaytarırdı. Onun fəaliyyəti və elmi əsərləri sayəsində müasir oftalmologiya çox böyük uğurlara nail olmuşdur. Eyni zamanda, o, çox xeyirxah, həssas insan, son dərəcə qayğıkeş ana və atam üçün sadiq dost, yaxşı məsləkdaş idi. Əlbəttə, onun həyatdan getməsi təkcə ailəmizin üzvləri üçün deyil, həm də onu tanıyanların və onunla ünsiyyətdə olanların hamısı üçün çox böyük itki idi. Aradan artıq neçə illər keçmişdir, lakin bu itkinin ağrısı çox kəskin duyulur.

Bu gün qardaş Ukrayna torpağında, İrpen şəhərində Zərifə Əliyevanın abidəsinin açılışında iştirak etmək mənim üçün ikiqat xoşdur.

Mən dünəndən Ukraynadayam, dövlət səfərini həyata keçirirəm və özümü dostlarımın arasında hiss edirəm. Böyük qayğı və diqqətlə əhatə olunmuşam, mənə çox böyük qonaqpərvərlik göstərilir. Fürsətdən istifadə edərək dəvətə və səmimi münasibətə görə, ilk növbədə, Ukrayna prezidenti Leonid Daniloviç Kuçmaya təşəkkürümü bildirmək istəyirəm.

Dünən Ukrayna ilə Azərbaycan arasında 9 dövlətlərarası saziş imzalandı. Bu sənədlər ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, ikitərəfli münasibətlərdə, regional və beynəlxalq miqyaslı münasibətlərdə daha fəal iştirak etməyə imkan verəcəkdir. Ölkələrimiz arasında tarixən dostluq və qardaşlıq münasibətləri olmuşdur və mövcuddur. Müstəqillik əldə edildikdən sonra Ukraynanın və Azərbaycanın əsl tərəfdaşlar, strateji tərəfdaşlar olması faktı, ilk növbədə onu göstərir ki, ötən illərdə ölkələrimizdə həyata keçirilən siyasət səmərəli və düzgün olmuşdur. Mən münasibətlərimizin daha da möhkəmlənməsi üçün bu siyasəti Azərbaycanda davam etdirəcəyəm, ölkələrimiz, xalqlarımız arasında daha sıx əlaqələr olmasına çalışacağam.

Azərbaycanda Ukraynanı və ukraynalıları çox sevirlər, Ukrayna dilinə, mədəniyyətinə böyük səmimiyyətlə yanaşır, Azərbaycanın ali məktəblərində Ukrayna dilini öyrənirlər. Bütün bunlar da dövlətlərimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün çox yaxşı bazadır.

Dediyim kimi, biz yaxın ölkələrik, strateji tərəfdaşlarıq, bütün dünyada baş verən proseslərdə vahid mövqedən fəal iştirak edirik. Bizi, eyni zamanda, səmimi insani münasibətlər – dostluq, qarşılıqlı rəğbət, qarşılıqlı hörmət telləri bağlayır. Bax, elə bugünkü gün, Azərbaycanın görkəmli nümayəndəsi Zərifə Əliyevaya Ukraynada abidə açılması dostluq münasibətlərimizin, xalqlarımızın bir-birinə dərin məhəbbət və hörmət hisslərinin ifadəsidir. Fürsətdən istifadə edərək abidənin qoyulmasında, bu gözəl parkın, habelə indən belə Zərifə Əliyevanın adını daşıyacaq küçənin abadlaşdırılmasında fəal iştiraka görə Kiyev vilayəti hökumətinin başçısı cənab Zasuxaya və İrpen Şəhər Şurasının başçısı cənab Skarçinskiyə şəxsən təşəkkür etmək istəyirəm.

Mən həm Ukraynaya dost dövlətin – Azərbaycan dövlətinin prezidenti kimi, həm də Zərifə Əliyevanın oğlu kimi minnətdaram. Əminəm ki, bütün dövrlərdə – Sovet İttifaqında yaşadığımız dövrdə də, ən başlıcası isə, ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra da mövcud olmuş dostluq, qarşılıqlı yardım, qarşılıqlı dəstək münasibətləri davam etdiriləcək, ölkələrimizə və xalqlarımıza daha böyük fayda gətirəcəkdir.

Bir daha Ukraynaya, Ukrayna xalqına, gözəl İrpen şəhərinin sakinlərinə ən dərin hörmət hisslərimi və Azərbaycana, Zərifə Əliyevanın xatirəsinə belə münasibətə görə təşəkkürümü qəbul edin. Sağ olun!

---

* Abidənin müəllifi, Xarkov şəhərində yaşayan həmyerlimiz, Ukraynanın xalq rəssamı, heykəltəraş Seyfəddin Qurbanovdur.

## AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*4 iyun 2004-cü il*

Əziz dostlar!

Mən sizi görməyimdən çox şadam. Məmnunam ki, azərbaycanlılar yaşadıqları ölkələrdə öz layiqli yerlərini tutublar, bu ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatında çox mühüm rol oynayırlar.

Mən dünəndən Ukraynadayam və dövlət səfərini həyata keçirirəm. Böyük məmnuniyyətlə deyə bilərəm ki, bu səfər çox uğurlu keçir. Dünən apardığımız ikitərəfli danışıqlar bir daha göstərdi ki, Ukrayna və Azərbaycan strateji tərəfdaşlardır. Müzakirə etdiyimiz bütün məsələlər üzrə bizim mövqeyimiz üst-üstə düşür, həm ikitərəfli münasibətlərdə, həm regionda gedən proseslərə baxışlarımız, eyni zamanda beynəlxalq siyasət məsələlərində mövqelərimiz üst-üstə düşür. Ölkələrimiz arasında iqtisadi əməkdaşlıq güclənir, mal dövriyyəsi artır. Bu, bir tərəfdən onu göstərir ki, Azərbaycanın və Ukraynanın iqtisadiyyatı hərtərəfli inkişaf edir. Digər tərəfdən, ölkələrimiz arasında mövcud olan iqtisadi əlaqələr daha da güclənir. Əlbəttə, Ukraynada yaşayan və bizneslə məşğul olan azərbaycanlıların bu işdə böyük rolu ola bilər və onlar bu sahədə öz töhfəsini verə bilərlər.

Eyni zamanda siyasi məsələlər də müzakirə olundu. Çox sevindirici haldır ki, Ukrayna ilə Azərbaycan arasındakı münasibətlər təkcə ikitərəfli formatda deyil, habelə regional təşkilatlar çərçivəsində də uğurla həyata keçirilir və bu əməkdaşlıq getdikcə güclənir.

Humanitar sahədə böyük nailiyyətlərimiz vardır. Mən qeyd etdim ki, Azərbaycanda fəaliyyət göstərən Slavyan Universitetində Ukrayna dili fakültəsi vardır, burada ukraynaşünaslıq öyrənilir və Ukrayna dili tədris olunur. Ölkəmizdə ukraynalılara münasibət çox müsbətdir. Çox şadam ki, ölkəmiz müstəqilliyə qovuşduqdan sonra bu münasibətlər daha da güclənmişdir. Eyni zamanda burada yaşayan azərbaycanlılara olan diqqətə görə Ukrayna rəhbərliyinə, şəxsən prezidentə öz minnətdarlığımı bildirdim.

Mən bilirəm ki, burada azərbaycanlılar çox rahat yaşayırlar. Dövlət orqanları tərəfindən onlara münasibət çox yüksəkdir və bu da məni çox sevindirir.

Çox mühüm məsələ kimi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi də müzakirə olunmuşdur. İkitərəfli formatda, geniş tərkibdə görüşdə, eyni zamanda keçirilmiş mətbuat konfransında Ukrayna prezidenti cənab Leonid Kuçma birmənalı şəkildə qeyd etmişdir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bu, çox mühüm bir bəyanatdır.

Mən qeyd etdim ki, bəzi hallarda müəyyən dairələr bu məsələnin üstündən keçmək, bunu danmaq, bu məsələ ilə əlaqədar müxtəlif manipulyasiyalar etmək istəyirlər. Əfsuslar olsun ki, dünyanın bəzi yerlərində hələ də ikili standartlar siyasəti hökm sürür. Ancaq Ukrayna kimi böyük dövlətin başçısının belə birmənalı bəyanatı çox böyük siyasi addımdır və iki ölkə arasında olan münasibətləri əhəmiyyətli dərəcədə gücləndirən bir amildir. Mən buna görə Ukrayna prezidenti cənab Kuçmaya öz minnətdarlığımı bildirdim və sizi də məlumatlandırıram ki, gündəlik həyatınızda ünsiyyətdə olduğunuz insanlarla bu məsələ ətrafında söhbət aparasınız, Azərbaycan dövlətinin və xalqının Ukrayna xalqına olan dərin məhəbbətini, o cümlədən bu mövqeyə görə təşəkkürünü bildirəsiniz. Hesab edirəm ki, bu, çox vacib məsələdir.

Ölkələrimiz arasında doqquz sənəd imzalanmışdır. Bu sənədlər ikitərəfli münasibətlərimizin, demək olar ki, bütün sahələrini əhatə edir. Prezidentlər tərəfindən siyasi sənəd, eyni zamanda iqtisadi inkişafa və ikitərəfli münasibətlərin möhkəmlənməsinə dair sazişlər imzalanmışdır. Ümid edirəm ki, bu sənədlər qüvvəyə mindikdən sonra ikitərəfli əlaqələrimiz daha da güclənəcəkdir.

Çox şadam ki, Ukrayna ilə yanaşı, Belarus və Moldovada da diasporlarımız formalaşıb və fəaliyyət göstərir. Bu, çox müsbət haldır. Yəqin ki, sizə məlumdur, biz bu istiqamətdə öz fəaliyyətimizi gücləndiririk. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə qəbul olunmuş qərar bu istiqamətdə atılmış ən mühüm addımlardan biridir. Çox sevindirici haldır ki, demək olar, bütün keçmiş sovet respublikalarında Azərbaycan diasporları yaradılmışdır. Biz bu siyasəti davam etdiririk və eyni zamanda müxtəlif ölkələrdə Azərbaycanın yeni səfirliklərinin açılması haqqında qərar qəbul etmişik.

Bu yaxınlarda mən Belarusda səfirliyin açılması barədə qərar qəbul etmişəm. Artıq müəyyən müddətdən sonra bu ölkəyə səfir də təyin olunacaqdır. Bu, bizim üçün daha geniş imkan yaradacaqdır.

Azərbaycanın işi haqq işidir. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində bütün dünya ölkəmizin təcavüzə məruz qaldığını, torpaqlarımızın işğal altında olduğunu və bu işğalın nəticəsində 1 milyona yaxın soydaşımızın öz doğma torpaqlarından didərgin düşdüyünü bilməlidir. Diasporların, səfirliklərin bu istiqamətdə apardıqları işlərin çox böyük əhəmiyyəti vardır.

Bizim diplomatiyamız bütün ölkələrlə ikitərəfli, faydalı, mehriban münasibətlərin qurulmasına yönəlmişdir. Biz bütün ölkələrlə çox gözəl münasibətlər yaratmışıq və deyə bilərəm ki, Azərbaycanın digər ölkələrlə heç bir problemi yoxdur. Ümidvaram ki, Azərbaycanın ərazi bütövlüyü məsələsi beynəlxalq hüquq normaları çərçivəsində öz həllini tapacaqdır. Ermənistan–Azərbaycan münaqişəsi həll olunduqdan sonra ölkəmizdə daha böyük iqtisadi inkişaf baş verəcəkdir.

Bu gün ölkəmiz çox dinamik inkişaf edir, bütün iqtisadi göstəricilər Azərbaycanın ildən-ilə gücləndiyini göstərir. Hazırda qəbul etdiyimiz sosial-iqtisadi və regional proqramlar çərçivəsində qeyri-neft sektoruna böyük sərmayələr qoyulacaqdır. Yeni iş yerləri, xüsusilə regionlarda iş yerlərinin açılması ən mühüm məsələdir. Prezident seçkilərindən ötən yeddi ay ərzində 30 minə yaxın iş yeri açılmışdır ki, bu da çox yüksək göstəricidir. Bu, bir tərəfdən işsizliyi aradan qaldıracaq, digər tərəfdən Azərbaycanda yerli istehsal inkişaf edəcək, idxal azalacaqdır. Beləliklə, daha çox vergilər ödəniləcəkdir. İqtisadiyyatla məşğul olanlar çox gözəl bilirlər ki, iş yerinin açılmasının əhəmiyyəti təkcə hansısa bir insanı işlə təmin etməklə bitmir. Bunun arxasında böyük və dərin məsələlər durur və onun bütövlükdə iqtisadi inkişafa təsiri olur.

Ölkəmiz dünya birliyində özünəlayiq yerini tutmuşdur. Seçkilərdən sonra mənim etdiyim bütün səfərlər çox uğurlu olmuşdur. Xarici ölkələrə, beynəlxalq təşkilatlara – Avropa Şurasına, Avropa Birliyinə, NATO-ya etdiyim səfərlər çox yüksək səviyyədə keçmişdir və bir daha Azərbaycanın dünya birliyinin dəyərli üzvü olmasını təsdiq etmişdir. Ölkəmizdə dünyanın ən böyük layihəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsi, habelə Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsi uğurla həyata keçirilir, «Azəri–Çıraq–Günəşli» və «Şahdəniz» yataqlarının işlənilməsi çox sürətlə gedir. Şübhə etmirəm ki, yaxın zamanlarda bu kəmərlər istifadəyə veriləcək və ölkəmizə böyük həcmdə maliyyə resursları daxil olacaqdır. Bu, bizə imkan verəcəkdir ki, ölkəmizi hərtərəfli inkişaf etdirək, iqtisadiyyatımızı şaxələndirək. Elə etməliyik ki, Azərbaycanın hər bir yerində, bölgəsində yeni infrastruktur yaradılsın, binalar, xəstəxanalar, məktəblər, sənaye müəssisələri istifadəyə verilsin. Əminəm ki, biz buna nail olacağıq. Bunu etmək üçün hər cür imkan vardır. Heydər Əliyevin siyasəti yaşayır, mən bu siyasəti davam etdirirəm, xalq bu siyasəti dəstəkləyir və bəyənir. Ötən ilin oktyabrında keçirilmiş prezident seçkiləri bunu bir daha təsdiq etdi. Həm Azərbaycanın daxilində, həm də xaricdə yaşayan soydaşlarımız birmənalı şəkildə Heydər Əliyev siyasətinə səs vermişlər.

Bu amillə yanaşı, iqtisadi inkişaf da sürətlə gedir. Son yeddi il ərzində iqtisadiyyatımız hər il təxminən 10 faiz artmışdır ki, bu da dünyada çox nadir hallardan biridir. Xarici sərmayələrin həcmi artır, sosial məsələlər öz həllini tapır. Ən çətin vəziyyətdə yaşayan qaçqın və köçkünlərimizin problemləri də həll olunur, onlar üçün yeni şəhərciklər və qəsəbələr salınır. Bir neçə gündən sonra daha bir yeni və müasir şəhərcik öz qapılarını onların üzünə açacaqdır.

Mən gələcəkdə Azərbaycanın qarşısında heç bir problem görmürəm. Qonşularla münasibətlər çox yüksək səviyyədədir. Bu da Heydər Əliyev diplomatiyasının təntənəsidir. Yadınıza salın, on il əvvəl qonşularımızla problemlərimiz çox idi və onlar Azərbaycana çox mənfi təsir edirdi. Amma indi heç bir problem yoxdur, bütün qonşularla çox mehriban, səmərəli, ikitərəfli münasibətlər qurulmuşdur. Ən ağır problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də, əminəm ki, öz həllini tapacaqdır. Azərbaycan bu məsələdə öz mövqeyindən geri çəkilmir. Ölkəmizin ərazi bütövlüyü bərpa olunmalı və işğalçı qüvvələr torpaqlarımızdan çıxmalıdır. Beynəlxalq ictimaiyyətin və beynəlxalq təşkilatların bu məsələyə baxışlarında da müəyyən dəyişikliklər baş vermişdir. Mən əvvəlcədən bir şey demək istəmirəm, amma inanıram ki, biz bu məsələni həll edəcəyik. Bu hansı yolla olacaq – onu gələcək göstərəcəkdir. Amma Azərbaycan xalqı heç vaxt öz torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Biz çalışacağıq ki, bunu sülh yolu ilə həll edək.

Mən çox sevinirəm və məmnunam ki, Ukraynada, Belarusda və Moldovada fəaliyyət göstərən diasporlarımız çox güclənmiş və fəallaşmışlar. Onlar demək olar ki, tam formalaşmışlar. Azərbaycanlıların ali qanunvericilik və hökumət strukturlarında təmsil olunması da çox mühüm bir haldır. Biz buna çox çalışmalıyıq. Ümid edirəm ki, Ukraynada 2006-cı ildə keçiriləcək parlament seçkilərində bizim diasporumuz, səfirliyimiz və əlbəttə, Azərbaycan hökuməti bu parlamentdə azərbaycanlıların təmsil olunması üçün və onların sayının çox olması üçün əlindən gələni edəcəkdir. Bu, bizə böyük imkanlar verəcəkdir. Sirr deyil ki, ölkəmizin mövqeləri də, burada yaşayan azərbaycanlıların gündəlik həyatı da bundan fayda görəcəkdir. Əmin ola bilərsiniz ki, Sizin arxanızda Azərbaycan dövləti, bu dövlətin başçısı dayanıbdır. Xaricdə yaşayan bütün soydaşlarımız hansı ölkənin vətəndaşı olmağından asılı olmayaraq bizim qardaşlarımızdır və hər an doğma vətən sizi qarşılamağa hazırdır. Amma biz istəyirik ki, siz yaşadığınız ölkələrdə güclənəsiniz, daha möhkəm mövqeyə sahib olasınız. Siyasi aləmdə, biznesdə, bu ölkələrin mədəni həyatında sizin möhkəm mövqeyiniz Azərbaycanın adının daha da yüksəlməsi deməkdir. Ölkəmiz haqqında həqiqətlər daha dolğun şəkildə dünya ictimaiyyətinə çatdırılmalıdır. Əlbəttə, hər bir ölkənin səfirliyi vardır və bu səfirlik ölkənin maraqlarını təmsil edir. Amma diaspor üzvləri də Azərbaycanın elçiləridir. Sizin fəaliyyətinizdən çox şey asılıdır. Siz Azərbaycana dəstəksiniz, Azərbaycanın da hökuməti və dövləti sizə dəstəkdir. Əlbəttə, ikitərəfli münasibətlər güclü olanda, – Ukrayna ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə gəlib çatmışdır, – burada yaşayan azərbaycanlılara da öz müsbət təsirini göstərəcəkdir.

Mən bir daha sizin hamınızı salamlayıram, bu görüşə gəldiyinizə görə sizə öz təşəkkürümü bildirirəm. Sizə uğurlar arzu edir və əmin olduğumu bildirirəm ki, Azərbaycanın adını daim yüksək tutacaq, ölkəmizi ləyaqətlə təmsil edəcək və onun gələcəyi naminə bütün azərbaycanlılarla birlikdə fəal iş aparacaqsınız.

* * *

*Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev ötən ilin mayında ümummilli liderimiz Heydər Əliyevin 80 illiyi münasibətilə Kiyevin «Dinamo» və Bakının «Neftçi» futbol klublarının veteranları arasında Kiyevdə keçirilmiş görüşün təşkil olunmasına köməyinə və ümumiyyətlə, futbolun inkişafına göstərdiyi qayğıya görə Ukrayna İdman Jurnalistləri Assosiasiyasının ilin ən yaxşı nominasiyası üzrə fəxri fərmanını və üzərində Heydər Əliyevin şəkli olan kuboku prezident İlham Əliyevə təqdim etdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev İrpen şəhərinə səfərdən sonra, iyunun 4-də Kiyevdə ölkəmizin Ukraynadakı səfirliyində oldu. Səfirliyin binası ilə tanışlıqdan sonra respublikamızın gənc istedadları – Ukraynada keçirilən festivalda iştirak etmiş «Bülbüllər» uşaq musiqi ansamblının üzvləri ilə görüşdü, onlara yeni yaradıcılıq uğurları arzuladı. Ukrayna prezidenti Leonid Kuçma da azərbaycanlı uşaqlara müvəffəqiyyətlər dilədi.*

## AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN* AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*Kiyev*

*4 iyun 2004-cü il*

Çox hörmətli Leonid Daniloviç!
Çox hörmətli Lyudmila Nikolayevna!
Əziz dostlar!

İlk növbədə, Kiyevdə Heydər Əliyevə abidə qoyulması qərarına görə mən Ukrayna prezidenti, çox hörmətli Leonid Daniloviç Kuçmaya özümün dərin minnətdarlığımı bildirmək istərdim. Bu qərar bütün Azərbaycan xalqı tərəfindən son dərəcə minnətdarlıqla qarşılanmışdır. Çünki Heydər Əliyev Azərbaycanın ümummilli lideridir.

Heydər Əliyev həmişə – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə də, müstəqil Azərbaycana başçılıq etdiyi illərdə də öz xalqına, Azərbaycanın milli mənafeyinə xidmət etmişdir. Təsadüfi deyil ki, 1970-80-ci illərdə, onun 13 ildən artıq rəhbərliyi dövründə Azərbaycanda güclü iqtisadi potensial və sənaye potensialı yaradılmışdır. İndi bu potensial ölkəmizin iqtisadi təhlükəsizliyini əhəmiyyətli dərəcədə təmin edir.

Azərbaycan müstəqil dövlət olduqdan sonra istər daxili səbəblər üzündən, istərsə də xarici təcavüz nəticəsində son dərəcə mürəkkəb çətinliklərlə qarşılaşdıqda, xalq öz liderini yenidən ölkəyə başçılıq etməyə çağırdı. Azərbaycanda hamı qəti əmindir və bilir ki, əgər o ağır günlərdə Heydər Əliyev Bakıya qayıdıb Azərbaycana başçılıq etməsəydi, ölkəni çox ağır nəticələrə gətirib çıxara biləcək dağılma, parçalanma təhlükəsi gözləyirdi.

O illər – 1993–2003-cü illər Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi dövrü oldu. Azərbaycan beynəlxalq birlikdə layiqli yerini tutdu, mühüm beynəlxalq təşkilatların üzvü oldu. İqtisadiyyat möhkəmləndi, iqtisadi potensial artdı. Heydər Əliyevin təşəbbüsü ilə başlanan neft strategiyası uğurla həyata keçirilir. Azərbaycan öz əhalisinin sosial məsələlərini həll edir.

Əlbəttə ki, bütün bunlarda əsas xidmət Azərbaycanın ümummilli liderinə məxsusdur.

Lideri itirmək xalq üçün həmişə böyük faciədir. Heydər Əliyevin yaxın və köhnə dostu Leonid Daniloviç Kuçmanın onunla vidalaşmaqdan ötrü matəm mərasimində iştirak etməsi bizim hamımız üçün, ilk növbədə, mənim üçün böyük təsəlli oldu.

Leonid Daniloviçlə Heydər Əliyevi çox yaxın dostluq telləri bağlayırdı. Zəmanəmizin bu iki görkəmli siyasətçisi, öz xalqlarının və ölkələrinin liderləri xarici təzyiqi və daxili çətinlikləri aradan qaldıraraq öz ölkələrini böhrandan çıxardı, müstəqilliyini möhkəmləndirdi, iqtisadi potensialı gücləndirdi. Onları həm də sırf insani münasibətlər, dostluq münasibətləri yaxınlaşdırırdı. Bu, mənə çox yaxşı məlum idi. Atamın Leonid Daniloviçlə görüşlərindən, səmimi söhbətlərindən danışması çox yaxşı yadımdadır. Onlar bir-birinə, həqiqətən, ən səmimi hisslər, dostluq hissləri bəsləyirdilər.

Əlbəttə, bu şəxsi bağlılıq, qardaşlıq münasibətləri Ukrayna ilə Azərbaycanın strateji tərəfdaş olmasına çox kömək etmişdir. Ukraynaya indiki dövlət səfərim bunu bir daha təsdiqlədi. Ölkələrimiz arasında heç bir problem yoxdur, ikitərəfli əməkdaşlıq, regional əməkdaşlıq məsələlərində bizim aramızda tam qarşılıqlı anlaşma, mühüm dünya proseslərinə eyni mövqedən yanaşma, habelə əlaqələrimizi möhkəmlətmək və inkişaf etdirməkdə ümumi qarşılıqlı istək var.

Ukraynada yaşayan azərbaycanlılara mehriban, səmimi münasibətə görə Ukrayna prezidentinə çox minnətdaram. Bu gün Azərbaycan diasporunun nümayəndələri ilə görüşdüm və bir daha yəqin etmək mənə olduqca xoş idi ki, rəhbərliyin onlara münasibəti çox müsbətdir, onlar burada özlərini evdəki kimi hiss edirlər. Onu da bilin ki, Azərbaycanda da Ukraynaya, ukraynalılara xüsusi məhəbbət hissləri bəsləyirlər. Bakı Slavyan Universitetində Ukrayna dili fakültəsinin olması, Ukrayna dilinin öyrənilməsi, – yeri gəlmişkən, Ukrayna dilinin öyrənilməsinə böyük maraq göstərilir, – sözlərimi bir daha təsdiq edir.

Əlbəttə, bir daha qeyd etməyə bilmərəm ki, iki liderin bu proseslərə – xalqlarımızın yaxınlaşması proseslərinə töhfəsi həlledici olmuşdur.

Bu gün Kiyevdə Heydər Əliyevə abidə qoyulması qardaşlığımızın, dostluğumuzun daha bir rəmzidir. Bu, münasibətlərimizin bir çox onilliklər və əsrlər ərzində davam və inkişaf edəcəyinin, indiki kimi sarsılmaz, möhkəm olacağının, dostluq və qardaşlıq münasibətləri olacağının daha bir rəmzidir.

Azərbaycanın yeni prezidenti kimi mən bu siyasəti, ölkələrimizin və xalqlarımızın yaxınlaşması yolunu davam etdirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. Mənə göstərilən qonaqpərvərliyə, səmimiyyətə, mehri-

* Abidənin müəllifi Azərbaycan Rəssamlıq Akademiyasının kafedra müdiri, əməkdar rəssam Natiq Əliyevdir.

banlığa görə bütün Ukrayna xalqına da təşəkkür etmək istəyirəm. İnanın ki, bu iki gündə mən özümü evimdəki kimi hiss etdim. Mən prezident Leonid Daniloviçə çox minnətdaram. Bizim müzakirə etdiyimiz bir çox problemlər barəsində ətraflı söhbətimiz oldu. Bir daha yəqin etdik ki, biz birlikdəyik, ölkələrimizin inkişafı yolunda, tərəqqi yolunda çiyin-çiyinə irəliləyirik.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*İyunun 4-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ukraynanın Baş naziri Viktor Yanukoviç və xanımı Lyudmila Yanukoviçin müşayiəti ilə Kiyev-Peçera lavrası tarixi-memarlıq qoruğu və muzeyi ilə tanış oldular.*

* * *

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Ukraynaya dövlət səfərinin yekunları dövlətimizin başçısı üçün ayrılmış iqamətgahda prezident Kuçma ilə keçirilən görüşdə müzakirə olundu.*

*Prezidentlərin xanımlarının iştirakı ilə keçən görüşdə Azərbaycanın dövlət başçısı dost ölkəyə səfəri zamanı göstərilən mehriban münasibətə, yüksək hörmət və ehtirama görə səmimi təşəkkürünü bildirdi.*

**XALQ ŞAİRİ VAQİF SƏMƏDOĞLUNA**

Hörmətli Vaqif Səmədoğlu!

Sizi – xalqımızın tanınmış şairi 65 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 60–70-ci illərdə ədəbiyyatımıza yeni ab-hava gətirmiş sənətkarlar nəslinin layiqli nümayəndələrindən birisiniz. Müasir insanın mənəvi aləmini, onun dünya və zaman haqqında düşüncə və axtarışlarını əks etdirən əsərləriniz sənətsevərlər tərəfindən həmişə maraqla qarşılanmışdır. Şerlərinizə bir çox musiqi əsərlərinin yazılması sübut edir ki, böyük şairimiz səməd Vurğunun əbədi varisi kimi siz dilimizin tükənməz poetik imkanlarından məharətlə bəhrələnmiş, gözəl sənət nümunələri yarada bilmisiniz.

Sizin ictimai fəaliyyətiniz əbədi-bədii əsərlərinizdəki fikir və düşüncələrin əməli surətdə gerçəkləşməsinin parlaq nümunəsidir. Əminəm ki, siz müstəqil Azərbaycan Respublikasının şərtərəfli inkişafı yollarında bundan sonra da öz bilik və bacarığınızı əsirgəməyəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 iyun 2004-cü il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Müasir Amerika və dünya siyasətində böyük iz qoymuş Amerika Birləşmiş Ştatlarının 40-cı prezidenti Ronald Reyqanın vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə bağlı Sizə, mərhumun ailəsinə və bütün Amerika xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 iyun 2004-cü il*

## YEVLAX ŞƏHƏRİNDƏ AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MƏRKƏZİ MEYDANIN VƏ PROSPEKTİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*8 iyun 2004-cü il*

Əziz yevlaxlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayır, sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

Bu gün Yevlaxda çox əlamətdar hadisə baş verir. Bu gözəl meydana və prospektə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı verilir. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə vətənə və millətə xidmət etmişdir. 1970–80-ci illərdə onun rəhbərliyi və təşəbbüsü ilə Azərbaycanda böyük quruculuq işləri görülmüşdür. Ölkə iqtisadiyyatı inkişaf edirdi, Azərbaycan digər sovet respublikalarından irəlidə gedirdi. Əlbəttə, sovet Azərbaycanında yaşayan insanlar bunu hiss edirdilər. Həyat səviyyəsi durmadan yüksəlirdi, yeni müəssisələr, fabriklər, xəstəxanalar, məktəblər, elm və mədəniyyət ocaqları tikilirdi. Məhz o illərdə Azərbaycanda güclü iqtisadi potensial yaranmışdı. Xüsusilə neft sektorunda böyük potensial yaranmışdı. Həmin potensial bu gün də müstəqil Azərbaycana xidmət edir, ölkə iqtisadiyyatına böyük dayaq və dəstəkdir.

Heydər Əliyev o dövrdə 13 ildən çox Azərbaycana rəhbərlik etmişdir. O illər ölkəmiz çox sürətlə inkişaf edirdi. Bütün sahələrdə, o cümlədən kənd təsərrüfatında böyük uğurlar əldə olunmuşdu. Bu onu göstərir ki, ictimai quruluşdan asılı olmayaraq, xalqa və millətə məhəbbət varsa, ölkənin rəhbəri xalqına sədaqətlə xidmət edirsə, mütləq nailiyyətlər, uğurlar olacaqdır.

1993-cü ildə artıq müstəqil Azərbaycana rəhbərliyə qayıdandan sonra Heydər Əliyev yenə də xalqa xidmət etdi, ölkəni çətin və ağır vəziyyətdən çıxardı. Hamımız yaxşı xatırlayırıq ki, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra çox çətin vəziyyətə düşmüşdü. Bir tərəfdən, Ermənistanın Azərbaycana təcavüzü, digər tərəfdən, ölkə daxilində gedən proseslər, daxili çəkişmələr, vətəndaş müharibəsi faktiki olaraq ölkəmizi uçuruma gətirib çıxarmışdı. Ölkəmizdə xaos və anarxiya hökm sürürdü. Özbaşınalıq nəticəsində dövlətimiz parçalanırdı. O çətin dövrdə xalq yenə üzünü öz ümummilli liderinə tutdu, onu Bakıya dəvət etdi. Heydər Əliyev Bakıya qayıtdıqdan sonra ölkədə vəziyyət sabitləşdi, asayiş bərpa olundu və gələcək inkişaf üçün gözəl şərait yaradıldı. O illərdən başlayaraq Azərbaycan uğurla inkişaf edir.

İqtisadiyyatımız durmadan inkişaf edir və Azərbaycan bu baxımdan bütün keçmiş sovet respublikaları ilə müqayisədə qabaqcıl yerlərdədir. Ölkəmiz beynəlxalq aləmdə özünəlayiq yer tuta bilmişdir. Bu gün Azərbaycanla hesablaşır və ona hörmət edirlər. Son aylar ərzində mənim etdiyim xarici səfərlər bir daha göstərdi ki, Azərbaycan bölgədə çox mühüm ölkəyə çevrilmişdir. Bu, əlbəttə, ilk növbədə, Heydər Əliyevin xidmətidir, onun diplomatiyasının təntənəsidir.

Ölkəmizə iri həcmdə xarici sərmayələr gətirilmişdir. Azərbaycan bu baxımdan da liderdir. Bu gün Yevlaxda da ölkəmiz və bütün bölgə üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin bir hissəsi inşa edilir, böyük nasos stansiyası tikilir. Şübhəsiz ki, bu da Heydər Əliyevin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Əgər 1994-cü ildə Azərbaycanda Heydər Əliyev tərəfindən neft strategiyasının əsası qoyulmasaydı, əlbəttə, biz bu nailiyyətləri əldə edə bilməzdik. Bu gün iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycana bütün dünyada böyük hörmət vardır.

Eyni zamanda, sosial məsələlər də öz həllini tapır. Ən çətin vəziyyətdə yaşayan soydaşlarımızın – qaçqınların və köçkünlərin də həyat şəraiti yaxşılaşdırılır. Onlar üçün yeni qəsəbələr, şəhərciklər salınır, yeni məktəblər, xəstəxanalar tikilir. Bu proses davam edəcəkdir. Mən seçkilərdən əvvəl bəyan etmişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Biz çalışacağıq ki, bütün qaçqın-köçkünlərə kömək edək. Amma, ilk növbədə, ən ağır şəraitdə, çadırlarda yaşayan insanlarımızın həyat səviyyəsi yaxşılaşdırılmalıdır. Bu məqsədlə artıq müvafiq fərmanlar imzalanmış və onların icrasına başlanmışdır.

Bir sözlə, Azərbaycan son on il ərzində Heydər Əliyevin rəhbərliyi altında möhkəmlənmiş, inkişaf etmişdir. Bu gün ölkəmiz irəliyə çox inamla baxır. Bizim çox gözəl perspektivlərimiz vardır. Artıq bütün dünyaya məlumdur ki, Azərbaycan yaxın gələcəkdə iqtisadi cəhətdən çox qüdrətli dövlətə çevriləcəkdir. Bunu etmək, buna nail olmaq üçün, ilk növbədə, Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən bu gün fürsətdən istifadə edərək prezident seçkilərində Heydər Əliyev siyasətinə səs verdiklərinə görə yevlaxlılara öz minnətdarlığımı bildirirəm. Azərbaycanda bu siyasətə alternativ yoxdur. Biz bu siyasəti bütün sahələrdə davam etdirəcəyik.

Azərbaycanın beynəlxalq aləmdə mövqeləri daha da möhkəmlənəcəkdir. Mənim son müddət ərzində etdiyim xarici səfərlər, beynəlxalq təşkilatlarda keçirdiyim görüşlər bir daha göstərdi ki, Azərbaycan bu istiqamətdə çox uğurlu siyasət aparır. Dünyanın bütün nüfuzlu beynəlxalq təşkilatları ilə Azərbaycanın çox gözəl münasibətləri

vardır. Avropa Şurası, Avropa Birliyi və NATO, habelə dünyanın aparıcı dövlətləri ilə ölkəmizin çox gözəl əlaqələri mövcuddur. Bu yaxınlarda mənim bu təşkilatlara etdiyim səfərlər bunu bir daha təsdiq etdi.

Azərbaycanın iqtisadiyyatı günü-gündən güclənir və yüksək sürətlə inkişaf edir. Yeni iş yerlərinin açılması istiqamətində işlər görülür. Neft strategiyası uğurla davam etdirilir və gələn ilin əvvəllərində ölkəmiz üçün çox böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan boru kəməri istifadəyə veriləcəkdir. Ölkəmizdə sosial problemlər öz həllini tapır. Ötən il pensiyalar, əmək haqları artırılmışdır. Bu müsbət meyllər davam edəcəkdir. Çalışacağıq ki, insanlarımızın daha yaxşı yaşaması üçün əlimizdən gələni edək.

Bildiyiniz kimi, bir müddət əvvəl Azərbaycanın gələcək inkişafı üçün böyük əhəmiyyətə malik olan sosial-iqtisadi və regional proqramlar qəbul edilmişdir. Artıq bu proqramlar həyata keçirilir. Əminəm ki, növbəti 5 ildə onların həyata keçirilməsi ölkəmizə böyük fayda gətirəcəkdir. Biz yoxsulluqla mübarizə aparırıq və onu davam etdirəcəyik. Yeni iş yerlərinin açılması bizim üçün prioritet məsələdir və mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm. Bu gün böyük məmnunluq hissi ilə demək istəyirəm ki, prezident seçkilərindən sonra Azərbaycanda 30 minə yaxın yeni iş yerləri açılmışdır. Çox sevindirici haldır ki, bu iş yerləri bölgələrdə, ölkəmizin müxtəlif rayonlarında açılmışdır. Bu, bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycanın bütün bölgələri inkişaf etməlidir. Paytaxt şəhərimiz Bakı öz yerində, amma Azərbaycanın digər rayon və şəhərləri, kənd və qəsəbələri inkişaf etməlidir. İnsanlar işlə təmin olunmalıdır. Mən çox sevinirəm ki, bu siyasətin ilkin nəticələri artıq göz qabağındadır. Əminəm ki, bu meyllər davam edəcək və ölkəmizdə yoxsulluq, işsizlik aradan qaldırılacaqdır.

Bu gün mən Yevlaxda olmağımdan çox şadam. Burada deyildi, seçkilərdən əvvəl mən Yevlaxa gəlmişəm və yevlaxlılarla görüşmüşəm. Onların dəstəyini aldım və bu dəstəklə prezident seçkilərində iştirak etdim və qalib gəldim. Çox sevindirici haldır ki, seçkilərdən sonra Yevlaxda gedən abadlıq, quruculuq işləri daha geniş vüsət almışdır. Bilirsiniz ki, iki ay əvvəl mən Yevlaxa yeni icra başçısı təyin etmişəm. Söhbət əsnasında qərara gəldik ki, müəyyən müddətdən sonra, hesab edirdim ki, təxminən 6 aydan sonra mən buraya gələcəyəm və görülən işlərlə tanış olacağam. Çox şadam ki, bu müddət iki ay oldu. Bu iki ay ərzində Yevlaxda mühüm işlər görülübdür – küçələr, parklar salınıb, müəssisələrin fəaliyyəti bərpa olunub, insanlara diqqət artırılıbdır. Məhz bu, bizim siyasətimizin ana xəttidir – iqtisadi və sosial inkişaf, insanlara qayğı və diqqət. Əgər bu amillər hər yerdə olarsa, Azərbaycan qısa müddət ərzində öz problemlərinin hamısını həll etmiş olar.

Ümidvaram ki, bu, belə də olacaqdır. Əgər Yevlaxda iki ay ərzində bu qədər iş görülmüşsə, əminəm ki, digər bölgələrdə də bu işlər görülə bilər. Mənim bütün rəhbər işçilərdən, səlahiyyətli şəxslərdən tələbim bundan ibarətdir: rayonu, şəhəri inkişaf etdirmək, abadlıq, quruculuq işləri aparmaq, yeni iş yerləri açmaq, sahibkarlara gözəl şərait yaratmaq, kəndlilərə, fermerlərə kömək etmək, eyni zamanda, insanlara qayğı və diqqətlə yanaşmaq. Çox şadam ki, bunların hamısı Yevlaxda həyata keçirilir. Yeni rəhbərliyə, yevlaxlılara bu işdə yeni uğurlar arzulayıram.

Bu siyasətin təməli 1993-cü ildə qoyulmuşdur. Əgər həmin ildə bu inkişaf xətti götürülməsəydi, bu gün Azərbaycan çox çətin vəziyyətdə olardı. O illərdə ölkəmizin ən çətin problemləri həll edilirdi. Sabitliyin bərpa olunması, asayişin qorunub saxlanılması və eyni zamanda, ən mühüm problem kimi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesləri başlanmışdı. O zaman dövlət müstəqilliyimiz təhlükə altında idi. Heydər Əliyevin titanik səyləri nəticəsində bütün bu məsələlərin həlli istiqamətində böyük addımlar atıldı. Azərbaycan, demək olar ki, 1996-cı ildən bu çətinlikləri arxada qoymuşdur. Həmin ildən ölkə dinamik şəkildə inkişaf etməyə başladı.

Biz bu gün gələcəyə çox nikbinliklə baxırıq. Gələcəyimiz çox parlaq olacaqdır. Ölkəmiz inkişaf edəcək, güclənəcək, Azərbaycan üçün ən ağır problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapacaqdır. Mən buna əminəm. Bizim işimiz haqq işidir. Biz ədaləti müdafiə edir, ərazi bütövlüyümüzü bərpa etmək istəyirik. Çalışırıq ki, bu münaqişə beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə öz həllini tapsın. Amma, eyni zamanda, biz bütün digər hadisələrə də hazır olmalıyıq. Bizim heç bir ölkənin torpağında gözümüz yoxdur, öz torpaqlarımızı da heç kimə verməyəcəyik. Biz öz doğma torpaqlarımızı azad edəcəyik. İstəyirik bunu sülh yolu ilə edək. Əgər bu mümkün olmazsa, bütün başqa vasitələrdən istifadə edib doğma torpaqlarımızı azad edəcəyik.

Qarşıda duran bütün vəzifələri yerinə yetirmək üçün Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu siyasət bu gün də Azərbaycana lazımdır, sabah da lazım olacaqdır. Mən seçkilərdən əvvəl bu siyasətə sadiq olacağımı və ondan dönməyəcəyimi demişdim. İndi siz görürsünüz ki, mən, həqiqətən, bu siyasətə sadiqəm və bir addım da geriyə çəkilməyəcəyəm. Biz yalnız irəliyə və yeni qələbələrə doğru addımlayacağıq.

Əziz yevlaxlılar, bu meydana və prospektə xalqımızın ümummilli lideri Heydər Əliyevin adının verilməsi münasibətilə mən sizi bir daha ürəkdən təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

## MİNGƏÇEVİRDƏ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ QƏSƏBƏNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*8 iyun 2004-cü il*

Əziz bacılar və qardaşlar!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və bu gün bu qəsəbənin açılışı münasibətilə səmimi qəlbdən təbrik edirəm. Bu qəsəbənin tikintisində iştirak etmiş Yaponiya hökumətinə, Asiya İnkişaf Bankına, "Dünyaya baxış" beynəlxalq humanitar təşkilata və digər qurumlara və şəxslərə öz minnətdarlığımı bildirmək istəyirəm.

Yaponiyanın səfiri hörmətli cənab Toşiyuki Fucivara öz çıxışında qeyd elədi ki, Yaponiya ilə Azərbaycan arasında münasibətlər çox uğurla inkişaf edir. Mən bu fürsətdən istifadə edib Azərbaycana göstərdiyi təmənnasız yardımlara, ayırdığı kreditlərə görə Yaponiya hökumətinə bir daha öz təşəkkürümü bildirirəm.

Yaponiya hökuməti Azərbaycana 50 milyon dollar həcmində təmənnasız kömək göstərmişdir. Eyni zamanda, Azərbaycana ən çox kredit ayıran ölkə də məhz Yaponiyadır. Azərbaycanda həyata keçirilən müxtəlif layihələrə 300 milyon dollardan çox kreditlər ayırmışdır. Bütün digər təşkilatlar da, beynəlxalq humanitar təşkilatlar da Azərbaycanda ən çətin, ən ağır vəziyyətdə yaşayan qaçqınlara, köçkünlərə öz köməklərini göstərirlər.

Bu yaxınlarda Bakıda bu məsələyə aid keçirilmiş beynəlxalq konfransda mən öz çıxışımda bunu dedim və beynəlxalq humanitar təşkilatlardan xahiş etdim ki, onlar yardımları davam etdirsinlər, o yardımların həcmini azaltmasınlar. Çünki hələ çətin vəziyyətdə yaşayan insanlarımız buna möhtacdırlar. Hələ ki bu ehtiyac vardır.

Eyni zamanda, bildiyiniz kimi, son illər ərzində ölkədə aparılan siyasətin nəticəsində bu sahədə, sosial məsələlərin həlli istiqamətində də böyük işlər görülmüşdür. Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin göstərişi ilə Azərbaycan Dövlət Neft Fondundan ilk xərclər, vəsaitlər yalnız qaçqınların, köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir. Azərbaycanda imkan yaranan kimi, vəsait əldə edilən kimi ilk xərclər məhz bu istiqamətdə olmuşdur.

Bilirsiniz ki, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra çox çətin vəziyyətə düşmüşdü. Demək olar ki, digər keçmiş sovet respublikaları ilə müqayisədə Azərbaycanın vəziyyəti ən ağır idi. Bir tərəfdən, iqtisadi böhran, digər tərəfdən, Ermənistanın Azərbaycana etdiyi təcavüz, daxildə gedən proseslər, daxili qarşıdurma, vətəndaş müharibəsi Azərbaycanı çox ağır vəziyyətə salmışdı. Demək olar ki, iqtisadiyyat tamamilə dağılmışdı. Təbii ki, iqtisadiyyat belə vəziyyətə düşəndə sosial proqramların həyata keçirilməsi üçün imkan olmur. Yalnız və yalnız Azərbaycanda Heydər Əliyev tərəfindən iqtisadi islahatlar aparılandan sonra ölkəmiz iqtisadi cəhətdən dirçəldi, ayağa qalxdı və son 7 il ərzində çox sürətlə inkişaf edir. Bütün iqtisadi göstəricilər onu göstərir ki, ölkəmiz bölgədə və bütün MDB məkanında qabaqcıl yerlərdədir. Bizim iqtisadi inkişafımız bundan sonra daha da güclü olacaqdır.

Azərbaycanda Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində böyük işlər görülmüşdür. Bu gün səhər Yevlaxda olarkən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi ilə tanış oldum, orada inşa edilən nəhəng nasos stansiyasına da baxdım. Özüm üçün bir daha yəqin etdim ki, Heydər Əliyevin neft strategiyası yaşayır, uğurla həyata keçirilir və qarşımızda duran bütün vəzifələr öz həllini tapır.

Təsəvvür edin, əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin müqaviləsi" imzalanmasaydı, Azərbaycana böyük həcmdə, milyardlarla dollar xarici sərmayə gətirilməsəydi, bu gün xarici şirkətlərlə birlikdə biz öz neftimizi hasil etməsəydik, dünya bazarlarına çatdırmasaydıq, əlbəttə, Azərbaycanda imkanlar çox məhdud olacaqdı. Hökumətin, dövlətin imkanı olmayacaqdı ki, qaçqın-köçkünlər üçün yeni qəsəbələr salsın, əmək haqlarının, pensiyaların səviyyəsini qaldırsın. Yalnız və yalnız bu siyasətin nəticəsində biz bütün bu nailiyyətlərə çata bildik.

Bilirsiniz ki, təxminən altı-yeddi ay əvvəl Biləsuvarda məcburi köçkünlər üçün yeni salınmış qəsəbənin açılışında iştirak etmişdim və bu gün burada deyildiyi kimi, orada və digər çıxışlarımda – seçkilərdən əvvəl və seçkilərdən sonra etdiyim çıxışlarda bəyan etmişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaq, ən çətin vəziyyətdə yaşayan soydaşlarımız gözəl şəraitlə təmin olunacaqlar. Bu, sadəcə olaraq, seçkilərdən əvvəl səslənən bir şüar deyildir. Bu, mənim birmənalı mövqeyimdir, mənim siyasətimdir. Mən heç şübhə etmirəm ki, biz buna nail olacağıq.

Seçkilərdən sonra, fevral ayında mənim imzaladığım sərəncama əsasən, Bərdədə və digər rayonlarda çadır şəhərcikləri ləğv ediləcək və onların əvəzinə Ağdamın işğaldan azad olunmuş ərazisində yeni, gözəl, böyük qəsəbə, demək olar, şəhərcik salınacaqdır. Bu siyasət davam etdiriləcəkdir.

Bizim strateji xəttimiz ondan ibarətdir ki, sosial cəhətdən ən az müdafiə olunan qaçqınlara, köçkünlərə daim diqqət, qayğı göstərilməlidir.

Bizim imkanlarımız artır, Azərbaycanın iqtisadiyyatı güclənir və beləliklə, gələcəkdə də bu cür layihələrin həyata keçirilməsi daha sürətlə gedəcək, digər hökumətlər tərəfindən olan yardımlar, qaçqınlara, köçkünlərə göstərilən yardımlar da davam etdiriləcək və bu yardımların miqdarı artacaqdır.

Burada qeyd olundu ki, Azərbaycanın ən ağır problemi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Mən deyərdim ki, bu, indi Azərbaycanın qarşısında duran yeganə problemdir. Çünki bütün digər problemlər həllini ya tapıbdır, ya da tapır. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilibdir, qonşu dövlətlərlə ikitərəfli faydalı əlaqələr qurubdur, iqtisadi cəhətdən Azərbaycan çox sürətlə inkişaf edir. Sizə deyə bilərəm ki, dünyada bəlkə də nadir ölkələrdən biridir ki, Azərbaycanda 7 il ərzində iqtisadiyyat orta hesabla ildə 10 faiz artır, işsizlik problemi öz həllini tapır. Mənim bəyan etdiyim prioritet məsələ – Azərbaycanda işsizliyin aradan qaldırılması siyasəti öz nəticələrini tapır. Seçkilərdən keçən 7 ay ərzində 30 min iş yeri açılıbdır. Bu proses davam edir. Neft strategiyamız uğurla həyata keçirilir. Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilir və gələn ilin əvvəllərində istismara veriləcəkdir. Bakı–Tbilisi–Ərzurum qaz kəməri inşa ediləcəkdir və beləliklə, Azərbaycanın həm nefti, həm də qazı dünya bazarlarına çatdırılacaq, ölkəyə böyük həcmdə, milyardlarla dollar maliyyə vəsaiti daxil olacaqdır. Təbii ki, bu, bizə qarşımızda duran bütün məsələləri həll etməyə imkan verəcəkdir. Yəni mən Azərbaycanın qarşısında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemindən başqa ciddi bir əngəl, problem görmürəm.

Bilirsiniz ki, bu problemin həlli istiqamətində çoxdandır danışıqlar gedir. Hələlik danışıqların heç bir nəticəsi olmamışdır. Düzdür, atəşkəs rejimi bizə imkan verdi ki, iqtisadiyyatımızı gücləndirək, Azərbaycanı inkişaf etdirək. İndi baxın, özünü bu münaqişədə elə bil ki, üstünlük əldə etmiş tərəf hesab edən Ermənistanın iqtisadi vəziyyəti nə gündədir, Azərbaycanın iqtisadiyyatı necədir? Əlbəttə, aramızda olan uçurum çox böyükdür və bu uçurum getdikcə dərinləşəcək, genişlənəcəkdir. Ermənistan heç vaxt Azərbaycanla iqtisadi və digər sahələrdə inkişafda rəqabət apara bilməyəcəkdir. Əldə edilmiş atəşkəs Azərbaycana böyük xeyirlər gətirdi. Amma eyni zamanda, məsələ hələ öz həllini tapmır.

Son aylar ərzində etdiyim bütün xarici səfərlərdə – həm ölkələrə səfərlərdə, həm də beynəlxalq təşkilatlara səfərlərimdə bu məsələ daim diqqət mərkəzində olmuşdur. Çox sevindirici haldır ki, dünyanın aparıcı ölkələri, onların rəhbərləri artıq birmənalı şəkildə bu məsələdə Azərbaycanı dəstəkləyirlər. Daha doğrusu, haqqı, ədaləti dəstəkləyirlər. Bu məsələ yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Bu o deməkdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və bərpa ediləcəkdir. Mən ümid edirəm ki, beynəlxalq təşkilatların fəallığı ilə biz bu məsələyə son qoya bilərik.

Ancaq bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq, bu məsələdə heç bir güzəştə getməyəcəkdir. Bu məsələ yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapacaqdır. Biz istəyirik bunu sülh yolu ilə həll edək. Hələ ki danışıqlar prosesi davam edir. Deyə bilərəm ki, imkanlar tükənməyibdir. Amma, eyni zamanda, hər an hazır olmalıyıq ki, bu məsələni bütün başqa yollarla, nəyin bahasına olursa-olsun, Azərbaycanın xeyrinə həll edək. Mən buna inanıram.

Azərbaycanın mövqeləri güclənir. Azərbaycanın dünyada nüfuzu artır. Azərbaycan qüdrətli dövlətə çevrilir. Artıq bütün dünya bilir ki, Ermənistan təcavüzkar, işğalçı dövlətdir. XXI əsrdə belə bir damğa ilə yaşamaq ölkəyə şərəf gətirmir. Sizə deyə bilərəm ki, müxtəlif ölkələrə etdiyim səfərlərdə, Avropa Şurasına, Avropa Birliyinə, NATO-ya, yəni dünyanın aparıcı təşkilatlarına etdiyim səfərlərdə gördüm ki, Azərbaycanın mövqeyi daha çox dəyər qazanır, Azərbaycanın haqlı mövqeyi daha da çox dəstəklənir.

Mən inanıram ki, biz bu məsələni həll edə bilərik. Bizim torpaqlarımız azad olunacaqdır və siz, əziz bacılar, qardaşlar, öz torpaqlarınıza qayıdacaqsınız. Bilin ki, mənim fəaliyyətimdə bu məsələ prioritet məsələdir və demək olar ki, hər gün bu məsələ ilə məşğul oluram, müxtəlif məsələlər müzakirə olunur. Ümid edirəm ki, biz buna nail olacağıq.

Bu gün bu gözəl qəsəbə sizin sərəncamınıza verilir. Mən ümid edirəm ki, siz burada xoşbəxt yaşayacaqsınız. Amma onu da hamımız bilməliyik ki, bu, müvəqqəti bir yaşayış məntəqəsidir. Bu, bizim siyasətimizin bariz nümunəsidir. Qaçqınların, köçkünlərin həyat səviyyəsini yaxşılaşdırmaq mənim bəyan etdiyim siyasətin əsas istiqamətlərindən biridir.

Bu gün bu məsələ burada öz təzahürünü tapır. Yəni sizin həyat şəraitiniz yaxşılaşır. Amma bu, o demək deyildir ki, siz burada daimi yaşayacaqsınız. Yox, siz burada müvəqqəti məskunlaşırsınız. Torpaqlarımız azad olunandan sonra mən buraya, sizə bir də qonaq gələrəm və bir yerdə Qarabağa gedərik.

Sizi bir daha ürəkdən salamlayıram, öz dərin hörmət və məhəbbətimi bildirirəm. Arzu edirəm ki, siz burada xoşbəxt yaşayasınız, doğma Azərbaycanımıza xidmət edəsiniz. Biz hamımız – Azərbaycanın hər bir vətəndaşı çalışmalıdır ki, ölkəyə xeyir versin, öz fəaliyyəti, işi ilə ümumi işimizə öz töhfəsini versin. Mən şübhə etmirəm ki, bu, belə də olacaqdır.

Sağ olun, salamat qalın!

* * *

*İyunun 8-də Azərbaycan prezidenti İlham Əliyev Mingəçevirdəki Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasına – Azərbaycan DRES-ə gəldi. Burada «Heydər Əliyev muzeyi» ilə yaxından tanış oldu.*

**İlham Əliyevin muzeyin xatirə kitabına yazdığı ürək sözləri:**

«*Azərbaycanın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Azərbaycan DRES bu gün iqtisadiyyatımıza xidmət edir. Bütün digər sahələrdə olduğu kimi, energetika sektorunda da görülən böyük işlər, əldə edilən uğurlar Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Heydər Əliyev siyasəti yaşayır, davam etdirilir. Doğma Azərbaycanımızın xoşbəxt gələcəyi bu şəxsiyyətlə bağlıdır. Azərbaycan DRES-də çalışan bütün əməkdaşlara yeni uğurlar arzulayıram.*

***İLHAM ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

*8 iyun 2004-cü il».*

## MİNGƏÇEVİR ŞƏHƏR İCRA HAKİMİYYƏTİNDƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*8 iyun 2004-cü il*

Hörmətli müşavirə iştirakçıları!

Bu gün artıq bir neçə saatdır ki, mən Mingəçevirdəyəm. Burada müxtəlif tədbirlərdə iştirak etdik, ölkəmizdə ən çətin vəziyyətdə yaşayan qaçqın və köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üçün tikilmiş yeni qəsəbənin açılış mərasimində iştirak etdik.

Mingəçevirdə fəaliyyət göstərən özəl müəssisələrdə olduq, eyni zamanda, avarçəkmə bazasında və digər yerlərdə görüşlər keçirdik. Çox sevindirici haldır ki, Mingəçevir inkişaf edir, yaşayır, burada özəl sektor möhkəmlənir, yeni iş yerləri açılır. Ölkəmizin enerji təhlükəsizliyini təmin edən, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmuş Azərbaycan DRES-i də uğurla fəaliyyət göstərir. Biz orada mövcud vəziyyətlə tanış olduq və qeyd etdik ki, bu stansiyada da yenidənqurma, təmir işləri görülməlidir. Burada istehsal olunan elektrik enerjisinin həcmi daha da artmalıdır.

Azərbaycanın hər bir bölgəsi inkişaf edir. Rayon və şəhərlərimizdə canlanma var. Xalqımız bizim apardığımız siyasəti dəstəkləyir və ötən il keçirilmiş prezident seçkiləri bunu bir daha sübut etdi. Seçkilərdən sonra müəyyən addımlar atılmış, regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqram çərçivəsində bütün bölgələrdə böyük işlər görülür. Ölkəmiz çox uğurla inkişaf edir, iqtisadi potensialımız durmadan yüksəlir. Əlbəttə, yaxın gələcəkdə iqtisadiyyatımız daha da güclənəcək və ölkəmiz daha zəngin olacaqdır. Bütün bunlar bizi çox sevindirir.

Bu gün isə biz Mingəçevirdəyik və əlbəttə ki, buradakı vəziyyətlə yaxından tanış olduq. Amma daha dolğun məlumat əldə etmək üçün sizinlə bu müşavirəni keçirmək qərarına gəldim.

Əziz dostlar!

Bu gün burada şəhər icra hakimiyyəti başçısının məlumatını dinlədik.

Şəhərdə gedən proseslər haqqında məlumat verildi. Eyni zamanda, iqtisadi inkişaf naziri ölkə iqtisadiyyatında gedən meyllər haqqında məlumat verdi. Azərbaycan üçün ən mühüm sahə olan energetika sektorundakı vəziyyət haqqında Azərenerji Səhmdar Cəmiyyətinin prezidenti məlumat verdi.

Qeyd etməliyəm ki, bütün sahələrdə müşahidə olunan mənzərə çox müsbətdir. Bu da təbiidir. Çünki son 10 il ərzində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən aparılmış siyasət bütün sahələrdə böyük uğurlara, nailiyyətlərə çatmağa imkan vermişdir.

Ötən 10 il ərzində ölkə iqtisadi cəhətdən güclənmiş, iqtisadi potensial daha da artmış, yeni müəssisələr, iş yerləri açılmışdır. Azərbaycan üçün ən böyük əhəmiyyət kəsb edən irimiqyaslı layihələr – Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməyə başlamışdır. Bu tikinti uğurla davam etdirilir. Səhər mən Yevlaxda bunun şəxsən şahidi olmuşam. Bir sözlə, son illər ərzində əldə etdiyimiz uğurlar Azərbaycanın daha da sürətlə inkişafına imkan verir.

Ölkəmizin qarşısında duran mühüm məsələlərdən biri dünyada özünə layiq yer tutmaqdır. Bu məsələ də öz həllini tapmışdır.

Heydər Əliyev diplomatiyasının nəticəsində Azərbaycan dünya birliyində çox dəyərli bir ölkəyə çevrilmişdir. Azərbaycanla hesablaşırlar və ölkəmizin iştirakı olmadan regionda heç bir layihə həyata keçmir. Həm bölgədə, həm də bütün dünyada bizim nüfuzumuz artmışdır.

Ordu quruculuğu sahəsində böyük işlər görülmüşdür.

Bilirsiniz ki, 1993-cü ilə qədər Azərbaycanda, demək olar ki, ordu yox idi. Ayrı-ayrı, heç kimə tabe olmayan silahlı birləşmələr siyasi qrupların təsiri altına düşmüşdülər və bəzi hallarda qeyri-qanuni hərəkətlərə yol verirdilər. Bu sahədə də böyük uğurlar əldə edilmişdir. Azərbaycanın qüdrətli ordusu var. Bu ordu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Azərbaycan öz enerji təhlükəsizliyini möhkəmləndirmişdir. Ölkəmiz bütün başqa sahələrdə, xüsusilə sosial sahədə də böyük uğurlar əldə etmişdir. Bu gün biz bu istiqamətdə əldə olunmuş böyük nailiyyətlərdən danışa bilərik. Ölkəmizdə ən çətin vəziyyətdə yaşayan, sosial cəhətdən ən az müdafiə olunan qaçqınlarımız və köçkünlərimiz də bu gün dövlət qayğısını hiss edirlər, onlar üçün yeni qəsəbələr, şəhərciklər salınır, xəstəxanalar, məktəblər, digər infrastruktur yaradılır. Bu gün biz yeni qəsəbənin açılışında iştirak etdik.

Demək istəyirəm ki, son on ildə ölkənin qarşısında duran ən vacib, ən önəmli məsələlər öz həllini tapmışdır. Bu gün mən burada olarkən bir daha 1970-ci illəri xatırlayıram. Xüsusilə, Azərbaycan DRES-də olarkən həmin illəri xatırladım. Hamımız bilirik ki, bu müəssisə Azərbaycanın mühərrikidir, ölkəmizin döyünən ürəyidir. Azərbaycanı elektrik enerjisi ilə təmin edən nəhəng bir müəssisədir.

Bu müəssisənin yaradılmasında da xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu stansiya məhz Azərbaycanda tikilmişdir. Halbuki, o zaman biz Sovetlər İttifaqında yaşayırdıq və bu müəssisə istənilən yerdə, bizim regionumuzun digər respublikalarında tikilə bilərdi. Heydər Əliyevin uzaqgörənliyi, qətiyyəti, xalqa və millətə olan məhəbbəti bu stansiyanın Azərbaycanda tikilməsinə imkan verdi. Bu gün belə bir stansiyanın tikilməsinə ən azı 2 milyard dollar həcmində vəsait sərf olunardı. Təbii ki, Azərbaycanda belə imkanlar yoxdur. Əgər o vaxt stansiya tikilməsəydi, bu gün Azərbaycan enerji təhlükəsizliyi baxımından çox çətin vəziyyətdə olardı. Biz bu baxımdan ya kimdənsə asılı vəziyyətə düşəcəkdik, yaxud da ümumiyyətlə, elektrik enerjisindən məhrum olacaqdıq. Bu halda, ümumiyyətlə, iqtisadiyyat inkişaf edə bilməzdi.

Digər sahələrdə də o zaman böyük uğurlar qazanılmışdır. Vaxtilə Azərbaycanda böyük neft potensialı, infrastruktur, neft emalı zavodları, xüsusilə bu gün Heydər Əliyevin adını daşıyan neft emalı zavodu yaradılmışdır. Bu zavod məhz onun fəaliyyəti nəticəsində tikilmişdir və bu gün müəssisə ən yüksək standartlara cavab verir, xarici ölkələrə neft məhsulları ixrac edir. Azərbaycanda fəaliyyət göstərən dərin dəniz özülləri zavodu üçün texnologiyanı vaxtilə Heydər Əliyev Fransadan gətirtməsəydi, bu gün ümumiyyətlə platformalar tikilməzdi və indi dənizdə qazma işlərindən söhbət gedə bilməzdi.

Bütün bu məsələlərə diqqət yetirəndə görürsən ki, Azərbaycanın bugünkü uğurlarının təməli məhz 1970-ci illərdə qoyulmuşdu və 1993-cü ildən sonra bu proses davam etdirilmişdir. Düzdür, 1980-ci illərin sonlarında və 90-cı illərin əvvəllərində Azərbaycana rəhbərlik edən səriştəsiz, bacarıqsız və bəzi hallarda xəyanətkar insanlar nə qədər çalışdılarsa, bu infrastrukturu, Heydər Əliyev tərəfindən yaradılmış potensialı dağıda bilmədilər. Amma ölkə çox çətin vəziyyətə düşmüşdü. İqtisadiyyat dağılmışdı, iqtisadi böhran hökm sürürdü. Ölkə iqtisadiyyatı tənəzzülə uğrayırdı. Ancaq xalq yenidən müdrikliyini göstərdi, öz milli liderinə üz tutdu. Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə qayıtdığı vaxt çox çətin vəziyyət idi. Məhz onun səyləri nəticəsində biz bütün sahələrdə inkişafa nail olduq. Bu gün bizim vəzifəmiz ondan ibarətdir ki, yaradılmış potensialı gücləndirək, artıq həyatda öz təsdiqini tapmış bu meylləri daha da sürətləndirək, dünya birliyinə daha sürətlə inteqrasiya edək, ölkəmizin iqtisadi potensialını daha da gücləndirək, ehtiyac içində olan soydaşlarımıza kömək edək, sosial proqramları həyata keçirək, qaçqınlara və köçkünlərə yardım göstərək. Bütün sahələrdə işlər aparılır. Bu gün çox sevinirəm ki, mənim seçkilərdə bəyan etdiyim proqramlar həyatda öz təsdiqini tapdı.

Azərbaycan beynəlxalq aləmdə çox uğurlu siyasət aparır. Dünyanın aparıcı ölkələri, nüfuzlu beynəlxalq təşkilatları açıq şəkildə Azərbaycanı dəstəkləyirlər. İqtisadi inkişaf baxımından bu ilin birinci rübündə iqtisadiyyatımız 10 faiz artmışdır. Yeni iş yerlərinin açılması istiqamətində böyük işlər görülmüşdür. İqtisadi inkişaf naziri bu rəqəmi dedi, son 6-7 ay ərzində 30 minə yaxın iş yeri açılmışdır. Yəni biz doğru yoldayıq. Bütün səylərimizi bir istiqamətə yönəltməliyik - Azərbaycanı hərtərəfli inkişaf etdirmək, iqtisadiyyatımızı şaxələndirmək, neft amilindən istifadə edib iqtisadiyyatın digər sahələrini inkişaf etdirmək.

Təbii ki, burada dövlətin üzərinə düşən vəzifələr vardır, ancaq özəl sektorun və yerli icra orqanlarının üzərlərinə də mühüm vəzifələr düşür. Bütün bu qurumlar, tərəflər birgə fəaliyyət göstərməlidir. Dövlət tərəfindən müvafiq işlər görülür, proqramlar qəbul edilmişdir. Bu gün Mingəçevirdə regional proqram həyata keçirilir. Burada səslənən məlumatlar onu göstərir ki, artıq yeni iş yerləri açılır. Mən bu gün "Azərkabel" zavodunda istehsalla yaxından tanış oldum. Bu istehsal yaxın gələcəkdə beynəlxalq standartlara cavab verəcəkdir və müəssisənin bazarı da vardır. Zavodda artıq 200-dək işçi çalışır və gələcəkdə bir neçə milyon dollar investisiya qoyulduqdan sonra istehsal da artacaqdır. Mingəçevirdə fəaliyyət göstərən digər müəssisələr də işə başlamalıdır və əminəm ki, onların fəaliyyəti bərpa olunacaqdır.

Beləliklə, həm iqtisadi inkişaf baxımından, həm sosial məsələlərin həlli istiqamətində biz bütün qarşıda duran vəzifələrə çatacağıq. Qaçqınların və köçkünlərin sosial məsələləri öz həllini tapır. Mənim imzaladığım fərmanların əsasında yeni qəsəbə və şəhərciklər salınacaqdır. Bu da Heydər Əliyev siyasətinin davamıdır. Çünki bu siyasət onun tərəfindən başlanmışdır. Neft Fondunun hesabından ilk ödəmələr məhz Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqınların şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdir. ümidvaram ki, bütün məsələlər öz həllini tapacaq, Azərbaycan iqtisadi cəhətdən güclənəcək, yeni iş yerləri açılacaqdır. Əminəm ki, biz bəyan etdiyimiz rəqəmə çatacağıq və bunun üçün bütün imkanları səfərbər edəcəyik.

Özəl sektora və sahibkarlara mütləq və mütləq böyük diqqət göstərilməlidir. Lüzumsuz yoxlamalar aparılmamalı, əksinə, dövlət, yerli icra orqanları, eyni zamanda, hüquq-mühafizə orqanları sahibkarlara yardım etməli, qayğı göstərməlidirlər. İqtisadiyyat bu yolla inkişaf edəcəkdir. Biz bütün bunları bəyan etmişik və ardıcıl surətdə həyata keçiririk. Ölkəmizin iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etməlidir. Dünya təcrübəsi göstərir ki, yalnız və yalnız bazar iqtisadiyyatı hər bir ölkəyə xeyir gətirə bilər. Biz əvvəllər başqa ictimai quruluşda yaşamışıq və həmin quruluşun iqtisadi cəhətdən o qədər də mükəmməl olmadığını görmüşük. Amma dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında qurulmuşdur. Biz də bu prinsiplərin tərəfdarıyıq və bunu həyata keçirmək üçün özəl sektor, orta təbəqə güclənməlidir. Mən şadam ki, bu gün verilən məlumata görə, Mingəçevirdə bu məsələyə çox böyük diqqətlə yanaşırlar. İcra hakimiyyətinin başçısı və burada görüşdüyüm sahibkarlar mənə bildirdilər ki, onların fəaliyyəti icra orqanları tərəfindən dəstəklənir. Mən buna şadam və ümid edirəm ki, bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Azərbaycanın hər yerində özəl sektora, sahibkarlara böyük diqqət göstərilməlidir.

Bizim siyasətimizin əsas prioritetlərindən biri də sosial məsələlərin həllidir. Bazar prinsipləri üzərində qurulmuş iqtisadiyyat o demək deyil ki, bəzi ölkələrdəki kimi bizdə də sosial məsələlərə diqqət göstərilməsin. Əksinə, bizim dövlət büdcəmizin ən böyük hissəsi məhz sosial məsələlərin həllinə sərf olunur. Bu siyasət gələcəkdə də davam etdiriləcəkdir. Çünki bizim məqsədimiz ondadır ki, hər bir vətəndaş, hər bir şəxs daha yaxşı yaşasın. Bizim bütün iqtisadi göstəricilərimiz yüksək səviyyədədir. Amma elə etməliyik ki, hər bir vətəndaş bu müsbət meylləri öz gündəlik həyatında hiss etsin.

Ona görə sosial məsələlərə – əmək haqlarının, pensiyaların artırılması ilə bağlı məsələlərə böyük diqqət göstərilir, xüsusi proqramlar hazırlanıbdır. Əminəm ki, qarşımızda duran bütün məsələlər öz həllini tapacaqdır. Bugünkü dünyada ancaq iqtisadiyyatı güclü olan ölkələr uğur qazana bilərlər. Azərbaycanın bu baxımdan çox gözəl perspektivləri vardır. Təbii sərvətlərimiz, peşəkar kadrlarımız, çox güclü kadr potensialımız vardır. Əlbəttə ki, son on ildə yaradılmış iqtisadi potensial bütün bunlara imkan verir. Heç kim üçün sirr deyildir ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşdükdən sonra ölkəmizin maliyyə imkanları daha da genişlənəcək və bu, bizə ölkəmizi daha səmərəli şəkildə və hərtərəfli inkişaf etdirməyə kömək edəcəkdir.

Mən vaxtınızı çox almaq istəmirəm. Çünki bayırda 35 dərəcə isti var. Amma sizdən ayrılmaq da istəmirəm. Mənə göstərilən münasibətə və Mingəçevirdə gördüyüm qonaqpərvərliyə görə bir daha sizə minnətdarlığımı bildirirəm. Eyni zamanda, fürsətdən istifadə edərək, prezident seçkilərində mənə dəstək verdiyinizə görə, mənə səs verdiyiniz üçün sizə təşəkkürümü bildirirəm.

Mənim üçün ən böyük qiymət xalqın, insanlarımızın münasibətidir. Çalışıram ki, bu etimadı doğruldum. Görəndə ki, buna müvəffəq oluram, çox sevinirəm. Seçkilərdən sonra Azərbaycanda bütün istiqamətlərdə böyük uğurlar əldə olunmuşdur. Ölkəmizdə sabitliyi pozmaq istəyən qüvvələr öz layiqli cəzalarını alıblar. Biz heç vaxt imkan verməyəcəyik ki, Azərbaycanda yenidən xaos, anarxiya, hərc-mərclik yaransın, insanlarımızın həyatı yenidən təhlükə altına düşsün. Nəyin bahasına olursa-olsun, Azərbaycan dövləti və dövlətin başçısı bütün bu xoşagəlməz meyllərin qarşısını alacaqdır. Artıq bunun qarşısı alınıbdır. Azərbaycan xalqı seçkilərdən sonra bir daha gördü ki, yalnız və yalnız Heydər Əliyev siyasəti davam etdirilməlidir. Əks təqdirdə, ölkəmiz yenidən böyük bəlalarla üzləşə bilər.

Çox sevinirəm ki, iqtisadi inkişaf davam edir, sosial məsələlər öz həllini tapır, orduya böyük kömək və diqqət göstərilir, beynəlxalq aləmdə Azərbaycanın haqq səsi eşidilir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunur və müvafiq dövlətlər və beynəlxalq təşkilatların mövqeyi artıq daha çox ədaləti əks etdirir. Çünki hər bir insan, – əgər o qərəzli deyilsə – hər bir təşkilat açıq-aşkar görür ki, Azərbaycan bu məsələdə zərərçəkən dövlətdir, Azərbaycanın torpaqları işğal altındadır, Azərbaycana təcavüz edilibdir. Biz əminik ki, bu məsələni həll edəcəyik. Başqa cür ola da bilməz. Azərbaycan xalqı heç vaxt öz torpaqlarının itirilməsi ilə barışmayacaqdır. Mən bunu bütün lazımi səviyyələrdə dəfələrlə açıq-aydın bəyan etmişəm.

Biz tam qətiyyətlə deyə bilərik ki, son altı-yeddi ay ərzində bütün istiqamətlərdə Heydər Əliyev siyasəti yaşayır, davam edir və Azərbaycana, xalqımıza böyük fayda gətirir və bundan sonra da gətirəcəkdir.

Mən bir daha sizi salamlamaq istəyirəm. Bizim görüşlərimiz hələ çox olacaqdır, Mingəçevirdə hələ çox müəssisələr açılacaq və mən bu açılışlarda iştirak edəcəyəm. Bu gün baxdığımız avarçəkmə bazası yaxın zamanlarda bərpa olunacaq, oraya böyük sərmayələr qoyulacaq və biz bu obyekti ən yüksək dünya standartları səviyyəsinə çatdıracağıq. Mən onun və digər müəssisələrin açılışına gələcəyəm. Amma hələlik mən sizdən ayrılıram, sizə öz minnətdarlığımı bildirirəm və ümidvaram ki, mingəçevirlilər həmişə olduğu kimi, yenə də Azərbaycanın müstəqilliyinə öz töhfəsini verəcək, ölkəmizin iqtisadi potensialını gücləndirəcək, Azərbaycanın bayrağını yüksək tutacaqlar.

**AMERİKA–TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ PREZİDENTİ ƏRCÜMƏNT QILINCIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*9 iyun 2004-cü il*

**İ l h a m Ə l i y e v**: Əziz dostlar, hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Siz artıq bir neçə gündür ki, Azərbaycandasınız, ölkəmizlə tanış olursunuz. Amerika Türk Assosiasiyaları Assambleyası dünyada böyük nüfuza malik, Türkiyə–Amerika əlaqələrinin inkişafında böyük rolu olan bir təşkilatdır. Biz sizin fəaliyyətinizi maraqla izləyirik və əldə olunan uğurlara da sevinirik.

Bu ilin yanvar ayında keçirilən qurultayda Azərbaycan nümayəndə heyəti də iştirak edirdi. Eşitdiyimə görə, çox fəal iştirak edirdi. Biz çox istəyirik ki, Azərbaycanla sizin təşkilat arasında əməkdaşlıq inkişaf etsin, genişlənsin.

Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin qərarı ilə ölkəmizdə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi yaradılmışdır. Bu komitə çox fəal işləyir və böyük işlər görür.

Bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasında münasibətlər bütün dövrlərdə çox mehriban olubdur. Biz qardaş ölkəyik. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra onu ilk tanıyan Türkiyə dövləti olubdur. Son 10 il ərzində Türkiyə ilə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyəyə qalxmışdır. Bu münasibətlərin xalqlarımıza çox böyük faydası olmuşdur. Türkiyə ilə Azərbaycan birlikdə bölgədə böyük iqtisadi nəqliyyat layihələri həyata keçirir. Biz daim beynəlxalq təşkilatlarda bir-birimizə kömək edirik, dəstək veririk. Bu yaxınlarda Türkiyəyə etdiyim rəsmi səfərim bizim nə qədər yaxın olmağımızı bir daha təsdiqlədi. İndi biz çalışmalıyıq ki, Türkiyə ilə Azərbaycan arasında olan münasibətləri, qardaşlıq əlaqələrini daha da genişləndirək.

Azərbaycanın Amerika ilə də münasibətləri çox yüksək səviyyədədir. Həm iqtisadi, həm siyasi, həm də digər sahələrdə əməkdaşlığımız çox uğurludur. Azərbaycan Amerika üçün çox etibarlı bir tərəfdaşdır. Keçən on il ərzində biz təkcə bəyanatlarla deyil, əməli-praktiki addımlarla bu siyasətə sadiq olduğumuzu sübut etdik. Biz bu münasibətlərin genişlənməsində maraqlıyıq və ikitərəfli münasibətlər son illər ərzində çox yüksək səviyyəyə gəlib çatmışdır.

Bu yaxınlarda ABŞ Konqresində Amerika–Azərbaycan işçi qrupunun yaradılmasından danışan prezident İlham Əliyev dedi ki, bu, çox böyük nailiyyətdir, uğurdur. Konqresdə bir neçə ölkə belə bir nailiyyətə gəlib çatıbdır. O cümlədən Azərbaycan. Bu da müsbət bir haldır.

İstəyirik ki, bizim nailiyyətlərimiz, Azərbaycan haqqında həqiqətlər, eyni zamanda, Konqresdə də səslənsin. Çünki 1992-ci ildə Azərbaycana tətbiq edilən ədalətsiz 907-ci düzəliş hələlik qüvvədədir. Baxmayaraq ki, Amerika prezidenti tərəfindən bu düzəliş dayandırılıb, amma eyni zamanda, bu, tamamilə ləğv edilməyibdir. Bunun nəticəsində Azərbaycan uzun illər Amerika hökumətinin birbaşa yardımından məhrum olmuşdur. Bu düzəliş Amerikada, xüsusilə Konqresdə fəaliyyət göstərən erməni lobbisi tərəfindən o vaxt tətbiq edilmişdir.

Bilirsiniz ki, erməni lobbisi Azərbaycana qarşı Amerikada çox böyük işlər aparır. Bu düzəliş də həmin işlərin biri idi.

Biz çalışırıq ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll edək. Amma əfsuslar olsun ki, hələlik nəticə yoxdur. Hamı bilməlidir, o cümlədən Amerika ictimaiyyəti də bilməlidir ki, bu münaqişədə zərər çəkən tərəf Azərbaycandır. Bizim torpaqlarımız işğal altına düşmüşdür. Bu işğalın nəticəsində bir milyondan artıq soydaşımız qaçqın, köçkün vəziyyətinə düşübdür.

Mən dünən Mingəçevir şəhərində qaçqınlar və məcburi köçkünlər üçün yeni salınmış qəsəbənin açılışında iştirak edirdim. Biz çalışırıq ki, onların yaşayış səviyyəsini qaldıraq, müvəqqəti olaraq məskunlaşdıraq, normal şəraitlə təmin edək. Onlar üçün yeni evlər tikilir, qəsəbələr salınır. Əlbəttə, bunlar müvəqqəti xarakter daşıyır. Bizim istəyimiz ondan ibarətdir ki, beynəlxalq hüquq normaları öz əksini tapsın, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan çəkilsinlər. Bu istiqamətdə böyük işlər aparılır.

Əlbəttə, bizim bütün dostlarımızın bu istiqamətdə fəaliyyəti bizə böyük kömək, dəstək olacaqdır.

**Ə r c ü m ə n t Q ı l ı n c:** Səmimi qəbula görə dərin minnətdarlığımızı bildiririk. Azərbaycan prezidenti ilə görüşmək bizim üçün bir neçə səbəbdən çox önəmlidir. Birincisi, hamımız çox həyəcanlıyıq. Sizin bizi qəbul etməyiniz hamımız üçün çox böyük şərəfdir. İkincisi, biz Atatürkü sevənləri görəndə deyirik ki, onların hüzurunda olmaq Atatürkü yad etmək kimidir. O cümlədən eyni şəkildə burada Sizi görməklə bərabər, rəhmətlik ata-

nızı, türk dünyasının böyük lideri Atatürklə bərabər tutduğumuz Heydər Əliyevi qarşınızda bir daha anır, ona Allahdan rəhmət diləyirik.

Rəhbərlik etdiyim Assambleyanın fəaliyyəti türkdilli ölkələrə səfərlər etmək, bu ölkələrin xalqları, onların həyat və məişətləri, qarşılıqlı əlaqələri öyrənmək məqsədini güdür. Elə buna görə də biz Azərbaycana ikinci dəfə səfər etdik.

Son illər Azərbaycanda baş vermiş çox müsbət dəyişiklikləri görməkdən məmnun qaldığımı söyləmək istəyirəm. Azərbaycandakı dəyişikliyi biz hələ təyyarədə olarkən gördük. Yanan işıqlardan, hava limanından, otellərdən gördük. Dörd gündür ki, bunların şahidiyik. Bunlar bizi son dərəcə məmnun edir.

Mən Azərbaycanın demokratiya sahəsindəki inkişafı, bazar iqtisadiyyatına keçmək yolunda qazandığı uğurları, dünya siyasətində göstərdiyi cəsarəti, sülhyaratma əməliyyatlarında iştirakı, ölkənizin dünyada öz layiqli yerini tutmasının son dərəcə sevindirici olduğunu vurğulayıram, bütün bunları Amerikada təbliğ etdiklərimizi bildirirəm.

Biz son zamanlar amerikalı deputatlarla yaxşı əlaqələr qurur, bütün deputatlara Azərbaycanı, Qarabağı anladırıq. Qarabağ Sizin yaranız olduğu qədər bizim də yaramızdır. Amerikada yaşayan 300 minlik türk adından və 20 minlik üzvümüz adından Sizi əmin edirik ki, bu yolda əlimizdən gələni edirik və bundan sonra da edəcəyik. Sizə fəaliyyətinizdə uğurlar arzulayır, inşallah, Azərbaycanı dünyada daha yüksəkdə görmək istəyirik və bir çox mühüm işlərin görüləcəyinə əminik.

## ABŞ-ın 40-cı PREZİDENTİ RONALD REYQANIN VƏFATI İLƏ ƏLAQƏDAR BU ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ QOYULMUŞ MATƏM KİTABINA YAZDIĞI BAŞSAĞLIĞI SÖZLƏRİ

*9 iyun 2004-cü il*

«XX əsrin görkəmli dövlət və siyasi xadimi, Amerika Birləşmiş Ştatlarının 40-cı prezidenti Ronald Reyqanın ölüm xəbəri məni dərindən kədərləndirdi. Amerikanın bu kədərli günündə mən Amerika xalqına, mərhum prezidentin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

Ronald Reyqan böyük siyasətçi və böyük prezident idi. Həm beynəlxalq birlik, həm də ki, ABŞ xalqı qarşısında onun xidmətləri böyükdür. Onun əziz xatirəsi dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla insanın qəlbində əbədi yaşayacaqdır.

Allah rəhmət eləsin!

***İLHAM ƏLİYEV***

***Azərbaycan Respublikasının Prezidenti***

*9 iyun 2004-cü il*».

* * *

*Azərbaycan prezidenti İlham Əliyev ABŞ-ın ölkəmizdəki müvəqqəti işlər vəkili xanım Nensi Makeldauni ilə söhbətində sabiq prezident Ronald Reyqanın vəfatı ilə əlaqədar dərindən kədərləndiyini bir daha bildirərək başsağlığı verdi.*

**İSLANDİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB**
**OLAVUR RAQNAR QRİMSSONA**

Hörmətli cənab Prezident!

İslandiya Respublikasının milli bayramı – Respublika elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İslandiya arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İslandiya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2004-cü il*

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU**
**ƏLAHƏZRƏT ANRİYƏ**

Əlahəzrət!

Lüksemburq Böyük Hersoqluğunun milli bayramı – Böyük hersoqun təvəllüd günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Lüksemburq arasında mövcud dostluq münasibətlərinin inkişafı üçün səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Lüksemburq xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2004-cü il*

**LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN**
**BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB JAN-KLOD YUNKERƏ**

Hörmətli cənab Baş nazir!

Lüksemburq Böyük Hersoqluğunun milli bayramı – Böyük hersoqun təvəllüd günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı əlaqələrin genişlənməsi daim xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2004-cü il*

**CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSMAİL ÖMƏR QULLEHƏ**

Hörmətli cənab Prezident!

Cibuti Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Cibuti xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2004-cü il*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB STEPAN MESİÇƏ**

Hörmətli cənab Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətin elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Xorvatiya əlaqələrinin genişlənməsi istiqamətində səylərimiz bundan sonra da xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2004-cü il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YANEZ DRNOVŞEKƏ**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının Milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Sloveniya arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin genişlənməsi üçün səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2004-cü il*

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JOAKİM ALBERTU ÇİSSANOYA**

Hörmətli cənab Prezident!

Mozambik Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mozambik arasında təşəkkül tapmış xoş münasibətlər xalqlarımızın mənafeyi naminə daim inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mozambik xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 iyun 2004-cü il*

**AZƏRBAYCAN PREZİDENTİ
İLHAM ƏLİYEVİN GÜRCÜSTANA
DÖVLƏT SƏFƏRİ**

*14 iyun 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Gürcüstan prezidenti Mixail Saakaşvilinin dəvəti ilə Tbilisiyə dövlət səfərinə gəlmişdir.*

*Azərbaycanın və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Tbilisi hava limanında prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Gürcüstan prezidenti Mixail Saakaşvili və xanımı Sandra Elizabet Rulofs təyyarənin pilləkəni yanında səmimiyyətlə qarşıladılar.*

*Milli geyimli uşaqlar Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim etdilər.*

*Gürcüstanın rəsmi şəxsləri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Gürcüstan prezidenti Mixail Saakaşviliyə təqdim olundular.*

*Azərbaycanın və Gürcüstanın dövlət himnləri səsləndi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ

*14 iyun 2004-cü il*

*Gürcüstan Dövlət Dəftərxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti Mixail Saakaşvilinin təkbətək görüşü oldu.*

*Dövlət başçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən möhkəm təməli qoyulmuş qarşılıqlı siyasi əlaqələrin yüksək səviyyəsindən razı olduqlarını vurğuladılar. Bildirildi ki, ölkələrimiz arasında münasibətlər bütün sahələrdə uğurla inkişaf edir, əmtəə dövriyyəsinin həcmi ildən-ilə artır.*

*Görüşdə bütün sahələrdə ikitərəfli əməkdaşlığın daha da dərinləşdirilməsi məsələləri, regionda və dünyada təhlükəsizlik problemləri barədə ətraflı fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan və Gürcüstan prezidentlərinin təkbətək görüşü başa çatdıqdan sonra Azərbaycan və Gürcüstan prezidentlərinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Danışıqlarda ikitərəfli münasibətlərin inkişafının yüksək səviyyəsindən məmnunluq ifadə olundu, beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edildiyi vurğulandı. İki ölkə arasında əmtəə dövriyyəsinin ildən-ilə artması Azərbaycan–Gürcüstan iqtisadi əlaqələrinin yüksək səviyyədə olduğunu göstərən müsbət amil kimi qeyd edildi. Eyni zamanda, əmtəə dövriyyəsinin daha da artırılması ilə bağlı məsələlər nəzərdən keçirildi.*

*Danışıqlar zamanı sərhəd-buraxılış məntəqələrinin işini təkmilləşdirmək məsələləri, habelə nəqliyyat daşımaları üçün tariflərlə bağlı problemlər müzakirə olundu. Bildirildi ki, sərhəd-buraxılış məntəqələrinin işinin təkmilləşdirilməsi sərhədyanı bölgələrin əhalisinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına xidmət edəcəkdir.*

### Görüş başa çatdıqdan sonra ikitərəfli sənədlərin imzalanması mərasimi oldu

*Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Mixail Saakaşvili birgə rəsmi məlumat imzaladılar.*

*Azərbaycan Respublikası hökuməti və Gürcüstan hökuməti arasında energetika sektorunda əməkdaşlığın genişləndirilməsi haqqında, Azərbaycan Respublikasının hökuməti və Gürcüstan hökuməti arasında dəmir yolu nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Gürcüstanın Maliyyə Nazirliyi arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər, Azərbaycan Respublikasının və Gürcüstanın aviasiya xidmətləri arasında, mülki aviasiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsi haqqında protokol, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkəti və Gürcüstan Dövlət Teleradio Korporasiyası arasında əməkdaşlıq haqqında saziş imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*14 iyun 2004-cü il*

**Gürcüstan Prezidenti Mixail Saakaşvilinin bəyanatı**

Cənab prezident!

Mən Sizə, habelə qardaş Azərbaycan xalqına bir daha qardaşlıq salamı ilə müraciət etmək istəyirəm. Müsaidənizlə, bir neçə kəlmə gürcücə deyəcəyəm. Sonra, təbii ki, hamının başa düşdüyü dildə danışacağıq.

Mən bir daha nəzərə çarpdırmaq istəyirəm ki, iqtisadi münasibətlərimiz çox dinamik inkişaf edir.

İlham Heydəroviç, Siz öz ölkənizin prezidenti olduqdan və Gürcüstana yeni hakimiyyət gəldikdən sonra əmtəə dövriyyəsi, əslində, iki dəfə artmışdır. Bu, çox əlamətdar göstəricidir. Çox şadıq ki, Siz qaçaqmalçılıqla apardığımız mübarizəyə rəğbətlə yanaşırsınız. Ona görə də istərdim ki, qonşularımızın hamısı buna rəğbətlə yanaşsınlar. Zənnimcə, bu məsələdə Azərbaycandan nümunə götürmək olar.

Biz bir-birimizin tərəqqi, inkişaf etməsini istəyirik. Bu gün biz dəmir yolu tariflərinin aşağı salınması haqqında mühüm sazişə nail olduq. Bu, yüklərin buraya cəlb edilməsi üçün çox vacibdir. Biz vergi, gömrük tariflərimizi eyniləşdirməyə başlayırıq və maliyyə sistemlərimizi eyniləşdirmək yolu ilə gedirik.

Hesab edirik ki, Azərbaycan bizim üçün, təbii olaraq, mühüm tərəfdaşdır, qardaş, dostdur, həmçinin gələcək inkişafımızın rəhni, əsasıdır.

Gürcüstanda Azərbaycana xüsusi, qardaşcasına münasibət bəslənilir. Bunun təməli keçmişdə qoyulmuşdur – biz tarixən həmişə, xüsusən də ölkələrimiz müstəqilliyə qovuşduqdan sonra dostluq etmişik. Mən Gürcüstanın Azərbaycan üçün əhəmiyyətini gözəl başa düşən, münasibətlərimizin əhəmiyyətini gözəl başa düşən və yeni Azərbaycan dövlətçiliyinin banisi, müasir Azərbaycan millətinin atası olan və təbii ki, öz nümunəsi ilə təkcə azərbaycanlıları deyil, Azərbaycanın qonşularını da ruhlandıran atanız Heydər Əliyevin rolunu ayrıca qeyd etmək istəyirəm. Gürcüstanda onu çox qiymətləndirirdilər və indiyədək də qiymətləndirirlər, regionumuzun möhkəmlənməsində onun rolunu gözəl başa düşürlər. Hesab edirəm ki, atanızın gördüyü işlər, son aylarda və illərdə hökumətlərimizin gördüyü işlər xalqlarımızın rifahına, gələcək inkişafına real təsir göstərməlidir.

Sizi bir daha salamlayırıq. Bu gün bizdə, Gürcüstanda böyük bayramdır və bu, təkcə Gürcüstan hökuməti və prezidenti üçün deyil, həqiqətən, hər bir ailə üçün də bayramdır. Bunu xüsusi vurğulamaq lazımdır. Sağ olun.

**Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı**

Cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, qardaş Gürcüstana səfər etmək barədə dəvətinə görə Gürcüstan prezidenti cənab Mixail Saakaşviliyə təşəkkür etmək istərdim.

Ölkələrimiz arasında münasibətlər həmişə çox uğurla inkişaf etmişdir, bizi həmişə dostluq, qardaşlıq, qarşılıqlı yardım, qarşılıqlı dəstək telləri bağlamışdır. Çox dəyərlidir ki, ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülü illərində bu münasibətlər inkişaf etmiş və möhkəmlənmiş, indi strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Gürcüstanla Azərbaycan arasında çox yüksək səviyyədə qarşılıqlı anlaşma var, istər beynəlxalq aləmdə, istərsə də regional səpkidə və ölkələrimiz çərçivəsində fəaliyyətimizi əlaqələndiririk. Bizi qədim köklərə malik mədəni, tarixi əlaqələr sıx bağlayır və biz bu dostluqla, bu qardaşlıqla çox fəxr edirik.

İndi Gürcüstanda və Azərbaycanda yeni rəhbərlər var.

Məlum olduğu kimi, ölkələr arasında münasibətlər onların rəhbərləri arasında münasibətlərdən də xeyli dərəcədə asılıdır. Mən Gürcüstana çox böyük nümayəndə heyəti ilə təsadüfən gəlməmişəm. İstəyirəm ki, dialoq təkcə prezidentlər səviyyəsində deyil, həm də icra hakimiyyətinin, qanunvericilik hakimiyyətinin bütün qolları səviyyəsində olması üçün, bu əlaqələrin konstruktiv xarakter daşıması üçün nümayəndə heyətimizin üzvləri gürcü həmkarları ilə fəal ünsiyyətdə olsunlar. Prezidentlər arasında qarşılıqlı anlaşmaya gəldikdə isə, zənnimcə, bu barədə danışmağa lüzum yoxdur.

Məncə, ölkələrimizin bəxti gətirmişdir ki, onların prezidentləri dostdurlar. Azərbaycanda biz cənab Mixail Saakaşvilinin çox uğurlu səfərini xatırlayırıq və aparılmış danışıqlar, keçirilmiş görüşlər, imzalanmış sazişlər bizi daha da yaxınlaşdırdı. Bizim bundan sonra, beynəlxalq tədbirlər çərçivəsində də görüşlərimiz olmuşdur. Hər

bir beynəlxalq forumda, harada olurduqsa-olaq, həmişə görüşür, ən geniş səpkili məsələləri müzakirə etmişik. Bu gün mən Gürcüstana gəlmişəm və buna çox şadam. Gürcüstan torpağında olmaq mənə çox xoşdur. Deməliyəm ki, buraya gəldiyimiz ilk dəqiqələrdən mən böyük diqqətlə əhatə olunmuşam, bizə böyük qonaqpərvərlik göstərilir.

Bizi çox mühüm iqtisadi və siyasi layihələr, nəqliyyat layihələri birləşdirir və əlbəttə ki, ölkələrimizin gələcəyi bütün planlarımızın uğurla həyata keçirilməsindən asılı olacaqdır. Ölkələrimizin gələcəyi isə, biz əminik, uğurlu olacaq, çiçəklənən gələcək olacaqdır. Azərbaycan xalqı, Gürcüstan xalqı ən yüksək səviyyədə yaşamağa layiqdirlər. Buna görə də indiki mürəkkəb tarixi zaman kəsiyində ölkələrə rəhbərlik etmək etibar olunmuş şəxslərin vəzifəsi ölkələrimizi irəli aparmaq üçün onlardan asılı olan bütün işləri görməkdən ibarətdir.

Mən qəti əminəm ki, xalqlarımızın firavanlığı, əmin-amanlığı yalnız qarşılıqlı əlaqə, qarşılıqlı fəaliyyət və bir-birimizi dəstəkləməyimiz sayəsində mümkündür. Bütün bu amillər var və mən əminəm ki, bugünkü görüşlər, imzalanmış sazişlər, habelə gələcək əlaqələrimiz bu məqsədə xidmət edəcəkdir.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm. Sağ olun.

* * *

**S u a l: Cənab Prezident, Sizcə, sazişlər, digər sənədlər imzalandıqdan sonra iki ölkənin münasibətləri necə dəyişəcək və Bakı–Ərzurum layihəsinin nə kimi perspektivi var? Daha bir sual, amma təkcə Gürcüstan prezidentinə. İcazənizlə, sualımı gürcücə verim. Bizdə olan məlumata görə, ölkəmizin Rusiyadakı səfiri Kote Kemulariya Gürcüstan Ali Məhkəməsinin sədri təyin olunmuşdur. Xahiş edirəm, bu barədə məlumat verəsiniz.**

**İ l h a m Ə l i y e v:** Dediyim kimi, ölkələrimiz arasında münasibətlər bütün istiqamətlərdə uğurla inkişaf edir. İmzalanmış sazişlər bizi daha da yaxınlaşdıracaqdır. Qarşılıqlı münasibətlərimizin səviyyəsi çox yüksəkdir. Əlbəttə ki, imzalanmış sazişlərin həyata keçirilməsi çərçivəsində atılacaq bütün addımlar daha böyük inteqrasiyamıza kömək edəcəkdir. Bakı–Tbilisi–Ərzurum təkcə region üçün deyil, həm də bütün dünya üçün, Avropa üçün mühüm energetika layihəsidir və o, uğurla həyata keçirilir və nəzərdə tutulan müddətdə istismara veriləcəkdir. Bu layihə də inteqrasiyamızın, belə demək mümkündürsə, iqtisadi gələcəyimizin qarşılıqlı asılılığının çox mühüm elementidir.

**M i x a i l S a a k a ş v i l i:** O ki qaldı Kote Kemulariya barədə məlumata, bu məlumat düz deyildir. Biz onu bu vəzifəyə təyin etmək fikrindəyik. Bunu onun özünə hələ rəsmən bildirməmişik. Kote Kemulariya haqqında onu deyə bilərəm ki, o, Gürcüstan Ali Məhkəməsinin sədri vəzifəsinə ən real namizəddir. O, çox fəal, böyük potensiala malik, savadlı, yenilməz iradəli, qətiyyətli insandır. Gürcüstanın indiki vəziyyətində – ölkədə cinayətkarlığın, özbaşınalığın, qaçaqmalçılığın baş alıb getdiyi indiki vəziyyətdə o, bizə çox gərəkdir. Bir sözlə, o, bütün tələblərə cavab verən kadrdır. Məncə, biz seçimimizdə yanılmamışıq və öz qərarımızda israrlıyıq.

**S u a l: Cənab Saakaşvili, Sizin Türkiyəyə səfəriniz zamanı Türkiyə ilə Gürcüstan arasında dəmir yolu məsələsində razılaşma əldə edilmişdir. Lakin onda qeyd olunmuşdu ki, donorlarla bağlı problem var. Bəs, bu layihənin gerçəkləşdirilməsi üçün indi donorlar məsələsi nə yerdədir? Eyni sualı Azərbaycan prezidentinə də verirəm. Bu dəmir yolunun çəkilməsinin Azərbaycan üçün də strateji əhəmiyyəti var, çünki bu layihə həyata keçirilərsə, Türkiyənin və Azərbaycanın Ermənistandan keçən dəmir yoluna ehtiyacı olmayacaqdır. Azərbaycan bu yolun tikintisinə kömək edəcəkmi və necə kömək edəcək?**

**M i x a i l S a a k a ş v i l i:** Əvvəla, biz demək istəyirik ki, nəqliyyat və infrastruktur, həqiqətən, çox dinamik inkişaf edir. Hazırda Türkiyə İstanbuldan Batumiyə müasir avtomobil yolu çəkir. Gələn payızdan etibarən İstanbuldan Batumiyə, indiki iki gün əvəzinə, əslində, 8-9 saata gəlmək mümkün olacaqdır. Bu yol məsafəni azaldır. Təbii ki, biz müxtəlif özəl firmalarla danışıqlar, o cümlədən Gürcüstanın daxilində böyük yol tikintisinə dair danışıqlar aparırıq. Təbii ki, bu yol Azərbaycana da sərfəli olardı. O ki qaldı dəmir yoluna, bunun üçün əlavə olaraq 700-800 milyon dollar gərəkdir. Türkiyə bu pulları axtarır, biz də pul axtarırıq. Bu, Türkiyə hökuməti üçün önəmli məsələdir. Çünki bu yol Türkiyənin dəmir yolunu Gürcüstan vasitəsilə, Azərbaycan vasitəsilə, Orta Asiya vasitəsilə Çinlə birləşdirərdi, təbii olaraq, əmtəə dövriyyəsi kəskin surətdə artardı.

Biz belə bir razılığa gəldik ki, həm Azərbaycanın, həm də Gürcüstanın dəmir yollarında tariflər aşağı salınacaqdır. İndi böyük rəqabət var, yüklər uğrunda mübarizə aparmaq lazımdır. Biz bu yükləri müəyyən səylərlə əldə edə bilərik. Üstəlik, bu, ən kəsə yoldur - buradan Batumi vasitəsilə, Türkiyə vasitəsilə Rumıniyaya keçid var. Hazırda Rumıniya hökuməti Batumi dəmir yol stansiyasının yenidən qurulmasını maliyyələşdirir. Bu işlər əvvəlki rejim tərəfindən 6-7 il ərzində dayandırılmışdı. Yəni, əslində, Batumi stansiyasına gələn Rumıniya bərəsi dəmir yol bərəsi olacaq və qatarlar elə oradaca yeni yola keçiriləcək və Azərbaycan dəmir yolu ilə birləşə biləcəkdir. Bu, əslində, Orta Asiyadan Avropaya ən qısa yoldur. Bu, yolun biridir. İkinci yol, təbii ki, Türkiyə yoludur. Odur ki, həqiqətən, regionda nəqliyyat kommunikasiyaları baxımından qarşıdakı bir-iki ildə inqilab baş verəcəkdir. Gürcüstan və Azərbaycan bu müddət ərzində öz yüklərini və əmtəə dövriyyələrini itirməmək uğrunda mübarizə aparmalıdırlar. Bizim əmtəə dövriyyəmiz iki dəfə artmışdır. Lakin eyni zamanda, nəzərə almaq lazımdır ki, biz bir sıra yükləri itirmişik. Təbii ki, böyük rəqabət var, bir sıra başqa ölkələr var, bu işlə özəl şirkətlər də məşğul olurlar, amma coğrafiyadan qaçmaq mümkün deyildir. Əvvəla, bu, ən qısa yoldur. İkincisi, zənnimcə,

bu, ən sivilizasiyalı yol olacaqdır. Günki biz sabitliyi - hüquqi sabitliyi, iqtisadi sabitliyi təmin edirik və ölkələrimiz nə qədər dinamik inkişaf edərlərsə, bu, hamı üçün daha aşkar olar. Odur ki, bu mənada bizim çox nikbin əhval–ruhiyyəmiz və planlarımız var.

**İ l h a m Ə l i y e v:** Demək istəyirəm ki, Türkiyə ilə Gürcüstan arasında dəmir yolunun tikintisinin layihəsini Azərbaycan tamamilə dəstəkləyir. Bu, çox mühüm regional layihədir. Bildiyiniz kimi, Gürcüstan, Azərbaycan və Türkiyə bütün regional proseslərin fəal iştirakçılarıdır. Hazırda ölkələrimizin ərazilərində dünyada bu gün üçün ən iri energetika layihəsi həyata keçirilir. İndi ölkələrimiz arasında regional inteqrasiyanın və birgə fəaliyyətin səviyyəsi çox yüksəkdir. Biz əminik ki, Türkiyə ilə Gürcüstan arasında dəmir yolu tikintisinin layihəsi bu regional əməkdaşlığın daha bir elementi olacaqdır. Biz, öz tərəfimizdən, bu layihədə də iştirak etməyə hazırıq. Hesab edirəm ki, layihəni həyata keçirmək üçün beynəlxalq konsorsium yaradıla bilər. Bu qurum həm müxtəlif dövlət, həm də qeyri-hökumət strukturlarından ibarət ola bilər. Ölkələrimiz üçün bu mühüm layihənin həyata keçirilməsində Azərbaycan da fəal iştirak edə bilər.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Mixail Saakaşvili çox tez-tez təkrar edir ki, Siz, cənab İlham Əliyev onun qardaşısınız. Cənab Gürcüstan prezidenti, Siz azərbaycanca bu ifadəni bilirsinizmi: "Xoş gəlmisən, qardaşım!"**

**M i x a i l S a a k a ş v i l i:** Mən çox dil bilirəm. Sabah biz Marneuliyə gedirik, düşünürəm ki, biz orada birlikdə azərbaycanca danışacağıq. İstərdim ki, azərbaycanca sərbəst danışım. Mən bu dili çox sevirəm. Təbii ki, biz orada yaşayan azərbaycanlıları çox sevirik.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Əlavə etmək istəyirəm ki, mən bu sözlərlə tam razıyam. Çıxışımda dedim ki, Gürcüstan və Azərbaycan rəhbərlərini şəxsi münasibət telləri bağlayır. Bir-birimizə qardaş deməyimiz, sadəcə, gəlişigözəl söz deyildir, bu, əslində, belədir. Bizim aramızda lap əvvəldən həm sıx dostluq, həm də sıx qardaşlıq münasibətləri yaranmışdır. İstər təhsil, istər gələcək fəaliyyət, istər deputatlıq fəaliyyəti, istər yaş baxımından, əlbəttə ki, müasir dünyaya, ölkələrimizin müasir dünyada rolu və yerinə baxış nöqteyi-nəzərindən oxşar cəhətlərimiz çoxdur.

Eləcə də vətəndaşlarımızın həyatını necə daha yaxşı etmək baxımından. Əgər siz cənab Saakaşvili ilə bizim bu rolda hələlik qısa fəaliyyətimizə nəzər salsanız, görərsiniz ki, bütün qərarlarımız, bütün fərmanlarımız, bütün işlərimiz vətəndaşlarımızın həyatı üçün daha əlverişli şərait yaradılmasına, ölkələrimizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə, Gürcüstanın və Azərbaycanın dünyada baş verən proseslərdə daha fəal iştirak etməsinə, Avropaya inteqrasiyaya, çox mühüm iqtisadi layihələrin gerçəkləşdirilməsinə yönəldilmişdir. Zənnimcə, ölkələrimizin ümumi gələcəyi naminə xalqlarımıza məhz layiqincə və şərəfli xidmət etmək arzusu bizi daha çox birləşdirir.

**M i x a i l S a a k a ş v i l i:** Mən, sadəcə, qısa demək istəyirəm ki, İlham Əliyev bizim üçün çox çətin olan vəziyyətlərdə həmişə köməyə gəlir. Bəlkə də bunların hamısı mətbuat üçün deyildir, amma çox vacibdir: bizdə hər hansı problem yarandıqda, həmişə ilk olaraq ağlımıza böyük dövlətlər deyil, birinci növbədə, qardaşımız İlham, Azərbaycan və Bakı gəlir, bu, çox vacibdir, bu, bizdə formalaşmış instinqdir. Düşünürəm ki, bu, qarşılıqlı surətdədir. Əslində, bütün bunlar son illər real surətdə təşəkkül tapmış, lakin möhkəmlənmiş olan əməkdaşlığımız üçün tamamilə yeni genetik koddur. Biz tab gətirdik. Sovet respublikalarında hamı qardaş idi, amma məsələ əməli işə gəlib çatanda, necə deyərlər, qarşıya çoxlu ziddiyyətlər çıxırdı. Azərbaycan–Gürcüstan dostluğu yalnız müstəqillikdən sonra möhkəmlənmişdir. Bu, çox vacibdir. Müstəqillikdən sonra yaxınlaşmağımız daha sürətli olmuşdur. Deməli, bu, artıq əbədidir.

**S u a l: Cənab Prezident, Siz Cənubi Qafqazda separatizmlə mübarizə sahəsində Gürcüstanla Azərbaycan arasında sıx əməkdaşlığın perspektivini necə görürsünüz?**

**M i x a i l S a a k a ş v i l i:** Mənim üçün çox mühümdür ki, bu gün İlham Əliyev Gürcüstanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəmanların xatirəsini yad etməyə gedəcəkdir. Zənn edirəm, başlıca məsələ bundadır ki, Gürcüstan da, Azərbaycan da sülhsevər dövlətdir. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Görün, tutaq ki, Cənubi Osetiyada, yəni mikroskopik ərazidə, əslində, Tbilisinin mərkəzindən də kiçik olan ərazidə nə baş verir. Nədənsə, bu ad bütün dünyaya məlumdur. Lakin biz başlıca məqsədə nail olduq. Biz qaçaqmalçılığın və sərhəddəki kriminal fəallığın qarşısını ala bildik. Bu, birincisi. İkincisi, hamının bildiyi kimi, biz milliyyətindən asılı olmayaraq, öz əhalimizi müdafiə edirik. Onlar davakar dildə danışırlar, biz isə deyirik ki, sizin bu davakar bəlağətinizə əhaliyə pensiya ayırmaqla, gübrə verməklə cavab veririk, biz Gürcüstan hakimiyyətinin ən yüksək dairələrinə sizin üçün bütün yolları açırıq, biz uşaqların qayğısına qalacağıq, qocaların qayğısını çəkəcəyik, bəlkə də 55 nəfərin nifrətinə minlərlə digər həmvətənlərimizə qarşı məhəbbətlə cavab verəcəyimizi göstərmək üçün əlimizdən gələni edəcəyik. Bu, bizim siyasətimizdir. Mən zənn edirəm ki, bölünməyin, parçalanmağın perspektivi yoxdur, yalnız bir perspektiv var – inteqrasiya, əməkdaşlıq, insanların bir-birinə yaxınlaşması. Düşünürəm ki, əgər kimsə bu proseslə ayaqlaşa bilmirsə, o, indi dünyada gedən irəliləyişdən, sadəcə, geri qalacaqdır. Zənn edirəm ki, ölkələrin hamısı bunu başa düşür və bütün məsələləri sülh yolu ilə həll etmək mümkün olacaqdır.

**İ l h a m Ə l i y e v:** Gürcüstan və Azərbaycan təcavüzkar separatizmin əməllərindən zərər çəkmişdir. Ölkələrimizin ərazi bütövlüyü pozulmuşdur. Təbiidir ki, biz bununla barışa bilmərik. İndi, XXI əsrdə yaşadığımız,

Avropa və dünya qurumlarına inteqrasiya olunduğumuz bir vaxtda, əlbəttə, dünya təcavüzkar separatizm ocağının hələ də mövcud olması ilə barışa bilməz. Separatizmə münasibətdə ikili standartlar olmamalıdır. Separatizm və hər hansı bir dövlətin ərazi bütövlüyünə qəsd beynəlxalq təşkilatların və iri dövlətlərin çox fəal müdaxiləsinin predmeti olmalıdır. Azərbaycan on ildən çoxdur ki, erməni təcavüzündən və ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunmasından əziyyət çəkir. İndi biz bu təcavüzə son qoymağa çalışırıq. Biz sülh danışıqları aparırıq, lakin hamı bilməlidir ki, Azərbaycan xalqının səbri tükənməz deyildir. Azərbaycan xalqı ərazisinin bir hissəsinin işğal altında olması ilə heç vaxt razılaşmayacaqdır. Şübhəsiz, biz inanırıq ki, Gürcüstanın da ərazi bütövlüyü, Azərbaycanın da ərazi bütövlüyü bərpa olunacaqdır. Çünki bu, beynəlxalq hüququn əsas amilidir. İstərdim ki, bu, sülh yolu ilə, özü də mümkün qədər tez baş versin.

## GÜRCÜSTANIN SABİQ PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞÜ

*14 iyun 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Gürcüstana dövlət səfərinin birinci günü, Gürcüstanın sabiq prezidenti Eduard Şevardnadze ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı İlham Əliyev qonşu ölkənin sabiq rəhbəri, Azərbaycan xalqının dostu cənab Şevardnadzeni səmimi salamlayaraq onunla hər bir görüşün çox qiymətli və yaddaqalan olduğunu bildirdi.*

*Azərbaycan prezidenti müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin inkişaf etməsi və möhkəmləndirilməsində Eduard Şevardnadzenin xüsusi xidmətlər göstərdiyini vurğuladı.*

*Cənab Eduard Şevardnadze onu ziyarət etdiyi üçün prezident İlham Əliyevə dərin minnətdarlığını bildirərək Azərbaycan xalqına daim hörmət bəslədiyini vurğuladı və dedi ki, tarixi köklərlə bir-birinə bağlı olan Gürcüstan və Azərbaycanın dostluğu daimidir və xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.*

*Eduard Şevardnadze əziz dostu, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərindən, respublikamız üçün gördüyü mühüm işlərdən danışaraq onun əziz xatirəsinin daim yad olunacağını söylədi və atasının başladığı müqəddəs işləri prezident İlham Əliyevin uğurla və ləyaqətlə davam etdirməsindən məmnunluğunu bildirdi, bu şərəfli və məsuliyyəli vəzifəsində ona uğurlar arzuladı.*

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN VƏ XANIMININ ŞƏRƏFİNƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN VƏ XANIMININ ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**

*14 iyun 2004-cü il*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!
Əziz Mixail, əziz Sandra!
Əziz dostlar!

Biz artıq səhərdən Tbilisidəyik və əlbəttə, bir çox mühüm görüşlər keçirmişik, müzakirə edilməli olan bir çox məsələləri müzakirə etmişik. Zənnimcə, ən başlıcası bu dur ki, biz xalqlarımızın nə qədər yaxın olduqlarını, ölkələrimizin nə qədər sıx bağlı olduğunu, inteqrasiya etdiyini və prezidentlər arasında qarşılıqlı anlaşmanın, dostluğun, əməkdaşlığın səviyyəsinin nə qədər yüksək olduğunu bir daha yəqin etdik.

Gürcüstan prezidenti ilə tanışlığımızın müddəti çox da uzun deyildir. Lakin bu tanışlığın elə ilk günündən bizim aramızda çox səmimi münasibətlər, dostluq, qardaşlıq münasibətləri yarandı. Bu hisslər, bu münasibətlər möhkəmlənir. Harada görüşməyimizdən, hansı tədbirlərdə iştirakımızdan asılı olmayaraq, biz görüşməyə, fikir mübadiləsi aparmağa, mühüm məsələləri müzakirə etməyə həmişə vaxt tapırıq. Elə bunun özü də ölkələrimizin bir-birinə necə yaxın olduğunu bir daha göstərir. Qardaş gürcü torpağında olduğum elə ilk anlardan mənə böyük hörmət, diqqət, böyük qonaqpərvərlik göstərildiyini hiss etdim. Mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilən qonaqpərvərliyə görə, ilk növbədə, prezidentə, habelə bütün gürcü qardaşlarımıza minnətdaram.

Mən bu gün qeyd etdim ki, son vaxtlar həyata keçirdiyim bütün səfərlər arasında ən böyük nümayəndə heyəti Gürcüstana gəlmişdir. Bu da təbiidir, çünki ölkələrimiz bütün səviyyələrdə əməkdaşlıq etməlidir. İndiki halda prezidentlər ən yaxşı nümunə göstərirlər. Bütün nazirlərimiz, deputatlarımız da bu nümunəyə qoşulmalıdırlar. Daimi əlaqə olmalıdır, daimi ünsiyyət olmalıdır, bir çox cəhətdən oxşar olan sosial-iqtisadi problemlərimizin həlli zamanı beynəlxalq aləmdə səylər əlaqələndirilməlidir.

Ölkələrimiz çətin inkişaf dövrü keçirir və əcdadlarımızın uğrunda qətiyyətlə və fədakarlıqla mübarizə apardıqları və itirilmiş olan müstəqillik bərpa edilmişdir, indi möhkəmləndirilir. Bizim vəzifəmiz, yeni nəslin vəzifəsi müstəqilliyi möhkəmlətmək, inkişaf etdirməkdir, onu təkmilləşdirmək və dönməz etməkdir. Odur ki, Gürcüstanın yeni rəhbərliyinin bu istiqamətdə qazandığı uğurlar bizim hamımızı, Azərbaycandakı dostlarınızı çox sevindirir. Biz regionun problemlərinə eyni mövqedən yanaşırıq. Bizi bu da birləşdirir. Bizim qayğılarımız da birdir, problemlərimiz də birdir. Ölkələrimiz təcavüzkar separatizmdən eyni dərəcədə əziyyət çəkmişlər. Əminəm ki, ölkələrimiz bu çətin vəziyyətdən çıxış yolu tapacaq, Gürcüstanın ərazi bütövlüyü, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Mən Mixail Saakaşvilinin mart ayında Azərbaycana səfərini böyük səmimiyyətlə xatırlayıram. Onda azərbaycanlılar, Azərbaycan xalqı yeni gürcü lideri ilə tanış oldular. Onadək biz sənə ancaq televizorda baxırdıq, indi isə hamı görüb sevdi. İndi məni dinləyən hər bir kəs mənimlə razılaşar. Bizə çox xoşdur ki, indi ölkələrimiz və rəhbərlərimiz arasında yüksək səviyyədə qarşılıqlı anlaşma və qarşılıqlı dəstək mövcuddur. Bu gün də fikir mübadiləsi apararkən, biz əlimizdən gələn hər şeydə bir-birimizə kömək göstərmək və yardım üçün, dəstək üçün, ilk növbədə, bir-birimizə müraciət etmək arzumuzu bir daha ifadə etdik. Zənnimcə, bunu müvafiq nazirlərimiz də nəzərə almalıdırlar.

Mən bu badəni Gürcüstanın tərəqqisi şərəfinə, qardaş gürcü xalqının şərəfinə qaldırmaq, Gürcüstanın bütün əhalisinə xoşbəxtlik, əmin-amanlıq arzulamaq istəyirəm. Gürcüstan prezidentinin, əziz Mixailin şərəfinə, hörmətli Sandranın şərəfinə, əziz dostlar, sizin şərəfinizə! Sağ olun!

## AZƏRBAYCANIN GÖRKƏMLİ SİYASİ VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNİN MƏZARLARININ ZİYARƏTİ

*Tbilisi*

*15 iyun 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Tbilisinin qədim Meydan məhəlləsində yerləşən Botanika bağına gələrək Azərbaycanın görkəmli siyasi və mədəniyyət xadimlərinin məzarlarını ziyarət etmişlər.*

*Azərbaycan prezidenti və onun xanımı Azərbaycan poeziyasının klassiklərindən Mirzə Şəfi Vazehin, dramaturq və mütəfəkkir Mirzə Fətəli Axundovun, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən Həsən bəy Ağayevin və Fətəli Xan Xoyskinin məzarları üzərinə gül-çiçək qoydular.*

*Prezident İlham Əliyev və xanımı Şərqdə ilk müstəqil demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə qoyulmuş xatirə daşının önünə də gül qoydular.*

**Jurnalistlərin suallarına verdiyi cavab:**

**S u a l: Cənab Prezident, Siz bu gün gedirsiniz. Nə kimi təəssüratınız var?**

**C a v a b:** Təəssürat yaxşıdır. Görüşlər keçirildi, danışıqlar aparıldı. Biz bütün məsələləri konstruktiv şəkildə müzakirə etdik. Mən səfərdən çox razıyam. Bu səfər bir daha göstərdi ki, əməkdaşlığımızın, dostluğumuzun səviyyəsi çox yüksəkdir.

**S u a l: Siz burada dəfn edilmiş azərbaycanlıların fəaliyyəti barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Onlar Azərbaycan xalqının böyük nümayəndələri idi. Bütün azərbaycanlılar onları xatırlayırlar. Biz onların xatirəsinə göstərilən belə münasibətə görə Gürcüstana və gürcü xalqına çox minnətdarıq. Bu insanların Azərbaycan tarixində izi çox böyükdür, tarixi, mədəni, siyasi proseslərə onların çox böyük təsirləri olmuşdur.

**S u a l: Sizin atanızın adını daşıyan park barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Əlbəttə, parka Azərbaycan xalqının lideri Heydər Əliyevin adının verilməsi barədə qərarına görə Gürcüstan rəhbərliyinə və şəxsən prezidentə çox minnətdaram. Bu, bir daha sübut edir ki, müstəqil Azərbaycanın təşəkkülündə də, Gürcüstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin inkişafında da onun xidmətləri çox böyükdür. Bu, bir daha sübut edir ki, əlaqələrimiz davam etdiriləcək, möhkəmləndiriləcəkdir, çünki biz strateji tərəfdaşlarıq. Heydər Əliyevin xatirəsinə göstərilən belə ehtiram bir prezident kimi və bir oğul kimi məni olduqca mütəəssir edir.

**S u a l: Cənab Prezident, Sizin burada baxdığınız büstlər o qədər də yüksək səviyyədə deyildir. Bunların yüksək səviyyədə hazırlanması üçün hər hansı addım atıla bilərmi? Çünki bunlar bizim tariximizdir.**

**C a v a b:** Bu məsələyə baxıla bilər. Hər halda, dediyim kimi, mən Gürcüstan hökumətinə minnətdarlığımı bildirirəm ki, burada uyuyan bizim görkəmli elm, mədəniyyət xadimlərinin, siyasi xadimlərin xatirəsi belə qorunur. Büstlərin səviyyəsinə gəldikdə, əlbəttə, hər dövrün öz tələbi var. O dövr üçün bunlar çox yüksək səviyyədə qoyulmuşdu. Əgər belə bir ehtiyac olarsa, mən ümid edirəm, biz buna birlikdə baxa bilərik. Gürcüstan və Azərbaycan hökumətləri buna birlikdə baxa bilər. Amma hər halda, mövcud olan abidələr dövrün səviyyəsinə uyğundur.

## TBİLİSİDƏKİ CÜMƏ MƏSCİDİNDƏ ÇIXIŞ

*15 iyun 2004-cü il*

Əziz qardaşlar!

Mən Gürcüstana dövlət səfəri edirəm, səfərim çox uğurlu keçir. Azərbaycanın prezidenti kimi bu, mənim Gürcüstana ilk səfərimdir. Dünən keçirdiyim bütün görüşlərdə, danışıqlarda bir daha əmin oldum ki, Gürcüstan–Azərbaycan dostluğu, birliyi əbədidir, sarsılmazdır. Gürcü və Azərbaycan xalqları həmişə dostluq şəraitində yaşamışlar, həmişə bir–birlərinə kömək etmişlər. Hesab edirəm ki, dünən keçirdiyim görüşlər bu istiqamətdə atılan böyük bir addımdır.

Bilirsiniz ki, bir müddət bundan əvvəl Gürcüstan prezidenti Azərbaycanda rəsmi səfərdə olmuşdur və bu səfər də çox uğurlu keçmişdir. Müxtəlif sənədlər imzalanmışdır. Bu dəfə də mən böyük heyətlə Gürcüstana gəldim. Burada bizim nümayəndə heyətinin tərkibində nazirlər, komitə rəhbərləri, Milli Məclisin üzvləri təmsil olunurlar. Bu da çox əlamətdar bir haldır. Mən istəyirəm ki, bütün səviyyələrdə bizim insanlarımız, vəzifəli şəxslər bir–biriləri ilə ünsiyyətdə olsunlar.

Əlbəttə ki, burada yaşayan azərbaycanlıların taleyi bizi çox maraqlandırır, biz bu məsələyə biganə qala bilmərik. Biz çox istəyirik ki, burada yaşayan azərbaycanlılar Gürcüstan cəmiyyətində daha da yüksək yerləri tuta bilsinlər.

Mən bu gün Borçalıya gedirəm və Gürcüstan prezidenti ilə birlikdə orada olacaq, vəziyyətlə tanış olacağam. Eyni zamanda, orada yaşayan soydaşlarımızla da görüşlər olacaqdır. Bizim xoşbəxt gələcəyimiz, Gürcüstanın, Azərbaycanın gələcəyi bizim birliyimizdədir. Bilirsiniz ki, bizi birləşdirən böyük, nəhəng layihələr vardır. Böyük işlər var, bu işlər də uğurla davam edir. Azərbaycanın da, Gürcüstanın da öz dövlət müstəqilliyini daha da möhkəmləndirməsi istiqamətində bizim birliyimiz çox böyük amildir, böyük şərtdir. Ona görə də artıq deyə bilərəm ki, mənim səfərim çox uğurlu olubdur. Bütün müzakirə etdiyimiz məsələlərdə bizdə fikir ayrılığı yoxdur, bir mövqedəyik. Əlbəttə ki, burada yaşayan azərbaycanlıların gələcəyi, onların taleyi müzakirə mövzusu olmuşdur. Təhsillə bağlı, mədəniyyətlə bağlı, ümumiyyətlə, azərbaycanlıların ictimai həyatda iştirakı ilə bağlı məsələlər müzakirə edilmişdir. Ümid edirəm ki, bu səfərdən sonra bizim ənənəvi dostluq, qardaşlıq münasibətlərimiz daha da inkişaf edəcəkdir. Sağ olun, çox təşəkkür edirəm.

## TBİLİSİDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*15 iyun 2004-cü il*

*Tbilisinin mərkəzində Heydər Əliyev adına parkın açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev, Gürcüstan prezidenti Mixail Saakaşvili, dövlətimizin başçısını səfərdə müşayiət edən Azərbaycan nümayəndə heyətinin üzvləri mərasimdə iştirak edirdilər.*

*Mərasimi Gürcüstan paytaxtının meri Zurab Çiaberişvili açdı.*

*Gürcüstan prezidenti Mixail Saakaşvili və Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədilər.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Əziz dostlar!

Heydər Əliyev adına parkın yaradılması haqqında qərara görə, ilk növbədə, Gürcüstan prezidenti Mixail Saakaşviliyə bütün Azərbaycan xalqı adından və şəxsən öz adımdan təşəkkür etmək istəyirəm. Bu qərar Azərbaycanda böyük minnətdarlıqla qarşılanmışdır. Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə Gürcüstanda ölkə rəhbərliyi tərəfindən göstərilən ehtiram bizə çox əziz və qiymətlidir. Bu, ölkələrimiz arasında və xalqlarımız arasında olan sarsılmaz əlaqələrə daha bir sübutdur.

Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində, Azərbaycanın iqtisadi cəhətdən müstəqil, siyasi cəhətdən azad dövlət kimi təşəkkül tapmasında müstəsna rol oynamışdır. Prezident kimi Azərbaycana başçılıq etdiyi on il ərzində o, beynəlxalq aləmdə də, iqtisadi, sosial məsələlərin həllində də, habelə ən yaxın qonşumuz, strateji tərəfdaşımızla – Gürcüstanla münasibətlərdə çox böyük uğurlar qazanmışdır.

Onun millətlərarası münasibətlərin inkişafı işindəki rolunu Azərbaycanda və Gürcüstanda çox yüksək qiymətləndirirlər. Buna görə də biz Heydər Əliyevin adını daşıyacaq belə gözəl parkın yaradılması haqqında Gürcüstan rəhbərliyinin qərarını bir daha böyük minnətdarlıqla qarşılayırıq.

Bizim münasibətlərimiz bünövrəsi prezidentimiz Heydər Əliyev tərəfindən qoyulan təməl üzərində inkişaf edir və özü də uğurla inkişaf edir. Mənim Gürcüstana səfərim də buna daha bir sübutdur. Prezident Mixail Saakaşvilinin Azərbaycana çox uğurlu səfərini ölkəmizdə xatırlayırlar. İndi mən Gürcüstandayam. Biz bütün tədbirlərdə, imkan olan hər bir yerdə çox fəal ünsiyyətdə oluruq. Bizim dostluğumuz, şəxsi münasibətlərimiz bunun böyük rəhnidir ki, Gürcüstan və Azərbaycan əvvəlki kimi, yenə də həmişə bir-birinin yanında, həmişə birlikdə olacaq, həmişə bir-birinə kömək göstərəcək və ümumi məqsədə – mühüm məsələləri birlikdə həll edəcək azad, demokratik, iqtisadi cəhətdən güclü tərəfdaş dövlətlər yaratmaq məqsədinə doğru birlikdə irəliləyəcəklər.

Heydər Əliyevin xatirəsinə göstərilən belə səmimi ehtirama görə bir daha prezidentə təşəkkür edirəm, bütün gürcü xalqına təşəkkür edirəm. Bu, həm Azərbaycan prezidenti kimi, həm də Heydər Əliyevin oğlu kimi mənim üçün çox qiymətlidir. Sağ olun.

* * *

*Mərasimdən sonra prezident İlham Əliyev və prezident Mixail Saakaşvili, dövlət başçılarının xanımları burada Bakıdan gətirilmiş ağaclar əkdilər.*

*Prezident İlham Əliyev Tbilisi sakinləri ilə səmimiyyətlə görüşdü, Gürcüstanda yaşayan azərbaycanlıların nümayəndələri ilə xatirə şəkli çəkdirdi.*

### Səfərin nəticələri barədə jurnalistlərin suallarına verdiyi cavab:

Mən nəticələrdən çox razıyam. Bizim çox ətraflı danışıqlarımız – ikitərəfli əlaqələr, regional, beynəlxalq məsələlər barədə danışıqlarımız oldu. Bizim aramızda tam anlaşma, qarşılıqlı fəaliyyət, qarşılıqlı dəstək var və əlbəttə, ölkələrimizin daha uğurlu inkişafı üçün Gürcüstanla Azərbaycanın birliyi hiss edilirdi. Biz bu birliyi görürük və onu daha da inkişaf etdirəcəyik.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN MARNEULİ RAYONUNDA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞÜ

**İ l h a m Ə l i y e v:** Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Sizə öz dərin hörmət və məhəbbətimi bildirirəm.

Mən dünəndən Gürcüstandayam. Burada keçirdiyim bütün görüşlərdə, apardığım danışıqlarda bir daha əmin oldum ki, Gürcüstan–Azərbaycan dostluğu, qardaşlığı yaşayır, möhkəmlənir və bizim xalqlarımızı bir-birinə daha da sıx bağlayır.

Gürcüstanda əziz dostum prezident Saakaşvili tərəfindən mənə göstərilən bu xoş münasibətə, qonaqpərvərliyə görə mən prezidentə və bütün Gürcüstan xalqına öz minnətdarlığımı bildirirəm.

Dünən iki ölkə arasında çox önəmli, müxtəlif sahələri əhatə edən sənədlər imzalanmışdır. Əminəm ki, bu sənədlərin icrası nəticəsində ölkələrimiz bir-birinə daha da yaxın olacaqlar. Bilirsiniz ki, bir neçə ay bundan əvvəl Gürcüstan prezidenti Azərbaycana səfər etmişdi. Həmin səfər çərçivəsində də çox əhəmiyyətli məsələlər müzakirə olunmuşdur. Mənim səfərim də iki ölkənin rəhbəri arasında olan dostluğun davamıdır. Bizim aramızda çox gözəl münasibətlər var. Bütün məsələlərdə – beynəlxalq, regional məsələlərdə, eyni zamanda, iki ölkə arasında olan münasibətlərdə bizim mövqeyimiz üst-üstə düşür. Heç kəs üçün sirr deyil ki, bu münasibətlərin yüksək səviyyəyə çatdırılmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Bilirsiniz ki, bu gün Azərbaycanda böyük bayramdır. Bütün Azərbaycan xalqı Milli Qurtuluş gününü qeyd edir. Bu gün də Heydər Əliyevin adı ilə bağlıdır. Məhz iyunun 15-də onun Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkəmiz dirçəlməyə başladı. Ölkə xaosdan, böhrandan çıxdı, inkişafa, tərəqqiyə doğru addımlar atmağa başladı. Son on il ərzində Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan inkişaf etdi, dünyada özünün layiqli yerini tuta bildi. İndi ölkəmiz bütün sahələrdə çox sürətlə inkişaf edir. Mən ümid edirəm ki, gələcəkdə də Azərbaycan inkişaf edəcək, zənginləşəcək, qüdrətli dövlətə çevriləcəkdir.

Biz, əziz dostum Mixail ilə bir məsələni dəfələrlə vurğulamışıq, fikrimizi bildirmişik: Gürcüstanın, Azərbaycanın xoşbəxt gələcəyi bizim birliyimizdədir. Bizim ölkələrimiz bir-biri ilə çox sıx bağlıdır. Biz istəyirik ki, bu əlaqələr daha da inkişaf etsin, genişlənsin.

Fürsətdən istifadə edib bir məsələni də sizin diqqətinizə çatdırmaq istəyirəm. Bu gün səhər Tbilisi şəhərinin ən gözəl, görkəmli yerlərindən birində Heydər Əliyevin adını daşıyan park açıldı. Biz bu parkın açılışında iştirak etdik. Eyni zamanda, Tbilisidə fəaliyyət göstərən, Azərbaycan Dram Teatrına da dövlət statusu verilibdir. Bütün bu addımlara görə mən əziz dostum Mixail Saakaşviliyə öz adımdan, sizin adınızdan, bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm.

Bizim xalqlarımız qardaş xalqlardır. Gürcülər, azərbaycanlılar bütün dövrlərdə sülh, əmin-amanlıq, dostluq şəraitində yaşamışlar. Çox şadıq ki, müstəqilliyimiz əldə olunandan sonra bu əlaqələr daha da genişlənibdir. Bu gün iki ölkənin rəhbərləri arasında olan dostluq münasibətləri bizim gələcəyimiz üçün gözəl zəmindir.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Siz Gürcüstanın vətəndaşlarısınız. Amma, eyni zamanda, azərbaycanlısınız. Ona görə siz iki ölkə arasında çox önəmli rol oynayırsınız. Mən buraya çox böyük heyətlə gəldim. Demək olar ki, bizim Nazirlər Kabinetinin yarısı bu gün mənimlə birlikdə buradadır. Mən istəyirəm ki, istər təhsil sahəsində, istər iqtisadiyyat sahəsində, istərsə də digər sahələrdə sizi maraqlandıran, sizi narahat edən bütün məsələlər öz həllini birgə tapsın. Siz Gürcüstan cəmiyyətinə daha fəal və sürətli şəkildə inteqrasiya olunmalısınız, daha da yüksək yerləri tutmalısınız. Mən çox şadam ki, ictimai-siyasi həyatda azərbaycanlıların fəaliyyəti çox yüksəkdir və bu, daha da yüksəlir. Mən bu gün çox şad və xoşbəxtəm ki, Azərbaycanın milli bayramını – Qurtuluş gününü burada sizinlə birlikdə qeyd edirəm.

Mən əminəm ki, bu səfərdən sonra iki ölkə arasında olan münasibətlər daha da dərinləşəcək, bütün sahələrdə əməkdaşlıq inkişaf edəcəkdir. Bizim qarşımızda duran ən böyük, ən nəhəng məsələlər Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin çəkilməsidir. Əminəm ki, bunlar vaxtında işə düşəcək və bizim xalqlarımıza xoşbəxtlik, rifah, firavanlıq gətirəcəkdir.

Mən sizin hamınızı bir daha ürəkdən salamlayıram, sizin hamınızı bağrıma basıram, qucaqlayıram, öpürəm.

Yaşasın Gürcüstan–Azərbaycan dostluğu, qardaşlığı!

Gürcü və Azərbaycan xalqlarına eşq olsun! *

---

* Gürcüstan prezidenti Mixail Saakaşvili də görüşdə qısa nitq söylədi.

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEVİN GÜRCÜSTANA**
**SƏFƏRİ BAŞA ÇATDI**

*Gürcüstana dövlət səfərini başa çatdıran Azərbaycan prezidenti İlham Əliyev iyunun 15-də avtomobil karvanının müşayiəti ilə Gürcüstan–Azərbaycan sərhədinə gəldi.*

*"Qırmızı körpü" nəzarət-buraxılış məntəqəsində Qazax rayonu ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını böyük səmimiyyətlə və mehribanlıqla qarşıladılar.*

*Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının komandanı general-leytenant Elçin Quliyev Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevə nəzarət-buraxılış məntəqəsinin fəaliyyəti, onun işinin təkmilləşdirilməsi üçün görülən tədbirlər, Azərbaycanın və Gürcüstanın sərhəd xidmətləri arasında əlaqələr barədə məruzə etdi.*

* * *

**Gürcüstana dövlət səfərinin yekunlarına dair brifinq:**

**S u a l: Cənab Prezident, Gürcüstana səfəriniz barədə təəssüratınız necədir?**

**C a v a b:** Gözəldir, mən artıq bu gün bu barədə danışdım. Mən səfərdən və imzalanan bütün sazişlərdən çox razıyam. Onlar bizim yaxınlığımızı, strateji tərəfdaşlığımızı, habelə əlaqələrimizi bundan sonra da birgə inkişaf etdirmək istəyimizi bir daha sübut etdi.

**S u a l: Siz cənab Saakaşvili ilə hansı strateji məsələləri həll etdiniz?**

**C a v a b:** Gürcüstan ilə Azərbaycan arasında təcili həll edilməli olan məsələlər yoxdur. Bizim bütün istiqamətlərdə qarşılıqlı anlaşmamız var, nəqliyyat strukturları, energetika layihələri çox fəal inkişaf etdirilir. Biz Gürcüstanda yaşayan azərbaycanlıların həyat və fəaliyyəti ilə bağlı məsələləri də müzakirə etdik. Biz onların yığcam yaşadıqları rayona getdik. Təhsillə, sərhədlə bağlı məsələlər var. Odur ki, indi biz onları həll edirik.

**S u a l: Nə üçün Siz Gürcüstandan "Qırmızı körpü" vasitəsilə getməyi qərara aldınız?**

**C a v a b:** Mən Gürcüstanda daha çox qalmaq istəyirdim.

**S u a l: Prezidentin Sizə bağışladığı at xoşunuza gəldimi?**

**C a v a b:** Çox gözəl atdır. Düşünürəm ki, bu atın artıq adı var. Adının nə olduğunu bilmirəm.

**S u a l: Prezident Sizə sərhədi at belində keçməyi təklif etdimi?**

**C a v a b:** Xeyr. Bu, yəqin gələn dəfə olacaqdır.

**S u a l: Siz sabiq prezident Şevardnadze ilə görüşdünüzmü?**

**C a v a b:** Bəli, dünən görüşdük. Oturub söhbət etdik, olub-keçənləri xatırladıq. Mən ona özünü yaxşı hiss etməsi üçün cansağlığı arzuladım.

**S u a l: Cənab Prezident, Gürcüstanda yaşayan azərbaycanlıların Sizə xahişləri olmuşdu. Onların hansılarını yerinə yetirmək mümkündür?**

**C a v a b:** Bu məsələ geniş müzakirə olunubdur, o cümlədən Gürcüstan prezidenti cənab Saakaşvili ilə. Bundan əvvəl bizim müştərək komissiya bu məsələlərə baxıbdır. Müxtəlif məsələlər var. Mən deyə bilməzdim ki, çox ciddi məsələlər var. Amma, əlbəttə, biz istərdik ki, azərbaycanlıların Gürcüstanda yaşamaları daha yüksək səviyyədə olsun, onlar işlə təmin edilsinlər, təhsil problemləri öz həllini tapsın. Hesab edirəm, biz bu barədə də çox vacib razılaşmalar əldə etdik.

Məsələn, tarix dərslikləri birgə hazırlanacaq, bu, çox vacibdir. Coğrafiya dərslikləri də. Burada, Gürcüstanda yaşayan azərbaycanlılar gərək Gürcüstan cəmiyyətinə daha sürətlə inteqrasiya olsunlar, bütün səviyyələrdə təmsil olunsunlar. Cənab Saakaşvili ilə bu barədə çox söhbət etdik. Onun da fikri belədir ki, gərək azərbaycanlılar icra orqanlarında, hüquq-mühafizə orqanlarında, yerli özünüidarəetmə orqanlarında daha geniş tərkibdə təmsil olunsunlar. Bu istiqamətlərdə mühüm, önəmli addımlar atılacaqdır.

**S u a l: Cənab Prezident, Sizcə, Mixail Saakaşvilinin siyasi iradəsi olacaqmı? Çünki əvvəllər hətta qubernator müavini vəzifəsində azərbaycanlılar olubdur. İndi isə təyin edilmirlər.**

**C a v a b:** Bilirsiniz, bu, keçmişdə də olubdur, əgər siz o tarixə nəzər salsanız görərsiniz. Yəni bu, indiki zəmanənin hansısa əlaməti deyildir. Əksinə, mən hesab edirəm ki, indiki dövrdə bu məsələlərə daha ciddi münasibət var, daha ciddi diqqət var. Artıq azərbaycanlılar vəzifələrə irəli çəkilirlər. Nazir müavini vəzifəsinə, digər vəzifələrə. Gürcüstan prezidentinin bu məsələ ilə bağlı fikirləri çox müsbətdir.

**S u a l: Cənab Prezident, Azərbaycan iş adamlarının bu bölgələrə sərmayə qoyması məsələsi qaldırılmışdı. Siz bu barədə nə tövsiyə edirsiniz?**

**C a v a b:** Mən bunu dəstəkləyirəm. Bu barədə prezident Saakaşvili ilə söhbətimiz olubdur. Gürcüstanda da, Azərbaycanda da iqtisadiyyat bazar iqtisadiyyatı əsasında qurulur və liberal iqtisadiyyatdır. Ona görə bütün im-

kanlar var. Əlbəttə, mən istərdim ki, bizim iş adamlarımız buraya sərmayə qoysunlar, burada yaşayan azərbaycanlıları da bu işlərə cəlb etsinlər. Burada da yeni iş yerlərinin açılması istiqamətində addımlar atılsın. Yəni mən bunu dəstəkləyirəm. Amma, əlbəttə, bunu yəqin ki, iş adamları müəyyən etməlidirlər.

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEV QAZAXDA**

*15 iyun 2004-cü il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Gürcüstana dövlət səfərini başa çatdırdıqdan sonra, Qazax rayonuna gəldi.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Azərbaycan-Gürcüstan sərhədində Qazax ictimaiyyətinin nümayəndələri, rəsmi şəxslər xüsusi ehtiramla qarşıladılar.*

*Yol boyu kəndlərin sakinləri respublikamızın rəhbərini hərarətlə, «İlham!», «İlham!» nidaları ilə salamlayır, xoş arzularını ifadə edirdilər.*

*Prezident İlham Əliyev Qazax rayonunun Yuxarı Salahlı kəndində unudulmaz xalq şairi Səməd Vurğunun Poeziya evini ziyarət etdi. Dövlətimizin başçısına bildirildi ki, Səməd Vurğunun Bakıdakı ev-muzeyinin filialı olan Poeziya evi 1976-cı ildən fəaliyyət göstərir.*

*Ümummilli liderimiz Heydər Əliyev 1979-cu ildə Poeziya evində olmuş, buranın zənginləşdirilməsi üçün konkret tapşırıqlar vermişdi. İndi burada Heydər Əliyev guşəsi də var.*

*Prezident İlham Əliyev ekspozisiyaya tamaşa etdi, tövsiyələrini söylədi, Azərbaycan poeziyası klassikinin özünün oxuduğu şeirlərin maqnitofon yazısına qulaq asdı.*

**Poeziya evinin fəxri qonaqları kitabına**
**yazdığı ürək sözləri:**

*«Dahi Azərbaycan şairi Səməd Vurğunun yaradıcılığı Poeziya evinin ekspozisiyasında öz əksini tapır.*

*Ekspozisiya ilə böyük maraqla tanış oldum. Səməd Vurğunun əsərləri öz aktuallığını itirmir.*

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Səməd Vurğun Poeziya evinin əməkdaşlarına uğurlar arzulayıram.*

***Azərbaycan Respublikasının***
***Prezidenti İlham Əliyev***

*15.06.2004-cü il».*

* * *

*Prezident İlham Əliyev sonra Qazax rayonunda Olimpiya İdman Kompleksinin tikintisi üçün ayrılmış sahəyə gəldi.*

*Burada ölkəmizin rəhbərinə futbol meydanının, tennis kortlarının və mehmanxananın da daxil olduğu kompleksin baş planı barədə məlumat verildi. Kompleksin regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində tikintisinə bir ay ərzində başlamaq və onu gələn il başa çatdırmaq nəzərdə tutulmuşdur.*

## QAZAX ŞƏHƏRİNDƏKİ HEYDƏR PARKINDA ŞƏHƏR SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*15 iyun 2004-cü il*

Əziz qazaxlılar!

Sizi ürəkdən salamlayıram. Mən sizi Milli Qurtuluş günü münasibətilə ürəkdən təbrik edirəm. On bir il bundan əvvəl xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdı. Məhz onun hakimiyyətə qayıdışından sonra Azərbaycanda müharibəyə, qardaş qarşıdurmasına son qoyuldu. Ölkədə sülh, əmin-amanlıq yarandı, böyük işlər görüldü, iqtisadiyyat inkişaf etdi. Bu son 10-11 il ərzində ölkəmiz çox sürətlə inkişaf etməyə başlamışdır.

Siz bilirsiniz ki, bu yaxınlarda qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı artıq icra olunur, həyata keçirilir. Bu proqram çərçivəsində bu bölgədə, Qazax rayonunda da böyük işlər görüləcəkdir. Yeni iş yerləri açılacaqdır. Bilirsiniz ki, mənim siyasətimin əsas istiqamətlərindən biri də odur ki, bütün rayonlarda yeni iş yerləri açılsın, yeni istehsal sahələri yaransın, camaat, insanlarımız daha da yaxşı yaşasınlar. Mən çox şadam ki, bu istiqamətdə işlər görülür.

Sizə onu da bəyan etmək istəyirəm ki, Azərbaycan Milli Olimpiya Komitəsi Qazaxda müasir Olimpiya İdman Kompleksinin tikilməsinə başlayacaqdır. Tikinti işlərinə bu yaxınlarda başlanacaqdır. Əminəm ki, burada gözəl, müasir idman kompleksi tikiləcək və siz də bundan istifadə edəcəksiniz.

Qazax Azərbaycanın gözəl guşələrindən biridir. Burada çox zəhmətkeş, vətənpərvər insanlar yaşayır. Siz sərhəddə yaşayırsınız. Bilirsiniz ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ən ağrılı məsələsidir, Azərbaycan üçün həll olunmalı ən mühüm problemdir. Biz çalışırıq bunu həll edək. Amma, eyni zamanda, ordumuzu da gücləndiririk. Orduya lazımi kömək, dəstək göstəririk. Azərbaycanın iqtisadi potensialı gücləndikcə ordumuz da güclənəcəkdir. Sizə deyə bilərəm ki, bu gün ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Mən bu gün Gürcüstandan qayıdıram. Gürcüstana çox səmərəli səfərim olub, gözəl danışıqlarım olubdur. Eyni zamanda, azərbaycanlıların məskunlaşdığı Borçalıda da yerli camaatla görüşüm olubdur. Mən oraya Gürcüstanın prezidenti ilə birlikdə getmişdim. Əminəm ki, oradakı soydaşlarımız bundan sonra daha da yaxşı yaşayacaqlar. Onların problemləri öz həllini daha sürətlə tapacaqdır.

Azərbaycan inkişaf dövrünü yaşayır. Azərbaycanın hər bir yeri, hər bir rayonu, hər bir bölgəsi inkişaf etməlidir. Əminəm ki, növbəti beş il ərzində qarşımızda duran bütün vəzifələri yerinə yetirəcəyik. Mən verdiyim bütün vədlərə sadiqəm. Heç şübhə etmirəm ki, nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapacaqdır.

Mən seçkiqabağı çıxışlarımın birində bildirmişdim – əfsuslar olsun ki, istədiyim bütün yerlərdə ola bilməmişdim, vaxt imkan vermirdi – söz vermişdim ki, ola bilmədiyim rayonlara, şəhərlərə seçkilərdən sonra gələcəyəm. Mən bu sözümə sadiqəm və bu gün sizinlə görüşə gəlmişəm. Bu fürsətdən istifadə edib bütün seçicilərə, Heydər Əliyev siyasətinə səs verdiyinizə görə sizə öz dərin minnətdarlığımı bildirirəm.

Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır. Bu Qurtuluş günü Azərbaycanın inkişaf dövrünün başlanğıcı idi. 11 il bundan əvvəl Azərbaycan yol ayrıcında idi. Hansı yollarla inkişaf edəcəkdi, qarşımıza hansı məsələlər çıxacaqdı – heç kim onu bilə bilməzdi. Amma baxın, 10–11 ildən sonra Azərbaycanda dünyanın ən böyük layihəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəməri inşa edilir. Qaz kəməri çəkiləcəkdir. Bütün bu layihələr Azərbaycana xoşbəxt gələcək, firavan həyat gətirəcəkdir.

Azərbaycanın prezidenti kimi mən çalışacağam ki, hər bir vətəndaş, hər bir şəxs bu böyük layihələrdən, Azərbaycanda gedən inkişafdan bəhrələnsin. Bu, mənim vəzifəmdir, mənim borcumdur. Mən də bu vəzifəni ləyaqətlə yerinə yetirəcəyəm.

Sizi bir daha ürəkdən salamlayıram. Buraya, bu görüşə gəldiyinizə görə sizə öz dərin minnətdarlığımı bildirirəm. Sizi öpürəm, qucaqlayıram, bağrıma basıram.

Yaşasın qazaxlılar!

*Azərbaycan prezidenti İlham Əliyev Qazax şəhər stadionunda idmançıların nümunəvi çıxışlarına baxdı. Respublikamızın rəhbəri sonra «Azərxalça» İstehsalat Birliyinin Qazax xalça sexi ilə də yaxından tanış oldu.*

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEV AĞSTAFADA**

*15 iyun 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Qazaxdan Ağstafa şəhərinə gəldi. Şəhər sakinləri dövlətimizin başçısını böyük mehribanlıqla qarşıladılar. Respublikamızın rəhbərinə və onun xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyevin burada ilk tanışlığı yumşaq mebel istehsal edən «Karvan-el» şirkətinin Azərbaycan–Rumıniya müştərək müəssisəsi ilə oldu. Müəssisənin rəhbərliyi respublikamızın qərb bölgəsi üçün yeni olan bu istehsal sahəsi, onun gələcək planları barədə ətraflı məlumat verdi. Bildirildi ki, burada istehsal olunan məhsullar yüksək keyfiyyəti ilə seçilir və özünə bazar tapmışdır. Özbəkistanda, qonşu Gürcüstanda bu mebellərə tələbat çoxdur. Şirkətin baş planına ofis, mebel mağazası, şirə sexi, tikinti materialları istehsalı sahəsi, mehmanxana, kiçik istehsal sexləri inşa etmək, bir sıra meyvə bağları salmaq daxildir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva müəssisənin məhsullarını və gələcək planlarını müsbət qiymətləndirdilər və bu sahənin çox perspektivli olduğunu söylədilər.*

*«Karvan-el» şirkətinin fəaliyyəti barədə də ətraflı məlumat verildi. Şirkətin rəhbəri dedi ki, Şəki, Zaqatala, Balakən, Qax rayonlarında 800 hektar sahədə günəbaxan əkdirmişik. Avropa standartlarına uyğun boyalar da istehsal edirik. Yaxın vaxtlarda yeni sertifikat alacağıq. Şirkətdə 175 işçi çalışır. Kollektivimiz xahiş edir ki, Bakıda Babək prospektində yerləşən müəssisəmizə gələsiniz. Biz Sizin regional inkişaf proqramınızı, siyasətinizi dəstəkləyirik. Biz heç nə istəmirik, sadəcə, Sizin mənəvi köməyiniz lazımdır. Biz iş adamları Sizə arxa olacağıq, çalışacağıq, yaradacağıq və Sizin başınızı uca edəcəyik.*

*Azərbaycan prezidenti İlham Əliyev dedi ki, mən mütləq müəssisəyə gələcəyəm. Bilirsiniz ki, sahibkarları dəstəkləyirəm. Bunu bütün çıxışlarımda da qeyd edirəm ki, hamı gərək sizə şərait yaratsın. Dövlət yalnız kredit vasitəsilə kömək edə bilər. Bu iş də gedir. İndi mikrokreditlərin həcmi ildən-ilə artır. Bu il 100 milyard manat nəzərdə tutulmuşdur. İndi 20 faiz artıbdır. Gələn il bu rəqəm artacaqdır. Çünki imkanımız çoxalır, büdcəmiz çoxalır. Dövlət bu yol ilə, bir də dəstək verməklə kömək edə bilər. Qalanını isə gərək siz edəsiniz. Azərbaycanın gələcəyi bundadır – sahibkarlıq, yeni iş yerlərinin yaranması, yerli istehsalın yaranması. Bütün bunlar var, iş də gedir, gələcəkdə daha sürətlə gedəcəkdir. Mən Bakıda gəlib sizinlə görüşəcəyəm.*

## AĞSTAFA ŞƏHƏRİNDƏKİ HEYDƏR PARKINDA ŞƏHƏR SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*15 iyun 2004-cü il*

Əziz bacılar və qardaşlar!

Əziz ağstafalılar!

Mən hamınızı ürəkdən salamlayır, dərin hörmət və məhəbbətimi bildirirəm.

Bu gün Azərbaycanda bayramdır – Milli Qurtuluş bayramıdır. Azərbaycanın ümummilli lideri Heydər Əliyev 11 il bundan əvvəl xalqın tələbi ilə ölkəmizə rəhbərliyə qayıtdı. Məhz o vaxtdan Azərbaycanda müharibəyə, hərc-mərcliyə, anarxiyaya, xaosa son qoyuldu. Azərbaycanın dirçəliş dövrü başlandı. Sosial məsələlər öz həllini tapmağa başladı.

Bu bölgədə də vəziyyət çox ağır idi. Sərhəd bölgəsində yerləşən ağstafalılar bunu çox yaxşı xatırlayırlar. Məhz Heydər Əliyevin müdrik, məqsədyönlü, düşünülmüş, cəsarətli siyasəti nəticəsində Azərbaycan bu çətin dövrdən şərəflə çıxdı.

O zaman ölkəmiz, demək olar ki, parçalanma ərəfəsində idi. Amma bu gün baxın, Azərbaycan inkişaf edir, güclənir. Azərbaycan regionda liderdir. Bunu təkcə biz yox, bütün dünya ictimaiyyəti bilir və qiymətləndirir. Mən əminəm ki, ölkəmiz bundan sonra da sürətlə inkişaf edəcəkdir.

Bilirsiniz ki, mənim siyasətimin əsas istiqamətlərindən biri də odur ki, Azərbaycanın bütün bölgələrində inkişaf olsun, yeni iş yerləri açılsın, insanlar işlə təmin olunsunlar, maaşları qalxsın. Biz bu istiqamətdə böyük işlər görürük, böyük proqramlar həyata keçiririk. Mən çox şadam ki, Ağstafada da bu istiqamətdə işlər gedir.

Mən bu gün mebel fabriki ilə tanış oldum. Orada çox gözəl istehsalat var. Digər sahələr də inkişaf edəcəkdir. Mən heç şübhə etmirəm ki, bir neçə ildən sonra Azərbaycanın bütün bölgələri daha sürətlə inkişaf edəcəkdir. Bizim qarşımızda böyük məsələlər var.

Azərbaycan çox uğurla qonşuları ilə öz münasibətlərini qurubdur. Mən dünən və bu gün səhər Gürcüstanda idim. Orada bir daha əmin oldum ki, bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Gürcüstanda Heydər Əliyev adına park yaradıldı. Biz o parkın açılışında iştirak etdik. Bu, bir daha göstərir ki, bütün dünya ümummilli liderimizi qiymətləndirir, onun fəaliyyətini çox gözəl bilir. Eyni zamanda, Gürcüstanda Azərbaycan Dram Teatrına dövlət statusu verilibdir. Bu da böyük əhəmiyyətli bir məsələdir. Mən Borçalı mahalında yaşayan azərbaycanlılarla, soydaşlarımızla da görüşmüşəm, onların problemləri ilə də məşğul olmuşam. Sərhəddə də olmuşam, sərhəd problemləri ilə məşğul olmuşam.

Çalışıram əlimdən gələni edim ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, rifah, sülh, əmin-amanlıq içində yaşasın. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycanda sabitlik pozulsun. Heç vaxt imkan verə bilmərik ki, asayiş pozulsun. Bu, bizim inkişafımız üçün başlıca şərtdir. Mən əminəm, şübhə etmirəm ki, biz qarşıda duran bütün məsələlərin həllinə nail olacağıq.

Heydər Əliyev siyasəti yaşayır. Biz hamımız bunu dəstəkləyirik, Azərbaycan xalqı bu siyasəti dəstəkləyir. Ötən il keçirilmiş prezident seçkilərində də siz – ağstafalılar bu siyasətə səs vermisiniz. Mən əminəm ki, hamımız birlikdə Azərbaycanı zənginləşdirəcəyik, gücləndirəcəyik, qüdrətli dövlətə çevirəcəyik.

Sizi bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, səadət, uğurlar arzulayıram. Sağ olun!

* * *

*Azərbaycan prezidenti Poylu qəsəbəsində sakinlərlə görüşdü. Burada yüksəkvitaminli yem zavodunun tikiləcəyi yerlə tanış oldu.*

## TOVUZ ŞƏHƏR PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*15 iyun 2004-cü il*

Əziz tovuzlular!

Əziz bacılar və qardaşlar!

Sizin hamınızı salamlayıram. Sizi Milli Qurtuluş günü münasibətilə ürəkdən təbrik edirəm. Düz 11 il bundan əvvəl, iyunun 15-də müasir Azərbaycanın taleyi həll olunurdu. Azərbaycan xalqı öz müdrikliyini göstərdi, Heydər Əliyevə müraciət edərək onu rəhbərliyə dəvət etdi. Məhz o vaxtdan ölkəmiz inkişaf etməyə başladı. Bütün xoşagəlməz hallara son qoyuldu. Qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi, müharibəyə son qoyuldu, anarxiyaya, xaosa, siyasi, iqtisadi, hərbi böhrana son qoyuldu. Ordu quruculuğu inkişaf etdi. Əgər o vaxt başqa cür olsaydı, Heydər Əliyev Azərbaycana gəlməsəydi, ölkəmizi, xalqımızı böyük bəlalar gözləyəcəkdi. Biz hamımız çalışmalıyıq ki, ötən 11 ildə əldə olunmuş uğurları daha da irəliyə aparaq, artıraq.

Bilirsiniz ki, indi ölkəmiz çox sürətlə inkişaf edir. Mən bu gün Qazaxda, Ağstafada olmuşam, oradakı vəziyyətlə tanış olmuşam. Görmüşəm ki, böyük işlər gedir, yeni iş yerləri açılır. Bilirəm ki, Tovuzda da bu istiqamətdə böyük işlər görülübdür. Çox şadam ki, mənim səsimə səs verərək tovuzlular da bu istiqamətdə fəal işləyirlər.

Mən istəyirəm ki, Azərbaycanın hər bir yeri inkişaf etsin. Azərbaycanda yaşayan hər bir insan daha da yaxşı yaşasın, daha yaxşı işlə, maaşla təmin olunsun. Bu istiqamətdə işlər aparılacaqdır. Bütün sosial məsələlər öz həllini tapacaqdır. Qəbul edilmiş regional inkişaf proqramı artıq öz bəhrəsini verməkdədir və Azərbaycan getdikcə daha da zənginləşəcəkdir.

Mən bizim əvvəlki görüşümüzü xatırlayıram. Seçkilərdən əvvəl mən Tovuzda olmuşdum, tovuzlularla görüşmüşdüm. Xatırlayıram, bir ağsaqqal bildirmişdi ki, Heydər Əliyev Tovuzda olarkən demişdi ki, mən tovuzluların dostuyam.

Mən sizə söz vermişdim, çalışacağam ki, mən də tovuzluların dostu olum. Bütün fəaliyyətimdə çalışacağam ki, Tovuzda camaat daha da yaxşı yaşasın, bu bölgə, Azərbaycanın qədim torpağı olan Tovuz güclənsin və tovuzlular daha da yaxşı yaşasınlar. Mən bu fəaliyyəti davam etdirirəm. Bu fəaliyyət ölkə daxilində böyük rəğbətlə, dəstəklə qarşılanır.

Azərbaycanın beynəlxalq aləmdə də nüfuzu get-gedə artır. Qarşımızda duran bütün vəzifələr öz həllini tapır. Mən seçkilərdən əvvəl hansı vədi, hansı sözü vermişəmsə, bu sözə sadiqəm və bunu əməli surətdə həyata keçirirəm.

Mən sizi bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizi bağrıma basıram, qucaqlayıram, öpürəm. Sizə cansağlığı, xoşbəxtlik, yeni qələbələr arzulayıram. Sağ olun!

* * *

*Dövlətimizin başçısı İlham Əliyev daha sonra rayon mərkəzindəki istirahət parkına tamaşa etdi, yerli sakinlərlə səmimi görüşdü, onların istək və arzuları ilə maraqlandı.*

## ŞƏMKİR ŞƏHƏR STADİONUNDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*15 iyun 2004-cü il*

Əziz şəmkirlilər!

Əziz bacılar və qardaşlar!

Sizi ürəkdən salamlayıram. Bu gün gözəl bayramdır – Milli Qurtuluş bayramıdır. Biz bu bayramı birlikdə qeyd edirik.

Mən bu bayramı bu gün səhər Gürcüstanda yaşayan soydaşlarımızla birlikdə qeyd etməyə başladım. Mən çox şadam ki, orada yaşayan azərbaycanlılarla görüşüm olubdur və bu görüş çox gözəl keçibdir. Ondan sonra bu bayramı Qazaxda, Ağstafada, Tovuzda, indi də Şəmkirdə sizinlə birlikdə keçirirəm. Doğrudan da, bu, böyük bayramdır. Xalqımızın ümummilli lideri Heydər Əliyev on bir il bundan əvvəl xalqın tələbi ilə Azərbaycana hakimiyyətə qayıtmışdır. Məhz o dövrdən sonra Azərbaycan bütün sahələrdə uğurla inkişaf etməyə başlamışdır. Azərbaycanda demokratik cəmiyyət yaranmışdır. Azərbaycan dünya birliyinə layiqli üzv olmuşdur. Ümummilli liderimiz, ali baş komandan Heydər Əliyevin bilavasitə rəhbərliyi nəticəsində Azərbaycanda güclü ordu yaradılmışdır. Bu ordu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Neft strategiyası uğurla davam edir. Bu gün Bakı–Tbilisi-Ceyhan neft kəməri inşa edilir. Demək olar ki, işlərin böyük əksəriyyəti görülübdür. Bu kəmər istismara veriləndən sonra Azərbaycana böyük həcmdə maliyyə axını gələcəkdir. Bu bizə imkan verəcək ki, ölkəmizi hərtərəfli inkişaf etdirək, mövcud olan sosial problemləri həll edək. Ümumiyyətlə, Azərbaycanı gücləndirək, Azərbaycanı qüdrətli dövlətə çevirək.

Bu 10–11 il ərzində bütün sahələrdə böyük işlər görülübdür. İndi Azərbaycan öz inkişaf dövrünü yaşayır. Azərbaycanda regional inkişaf proqramı həyata keçirilir və mən çox şadam ki, qısa müddət ərzində böyük həcmdə iş yerləri açılıbdır. İş yerlərinin açılması bizim prioritet məsələmizdir. Bütün bölgələrdə, hər bir qəsəbədə, kənddə insanlar gərək işlə təmin olunsunlar. İşsizlik aradan qaldırılmalıdır. Yoxsulluq aradan qaldırılmalıdır. Mən əminəm ki, biz qarşımızda duran bütün məqsədlərə çatacağıq.

Mən seçkilərdən əvvəl Şəmkirdə olmuşdum, şəmkirlilərlə görüşmüşdüm. Mən o görüşü çox yaxşı xatırlayıram. O gözəl sözləri, mənə olan ümidləri xatırlayıram. Mən çalışıram ki, bütün ümidləri doğruldum. Çalışıram ki, öz fəaliyyətimlə, əməyimlə doğma xalqımıza ləyaqətlə xidmət edim.

Əziz şəmkirlilər, mən sizi bir daha ürəkdən salamlayıram. Siz bütün dövrlərdə Azərbaycanın dövlətçiliyinə xidmət etmisiniz. Azərbaycanımızın, dövlətimizin müstəqilliyini gücləndirmisiniz. Azərbaycanın ən çətin dövrlərində şəmkirlilər Azərbaycan dövlətçiliyinə dayaq, arxa olmuşlar. Bunu bütün Azərbaycan bilməlidir. Burada yaşayan insanlar çox zəhmətkeş, əməksevər, vətənpərvər insanlardır. Mən sizə öz dərin hörmətimi, dərin məhəbbətimi bildirirəm.

Mən indi bu şəhərdən keçərkən gördüm ki, müxtəlif yerlərdə tikinti gedir. Bu, uğurun ən başlıca şərtidir, amilidir. Harada tikinti, yaradıcılıq, quruculuq, abadlıq işləri gedirsə, o bölgə inkişaf edir. Bu məni çox sevindirir. Çox istəyirəm ki, gözəl, böyük zövqlə yeni binalar tikilsin, müəssisələr tikilsin. Belə idman obyektləri tikilsin.

Bilirsiniz ki, mən idmana artıq yeddi ildir rəhbərlik edirəm və çox şadam ki, idman sürətlə inkişaf edir. Son dövrdə futbolda da dönüş yaranıbdır. Azərbaycanın milli futbol komandası artıq çox uğurla çıxış edir, qələbələr qazanır. Çox güclü komandalarla yüksək səviyyədə oynayır. Bu onu göstərir ki, iş olan yerdə nəticə də olur. Əminəm ki, bu gün burada oynayacaq futbolçular da – mən onların hamısına qələbə arzulayıram – Azərbaycanımızı, doğma vətənimizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil edəcəklər.

Sizi bu bayram münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, səadət arzulayıram. Sağ olun.

* * *

**Şəmkir şəhər sakini prezident İlham Əliyevə müraciətlə dedi:**

Əziz prezidentimiz İlham Əliyev!

Əziz Mehriban xanım!

Rayonumuza xoş gəlmisiniz! Mən Sizinlə fəxr edirəm. Ona görə ki, 34 il ərzində respublikaya quruculuq, abadlıq, tikinti işlərini sizin qayınatanız, İlham müəllimin atası bəxş etmişdir. Mən fəxr edirəm ona görə ki, onun yurdunda belə oğul böyüyür, belə lider böyüyür.

«Zər qədrini zərgər bilər» deyirlər. Yəni bizim qədrimizi o bilirdi, onun layiqli davamçısı bilir. Başqa heç kəs bizim qədrimizi bilə bilməz. Mən Sizə uzun ömür, cansağlığı, tutduğunuz bu yüksək vəzifədə böyük nailiyyətlər, uğurlar arzulayıram. Biz Sizinlə fəxr edirik. İngilis dilində xaricdə danışanda hamımız deyirik ki, Allah, sən onu bədnəzərdən qoru. O, bizim üçün, gələcəyimiz üçün, bugünümüz, sabahımız üçün lazımdır. Atanız respublikamızın bugünü, gələcəyi, sabahı üçün ömrünü şam kimi əritdi. Allahdan diləyim odur ki, Siz daim yaşayıb-yaradasınız. Sizinlə fəxr edirik. Bu gün Şəmkirə ikinci bir bayram bəxş etdiniz.

Allah Sizi həmişə bayramlı, toylu-büsatlı eləsin!

**AZƏRBAYCAN PREZİDENTİ**
**İLHAM ƏLİYEV GƏNCƏDƏ**

*16 iyun 2004-cü il*

*Azərbaycan prezidenti İlham Əliyev Şəmkirdən qədim Gəncəyə gəldi. Gəncəlilər prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev xanım Mehriban Əliyeva ilə Gəncənin Heydər Əliyev prospektində dövlət rəmzləri təsvir olunmuş obeliskə baxdılar. Sonra dahi Azərbaycan şairi Nizami Gəncəvinin xatirə kompleksinə gəldilər. Dövlətimizin başçısı şairin məqbərəsi önünə əklil qoydu. Sonra prezident İlham Əliyev və Mehriban xanım Əliyeva dünya poeziyası dahisinin məzarını ziyarət etdilər.*

* * *

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İmamzadə pirini də ziyarət etdilər.*

*Pirin axundu ziyarətgah haqqında ətraflı məlumat verdi, Allah-Təaladan prezidentə cansağlığı dilədi, ümummilli lider Heydər Əliyevin ruhuna və Azərbaycan xalqının gələcək firavanlığı, ölkəmizin ərazi bütövlüyünün təmin olunması naminə dua etdi. Din xadimi dedi ki, cənab prezident, Sizi Gəncədə çox sevirlər. Sizinlə fəxr edirik. Bizim şəhərimiz İlhamsevərlər şəhəridir.*

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Gəncə də mənim üçün çox əziz, doğma şəhərdir. Mən burada dəfələrlə olmuşam. Gəncə bizim qədim şəhərimizdir, Azərbaycanın tarixidir. Müstəqil Azərbaycanın ikinci şəhəridir. Ona görə Gəncəyə xüsusi diqqət, münasibət olmalıdır. Abadlıq, quruculuq işlərini görəndə, yolların salınmasını, camaatın əhval-ruhiyyəsinin yüksəlməsini görəndə mən çox sevinirəm. Mən istəyirəm ki, bu şəhər daha da gözəlləşsin, abadlaşsın.

Bilirsiniz ki, son dövrdə burada birinci təzə binanı, idman kompleksini biz tikdik. İndi hava limanı tikiləcəkdir. Mən qərar qəbul etdim, bu məsələyə baxacağam. Yeni binalar, yaşayış binaları, mehmanxanalar tikiləcək, şəhər, necə deyərlər, öz qədimliyini, tarixi özəlliyini saxlamaq şərtilə müasirləşməlidir. Mən də çalışacağam ki, hamınızla birlikdə, gəncəlilərlə birlikdə buna nail olam. Sağ olun.

* * *

*Prezident İlham Əliyev Azərbaycanın görkəmli dövlət xadimi, iki yüz il əvvəl çar Rusiyasının işğalçı qoşunları ilə döyüşdə qəhrəmancasına həlak olmuş Gəncə xanı Cavad xanın məzarını da ziyarət etdi.*

*Gəncə Regional Elm Mərkəzinin rəhbəri professor Fuad Əliyev həyatını Azərbaycanın müstəqilliyi uğrunda qurban verən qəhrəmanın qılıncının rəmzi surətini prezidentə hədiyyə etdi və onun tarixi fəaliyyəti barədə danışdı.*

*Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycan rəhbərinə Cavad xanın xatirəsinə ucaldılacaq məqbərənin layihəsi barədə məlumat verdi.*

* * *

*Prezident İlham Əliyev daha sonra məhsulları xaricdə də yüksək qiymətləndirilən «Gəncə şərab-2» Səhmdar Cəmiyyətinə gəldi. Müəssisənin işçiləri dövlətimizin başçısını və onun xanımını hərarətli alqışlarla qarşıladılar. Baş direktor Namiq Məmmədov müəssisənin fəaliyyəti, texnoloji prosesin müxtəlif mərhələləri, quraşdırılmış müasir avadanlıq barədə məlumat verərək dedi ki, burada yüksək keyfiyyətli məhsullar istehsal olunur. Hazırda bir neçə ölkə ilə müqavilələr imzalanmışdır. Xüsusilə Rusiyanın bir çox iri müəssisələri ilə qarşılıqlı əməkdaşlıq yaradılmışdır. Zavod bu yaxınlarda öz məhsulunu ABŞ-a göndərmək üçün müqavilələr bağlayacaqdır.*

*Azərbaycan prezidenti məhsulun keyfiyyətinə nəzarət edilən zavod laboratoriyası ilə də tanış oldu, müəssisənin yaxınlığında yeni salınmış və 78 hektar sahəsi olan üzüm bağına da baxdı. Burada əkilmiş yüksək məhsuldarlığa malik sortun tingləri Fransadan gətirilmişdir.*

*Dövlətimizin başçısı razılığını bildirərək dedi ki, mən çox razıyam, Gəncədə belə bir müasir müəssisə fəaliyyət göstərir və inkişaf edir. Yeni iş yerlərinin açılması mənim siyasətimin əsas istiqamətlərindən biridir. Sizə bu yolda uğurlar arzulayıram.*

*Sonra prezident İlham Əliyev üzüm bağlarının çoxaldılmasının vacibliyini vurğuladı və lazımi tövsiyələrini verdi, dövlət orqanlarının və yerli icra orqanlarının bu işdə sahibkarlara kömək etməsini bir daha xatırlatdı.*

*Prezident bildirdi ki, gələcəkdə sahibkarlara böyük həcmdə kreditlər veriləcəkdir. Siz də böyük işlər görürsünüz, insanları işlə təmin edirsiniz, məhsulu xaricə ixrac edirsiniz. Bu, böyük göstəricidir. Bir var ki, məhsul ölkə daxilində istehlak olunsun, bir də var, xarici bazara çıxarılsın.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı gəncəlilərin sevimli istirahət yeri olan «Xan bağı»nda şəhər sakinləri ilə görüşdülər.*

*Gəncəlilər prezident İlham Əliyevi və Mehriban xanımı böyük hörmət və məhəbbətlə salamladılar.*

* * *

*Regionların sosial–iqtisadi inkişafı dövlət proqramında Gəncədəki hava limanının yenidən qurulması da nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev Gəncəyə səfəri zamanı bu məqsədlə hazırlanmış layihə ilə ətraflı tanış oldu. «Azərbaycan Hava Yolları» Dövlət Konserninin baş direktoru Cahangir Əsgərov layihəyə əsasən görüləcək işlər barədə ətraflı danışaraq bildirdi ki, yenidənqurma başa çatdırıldıqdan sonra Gəncə hava limanı genişlənəcək və beynəlxalq standartlara cavab verəcəkdir.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev şəhər icra hakimiyyətində Gəncədə tikiləcək yeni yaşayış binalarının, ümummilli liderimiz Heydər Əliyevə ucaldılacaq abidənin layihələri ilə tanış oldu.*

*İlham Əliyev binalarda müasirliklə yanaşı, milli memarlıq üslubuna da diqqət yetirilməsinin vacibliyini bildirdi.Azərbaycan prezidentinə ümummilli liderimiz Heydər Əliyevin şərəfinə icra hakimiyyətinin binası qarşısındakı meydanda ucaldılacaq abidənin layihəsi haqqında da geniş məlumat verildi.*

*İcra hakimiyyətinin başçısı E.Əzizov bildirdi ki, abidə ucaldıqdan sonra Gəncənin mərkəzi meydanı Azərbaycanın dahi oğlu Heydər Əliyevin adını daşıyacaqdır.*

**GƏNCƏDƏKİ «N» HƏRBİ HİSSƏSİNİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ**

*16 iyun 2004-cü il*

Əziz əsgərlər, zabitlər, generallar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və seçdiyiniz şərəfli peşənizdə sizə uğurlar arzulayıram.

Dünən bütün Azərbaycan xalqı və onun Silahlı Qüvvələri Azərbaycanın dövlət bayramını – Milli Qurtuluş gününü qeyd edirdi. Bu bayram Azərbaycanda geniş qeyd olunurdu. Mən bu bayramı, ilk növbədə, dünən səhər Gürcüstanda olarkən, orada yaşayan soydaşlarımızla birlikdə qeyd etdim. Ondan sonra Azərbaycanın müxtəlif rayonlarında oldum. Qazax, Ağstafa, Tovuz, Şəmkir rayonlarında oldum və bu bayramı yerli əhali ilə birlikdə qeyd etdik.

Həqiqətən, iyunun 15-i Azərbaycan tarixində çox önəmli yer tutur. Məhz 1993-cü il iyunun 15-də ümummilli liderimiz Heydər Əliyev xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıtmışdır. Azərbaycan o vaxt çox çətin dövr yaşayırdı.

Azərbaycan, demək olar ki, uçurum kənarında idi, ölkədə xaos, anarxiya, hərc-mərclik, özbaşınalıq hökm sürürdü. İqtisadiyyat böhran içində idi. İldən-ilə iqtisadi tənəzzül müşahidə olunurdu və 1993-cü ildə artıq kritik həddə çatmışdı. Siyasi, iqtisadi, hərbi böhran Azərbaycanı çox çətin vəziyyətə salmışdı. Əgər 1993-cü ilin iyun ayında xalq öz müdrikliyini göstərməsəydi, öz liderinə üz tutmasaydı və Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi, ölkəmizin gələcəyi sual altında olardı. Xalqımızın lideri bu ağır yükü öz üzərinə götürdü. Ölkəmizdə sabitlik yarandı, qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi, asayiş bərpa olundu, qardaş qırğınının qarşısı alındı, müharibə dayandırıldı. Azərbaycan inkişaf etməyə başladı.

Son 11 il ərzində ölkəmiz bütün sahələrdə böyük uğurlara nail olmuşdur. Bütün bu uğurlar xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Ölkəmiz beynəlxalq aləmin çox dəyərli üzvünə çevrildi. Azərbaycanın beynəlxalq nüfuzu ildən-ilə artır. Bu gün beynəlxalq təşkilatlarda bizə göstərilən münasibət, diqqət bir daha göstərir ki, 1993-cü ildə Heydər Əliyev tərəfindən seçilən siyasi strategiya böyük uğurlar gətirmişdir.

Azərbaycan iqtisadi cəhətdən gücləndi, ölkəmiz böyük iqtisadi layihələr həyata keçirməyə başladı. Bunun nəticəsində bütün qonşu dövlətlərlə müqayisədə deyə bilərik ki, Azərbaycan liderliyini saxlayır, əldən vermir və bunu daha da gücləndirir. Bu, təkcə bizim deyil, bütün beynəlxalq təşkilatların rəyidir. Azərbaycana gələn xarici qonaqların rəyidir. Ölkəmiz ildən-ilə gözəlləşir, güclənir, abadlaşır. Azərbaycanda sosial problemlər öz həllini tapır. Bu istiqamətdə hökumət böyük işlər görür. Ən çətin vəziyyətdə yaşayan, Ermənistan təcavüzündən əziyyət çəkən soydaşlarımız – qaçqınlar, köçkünlər böyük diqqətlə əhatə olunurlar. Onların çoxlu problemləri vardır, amma, biz çalışırıq ki, bunları aradan qaldıraq. Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qaçqınlara, köçkünlərə yardımlar edilir, onlar üçün yeni müasir qəsəbələr, şəhərciklər salınırdı. Bu siyasət davam edir.

Son on il Azərbaycana bütün sahələrdə böyük xeyirlər gətiribdir. Bizim vəzifəmiz, bizim məqsədimiz bu uğurlu meylləri inkişaf etdirmək, Azərbaycanı hərtərəfli inkişaf etdirmək, gücləndirməkdir. Heydər Əliyevin neft strategiyası Azərbaycana artıq böyük faydalar verdi, xeyirlər gətirdi. Bunun hesabına Azərbaycanın iqtisadi potensialı güclənir və heç kəs üçün sirr deyil ki, iqtisadi potensial gücləndikcə ölkənin ordu potensialı da güclənir. Hər şey iqtisadiyyatdan asılıdır, hər şey iqtisadi durumdan asılıdır. Ona görə bizim başlıca vəzifəmiz iqtisadiyyatımızı şaxələndirmək, hərtərəfli inkişaf etdirmək, Azərbaycanı daha da gücləndirməkdir. Bu istiqamətdə son aylar ərzində çox önəmli addımlar atılmışdır.

Qəbul edilmiş sosial-iqtisadi və regional inkişaf proqramları uğurla həyata keçirilir. Mən çox şadam ki, ilk növbədə, bu, regionlarda özünü daha açıq-aydın göstərir, büruzə verir. Bizim məqsədimiz də məhz budur, Azərbaycanın hər bir bölgəsini inkişaf etdirməkdir. Etdiyim səfərlər çərçivəsində bir daha əmin oluram ki, Azərbaycana böyük hörmət var, Azərbaycanla dünyada hesablaşırlar, Azərbaycana hörmət edirlər, beynəlxalq aləmdə Azərbaycanın nüfuzu artır. Eyni zamanda, ölkə daxilində də bu istiqamətdə, iqtisadi inkişaf istiqamətində böyük işlər görülür, bölgələrdə yeni iş yerləri açılır. Bilirsiniz ki, iş yerləri açılması bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Bu istiqamətdə artıq böyük işlər görülübdür.

Ordu quruculuğunda böyük işlər görülübdür. Heç kəs üçün sirr deyil ki, Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndə Azərbaycanda, demək olar ki, ordu yox idi. Ayrı-ayrı silahlı birləşmələr vardı və onların bir hissəsi hansısa siyasi qüvvələrin təsiri altında idi, bəziləri isə fərdi qaydada əməliyyatlarda iştirak edirdi. Ordu quruculuğu və bu istiqamətdə əldə edilmiş uğurlar ölkəmizə imkan verib ki, bu gün Azərbaycanın nizamlı, güclü ordusu var. Orduda peşəkarlıq artır, ordunun maddi-texniki bazası güclənir və biz böyük planlar həyata keçi-

rəcəyik. Ordumuzun maddi-texniki bazası bundan sonra daha da möhkəmlənəcəkdir. Azərbaycanın buna imkanları var və orduya diqqət, orduya qayğı bizim əsas məsələmizdir.

Mən Azərbaycanın qarşısında heç bir ciddi problem görmürəm. Qeyd etdiyim kimi, ölkəmiz beynəlxalq aləmdə nüfuz qazanıb, beynəlxalq təşkilatların dəyərli üzvünə çevrilibdir. Bütün etdiyim xarici səfərlər məni bir daha əmin etdi ki, ölkəmiz düz yoldadır. Xarici siyasətimiz düz istiqamətdə qurulub, aparılır. İqtisadi baxımdan ölkəmiz nəinki bölgədə, MDB məkanında və bəzi Şərqi Avropa ölkələri ilə müqayisədə daha da inamla, daha da sürətlə inkişaf edir. Bütün beynəlxalq maliyyə qurumları bunu görür və təsdiqləyir. Bu baxımdan da Azərbaycanın qarşısında heç bir problem yoxdur.

Uğurlu neft strategiyasının tərkib hissəsi kimi Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin işə düşməsi nəticəsində Azərbaycana böyük həcmdə maliyyə resursu daxil olacaqdır. Bu da öz növbəsində imkan verəcəkdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin. Azərbaycanda sosial problemlər həll olunur, əmək haqları, pensiyalar artırılır, bu istiqamətdə daha da ciddi addımlar atılacaqdır. O cümlədən orduda qulluq edən şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində çox önəmli addımlar atılacaqdır. Bu, bizim strateji hədəfimizdir. Ölkəmiz bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir, iqtisadiyyatımız liberal iqtisadiyyatdır, amma eyni zamanda, sosial problemlərə böyük diqqət göstərilir. Azərbaycanda sosial ədalət prinsipləri qorunur və ən çətin, ən ağır vəziyyətdə yaşayan insanlara bundan sonra da kömək göstəriləcəkdir. Bilirsiniz ki, yoxsulluqla, işsizliklə mübarizə fəal gedir və mən əminəm ki, gələn 5 il ərzində bu məsələ öz müsbət həllini tapacaqdır.

Bir sözlə, ölkəmiz qarşısında heç bir ciddi məsələ yoxdur, qonşularımızla ikitərəfli münasibətlər də çox yüksək səviyyədə qurulubdur. Azərbaycanın qarşısında bir məsələ var – bu da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Ermənistanın təcavüzü nəticəsində torpaqlarımız işğal altındadır. Bir milyon qaçqın, köçkünümüz var. Siz bilirsiniz ki, Azərbaycan hökuməti bu məsələni sülh yolu ilə həll etmək istəyir. Amma, əfsuslar olsun ki, bu günə qədər aparılmış danışıqlar heç bir nəticə vermir. Bu məsələ ilə bilavasitə məşğul olan, vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun fəaliyyəti, təəssüflər olsun ki, heç bir səmərə vermir. Biz bir daha qeyd etmək istəyirik ki, sülh danışıqlarının aparılmasına tərəfdarıq. Amma, əlbəttə ki, bunun da bir həddi olmalıdır. Azərbaycan xalqının səbri tükənməz deyildir. Mən bunu dəfələrlə, o cümlədən beynəlxalq tribunalardan bəyan etmişəm ki, Azərbaycan heç vaxt torpaqlarının itirilməsi ilə barışmayacaq, nəyin bahasına olursa-olsun, öz doğma torpaqlarını azad edəcəkdir. Bunu etmək üçün cəmiyyətdə səfərbərlik olmalıdır. Gənclərimiz, əsgərlərimiz vətənpərvərlik ruhunda tərbiyə edilməlidirlər. Ölkəmiz hərtərəfli inkişaf etmiş ölkəyə çevrilməlidir. Bizim iqtisadi potensialımız güclənməlidir.

Sizə deyə bilərəm ki, bu gün Azərbaycanın iqtisadi potensialı Ermənistanın iqtisadi potensialından bir neçə dəfə üstündür. Azərbaycanın dövlət büdcəsi Ermənistandakından 3 dəfə böyükdür və ümid edirəm ki, 2005-ci ildə bu, 4 dəfə çox olacaqdır. Azərbaycanda gördüyümüz işlər, aparılan iqtisadi islahatlar nəticəsində bizim iqtisadi potensialımız daha da güclənəcəkdir.

Orduya hər il ayrılan xərclər artır. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Mən bəyan edirəm ki, orduya xərclənən vəsait bundan sonra artacaqdır, biz ordumuzun maddi-texniki bazasını daha da gücləndirməliyik. Bütün bunları etmək üçün bizdə imkanlar var, iqtisadi imkanlar yaranır, güclənir. Siyasi iradə var, Azərbaycanda sabitlik var. Ötən ilin oktyabr ayında keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı öz seçimini birmənalı şəkildə ifadə edibdir. Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Bu gün Azərbaycan xalqının dəstəyi mənim üçün çox önəmlidir. Bir prezident kimi, bir Ali Baş Komandan kimi, mən bu dəstəyə güvənirəm, arxalanıram və əminəm ki, bizim cəmiyyətimiz, hər bir vətəndaşımız bu istiqamətdə daha da fəal rol oynayacaqdır. Siz bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin keçmişdə, hələ ötən əsrin 70-ci illərində də orduya diqqəti böyük idi. Baxmayaraq ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, müttəfiq respublika idi, amma məhz Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb yaradılmışdı.

Demək olar ki, bu, çox nadir bir hadisə idi. Çünki digər respublikalarda belə məktəblər yox idi. Mərkəzi hökumət, Sovet İttifaqı Kommunist Partiyası bu məsələyə o qədər də müsbət baxmırdı. Heydər Əliyev buna böyük çətinliklə müvəffəq olmuşdu. Naxçıvanski adına məktəb bu gün də Azərbaycana xidmət edir. Yəqin ki, xalqımızın lideri o vaxt da Azərbaycanı müstəqil dövlət kimi görürdü. Bu gün ordumuzda xidmət edən zabitlərin bir çoxu Naxçıvanski adına məktəbin məzunlarıdır.

Xatırlayırsınız ki, məhz Naxçıvanski adına məktəbin 30 illiyi qeyd edilərkən, xalqımızın ümummilli lideri əsgərlər, zabitlər, generallar qarşısında çıxış edərkən onun səhhətində problemlər yaranmışdı. O, iki dəfə öz nitqini dayandırmışdı. Amma bütün buna baxmayaraq o, iki dəfə kürsüyə qayıtmış, öz nitqini başa çatdırmışdı. Budur, bizim hamımız üçün nümunə, budur, bizim hamımız üçün örnək. Bu fədakarlıq, bu cəsarət, bu siyasi iradə bizim hamımız üçün böyük örnək, nümunə olmalıdır. Biz hamımız çalışmalıyıq ki, xalqımızın ümummilli lideri Heydər Əliyevə oxşayaq, onun yolu ilə gedək. Azərbaycan xalqı bu istiqamətdə böyük işlər görür, bu siyasəti birmənalı şəkildə dəstəkləyir.

Mən əminəm ki, gələn illərdə Azərbaycan özünün ən ağrılı, ən çətin problemini Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll edəcəkdir. Bu münaqişə yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bəzən

səslər eşidilir ki, bu məsələdə kompromis olmalıdır. Azərbaycan heç bir dövlətin torpağını zəbt etməyibdir. Özünə məxsus olmayan heç bir bölgəni işğal etməyib ki, hansısa kompromisə getsin. Bu məsələdə, torpaq məsələsində heç bir kompromisdən söhbət gedə bilməz. Bunu başqa tərəf nə qədər tez anlasa, o qədər də yaxşı olacaqdır. Mən əminəm ki, biz bu məsələni həll edəcəyik. Azərbaycan güclü dövlətdir, inkişaf edir, bu, bizə məsələni həll etməyə imkan verəcəkdir.

Əziz əsgərlər, zabitlər, generallar!

Siz Gəncə şəhərində xidmət edirsiniz. Gəncə Azərbaycanın qədim şəhəridir, gözəl diyarıdır. Azərbaycanın ikinci şəhəridir və Gəncəyə böyük diqqət, qayğı göstərilir. Son illər ərzində Gəncədə aparılan quruculuq, abadlıq işləri hamımızı çox sevindirir. Mən keçmişdə də Gəncədə dəfələrlə olmuşam. Prezident seçkiləri ərəfəsində, ondan əvvəlki dövrlərdə də olmuşam. Çox istəyirdim ki, Gəncədə quruculuq, abadlıq işləri getsin. Sizə deyə bilərəm ki, uzun fasilədən sonra Gəncədə ilk böyük tikili məhz Milli Olimpiya Komitəsi tərəfindən inşa edilmişdir.

2002-ci ildə Milli Olimpiya Komitəsi Gəncədə böyük idman kompleksini tikib istifadəyə vermişdir. Bu, Milli Olimpiya Komitəsinin Gəncəyə etdiyi hədiyyə idi. Bu addımla biz bütün digər qurumlara da işarə etdik ki, Gəncəyə diqqət göstərilməlidir. Burada yaşayan insanlara diqqət göstərilməlidir. Bu gün çox şadam, çox sevinirəm, görürəm ki, Gəncə öz simasını dəyişibdir. Burada yeni yollar salınır, yeni müəssisələr tikilir, dayanmış müəssisələr öz fəaliyyətini bərpa edir. Sosial infrastruktur qurulur, digər məsələlər öz həllini tapır. Gəncə hava limanının yenidən qurulması üçün önəmli addımlar atılmışdır. Gəncə hərtərəfli inkişaf etməlidir. Azərbaycanın ikinci şəhəri daha da gözəlləşməlidir. Mən bilirəm ki, siz – burada xidmət edən əsgərlər Gəncəni sevirsiniz. Bu, gözəl şəhərdir. Burada yaşayan insanlar da Azərbaycan cəmiyyətinin dəyərli üzvləridir. Azərbaycan dövlətçiliyinə gəncəlilərin töhfəsi böyük olmuşdur.

Mən sizi bir daha ürəkdən salamlayıram. Sizə seçdiyiniz şərəfli peşənizdə uğurlar arzu edirəm. Vətən uğrunda xidmətlərinizdə uğurlar arzulayıram. Sağ olun!

## İRAN İSLAM RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ MƏHƏMMƏDİSMAYIL ŞÜŞTƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*17 iyun 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli qonaqlar, Sizi səmimi-qəlbdən salamlayıram. Vurğulamaq istəyirəm ki, ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir və biz buna çox sevinirik. Siyasi əlaqələrimiz güclənir. Çox məmnunuq ki, iqtisadi əlaqələr də inkişaf edir. Biz buna çox böyük əhəmiyyət veririk. Digər sahələrdə də əməkdaşlıq yüksək səviyyədədir. O cümlədən ədliyyə nazirlikləri arasında da çox gözəl əməkdaşlıq var və sizin səfəriniz bu əməkdaşlığı daha da gücləndirəcəkdir. Mən bilirəm ki, bu səfər çərçivəsində əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Səfəriniz çox uğurlu keçir, gərgin səfərdir, çoxlu görüşlər keçirirsiniz. Bu, məni çox sevindirir. Biz istəyirik ki, İranla Azərbaycan arasında bütün sahələrdə əlaqələr daha da genişlənsin, əməkdaşlığımız daha da dərinləşsin.

Bilirsiniz ki, İran prezidenti Xatəmi ilə çox gözəl şəxsi münasibətlərim var. Mən istəyirəm nazirlər, digər vəzifəli şəxslər də öz aralarında gözəl münasibətlər qursunlar. Sizin səfəriniz də bu məqsədə xidmət edir.

**M ə h ə m m ə d i s m a y ı l Ş ü ş t ə r i**: Cənab prezident, səmimi qəbula görə təşəkkür edirəm. Azərbaycan prezidenti ilə görüşdən böyük şərəf duyduğumu bildirirəm. Sizə ölkə prezidenti cənab Xatəminin salamlarını yetirirəm. İran ilə Azərbaycan arasında münasibətlər müştərək səylərlə inkişaf edir. Bunun da bir çox amilləri vardır. Çalışırıq ki, ölkələrimizin əlaqələri günbəgün inkişaf etsin. Biz möhtərəm Heydər Əliyevin siyasi fəaliyyətini diqqətlə izləmişik. Onun İrana son səfəri bizim münasibətlərimizdə dönüş yaratmışdır.

Mən bu səfər Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdim. Bizim ölkələrimiz arasında müəyyən problemlərin yaranması təbii haldır. Bildirirəm ki, bunlar əsas məsələyə mane olmamalıdır. Siz də, biz də İran–Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Bölgədə heç bir ölkə bizimlə Azərbaycan qədər müştərək köklərə malik deyildir.

Ölkələrimizin ədliyyə nazirlikləri arasında əlaqələr günbəgün inkişaf edir. İndiki səfər zamanı üç sənəd – məhkəmə, icra orqanları arasında əməkdaşlıq və dustaqların təhvil verilməsinə dair sənəd imzalanmışdır. Siyasi, iqtisadi əməkdaşlıqla bərabər, biz hüquq sahəsində də əməkdaşlığa böyük əhəmiyyət veririk.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bizi də narahat edir. Əminəm ki, bu problem, nəhayət, öz həllini tapacaqdır. Qonaq axırda dedi: Ümidvarıq ki, prezident Xatəminin Azərbaycana nəzərdə tutulan səfəri iki ölkə arasındakı münasibətlərdə yeni mərhələ olacaqdır. Biz Heydər Əliyevə böyük hörmət bəsləyirdik. Bu şəxsiyyətin fikir və əqidəsinə görə ona məhəbbətimiz böyük idi. Azərbaycanın inkişafında onun çox böyük rolu olmuşdur. Ümidvarıq ki, onun davamçısı kimi Siz bu sahədə böyük işlər görəcəksiniz.

**İ l h a m Ə l i y e v:** Xoş sözlərə görə Sizə təşəkkürümü bildirirəm.

Siz doğru deyirsiniz. Heydər Əliyev bu əlaqələrə çox böyük önəm verirdi. Onun İrana etdiyi son səfəri nəticəsində ölkələrimiz arasında bütün istiqamətlərdə əlaqələr daha da gücləndi. Bütün başqa sahələrdə olduğu kimi, İran–Azərbaycan münasibətlərində də Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və davam etdirilir. Bu, onun siyasəti idi, onun uzaqgörənliyi idi, onun bizə etdiyi məsləhətlərdir ki, biz bunu davam etdiririk. İstəyirik ki, bu əlaqələr daha da inkişaf etsin. Heydər Əliyevin İran prezidenti cənab Xatəmi ilə də çox gözəl şəxsi əlaqələri olmuşdur. Şəxsi əlaqələr iki ölkə arasında olan münasibətlərə çox böyük təsir edir. Ona görə bir daha demək istəyirəm ki, mənim də cənab prezident Xatəmi ilə əlaqələrim çox gözəldir. Yəni bir-birimizə çox böyük hörmətlə, rəğbətlə yanaşırıq. Fürsətdən istifadə edib sizdən xahiş edirəm ki, mənim ən dərin hörmətimi, ehtiramımı cənab prezidentə çatdırasınız. Biz onu Azərbaycanda səbirsizliklə gözləyirik. Əlbəttə, mən də İrana böyük məmnuniyyətlə səfər edəcəyəm.

## ƏHALİ MƏSKUNLUĞU MƏSƏLƏLƏRİ NAZİRİ PAUL-EERİK RUMMO BAŞDA OLMAQLA ESTONİYA RESPUBİLKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*17 iyun 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli qonaqlar, Sizi səmimi-qəlbdən salamlayıram, Bakıya xoş gəlmisiniz. Nümayəndə heyəti üzvlərinizin Bakıda keçirdikləri görüşlərdən və danışıqlardan razı qaldığımı bildirirəm. Biz bütün səviyyələrdə əlaqələrimizi hərtərəfli inkişaf etdirmək istəyirik. Əvvəllər bir dövlətin tərkibində olmuş ölkələrimiz ittifaq dağıldıqdan sonra çox arzusunda olduqları müstəqilliyə qovuşdu, öz taleyinin sahibi olmaq hüququ qazandı. Müstəqilliyin təşəkkülü dövründə həm Estoniyanın, həm də Azərbaycanın siyasi və iqtisadi inkişafda əldə etdiyi uğurlar çox sevindiricidir. Bu, ölkələrimizin son 12 ildə seçdikləri inkişaf yolunun düzgünlüyünə daha bir sübutdur.

Estoniyanın Avropa qurumlarına inteqrasiya yolunda qazandığı nailiyyətləri, beynəlxalq təşkilatlarda fəal iştirakını Azərbaycanda ruh yüksəkliyi ilə qarşılamışlar. Azərbaycan da bu yolla gedir və beynəlxalq qurumlara fəal inteqrasiya edir. Lakin Ermənistan tərəfindən təcavüz ölkəmizdə vəziyyəti çətinləşdirir. Bu təcavüz nəticəsində ərazimizin 20 faizi işğal edilmiş, bir milyondan çox adam doğma ocaqlarından didərgin salınmışdır. Lakin biz inanırıq ki, haqq-ədalət öz yerini tutacaq və Azərbaycanın ərazi bütövlüyü də bərpa ediləcəkdir.

İkitərəfli əlaqələrin inkişafı ölkələrimizin mənafelərinə uyğundur və bunun üçün iqtisadiyyatda, siyasi məsləhətləşmələr sahəsində böyük potensial var. Estoniyadakı Azərbaycan diasporu ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, parlamentdə təmsil olunmuşdur ki, bu da iki ölkənin xalqlarının yaxınlaşması işinə xidmət edəcəkdir.

**P a u l – E e r i k R u m m o:** Cənab Prezident, səmimi qəbula görə Sizə təşəkkür edirik. Bildirmək istəyirəm ki, nümayəndə heyətinə Azərbaycan ilə Estoniya arasında dostluq qrupunun üzvləri olan deputatlar da daxildir. Estoniya azərbaycanlıları ölkənin əsl vətənpərvərləridir və biz bütün işlərdə azərbaycanlıların dəstəyini hiss edirik.

Azərbaycan–Estoniya əməkdaşlığının böyük perspektivləri var, xüsusilə Avropa Birliyinin proqramları sahəsində birgə layihələrin həyata keçirilməsi mümkündür.

## BÖYÜK BRİTANİYANIN BP QRUPUNUN DİREKTORU, KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ VİTSE-PREZİDENTİ TONİ HEYVORD İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*17 iyun 2004-cü il*

**İlham Əliyev**: Hörmətli qonaqlar, sizi Azərbaycanda salamlayıram. Bizim əməkdaşlığımız uğurla davam edir. Bu əməkdaşlığa aid olan məsələlər vaxtında həyata keçirilir, eyni zamanda Azərbaycanda enerji sahəsində layihələrin həyata keçirilməsində işlər uğurla davam edir. *BP* ilə Azərbaycan Dövlət Neft Şirkətinin əməkdaşlığı çox faydalıdır və bu da Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin inkişafına dəlalət edir.

Ölkəmizdə həyata keçirilən iri neft layihələrində BP şirkəti aparıcı yer tutur və öz fəaliyyətini uğurla həyata keçirir. Ölkəmizdə reallaşdırılan enerji layihələrində bizim də iştirakımızı məmnunluqla bildirir, mövcud əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyini söyləyirəm.

**Toni Heyvord:** Vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. İki gündür Azərbaycandayıq, bu səfərdən razı qaldığımı bildirir və burada enerji layihələrinin həyata keçirilməsini, işlərin gedişini izləmişəm. Mən «Əsrin müqaviləsi»nin imzalanmasından ötən 10 il ərzində görülən işləri yüksək qiymətləndirir və bu layihələrin gerçəkləşməsində prezident Heydər Əliyevin böyük əməyini qeyd etmək istəyirəm. Biz, həmçinin cənab İlham Əliyevin də bu prosesdə iştirak etməsindən məmnunuq. Tam əminik ki, dünya miqyaslı layihə olan Bakı–Tbilsi–Ceyhan neft kəmərinin tikintisi vaxtında başa çatdırılacaqdır. Müşahidələrimiz bizə tam əminlik verir ki, bu layihə 2005-ci ilin birinci rübündə tam reallaşacaqdır.

Onu da vurğuladım ki, əməkdaşlığımız gələcəkdə də uğurla davam edəcək, biz birlikdə çox böyük işlər görəcəyik, nailiyyətlər qazanacağıq. Yadda saxlamaq lazımdır ki, əgər cənab Heydər Əliyevin və onun layiqli davamçısı İlham Əliyevin diqqət və qayğısı olmasaydı, biz bütün bunları edə bilməzdik.

## RUSİYA TİCARƏT-SƏNAYE PALATASININ PREZİDENTİ YEVGENİ PRİMAKOV BAŞDA OLMAQLA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*18 iyun 2004-cü il*

**İ l h a m Ə l i y e v:** Hörmətli qonaqlar, Sizi səmimi-qəlbdən salamlayıram. Son illər ölkələrimiz arasında sıx mehriban qonşuluq münasibətlərinin yaranmışdır. Rusiya prezidenti Vladimir Putinin Azərbaycana ilk səfəri və sonra Azərbaycan prezidenti Heydər Əliyevin Rusiyaya səfəri indiki mərhələdə səmərəli əməkdaşlığın bünövrəsini qoymuşdur. Mən bu ilin əvvəlində Rusiyaya səfərimi, keçirilmiş danışıqları və görüşləri böyük səmimiyyətlə xatırlayıram. Bu, bizim hamımızı bir daha inandırdı ki, ölkələrimiz geniş qarşılıqlı fəaliyyət göstərir və əməkdaşlıq edirlər. Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivləri var, mühüm birgə energetika layihələri həyata keçirilir, ölkəmizdə gerçəkləşdirilən bir sıra layihələrdə Rusiya biznesinin iştirakı genişlənir. Bu yaxınlarda Bakıda Rusiya mədəniyyəti günləri uğurla keçdi. Gələn il Rusiyada Azərbaycan ili olacaqdır. Bu tədbirdə ölkəmiz təkcə mədəniyyət sahəsi ilə deyil, həm də sənaye müəssisələri ilə təmsil olunacaq və onlar il ərzində öz məhsullarını göndərəcəklər.

Rusiya nümayəndə heyətinin hər bir səfəri, o cümlədən də Rusiya Ticarət-Sənaye Palatası nümayəndələrinin indiki səfəri ölkələrimiz arasında əlaqələrin inkişafına dinamika verir.

**Y e v g e n i P r i m a k o v:** Cənab Prezident, səmimi qəbula görə təşəkkür edirəm. Prezident Heydər Əliyevin Rusiya ilə ikitərəfli əlaqələrin inkişafına yönəldilmiş siyasətinin uğurla davam etdirilməsindən məmnunluq duyduğumu bildirirəm. Bakıya səfərimin əvvəlində Azərbaycanın ümummilli liderinin xatirəsini andım.

Azərbaycan ilə Rusiya arasında münasibətlərin çox böyük əhəmiyyəti var və Azərbaycan prezidentinin Rusiyaya səfəri bu münasibətlərin inkişafına təkan vermişdir. Azərbaycana səfərimnin məqsədi danışıqlar aparılacaq və əməkdaşlıq haqqında saziş imzalanacaqdır. Hər iki ölkənin sahibkarları arasında əməkdaşlığın genişləndiriləcəyinə ümidvar olduğumu bildirərək söyləmək istəyirəm ki, bu, Bakıda danışıqların əsas mövzusu olmuşdur. Çünki Azərbaycan Ticarət və Sənaye Palatasının prezidenti rotasiya əsasında bu il MDB ölkələri Ticarət-Sənaye Palataları İttifaqının sədri olacaqdır.

**İ l h a m Ə l i y e v:** Məlumatınıza görə təşəkkür edirəm və bu işdə Sizə müvəffəqiyyətlər arzulayıram.

**Y e v g e n i P r i m a k o v:** Cənab Prezident, mən də Sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

## Q E Y D L Ə R

**1. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5–6,7–9,21,37,40,55,56,57,60,61,69,115,150, 173, 174,207,220,321,338–339.

**2. Beynəlxalq Olimpiya Komitəsi (BOK)** – muasir olimpiya hərəkatının daim fəaliyyət göstərən ali orqanı. Pyer de Kubertenin təşəbbüsü ilə yaradılmışdır. 1997-ci ildə BOK-un tərkibində 200 üzvü (70 ölkədən artıq) var idi. BOK-u 200-yə yaxın milli olimpiya komitəsi tanıyır. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). – 5–6,7–9.

**3. Vitali Smirnov** (d.1935) – 2001-ci ildən Pusiya Olimpiiya Komitəsinin fəxri prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti. – 5–6,7–9.

**4. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 10.

**5. Moşe Katsava** (d.1945) – İsrail dövlət xadimi. 2000–2007-ci illərdə İsrail prezidenti. – 10.

**6. Cənubi Afrika Respublikası** (CAR) – Cənubi Afrikada dövlət. Sahəsi 1,2 milyon km$^2$, əhalisi 41,7 milyon nəfərdir. 9 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament (Senat və Milli Məclis). – 11.

**7. Tabo Mbeki (d.1942)** – Afrika Milli Konqresinin görkəmli nümayəndəsi. 1997–2007-ci illərdə Afrika Milli Konqresinin sədri, 1999–2008-ci illərdə Cənubi Afrika Respublikasının prezidenti olmuşdur. – 11.

**8. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 15,6 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdam. – 12.

**9. Beatriks II** (d.1938) – 1980-ci ildən Niderlandın kraliçası. – 12.

**10. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seym-dir. Paytaxtı Varşava şəhəridir. – 13,16–25.

**11. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı olmuşdur. 1995–2005-ci illərdə Polşa Respublikasının prezidenti olmuşdur. – 13,17.

**12. Slovakiya,** S l o v a k i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km$^2$, əhalisi 3,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 14.

**13. İvan Qaşparoviç** (d.1941) – Slovakiya dövlət xadimi, hüquqşünas-alim, 2004-cü ildən Slovakiya Respublikasının prezidenti. – 14.

**14. Avstriya,** A v s t r i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. – 15.

**15. Haynts Fişer (d.1938)** – Avstriya dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–cü ildən Avstriya Federal prezidenti alpinizmlə məşğul olur. – 15.

**16. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi – AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun – vahid valyuta qəbul etməsi – AVRO) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986–1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 17,39,45,60,82,135,136, 137,138,139,140,144–148,149,151,154,159–175,212,236,248, 256,335.

**17. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 19,24,70,111,164,165,193,194,253,262.

**18. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 19,24,55,69,94,112,123, 142,144,162,181,194,196,197,201,203,221,222,236,248,253, 255,259,264,309,317,336.

**19. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853,874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 21,36,37,41,44,47,50,53,54, 60,70,114,123,135,136,138,139,141,145,147,148,149,150,157, 161,162,166,167,168,169,174,175,181,183,194,197,213,217, 218,225,234,235,237,250,254,255,264,267,269,308,327,329.

**20. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 21,42,56, 57,82,114,136,137,138,140,147,148,158,174,183,197,218,327.

**21. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir.– 21,42,45,50,51,60,61,173,174,196–197,266–269, 270.

**22. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min $km^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 21,40,42,60–63,170,174,261,322.

**23. SSRİ,** S o v e t S o s i a l i s t R e s p u b l i k a l a r ı İ t- t i f a q ı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 23,32,39,40,159,160.

**24. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i- m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal–şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 24,45,60,193, 198–199,208,209,336–337.

**25. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 26,27–30,48,53,59,73.

**26. Səməd Seyidov,** S ə m ə d İ s m a y ı l o ğ l u (d.1964) – filologiya elmləri doktoru, professor. 2000-ci ildən Azərbaycan Dövlət Dillər Universitetinin rektoru, Azərbaycan Respublikası Milli Məclisinin deputatı. 2003-cü ildən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısıdır. – 26.

**27. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 27–63,73,75,82, 117,136,140,183,236,248,256.

**28. Valter Şvimmer** (d.1942) – Tanınmış Avstriya dövlət xadimi. 28 il Avstriya parlamentinin üzvü, 1999–2004-cü illərdə isə Avropa Şurasının Baş katibi olmuşdur. – 27–30,59.

**29. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 33.

**30. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 35,163.

**31. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Zaqafqaziyanın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 37,60,72,73,82,118,133,150,170,171,172,203–204,220, 278–305,309,324.

**32. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 45.

**33. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 44,60,66,73,74,108,142,147,149,162,171,186–188, 194,195,201–202,266–269,285,286.

**34. Respublikaçılar İnstitutu** – burada Respublikaçılar partiyası nəzərdə tutulur. – 45.

**35. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 51,55, 154,212–243.

**36. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 51,211,212–222, 226–228,231,234,239,240,241,242,243.

**37. GUÖAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 51,212,215, 219,220,229.

**38. Bakı–Novorossiysk neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 55,56.

**39. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 55,71,200,336.

**40. Hacıyev Xanlar,** X a n l a r  İ r ş a d  F a i q  o ğ l u (d.1966) – hüquqşünas. 1993–98-ci illərdə Ali Məhkəmənin sədri, 1998-ci ildə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri olmuşdur. Hazırda Avropa Məhkəməsinin üzvüdür. – 58.

**41. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974–76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 60.

**42. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 60,63,75,108,109,115, 116,189,331–333.

**43. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 61.

**44. Makedoniya,** M a k e d o n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 25,7 min $km^2$, əhalisi 1,97 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. – 64.

**45. Branko Çrvenkovski** (d.1962) – 2004–2009-cu illərdə (marta qədər) Makedoniya Respublikasının prezidenti. – 64.

**46. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may-iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi

yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» adı almış dünyanın aparıcı neft şirkətləri ilə mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən, Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür.

Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur. – 67–75,76–82,92,93,94,95,96,99,101,102,103,104,106,107, 109,110,111,112,113,114,120,121,122,123,124,125,126,127,141, 159,181,182,187,190,191,192,193,195,202,203,204,216,225,226, 227,235,236,237,240–242,246–251,253,257,258,259,260,261, 264,265,290,295,298–299,301,309,313–314,315,316,317,323, 324,325,326,328,336,337,338.

**47. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 69,78,181,190,191,253,336.

**48. Bakı Dərin Dəniz Özülləri zavodu** – 1978-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmışdır. Respublikada neft sənayesinin inkişafında böyük rolu vardır. – 69.

**49. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 75,183.

**50. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min $km^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən respublikanın paytaxtı oldu. – 85,86,91–127.

**51. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq

respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt–Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məs-ləhət Komitəsidir. – 75,94,215,339.

**52. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmış-dır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 75.

**53. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuş-lar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 75,117,155–158, 183,212,236,248,256.

**54. Murtuz Ələsgərov,** M u r t u z N ə c ə f o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi. Hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünasıdır. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olub. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 76–82.

**55. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı zəbt etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 81.

**56. Mixail Saakaşvili,** M i x a i l N i k o l a y e v i ç (d.1967) – 2003-cü ildən Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 82,133,203,204,220,278, 279–289,291–293,298–299,300–302,303,305.

**57. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Ha-zırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 82,168,169,215,326.

**58. Kamerun,** K a m e r u n R e s p u b l i k a s ı – Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min km$^2$, əhalisi 13,6 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaundadır. – 83.

**59. Yəmən,** Y ə m ə n  R e s p u b l i k a s ı – Ərəbistan yarımadasının cənub hissəsində dövlət. Sahəsi 532 min km$^2$, əhalisi 16,6 milyon nəfərdir. İnzibati ərazisi 17 əyalətə (qubernatorluğa) bölünür. Dövlət başçısı Prezident Şurasıdır. Paytaxtı 1990-cı ildən Sənadır. Ədən iqtisadi şəhər statusuna malikdir. – 84.

**60. Əli Abdulla Saleh** (d.1932) – marşal, 1994-cü ildən Yəmən Respublikasının prezidenti. – 84.

**61. Heydər Əliyev fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev fondunun prezidenti – YUNESKO –nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasına məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək; Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək; Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim a aşılamaq məqsədidir.

Fondun icraçı orqanı prezidentdir. Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası fəaliyyət göstərir. Fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 85–90.

**62. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 85,91–127.

**63. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi-siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatında birləşən 180 min üzvü var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 86.

**64. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krasnov adına Moskva Elmi - Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talesimiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahı xalq yaradıcılığına və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 91,97,105,113, 211,228,229,242,278,306,311,319,320,322.

**65. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 91,103,110,113,126.

**66. Əcəmi Əbubəkr oğlu Naxçıvani** (XII əsrin 20-ci illəri – XII əsrin sonu) – orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini,

Mömünə xatun türbəsini, böyük Cümə məscidini və mənbələrdə «Darülmülk» adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. – 97.

**67. Naxçıvan Dövlət Universiteti,** Y u s i f   M ə m m ə d -ə l i y e v   a d ı n a (NDU) – ali təhsil məktəbi. Naxçıvan MR-in mühüm təhsil, elm və mədəniyyət mərkəzi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il qərarı ilə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu əsasında yaradılmışdır. 32 ixtisas üzrə mütəxəssislər hazırlayan 9 fakültəsi (tarix, filologiya, iqtisad-hüquq, təbiətşünaslıq, tibb, fizika-riyaziyyat, pedaqoji, incəsənət, xarici tələbələr), hazırlıq şöbəsi fəaliyyət göstərir. NDU-da 3600-dən çox tələbə təhsil alır. – 101.

**68. Əshabi–Kəhf** –Naxçıvan şəhərindən təqribən 12 km aralı, İlandağ ilə Nəhəcir dağı arasındakı təbii mağarada ziyarətgah. Ərəb dilində «mağara adamları» deməkdir. Eyni adlı yerin Kiçik Asiya və Fələstin ərazisində olması haqqında müsəlman və xristian ədəbiyyatında, o cümlədən, Quranda məlumat var. Xristian siryanilərdən müsəlmanlara keçmiş və Quranın «Kəhf» («Mağara») surəsində əksini tapmış əfsanəyə görə isə, Allaha inanan gənclər təqiblərdən yaxa qurtarmaq üçün bir itlə birlikdə mağarada gizlənmişdilər. Allah onları yatırmış, bir neçə yüz ildən sonra oyatmış, lakin gənclər özlərinə yad dünyanı görüb, yenidən əbədi yuxuya getmişlər. – 104.

**69. Ramil Usubov** (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 110.

**70. Zərifə Əliyeva,** Z ə r i f ə   Ə z i z   q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, prezident Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 114, 230–232.

**71. Xatəmi,** S e y i d   M ə h ə m m ə d   X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. –116, 189,331,332.

72. **Eldəgəzlər dövləti** – bax, Atabəylər dövləti.–

**73. Atabəylər dövləti** – Azərbaycanda Eldəgəzlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövlət ( 1136–1225). Azərbaycan atabəyləri dövlətinin əsasını Azərbaycanın da bir vilayət kimi daxil olduğu İraq Səlcuq sultanlığının başçısı Şəmsəddin Eldəgəz qoymuşdur. Azərbaycan atabəyləri dövlətinin yaranma tarixi Sultan Məsudun (1135–52) Aqqanı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır.

Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. – 120.

**74. Ümid körpüsü,** H ə s r ə t   k ö r p ü s ü – Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 126.

**75. Norveç,** N o r v e ç   K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min $km^2$, əhalisi 4,4 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (stortinq laqtinq və odelstinq) parlamentdir. Paytaxtı Oslodur. – 128,129,200.

**76. Harald V** (d.1937) – 1991-ci ildən Norveçin kralı. Kral V Ulafin oğlu. – 128.

**77. Argentina,** A r g e n t i n a   R e s p u b l i k a s ı – Cənubi Amerikanın cənub–şərqində dövlət. Sahəsi 2780 min $km^2$, əhalisi 34,9 milyon nəfərdir. Argentina federasiyası tərkibinə 22 əyalət, 1 milli ərazi (Odlu

Torpaq) və 1 Federal (paytaxt) mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Buenos–Ayresdir. – 131.

**78. Nestor Kirçner** (d.1950) – 2003–2008-ci illərdə Argentina Respublikasın prezidenti olmuşdur. – 131.

**79. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l l ı- ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 132.

**80. II Abdulla,** A b d u l l a b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. II Abdulla kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 132.

**81. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 134–175.

**82. Mirhəmzə Əfəndiyev**, M i r h ə m z ə N a z i m o ğ - l u (d.1950) –diplomat. 1995-ci ildən Belçika Krallığında Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. – 134.

**83. Avropa Komissiyası,** A v r o p a Ş u r a s ı ö l k ə l ə -r i n i n K o m i s s i y a s ı – AŞ Hökumətlərinin ali icraedici orqanı, AŞ-nın bütün maraqlarına cavab verən siyasi müstəqil institut. Onun tərkibinə üzv olkələrin hökumətlərinin vahid razılığı ilə seçilən 20 komissar daxildir. Komissiyanın tərkibini minimum üzv ölkələrin nümayəndələri təmsil edir. Komissiyanın üzvləri öz ölkələrini yox, bütün AŞ-nı təmsil edirlər. AŞ-nın bütün qərarları Komissiyadan keçməlidir. Qərarların yerinə yetirilməsinə AŞ nəzarət edir. – 134, 135–143.

**84. Prodi Romano** (d.1939) –İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında Sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzifələrində işləmiş və Baş nazir olmuşdur. – 135-143.

**85. TRASEKA,** T r a n s x ə z ə r n ə q l i y y a t d ə h l i z i – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. –

**86. Dünya Gömrük Təşkilatı –** (ÜGT) Brüsseldə (Belçika) mənzil qərargahı olan dövlətlərarası beynəlxalq təşkilat. Deмək olar ki, dünyanın bütün ölkələrinin gömrük qulluqçuları ÜGT-nin üzvləridir. ÜGT-nin əsas məqsədi üzv ölkələrin gömrük işinin yaxşılaşdırılması, milli təhlükəsizliyin möhkəmləndirilməsi, daxili ticarətdə yığılan vergilərin artırılması və düzgün ştatistikanın yaradılmasıdır. – 143,152–154.

**87. Gi Verhofstadt** (d.1953) – Belçika siyasi xadimi. 1999–2008-ci illərdə Belçika Baş naziri. – 143.

**88. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-nın üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf partiyasının yaradıcılarından biridir. 2007-ci ildən Türkiyənin prezidentidir. – 143.

**89. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 143,152-155.

**90. Havyer Solana** (d.1942) – siyasi xadim, 1995–99-cu illərdə NATO-nun Baş katibi, 1999-cu ilin iyulundan Avropa İttifaqı Şurasının Xarici Siyasət və Təhlükəsizlik üzrə Baş katibidir. – 144–148.

**91. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri

rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 147,157,162,169, 170.

**92. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 152.

**93.** D**ünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 153.

**94. Yanukoviç Viktor Fyodoroviç** (d.1950) – mühəndis-mexanik. 2003 və 2007–2008-ci illərdə Ukrayna Respublikasının Baş naziri olmuşdur. Hal-hazırda Regionlar Partiyasının rəhbəridir. – 154,211,223,242.

**95. Yaap de Hoop Sxeffer (**d.1948) – Niderlandiya siyasi xadimi, 2004-cü ildən NATO-nun Baş katibidir. – 155–158.

**96. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 156.

**97. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə-Kipr administrasıyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (ŞKTR) – Kıbrıs elan etdi. – 168.

**98. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b- l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 176.

**99. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı – politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004-cü ildən indiyə qədər Almaniyanın prezidentidir. – 176.

**100. İsveç,** İ s v e ç K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min km$^2$, əhalisi 8,9 milyon nəfərdir. İnzibati ərazisi 24 lena bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (riksdaq). Paytaxtı Stokholmdur. – 177,178.

**101. Yoran Persson** (d.1949) – 1996–2006-cı illərdə İsveçin Baş naziri olmuşdur. İsveç Sosial-Demokrat partiyasının başçısıdır. – 177.

**102. Karl Qustav XVI** (d.1946) – 1973-cü ildən İsveçin kralı. O, həmçinin «Ümumdünya təbiət» fondunun prezidentidir. – 178.

**103. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$,

əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 179.

**104. Karlo Adzelyo Çampi** (d.1920) – İtaliya siyasi xadimi. 1999–2006-cı illərdə İtaliya Respublikasının prezidenti olmuşdur. – 179.

**105. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 180–185,294.

**106. Mustafa Kamal Atatürk,** Q a z i  M u s t a f a  K a- m a l (1881–1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 187.

**107. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000-ci ildən). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. Respublikaçıdır. – 196,245.

**108. Toni Bleyr,** E n t o n i  Ç a r l z  L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər partiyasının sədri seçilmişdir. 1997–2007-ci illərdə B.Britaniyanın Baş naziri olmuşdur. 2007-ci ildən BMT-nin İsrail ilə Fələstin probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etmək üçün vasitəçi təyin edilmişdir. – 198,209.

**109. «B r i t i ş  P e t r o l e u m»,** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. BP 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 198,199,336–337.

**110. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 200.

**111. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1993-cü ildə Türkiyə Kassasiya Məhkəməsinin, 1988-ci ildə isə Türkiyə Konstitusiya Məhkəməsinin üzvü seçilib. 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 201.

**112. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə ictimai, siyasi və dövlət xadimi. P.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1983-cü ildən siyasi fəaliyyətini Rifah partiyasında davam etdirir. 1994-cü ilin martında keçirilən bələdiyyə seçkilərində İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri seçilir. Bu arada Rifah partiyası bağlanır və onun bazasında Fəzilət partiyası yaradılır. Buna görə də Ərdoğanı dəstəkləyən partiya üzvləri Fəzilət partiyasından ayrılaraq Ədalət və İnkişaf partiyasını qurdular və onu özlərinə lider seçdilər.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində AKP təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 201.

**113. Şevardnadze** Eduard Amvrosiyeviç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972–85-ci illərdə Gürcüstan KP MK-nın Birinci katibi, 1985–90-cı illərdə SSRİ Xarici İşlər naziri, 1994–2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 203,290.

**114. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbista-nı Krallığı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 205.

**115. Fəhd Bin Əbdüləziz,** Al Saud (1922–2005) – 1982-ci ildən iki müqəddəs ocağın xidmətçisi və Səudiyyə Ərəbistanının kralı. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 205.

**116. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min $km^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 206.

**117. Jorji Sampayyu** (d.1939) – Portuqaliya siyasi xadimi. 1996–2006-cı illərdə Portuqaliya Respublikasının prezidenti olmuşdur. – 206.

**118. Putin,** Vladimir Vladimiroviç (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. – 207,338.

**119. Yelizaveta II** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqin ölümündən sonra taxt-taca sahib olmuşdur. – 208.

**120. Filippin,** Filippin Respublikası – Cənub–Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min $km^2$, əhalisi 71,8 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqan ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Maniladır. – 210.

**121. Qloriya Makaraqal Arroya** (d.1947) – 2001-ci ildən indiyə qədər Filippin prezidenti. Ölkə tarixində ilk prezident qadın. Keçmiş prezident Diosalado Makaralanın qızı. İqtisad elmləri doktoru. – 210.

**122. Kiyev şəhəri** – Ukrayna Respublikasının paytaxtı. VI əsrdə salınmışdır. IX–XII əsrlərdə Kiyev Rus dövlətinin mərkəzi idi. 1654-cü ildə Ukrayna Rusiya ilə yenidən birləşdikdən sonra Kiyev Ukraynanın iqtisadi və mədəni mərkəzi kimi inkişaf etmişdir. 1934-cü ildə Ukraynanın paytaxtı Xaarkovdan Kiyevə köçürüldü. Kiyev Ukraynanın ən iri sənaye, mədəniyyət və elm mərkəzidir. – 211–243.

**123. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 215.

**124. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman–alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə yaxın elmlər namizədi fəaliyyət göstərir, üç min tələbə isə təhsil alır. – 216,242.

**125. İpək yolu**, Böyük İpək yolu – beynəlxalq tarixi tranzit–ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 220.

**126. Böyük Vətən müharibəsi,** bax: İkinci dünya müharibəsi.

**127. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 223.

**128. Ukrayna Ali RADA-sı** – Ukraynanın ali qanunverici hakimiyyət (Sovet–Şura, Xalq Deputatları RADA-sı) orqanı. – 229.

**129. Vladimir Litvin** (d.1956) – Ukrayna siyasi və dövlət xadimi. Tarix elmləri doktoru, Ukrayna Elmlər Akademiyasının həqiqi üzvü. Ukrayna Dövlət mükafatı laureatı. 2002–2006-cı illərdə və 2008-ci ildən Ukrayna Ali Radasının sədridir. – 229.

**130. Taras Şevçenko,** T a r a s Q r i q o r y e v i ç (1814–1861) – Ukrayna şairi, rəssam, mütəfəkkir, inqilabçı demo-krat. Ukrayna ədəbiyyatı və təsviri sənətində tənqidi realizmin və inqilabi – demokratik cərəyanın banisi. Ukrayna ədəbiyyatının inkişafında Şevçenkonun müstəsna xidməti olmuşdur.

Şevçenko rəssam kimi də məşhurdur. 1860-cı ildə mis üzərində qravuralarına görə akademik adına layiq görülmüşdür. – 229.

**131. Kiyev Peçera lavrası** – Kiyev Rus dövlətində qədim monastr. Əsası 1051-ci ildə qoyulmuşdur. Əvvəllər süni mAğaralarda tikilmiş kilsə və hücrələrdən ibarət idi. XI–XIII əsrlərdə monastr böyük mədəni mərkəz olmuşdur. Kiyevdə ilk mətbəə 1615-ci ildə Kiyev Peçera lavrasında açılmışdır. XVII–XVIII əsrlərdə Kiyev Peçera lavrası memarlıq ansamblının inşası başa çatmış, daşdan müdafiə divarları (1660–1702), Müqəddəslər kilsəsi (1698–1700), Böyük zəng qülləsi (1731–45), mağaraların üstündə Vozdvijeniye kilsəsi (1696) və bir sıra binalar tikilmişdir. 1926-cı ildən bura tarixi memarlıq qoruğu və muzeydir. – 242.

**132. Vaqif Səmədoğlu,** V a q i f V ə k i l o v (d.1939) – Azərbaycanın xalq şairi, dramaturq, publisist, ictimai xadim. Azərbaycanın Əməkdar incəsənət xadimi. «Bəxt üzüyü» və «Yaşıl eynəkli adam» və s. pyeslərin müəllifidir. Bir çox şeir kitabları çıxmışdır. 2000-ci ildən Milli Məclisin üzvüdür. – 244.

**133. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimoloqiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Mingəçevir əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir Böyük vətən müharibəsindən sonrakı illərdə salınmış iri sənaye mərkəzlərindəndir. Şəhər Mingəçevir hidrotexniki kompleksinin tikintisi ilə əlaqədar salınmışdır. – 252–265,268.

**134. Ronald Reyqan Uilson** (1911–2004) – Respublikaçılar partiyasından ABŞ-ın 40-cı prezidenti (1981–89). 1937-ci ildən Hollivud kinoaktyoru. 1942–45-ci illərdə ABŞ-ın HHQ informasiya orqanında işləmiş, 1967–75-ci illərdə Kaliforniya ştatının qubernatoru olmuşdur. – 270.

**135. İslandiya,** İ s l a n d i y a R e s p u b l i k a s ı – Atlantik okeanın şimalında, İslandiya adalarında dövlət. Sahəsi 103 min $km^2$, əhalisi 270 min nəfərdir. İnzibati ərazisi 23 rayonu (sisla) olan 8 mahala bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir (altinq). Paytaxtı Peykyavikdir. – 271.

**136. Olavur Raqnar Qrimsson** (d.1943) – 1996-ci ildən indiyə qədər İslandiyanın beşinci prezidenti. Politologiya elmləri doktoru. İslandiiyanın prezidenti kimi «Qartal» ordeninin qrossmeystrudur. – 271.

**137. Lüksemburq,** B ö y ü k L ü k s e m b u r q H e r -s o q l u ğ u – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min $km^2$, əhalisi 415 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı böyük hersoqdur. Qanunverici orqanı Deputatlar palatasıdır. Paytaxtı Lüksemburqdur. – 272,273.

**138. Cibuti,** C i b u t i R e s p u b l i k a s ı – Şimal–Şərqi Afrikada dövlət. Sahəsi 22 min $km^2$, əhalisi 603,6 min nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Cibutididir. – 274.

**139. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min $km^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 275.

**140. Mesiç Stepan** (d.1934) – hüquqşünas. 2000–2008-ci illərdə Xorvatiya Respublikasının prezidenti. – 275.

**141. Sloveniya,** S l o v e n i y a R e s p u b l i k a s ı – Mərkəzi Cənubi Avropada dövlət. Sahəsi 20,3 min $km^2$, əhalisi 1,96 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyandır. – 276.

**142. Mozambik,** M o z a m b i k R e s p u b l i k a s ı – Cənub–Şərqi Afrikada dövlət. Sahəsi 802 min $km^2$, əhalisi 17,9 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Respublika Assambleyasıdır. Paytaxtı Maruti. – 277.

**143. Tbilisi** (1936-cı ilə qədər Tiflis) – G ü r c ü s t a n R e s p u b l i k a s ı n ı n p a y t a x t ı – Arxeoloji məlumatlara görə şəhərin ərazisi e.ə. 4–3-cü minilliklərdə məskunlaşmışdır. İlk dəfə səlnamədə şəhər–qala kimi eramızın IV əsrində xatırlanır. VI əsrdə Kartli çarlığının paytaxtı idi. Şəhər XIV əsrdə Teymurun, XV–IVII əsrlərdə Osmanlı və Səfəvi, I Şah Abbasın hakimiyyəti altında olmuşdur. 1801-ci ildən isə Rusiyanın tərkibində olmuşdur. – 278–305.

**144. Mirzə Şəfi Vazeh** (1812–1878) – Azərbaycan şairi, mütəfəkkir, maarifçi. Əlyazması halında olan seir məcmuəsini F.Bodenştedtə hədiyyə vermişdir. Almaniyaya qayıdan Bodenşted həmin şeirləri almancaya çevirəcək, «Şərqdə min bir gün», «Mirzə Şəfinin şərqiləri» kitablarında nəşr etdirmişdir. Vazehin şeirlərinin Avropada şöhrət qazandığını görən Bodenşted 1875-ci ildə özünü onların müəllifi elan etmişdir. Əbədi irsinin cüzi hissəsi bizə çatmışdır. – 294.

**145. Mirzə Fətəli Axundov** (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist – filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850–55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 294.

**146. Həsən bəy Ağayev,** H ə s ə n b ə y M ə ş ə d i H ü- s e y n o ğ l u (1875–1920) – görkəmli ictimai-siyasi xadim. Azərbaycan xalq Cümhuriyyətinin banilərindən və rəhbərlərindən biri. 1901-ci ildə Moskva Universitetinin tibb fakültəsini bitirdikdən sonra Gəncədə həkimlik fəaliyyəti ilə yanaşı, qəzet və jurnallarda məqalələr dərc etdirir. 1914-cü ilin sonlarında Xudadat bəy Rəfibəyli ilə birlikdə Güncədə ilk səhiyyə cəmiyyəti yaratmışdır. 1917-ci ilin sentyabrında «Müsavat»ın I qurultayında partiyanın MK-sının üzvü seçilmişdi. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də H.B.Ağayevin sədrliyi ilə keçən iclasında Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsini ilk olaraq H.B.Ağayev imzalamışdır. – 294.

**147. Fətəli Xan Xoyski (**1875–1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918–20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, Daxili İşlər, Ədliyyə və Xarici İşlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 294.

**148. Marneuli** bax: Borçalı

**149. Borçalı** – tarixi mahal. Gürcüstan Respublikasında yerləşir. Borçalıya erkən orta əsrlərdə türkdilli tayfalar, XVI–XVII əsrlərdə isə kütləvi surətdə azərbaycanlılar köçmüşdü. Borçalı mahalı Azərbaycan, bəzən də gürcü feodallarının vassallığına çevrilsə də çox zaman müstəqilliyini saxlaya bilmişdi. Borçalı mahalını 1736-cı ildə İran şahı Nadir Qazax mahalı ilə birlikdə Gəncə bəylərbəyliyindən alıb Kartli-Kaxeti çarının tabeliyinə verdi.

Azərbaycanlılar yaşayan ərazilər arasında Rusiya ilk dəfə Borçalı sultanlığını (1801) işgal etmişdir. XIX əsrin ortalarında Borçalı mahalı qəzaya çevrildi. Qəza isə 1929-cu ildə ləğv edilib üç rayona bölündü. Borçalı rayonu 1950-ci ildən Marneuli adlanır. – 296,309.

**150. Elçin Quliyev,** E l ç i n İ s a ğ a o ğ l u (d.1967) – hüquqşünas, general-leytenant. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif olunmuşdur. – 303.

**151. Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2202 $km^2$, əhalisi 113,3 min nəfərdir. – 306–310,324.

**152. Səməd Vurğun,** S ə m ə d Y u s i f o ğ l u V ə k i- l o v (1906-1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 306,307.

**153. Şəmkir rayonu** (1930–91-ci illərdə Şamxor rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Kiçik Qafqazın şimal-şərq yamacında, Gəncə–Qazax düzənliyində və Acınohur öndağlığında yerləşir. Sahəsi 1656,8 $km^2$, əhalisi 183,5 min nəfərdir. – 317–319, 324.

**154. Gəncə** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336-323) salındığını qeyd etmişlər. – 320–330.

**155. İmamzadə piri,** İ m a m z a d ə t u r b ə s i, G ö y i m a m – orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bağırın oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general - mayor İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 m, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir («Göy imam» adı da bununla əlaqədardır). –320.

**156. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 320.

**157. Cahangir Əsgərov,** C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 322.

**158. Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min $km^2$, əhalisi 1492 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 334–335.

**159. Toni Heyvord** (d.1957) – 1982-ci ildən BP-də geoloq kimi işə başlamışdır. 2000–2002-ci illərdə BP-nin xəzinədarı, 2002–2007-ci illərdə BP-nin vitse-prezidenti və geoloji kəşfiyyat və hasilat üzrə Baş direktoru omuşdur. 2007-ci ildən BP-yə başçılıq edir. – 336–337.

**160. Yevgeni Maksimoviç Primakov** (d.1929) – Rusiyanın siyasi və dövlət xadimi, diplomat. REA-nın akademiki. 1990-cı illərdə Rusiya Federasiyasının Xarici İşlər naziri, Nazirlər Sovetinin sədri vəzifələrində çalışmışdır. Hazırda Rusiya Federasiyası Ticarət-Sənaye Palatasının prezidentidir. – 338–339.

## Şəxsi adlar göstəricisi


**Abdulla II** – 132
**Abdulla Saleh** – 84
**Abdullah Gül** – 143
**Adzeylo Çampi** – 179
**Ağayev Həsən bəy** –294
**Axundov M.F.** – 294
**Aleksenko Boris** – 211
**Anderson Ann** – 144
**Anri** – 272
**Arroya Qloriya** – 210
**Atatürk MK** – 187
**Aslanov Fuad** – 65
**Ayxan Orxan** – 66
**Beatriks** – 12
**Biyya Pol** – 83
**Bleyr Toni** – 198,209
**Bryus Malkolm** – 116
**Bundevik Kuel Maqne** – 129
**Burdo Florans** – 60
**Buş Corc** – 196,245
**Cavad xan** – 321
**Çiaberişvili Zurab** – 298
**Çissano Joakim** – 277
**Çrvenkovski Branko** – 64
**Çoudri Ənvər** – 65
**De Hoop Sxeffer Yaap** – 155-158
**De Palasio Loyola** – 142-143
**De Baynts Jak** – 134
De Vriz Antonius – 134
**Drnovşek Yanez** – 276
**Eyvazov Əsgər** – 65
**Eyvazov Məmməd** – 65
**Əliyev Ceyhun** – 65
**Əfəndiyev Mirhəmzə** – 134
**Ələkbərov Vüqar** – 65
**Ələsgərov Murtuz** – 76-82
**Əli Abdulla Saleh** – 84
**Əliyev Fuad** – 321
**Əliyev Heydər** –67–75,76–82,92,93,94,95,96, 99,101,102,103,104,106,107, 109,110,111,112,113,114,120, 121,122,123,124,125,126,127, 141,159,181,182,187,190,191, 192,193,195,202,203,204,216, 225,226,227,235,236,237,240–242,246–251,253,257,258,259, 260,261,264,265,290,295,298–299,301,309,313–314,315,316, 317,323,324,325,326,328,336, 337,338.
**Əliyev Tələt** – 211,238
**Əliyeva Mehriban** – 91,97,105,113,211,228,229, 242,278,306,311, 319,320,322
**Əliyeva Zərifə** – 114,230–232
**Ərdoğan RT** – 201
**Əsgərov Cahangir** – 322
**Əzizov Eldar** – 321,323
**Fəhd Bin Əbdüləziz** – 205
**Fişer Haynts** – 15
**Fridrix Engels** – 222

**Fucivora Toşiyuki** – 252
**Gəncəvi Nizami** – 320
**Gül Abdullah** – 143
**Gülər Hilmi** – 201-202
**Habrekke Oyvind** – 200
**Hacıyev Xanlar** – 58
**Haller Bruno** – 27-29
**Halonen** – 28
**Harald V** – 128
**Heyvord Toni** – 336-337
**Hüseynov Rövşən** – 65
**Xairov Ruslan** – 65
**Xatəmi Məhəmməd** – 116,189,331,332
**Xoyski Fətəli xan** – 294
**İmranov Şahin** – 65
**İsmayıl Ömər Qulleh** – 274
**İsmayılov Əli** – 65
**Jeçev Emil** – 65
**Karl Marks** – 222
**Katsava Moşe** – 10
**Kazımov Vaqif** – 65
**Kemulariya Kote** – 284
**Kirçner Nestor** – 131
**Köçəryan Robert** – 21-22
**Kölcr Horst** – 176
**Krasnevski Aleksandr** –13,17
**Küçma Leonid** –51,211,212-222,226–228, 231,234,239,240,241, 242,243
**Küçma Lyudmila** – 211,228
**Qaşparoviç İvan** – 14
**Qılınc Ərcümənt** – 266– 269
**Qrimsson Olavir** – 271
**Qrişşenko Konstantin** – 211
**Quliyev Elçin** – 303
Qustav Karl XVI – 178
**Li Maykl** – 144
**Litvin Vladimir** – 229
**Makeldan Nensi** – 270
**Malar Kristian** – 60
**Mbeki Tabo** – 11
**Mehdiyev Aqşin** – 26
**Mesic Stepan** – 275
**Məhəmməd əs-Sabah** – 143
**Məhəmmədov Ağası** – 65
**Məmmədov Arif** – 134,144
**Məmmədov Namiq** – 321
**Mənn Stiven** – 196–197
**Miroşniçenko Leonid** – 5–6
**Naxçıvani Əcəmi** – 59
**Novruzov İsaq** – 203–204
**Omelçenko Aleksandr** – 211
Peno –26
**Persson Yoran** – 177
**Pirverdiyev Etibar** – 109
**Primakov Yevgeni** – 338-339
**Prodi Romano** – 135-143
**Putin Vladimir** – 207,338
**Reyqan Ronald** – 270
**Rulofs Sandra** – 278
**Rummo Raul –Eerik** – 334-335

**Saakaşvili Mixail** –82,133,203,204,220,278, 279–289,298–299,300–302, 303,305
**Sampayyu Jorji** – 206
**Seyidov Səməd** – 26
Sezər Ə.N. – 201
**Səməd Vurğun** –306,307
**Smirnov Vitali** – 5–6,7–9
**Solana Havyer** – 144–148
**Steran Mesic** – 275
**Şevardnadze Eduard** – 203,290
**Şevçenko Taras** – 229
**Şider Piter** – 27–29,59
**Şirak Jak** – 60
**Şüstəri Məhəmmədismayıl** – 331– 333
**Şvimmer Valter** – 27–30,59
**Tağıyev Cavid** – 65
**Tigipko Sergey** – 223
**Topaloğlu Müəmmər** – 26
**Uilson Brayn** – 198-199
**Usubov Ramil** – 110
**Vaqif Səmədoğlu** – 244
**Vazeh M.Ş.** – 294
**Verhoden Günter** – 141
**Verhofstadt Gi** – 143
**Yanukoviç Viktor** – 154,211,223,242
**Yunker Jan Klod** – 273
**Yelizaveta II** – 208
**Talıbov Vasif** – 91,103,110,113,126

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Acarıstan** | – 171 |
| **Afina** | – 8 |
| **Ağstafa** | – 311-314,317,324 |
| **Almaniya** | –176 |
| **Amerika Birləşmiş Ştatları** | –21,42,45,50,51,60,61,173, 174,196–197,245, 266–269, 270 |
| **Aralıq dənizi** | – 162 |
| **Argentina** | – 131 |
| **Avropa** | – 8,17,25,27,37,38,39,55,60, 62,79,140,142,143,146,148, 150,151,152,153,154,159,160,162,163,164,170,172,173,195, 201,212,215,286,289,334 |
| **Avstriya** | – 15 |
| **Bakı** | – 7,10,11,12,13,14,15,64,83, 84,86,93,96,112,113,128,129, 130,131,132,133,144,154,157,165,166,176,177,178,179,188,205,206,207,208,209,210,244,245,252,271,272,273,274,275,276,277,299,311,338 |
| **Balakən** | – 285 |
| **Batumi** | – 285 |
| **Belarus** | – 55,220,237 |
| **Belçika** | – 134–175 |
| **Bolqarıstan** | – 43 |
| **Borçalı** | – 296,309 |
| **Böyük Britaniya** | –24,46,60,193,198–199,208, 209,336–337 |
| **Brüssel** | – 134–175 |
| **Budapeşt** | – 54 |
| **Ceyhan** | – 194 |
| **Cənubi Afrika Respublikası** | – 11 |
| **Cənubi Qafqaz** | –23–25,43,136,137,138,141, 144,146, 163,164,288 |
| **Cənubi Osetiya** | – 288 |
| **Cibuti** | – 274 |
| **Çin** | – 285 |
| **Dağlıq Qarabağ** | –21,36,37,41,44,47,50,53,54, 60,70,114,123,135,136,138, 139,141,145,147,148,149,150,157,161,162,166,167,168,169,174, 175,181,183,194,197,213, 217, 218,225,234,235,237,250, 254,255,264,267,269,308,327,329 |
| **Estoniya** | – 334– 335 |
| **Filippin** | – 210 |
| **Finlandiya** | – 28,45 |
| **Fransa** | – 21,40,42,60–63,170,174,261, 322 |
| **Gəncə** | – 320–330 |
| **Gürcüstan** | – 37,60,72,73,82,118,133,150, 170,171,172,203–204,220, 278–305,314,324 |
| **Xəzər dənizi** | – 33,115,142,162,171,173,192, 196,220 |
| **Xorvatiya** | – 275 |
| **İordaniya** | – 132 |
| **İraq** | – 72,149,215 |
| **İran** | –60,63,75,108,109,115,116, 331–333 |
| **İrpen** | – 2330–232 |
| **İsrail** | – 10 |
| **İslandiya** | – 271 |
| **İspaniya** | – 72 |
| **İsveç** | – 177,178 |
| **İsveçrə** | – 42 |
| **İtaliya** | – 179 |
| **İstanbul** | – 117 |
| **Kamerun** | – 83 |

**Kipr** – 168
**Kiyev** – 211–243
**Krım** – 55
**Qax** –311
**Qazax** – 303,306–310,317,324
**Qara dəniz** – 221
**Qazaxıstan** – 55,192,220
**Lüksemburq** – 272,273
**Makedoniya** – 64
**Marneuli** – 300–302
**Marsel** – 150
**Mərkəzi Avropa** – 23,32
**Mingəçevir** – 252–265,268
**Moldova** – 237
**Moskva** – 87,112,120
**Mozambik** – 277
**Naxçıvan** – 85,86,91–127
**Naxçıvan M.R.** – 85,91– 127
**Niderland** – 11
**Norveç** – 128,129,200
**Novorossiysk** – 55
**Orta Asiya** – 286
**Polşa** – 13,16–25
**Portuqaliya** – 206
**Rusiya** –5–6,7–9,21,37,40,55,56,57, 60, 61,69,115,150,173,174, 192,207,220,321,338–339
**Rumıniya** – 285
**San–Fransisko** – 150
**Səudiyyə Ərəbistanı** – 205
**Slovakiya** – 14
**Strasburq** – 26– 63
**Sloveniya** – 276
**Şəki** – 311
**Şəmkir** – 317–319,324
**Şərqi Avropa** – 23,94,326
**Şuşa** – 81
**Tbilisi** – 278–305
**Tovuz** – 315-316,317,324
**Türkiyə** – 44,60,66,73,74,108,142,147, 149,162,171,186–188,194, 195,201–202,266–269,285,286
**Ukrayna** – 51,55,154,212–243
**Varşava** – 16–25,55
**Yalta** – 220
**Yaponiya** – 252
**Yevlax (şəhər)** – 246–251
**Yəmən** – 84
**Yunanıstan** – 44,142,148
**Zaqatala** – 311

## MÜNDƏRİCAT


**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN ALİ MÜKAFATINA LAYİQ GÖRÜLMƏSİ**
**19 aprel 2004-cü il**

**BAKIDA «ABU ARENA» İDMAN KOMPLEKSİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**19 aprel 2004-cü il**

**İSRAİL DÖVLƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MOŞE KATSAVA**
**21 aprel 2004-cü il**

**CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKİYƏ**
**21 aprel 2004-cü il**

**NİDERLANDIN KRALİÇASI ÜLYAHƏZRƏT BEATRİKSƏ**
**21 aprel 2004-cü il**

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**
**23 aprel 2004-cü il**

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ**
**24 aprel 2004-cü il**

**AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTS FİŞERƏ**
**26 aprel 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VARŞAVAYA SƏFƏRİ**
**27 aprel 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN POLŞA PREZİDENTİ ALEKSANDR KVASNEVSKİ İLƏ GÖRÜŞÜ**
**27 aprel 2004-cü il**

**AVROPA İQTİSADİ SAMMİTİNDƏ NİTQ**
**28 aprel 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYAN İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**
**28 aprel 2004-cü il**

**CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİ PREZİDENTLƏRİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ İŞGÜZAR NAHARDA NİTQ**
**28 aprel 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV STRASBURQDA**
**28 aprel 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AŞ PA-nın SƏDRİ PİTER ŞİDER İLƏ GÖRÜŞÜ**
**29 aprel 2004-cü il**

**AVROPA ŞURASININ BAŞ KATİBİ VALTER ŞVİMMER İLƏ GÖRÜŞ**
**29 aprel 2004-cü il**

**AŞPA-nın YAZ SESSİYASININ İCLASINDA NİTQ**
**29 aprel 2004-cü il**

**AVROPA ŞURASININ İQAMƏTGAHINDA – AVROPA SARAYINDA MƏTBUAT KONFRANSI**
**29 aprel 2004-cü il**

**AVROPA ŞURASININ İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN SƏDRİ İLƏ GÖRÜŞ**
**29 aprel 2004-cü il**

**AVROPA ŞURASININ İQAMƏTGAHINDA – AVROPA SARAYINDA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ ZİYAFƏT**
**29 aprel 2004-cü il**

**FRANSANIN «ARABİ» JURNALINA MÜSAHİBƏ**

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BRANKO ÇRVENKOVSKİYƏ**
**30 aprel 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BEYNƏLXALQ HƏVƏSKAR BOKS ASSOSİASİYASININ PREZİDENTİ, PROFESSOR ƏNVƏR ÇOUDRİNİN ŞƏRƏFİNƏ KEÇİRİLMİŞ BOKS ÜZRƏ LİSENZİYA TURNİRİNİN YARIMFİNAL GÖRÜŞLƏRİNDƏ İŞTİRAKI**
**1 may 2004-cü il**

**HEYDƏR ƏLİYEV ADINA BAKI NEFT EMALI ZAVODUNDA ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**5 may 2004-cü il**

**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN BİNASINDA ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**7 may 2004-cü il**

**KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYYAYA**
**10 may 2004-cü il**

**YƏMƏN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏLİ ABDULLA SALEHƏ**
**10 may 2004-cü il**

**«HEYDƏR ƏLİYEV FONDU»nun TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**10 may 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVANA SƏFƏRİ**
**12 may 2004-cü il**

**NAXÇIVAN BEYNƏLXALQ HAVA LİMANININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**12 may 2004-cü il**

**"N" HƏRBİ HİSSƏSİNDƏ YENİ KORPUSUN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**12 may 2004-cü il**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI NAXÇIVAN BÖLMƏSİNİN YENİ KORPUSUNUN TƏNTƏNƏLİ AÇILIŞINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ**
**12 may 2004-cü il**

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ KEÇİRİLƏN MÜŞAVİRƏDƏ NİTQ**
**13 may 2004-cü il**

**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 80 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ**
**14 may 2004-cü il**

**NORVEÇİN KRALI ƏLAHƏZRƏT V HARALDA NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB KYEL MAQNE BUNDEVİKƏ VI ƏNƏNƏVİ BEYNƏLXALQ «ŞƏRQ–QƏRB» BAKI KİNOFESTİVALINA**
**15 may 2004-cü il**

**ARGENTİNA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NESTOR KİRÇNERƏ**
**17 may 2004-cü il**

**İORDANİYANIN MƏLİKİ ƏLAHƏZRƏT II ABDULLAYA**
**17 may 2004-cü il**

**GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİXAİL SAAKAŞVİLİYƏ**
**17 may 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELÇİKA KRALLIĞINA İŞGÜZAR SƏFƏRİ AVROPA KOMİSSİYASININ SƏDRİ ROMANO PRODİ İLƏ GÖRÜŞ**
**18 may 2004-cü il**

**GÖRÜŞDƏN SONRA MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BRİFİNQ**
**18 may 2004-cü il**

**AVROPA KOMİSSİYASININ GENİŞLƏNMƏ ÜZRƏ ÜZVÜ GÜNTER VERHOGEN İLƏ GÖRÜŞ**
**18 may 2004-cü il**

**AVROPA KOMİSSİYASI SƏDRİNİN MÜAVİNİ LOYOLA DE PALASİO İLƏ GÖRÜŞ**
**18 may 2004-cü il**

**AVROPA BİRLİYİ ŞURASININ BAŞ KATİBİ HAVYER SOLANA İLƏ GÖRÜŞ**
**18 may 2004-cü il**

**GÖRÜŞDƏN SONRA MƏTBUAT NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BRİFİNQ «EURONEVS» TELEKANALINA MÜSAHİBƏ**
**18 may 2004-cü il**

**BRÜSSELDƏ, DÜNYA GÖMRÜK TƏŞKİLATININ (DGT) İQAMƏTGAHI QARŞISINDA «DƏDƏ QORQUD» ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
**18 may 2004-cü il**

**NATO-nun BAŞ KATİBİ YAAP DE HOOP SXEFFER İLƏ GÖRÜŞ**
**19 may 2004-cü il**

**AVROPA SİYASİ MƏRKƏZİNİN TƏŞKİL ETDİYİ SİYASİ BRİFİNQDƏ – «AVROPA BİRLİYİ VƏ AZƏRBAYCAN – TƏRƏFDAŞLIQ ÜÇÜN YENİ ÜSULLAR» MÖVZUSUNDA KEÇİRİLƏN DİSKUSSİYADA NİTQ**
**19 may 2004-cü il**

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ**
**24 may 2004-cü il**

**İSVEÇ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YORAN PERSSONA**
**24 may 2004-cü il**

**İSVEÇİN KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA**
**24 may 2004-cü il**

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLO ADZELYO ÇAMPİYƏ**
**24 may 2004-cü il**

**28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
**27 may 2004-cü il**

**TÜRKİYƏ–AZƏRBAYCAN DƏRNƏKLƏRİ FEDERASİYASININ TƏSİS KONFRANSININ İŞTİRAKÇILARINA**
**27 may 2004-cü il**

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**
**29 may 2004-cü il**

**«XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI – 2004» XI BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**1 iyun 2004-cü il**

**ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XƏZƏR HÖVZƏSİNİN ENERJİ EHTİYATLARI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR STİVEN MƏNN İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**1 iyun 2004-cü il**

**BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN BİZNES İMKANLARININ İNKİŞAFI ÜZRƏ XÜSUSİ TƏMSİLÇİSİ BRAYN UİLSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**1 iyun 2004-cü il**

**NORVEÇİN NEFT VƏ ENERGETİKA ÜZRƏ DÖVLƏT KATİBİ OYVİND HABREKKENİN BAŞÇILIĞI İLƏ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**1 iyun 2004-cü il**

**TÜRKİYƏNİN TƏBİİ EHTİYATLAR NAZİRİ HİLMİ GÜLƏR VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**1 iyun 2004-cü il**

**GÜRCÜSTANIN YANACAQ VƏ ENERGETİKA NAZİRİNİN MÜAVİNİ İSAQ NOVRUZOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**1 iyun 2004-cü il**

**İKİ MÜQƏDDƏS OCAĞIN XADİMİ, SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT FƏHD BİN ƏBDÜLƏZİZ AL SƏUDA**
**1 iyun 2004-cü il**

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JORJİ SAM-PAYYUYA**
**2 iyun 2004-ci il**

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**
**2 iyun 2004-ci il**

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYANIN KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZA-VETAYA**
**2 iyun 2004-ci il**

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB TONİ BLEYRƏ**
**2 iyun 2004-ci il**

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM QLORİYA MAKAPA-QAL ARROYOYA**
**2 iyun 2004-ci il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN UKRAYNAYA DÖVLƏT SƏFƏRİ**
**3 iyun 2004-cü il**

**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞ**
**3 iyun 2004-cü il**

**SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİNDƏN SONRA PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT LEONİD KUÇMANIN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
**3 iyun 2004-cü il**

**UKRAYNANIN BAŞ NAZİRİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ**
**3 iyun 2004-cü il**

**UKRAYNA DÖVLƏT TELEVİZİYASINA MÜSAHİBƏ**
**3 iyun 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ UKRAYNA PREZİDENTİ LE-ONİD KUÇMANIN ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
**3 iyun 2004-cü il**

**UKRAYNA ALİ RADASININ SƏDRİ VLADİMİR LİTVİN İLƏ GÖRÜŞ**
**4 iyun 2004-cü il**

**AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**4 iyun 2004-cü il**

**AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
**4 iyun 2004-cü il**

**AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**4 iyun 2004-cü il**

**XALQ ŞAİRİ VAQİF SƏMƏDOĞLUNA**
**5 iyun 2004-cü il**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA**
**7 iyun 2004-ci il**

**YEVLAX ŞƏHƏRİNDƏ AZƏRBAYCANIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN ADINI DAŞIYAN MƏRKƏZİ MEYDANIN VƏ PROSPEKTİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**8 iyun 2004-cü il**

**MİNGƏÇEVİRDƏ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ QƏSƏBƏNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**8 iyun 2004-cü il**

**MİNGƏÇEVİR ŞƏHƏR İCRA HAKİMİYYƏTİNDƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ**
**8 iyun 2004-cü il**

**AMERİKA–TÜRK ASSOSİASİYALARI ASSAMBLEYASININ PREZİDENTİ ƏRCÜMƏNT QILINCIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**9 iyun 2004-cü il**

**ABŞ-ın 40-cı PREZİDENTİ RONALD REYQANIN VƏFATI İLƏ ƏLAQƏDAR BU ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ QOYULMUŞ MATƏM KİTABINA YAZDIĞI BAŞSAĞLIĞI SÖZLƏRİ**
**9 iyun 2004-cü il**

**İSLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLAVUR RAQNAR QRİMSSONA**
**9 may 2004-cü il**

**LÜKSEMBURQUN BÖYÜK HERSOQU ƏLAHƏZRƏT ANRİYƏ**
**9 may 2004-cü il**

**LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB JAN-KLOD YUNKERƏ**
**9 may 2004-cü il**

**CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSMAİL ÖMƏR QULLEHƏ**
**9 may 2004-cü il**

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STEPAN MESİÇƏ**
**9 may 2004-cü il**

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANEZ DRNOVŞEKƏ**
**9 may 2004-cü il**

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOAKİM ALBERTU ÇİSSANOYA**
**9 may 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA DÖVLƏT SƏFƏRİ**
**14 iyun 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞÜ**
**14 iyun 2004-cü il**

**SƏNƏDLƏRİN İMZALANMA MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN VƏ GÜRCÜSTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
**14 iyun 2004-cü il**

**GÜRCÜSTANIN SABİQ PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ GÖRÜŞÜ**
**14 iyun 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMININ ŞƏRƏFİNƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN VƏ XANIMININ ADINDAN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ**
**14 iyun 2004-cü il**

**AZƏRBAYCANIN GÖRKƏMLİ SİYASİ VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNİN MƏZARLARININ ZİYARƏTİ**
**15 iyun 2004-cü il**

**TBİLİSİDƏKİ CÜMƏ MƏSCİDİNDƏ ÇIXIŞ**
**15 iyun 2004-cü il**

**TBİLİSİDƏ HEYDƏR ƏLİYEV ADINA PARKIN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
**15 iyun 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN PREZİDENTİ MİXAİL SAAKAŞVİLİNİN MARNEULİ RAYONUNDA YAŞAYAN AZƏRBAYCANLILARLA GÖRÜŞÜ**
**15 iyun 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA SƏFƏRİ BAŞA ÇATDI**
**15 iyun 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXDA**
**15 iyun 2004-cü il**

**QAZAX ŞƏHƏRİNDƏKİ HEYDƏR PARKINDA ŞƏHƏR SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
**15 iyun 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AĞSTAFADA**
**15 iyun 2004-cü il**

**AĞSTAFA ŞƏHƏRİNDƏKİ HEYDƏR PARKINDA ŞƏHƏR SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
**15 iyun 2004-cü il**

**TOVUZ ŞƏHƏR PARKINDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
**15 iyun 2004-cü il**

**ŞƏMKİR ŞƏHƏR STADİONUNDA RAYON SAKİNLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
**15 iyun 2004-cü il**

**AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV GƏNCƏDƏ**
**16 iyun 2004-cü il**

**GƏNCƏDƏKİ «N» HƏRBİ HİSSƏSİNİN ŞƏXSİ HEYƏTİ İLƏ GÖRÜŞDƏ NİTQ**
**16 iyun 2004-cü il**

**İRAN İSLAM RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ MƏHƏMMƏDİSMAYIL ŞÜŞTƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**17 iyun 2004-cü il**

**ƏHALİ MƏSKUNLUĞU MƏSƏLƏLƏRİ NAZİRİ PAUL-EERİK RUMMO BAŞDA OLMAQLA ESTONİYA RESPUBİLKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**17 iyun 2004-cü il**

**BÖYÜK BRİTANİYANIN BP QRUPUNUN DİREKTORU, KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ VİTSE-PREZİDENTİ TONİ HEYVORD İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**17 iyun 2004-cü il**

**RUSİYA TİCARƏT-SƏNAYE PALATASININ PREZİDENTİ YEVGENİ PRİMAKOV BAŞDA OLMAQLA RUSİYA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**18 iyun 2004-cü il**

**Q E Y D L Ə R**

**ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ**

**COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ**

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25. Uçot vərəqi 25,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.